
SON SÖZ
Gunduz Aghayev

SON SÖZ
Gunduz Aghayev

Naşir: **Ruslan İzzətli, D18 Hərəkatının başqanı**
Redaktor: **Şəmşad Ağa**
Korrektor: **Aygün Aslanlı**
Dizayn: **Orxan Şahtürk**
Üz qabığının müəllifi: **Gündüz Ağayev**

Kitab son on ildə həbs olunmuş siyasi məhbusların "Son sözlərini" və onlar haqqında qısa məlumatları əhatə edir.

© **D18 Hərəkatı**

# ÖN SÖZ

Biz 1918-ci ildə Şərqdə ilk Demokratik Cümhuriyyəti, Parlamentar sistemi quran, milli azlıqların parlamentdə təmsil olunmasını təmin edən, qadına seçki hüququ tanıyan, hər kəsin azad və bərabər şəkildə yaşamasına şərait yaradan xalqın nümayəndələri, məhz həmin dövləti "yoxdan yaradan" qurucu babaların övladlarıyıq. Lakin 100 il öncəki şanlı tariximizlə bu günümüzü müqayisə etsək, ölkə və millət olaraq inkişaf etmək əvəzinə, daha acınacaqlı duruma düşdüyümüzü aydın görərik. Təəssüf ki, bu gün sərbəst toplaşma, ifadə azadlığının, mülkiyyət və azad seçki hüququnun tapdandığı bir ölkədə yaşayırıq.

D18 Hərəkatı 1918-ci ildə qurulan dövlətimizi örnək götürərək Azərbaycanda Cümhuriyyət dəyərlərinin bərpası uğrunda mübarizə aparır.

2013-cü ildə yaranan və avtoritar sistemə qarşı kəskin mövqeyini hər zaman ortaya qoyan Hərəkatımızın əsas tələbləri bunlardır: azad, demokratik, hüquqi dövlət, hakimiyyətin bölgü prinsipinin təmin olunması, müstəqil məhkəmə, güclü ordu, azad iqtisadiyyat, yüksək təhsil.

Biz yeni nəsil olaraq ölkəmizdə Cümhuriyyət dəyərlərinin bərpasına inanır və bu yöndə mübarizə aparan hər kəsə dəstək olmağa çalışırıq. Bu gün ölkəmizdə 100-dən çox siyasi məhbus var. Həmin siyasi məhbus siyahısına baxdıqda siyasətçiləri, inanclı şəxsləri, jurnalist və blogerləri, gəncləri görmək olur. Bu da səbəbsiz deyil, çünki ölkədə mövcud olan siyasi sistem və avtoritar hakimiyyət ideoloji, si-

yasi baxışından asılı olmayaraq onu tənqid edən, fərqli fikir söyləyən hər kəsi cəzalandırır. Yüzlərlə insan günahsız olaraq həbs edilib, bir çoxları ölkədən didərgin salınıb. Artıq Azərbaycanın çağdaş siyasi tarix və ədəbiyyatının önəmli hissəsi "Kürdəxanı" həbsxanasında yazılır. Bu, ağır şərtlər altında təkcə dəyanəti və direnişi ilə deyil, həm də sözü və qələmi ilə çağdaş tariximizi yazan siyasi məhbuslarımızın məhkəmədə səsləndirdikləri "Son sözləri"ndən də aydın görünür. Ona görə də D18 Hərəkatı olaraq "həbsxana ədəbiyyatı"na çevrilən və günümüzün reallıqlarına işıq saçan həmin "Son sözlər"i kitab halında nəşr etməyi qərara aldıq. Çünki bunlar çağdaş tariximizin ən ağır səhifələridir.

Düşünürük ki, cümhuriyyətçi babalarımızın 100 il öncə apardığı şərəfli mübarizəni oxuyub qürur duyanlar kimi gələcək nəsillər də bu gün aparılan mübarizə və mübariz insanlar barədə oxumalıdır. Məhz bu məqsədlə çap etdiyimiz bu kitabın maraqla qarşılanacağına inanırıq. Çox təəssüf ki, kitab bütün siyasi məhbusların məhkəmə çıxışlarını əhatə etmir. Səbəb də bir çoxunun məhkəmə çıxışının əlimizdə olmamasıdır. Amma bütövlükdə repressiyaların motivi və mahiyyəti, demək olar ki, bu "Son sözlər"də tam əksini tapıb.

***D18 Hərəkatı olaraq, kitabın ərsəyə gəlməsində dəstək olan hər kəsə sonsuz təşəkkürümüzü bildiririk!***

**Samirə Ağayeva**
**D18 Hərəkatı başqan yardımçısı,**
**hüquq müdafiəçisi**



# Jurnalistlər, blogerlər, yazarlar



## HİLAL MƏMMƏDOVUN MƏHKƏMƏDƏ SON SÖZÜ[1]

Möhtərəm məhkəmə, möhtərəm məhkəmə iştirakçıları!

Nəhayət ki, 9 aydan bəri davam etməkdə olan bu məhkəmə prosesləri yekunlaşmaqdadır.

Ötən iclasda dövlət ittihamçısı məhkəməyə təqdim edilmiş istintaq aktında və sübutların qiymətləndirməsinə dair qərarda əks olunan yalan və uydurmaları demək olar ki, eynən təkrarlayaraq, guya "cinayətimin" sübuta yetirildiyini bildirdi və barəmdə bəzi müsbət və yüngülləşdirici halları nəzərə alıb, məhkəmədən 6 il azadlıqdan məhrum edilməyimi xahiş etdi. Dəfələrlə təkrar etdiyim kimi, heç bir məntiqi, əxlaqi

[1] *"Tolışi Sədo" ("Talışın Səsi") qəzetinin baş redaktoru Hilal Məmmədov 2012-ci il iyunun 21-də Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 234.4.3-cü (qanunsuz narkotik maddənin saxlanması və yayılması) maddəsi ilə həbs edilib.*

*2 həftə sonra 274 (dövlətə xəyanət), 283.2.2-ci (milli və dini ayrı-seçkiliyin salınması) maddələri də əlavə olunuraq, 27 sentyabr 2013-ci il tarixdə Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 5 il müddətinə azadlıqdan məhrum edilib.*

*Prezident İlham Əliyevin 17 mart 2016-cı il tarixli sərəncamına əsasən azadlığa çıxıb.*

*Beynəlxalq təşkilatlar, o cümlədən, BMT, AŞPA, Avropa Birliyi, "Amnesty International" və s. tərəfindən "vicdan məhbusu" kimi tanınıb.*

və hüquqi çərçivəyə sığışmayan bu qondarma cinayət işində nəinki özümü təqsirli bilmir, hətta bunu milli-etnik mənşəcə məxsus olduğum Talış xalqına, o cümlədən Azərbaycanda yaşayan digər qardaş xalqlara və millətlərə, bütövlükdə isə cəmi bəşəriyyətə qarşı yönəldilmiş iyrənc iftira, təhqir və hətta cinayət hesab edirəm. Belə ki, əgər mən, doğrudan da, öz xalqımı digərlərindən üstün tutub və ya onların arasında fitnə-fəsad yaratmağa cəhd göstərsəydim, hər hansı xarici dövlətə, məxsusən də, İran İslam Respublikasına casusluq etsəydim, narkotik alış-satışı ilə məşğul olsaydım, onda elə həbsimin ilk günlərindən müdafiəmə nəinki ölkəmizin cəmi azadfikirli və demokratik düşərgəsi, o cümlədən, milliyətindən, dinindən, təriqətindən, irqindən, sosial baxışlarından və s. asılı olmayaraq, dünyanın minlərlə haqsevər və tərəqqipərvər insanı və qüvvələri qoşulmazdı. Fürsət var ikən bir daha onların hamısına minnətdar olduğumu bəyan edirəm. Şəxsiyyətimə az-çox bələd olan hər kəs, o cümlədən, müdafiəmə qalxmış minlərlə tələbələrim, qohum-tanışlarım, məsləkdaşlarım, soydaşlarım və digərləri yaxşı bilirlər ki, mən ailəmin ruzisini halal yollarla qazanmış, dünya malının zərrə qədər aşiqi olmamış, maddi yardımdan ötrü bir kimsəyə də heç vaxt əl uzatmamışam. İctimai–siyasi fəaliyyətimdə də həmişə şəffaf mövqe tutaraq, hər hansı məxfi dialoqlardan çəkinmişəm. Belə ki, pedaqoji, dini, sosial, itimai-siyasi və i.a. sahələrdəki baxışlarımda və fəaliyyətimdə həmişə ədalət, vicdan, və insaf anlayışlarının tələblərinə, Haqq və ədalət prinsipinə müvafiq mövqe tutmağa çalışmışam. Odur ki, müxalif ya iqtidaryönlü olmalarından asılı olmayaraq, cəmiyyətdə sağlam təfəkkürlü istənilən şəxsin hər hansı müsbət addımını alqışlamış, onlara qarşı yürüdülən hər hansı təqib, təzyiq, həbs və s. haqsız təpkiləri qətiyyətlə pisləmişəm. Xarici siyasətlə bağlı mövqeyimdə isə həmişə ölkələr, xalqlar və vətəndaşlar arasında barışıq, dost və qardaşlıq, sərhədsiz dünya prinsiplərinin ardıcıl və qətiyyətli müdafiəçisi və təbliğatçılarından biri olmuşam. Bir təlim-tərbiyəçi, pedaqoq-alim kimi isə tələbə və gənclərimizi həmişə savadlı, azadfikirli, xeyirxah və cəmiyyətə gərəkli olmağa çağırmışam.





Möhtərəm məhkəmə iştirakçıları, bildiyiniz kimi, mən, həqiqətən də, 1988-90-cü illərdə AXC-də, sonralar isə rəhbərlik etdiyim AXBP (Azərbaycan Xalqlarının Bərabərlik Partiyasının) fəaliyyətində aktivlik göstərmiş və məlum 1993-cü il avqust ayının Lənkəran hadisələrindən sonra siyasi fəaliyyətimi dayandıraraq, bir vaxtlar elmi təhsil aldığım Rusiyaya mühacirət etmişəm. Orada müvəqqəti qeydiyyatla yaşadığım 12 ilin ərzində (1993-2005) həm elmi fəaliyyətimlə, həm də kiçik bizneslə məşğul olub və demək olar ki, heç bir ciddi siyasi proseslərə də qoşulmamışam. Həmin müddət ərzində bircə dəfə də olsa nə ölkəmizin, nə də Rusiyanın hüquq-mühafizə orqanlarının təsirinə ya çağırışına məruz qalmamışam. Əksinə, bir neçə dəfə ölkəmizin rəsmi nümayəndələri ilə, o cümlədən, o vaxtlar Moskvadakı səfirimiz R.Rizayevlə də görüşlərimiz və dialoqlarımız olmuşdur. 2005-ci ilin avqustun axırlarında isə heç bir təqib-təzyiqə məruz qalmadan, Bakıya qayıtmış və hətta həmin günlər Bakı şəhəri, Nizami rayonu 25 saylı 2-ci Seçki Dairəsinə bütün müvafiq rəsmi sənədləri təqdim etməklə AR Milli Məclisinə namizədliyimi irəli sürmüşəm. Yeri gəlmişkən, bu seçkilərlə bağlı hüquqlarım pozulduğundan, MSK-ya qarşı bir neçə məhkəmə proseslərini keçmiş və sonda şikayətimi Avropa məhkəməsinə göndərmişəm. Yalnız bircə dəfə, "Tolışi Sədo"nın əvvəlki redaktoru, prof. Novruzəli Məmmədovun 2007-ci il 3 fevral həbsiylə əlaqədar olaraq onun hüquqlarının müdafiəsinə rəhbərliyi üzərimə götürdükdən sonra, bilavasitə öz təşəbbüsümlə Milli Təhlükəsizlik Nazirliyində şahid qismində dindirilmişəm. Lakin o vaxtlar da bircə kəlmə olsa, nə 20 il öncəki ictimai-siyasi fəaliyyətimlə, nə də

hazırdakı "cinayət" işimdə xatırlanan uydurma ittihamlarla bağlı heç bir ciddi sorğu-suallara məruz qalmışam.

İnanın ki, məni heç Novruzəli müəllimin məhkəməsində şahid qismində dindirmək istəmirdilər. Məhz onda da təkidli xahişim və tələbimlə orada (02.06.2008-ci il tarixində) 2 saata yaxın ifadə verərək, N.Məmmədovun azad edilib, yerində isə özümün həbsini Məhkəmədən rica etmişəm. İnanın ki, orada səsləndirdiyim: "Onsuz da gec-tez bir bəhanə ilə məni də digər talış ziyalı aktivistlərini də həbs edə bilərlər. Odur ki, bu 70 yaşlı ağsaqqal professor alimimizin yerində məni qəfəsə salın", - fikrimdən hətta məhkəmə tərkibi, o cümlədən dövlət ittihamçısı da xeyli riqqətə qəlmişdi. Amma əfsus və min əfsuslar olsun ki, bu kimi sifarişli işlərlə bağlı olaraq, müstəqil qərar qəbul etməkdə xeyli aciz olan məhkəmə-istintaq orqanlarının nümayəndələrinin çiyinlərinə "halımıza acımaq" hisslərindən başqa heç bir digər səlahiyyət də düşmür. İnanın ki, o 2 saatlıq çıxışımdan sonra elə özüm də çox sarsıntılar keçirtdim: axı dünyada yeganə talışşünas alim kimi tanınan, xalqımızın yeganə qəzetinə və mədəniyyət mərkəzinə rəhbərlik edən, Azərbaycan dilçiliyinə əvəzsiz töhfələr verən, AMEA-nın Dilçilik İnstitunun roman-german dilləri sektorunun müdiri, 70 yaşlı ağsaqqal professor-alim, bilavasitə talış məsələsinə görə mühakimə edilirdi. Ən dəhşətlisi isə onun (və hazırda mənim də) üzümə dayandırılan və 6 il azadlıqdan məhrum edilmiş Elman Quliyev elə onun öz tələbəsi olub, bugünəcən də özünün "dövlətə xəyanətinin" mahiyyətini anlaya bilmirdi. Belə ki, əslində bu haqsız həbslər bilavasitə milli azlıqlara qarşı xüsusi xidmət orqanları tərəfindən aparılan "profolaktik" tədbirlərdən başqa bir şey deyildi. Əlbəttə ki, insanların və xalqların taleyi ilə belə oynamaq olmazdı və olmaz da! Əfsus ki, biz Novruzəli müəllimi qoruya bilmədik, - həm



özü, həm də iki gənc oğlu müəmmalı səbəblərdən dünyalarını dəyişdilər. Bu dəhşətli faciələri yaşayan və ağlamaqdan göz yaşları qurumuş 72 yaşlı ana – N.Məmmədovun həyat yoldaşı Məryəm xanım isə həm ölkəsindən, həm taleyindən küsərək vətənini tərk etdi. Dəhşət deyilmi? Görəsən, bu faciədən dərs götürdükmü?

Möhtərəm məhkəmə! Möhtərəm məhkəmə iştirakçıları! Bu dəhşətli olaydan sonra pedaqoji fəaliyyətimlə yanaşı, "Tolışi Sədo" qəzetinə də rəhbərliyi öz çiyinlərimə götürərək, xalqımla yanaşı, digər xalqların, insanların, siyasi və vicdan məhbuslarının da pozulmuş hüquqlarının müdafiəsinə qalxdım. Doğrudur, hüquq-mühafizə orqanlarının çağırışlarına məruz qalmasam da, öz üzərimdə mütəmadi nəzarəti həmişə hiss etmişəm... Bu gözlənilməz dramatik və operativ həbs prosesim isə heç də əvvəlki ictimai-siyasi fəaliyyətimlə bağlı deyil, bilavasitə məlum "Tı kto takoy, davay do svidaniya" adlı videorolikimin Rusiyanın və SNQ dövlətlərinin ictimaiyyəti arasında populyarlaşmasından və bununla əlaqədar olaraq Rusiyanın NTV çəkiliş qrupunun Bakıya və Astara səfərlərindən sonra baş verdi. Xeyli təəssüflə bildirirəm ki, bu rolikimin "Evrovision" müsabiqəsi ilə bağlı məlum müqayisəli ictimaiyyətə məlum fikrim düzgün anlaşılmamış və nəticədə birdən-birə 3 ağır ittihamla üzləşməli olmuşam. Doğrudan da, heç yuxuma gəlməzdi ki, bu rolik bir gün mənə bu qədər baha başa gələcəkdi. Halbuki həmin rolikin yayımlanmasında əsas məqsədlərimdən biri Rusiya, SNQ və digər məmləkətlərin ictimaiyyətinin diqqətini Azərbaycan mədəniyyətinin, o cümlədən onun "meyxana" janrının və Talış xalqının folklorunun, milli-etnik ənənələrinin tanıdılmasına və təbliğinə yönəltmək idi. Hüquqlarımın müdafiəsinə qalxmış minlərlə tanınmış mədəniyyət nümayəndələrindən biri kimi, Rusiyanın məşhur reperi Timatinin "RİA Novosti"dəki ifadələriylə

desək, öz xalqını və ölkəsini cəmi dünyaya bu qədər tanıtdırmış bir şəxsə qarşı belə ədalətsizliyi heç cürə anlaya bilmirəm.

Möhtərəm Məhkəmə, Məhkəmə iştirakçıları! "Narkotiklə" bağlı məhkəmə proseslərindəki sərbəst ifadəm zamanı bildirdiyim kimi, son 20 ilin ərzində ilk dəfə idi ki, Azərbaycanda Talışın folklor gecəsi keçirilir və oraya xalqımızın müxtəlif şair, müğənni, meyxanaçı və s. sənət xadimləri dəvət olunmuşdu. Belə bir tədbir yalnız bircə dəfə, 20 il öncə, 1992-ci ildə Bakıda keçirilib və əfsuslar olsun ki, sonralar nəinki bu kimi folklor gecələrinə izn verilməmiş, hətta 3-4 talışın yığışdıqları yığıncaqlar da dərhal nəzarət altına alınmışdı. Bu son 20 ildə RTMM də nəinki rəsmən qeydiyyata alınmamış, əksinə, hər hansı kiçik tədbirinə də siyasi rəng verilmişdi. Nə vaxtacən Talış xalqına və onun ziyalılarına qarşı bu qədər haqsızlıq davam edəcək?

Ötən məhkəmə prosesində dövlət ittihamçısından bu qondarma "cinayətimin" artıq "sübut" olunduğunu eşitdikdə cəmi müdafiəçilərim kimi özüm də xeyli qəzəbləndim. Axı minlərlə tələbə və gənclərə təlim-tərbiyə vermiş, dini inanclarına görə isə hər hansı haram şeylərdən və dünya malından qaçmış bir alim-pedaqoqa narkotik alış-verişində ittiham etmək hansı hüquq və əxlaq normalarına sığar? Lap elə hüquqi baxımdan desək, ən azından daktiloskopik ekspertizanın keçirilməsi birmənalı olaraq ciblərimə atılmış o nəcisin mənə aid olmadığını sübut edə bilərdi. Axı 4 polis və 2 hal şahidinin də eyni məzmunlu ifadələrində əllərimi boynumun arxasında çarpazlayaraq o əşyaya əl vurmadığımı təsdiqlədilər. Nədən əşyadakı əl izləri yoxlanılmadı? Bu əsas arqumenti yoxlamadan bəs məni tibbi-narkoloji ekspertiza müayinəsinə göndərmək hansı məntiqə və əxlaqa sığışırdı? Bax bu səbəbdən də həmin tibbi müayinədən qətiyyətlə imtina etdim



və bunu öz şərəf və ləyaqətimə sığışdırmadım.

Siz deyin, heç bu narkotik ya separatçılıqla bağlı ittiham "casusluq" ilə bağlı ittihamla bir məntiqi müstəviyə sığışa bilərmi? Görəsən, dünyanın hansı ölkəsində belə analoqsuz cinayət işi baş vermişdir? Yəni həmin dövlətin Xüsusi Xidmət Orqanları öz casusuna həm pul, həm narkotik verir, həm onu həmin ölkənin hakimiyyətinə müxalifət kimi "verbovat"(cəlb) edir, həm öz televiziya verilişlərinə açıq-aşkar müsahibələrə dəvət edir? Məhz buna görə də Rusiya Elmlər Akademiyasının bir sıra akademik – professor alimləri, dini liderləri, o cümlədən Rusiya Provoslav kilsəsinin və müsəlman icmasının rəhbərlərinin də ölkəmizin prezidentinə ünvanladığı və "cinayət" işimə əlavə edilmiş müraciətlərində bu absurd iddialara son qoyulmasını xahiş etmişlər.

Möhtərəm məhkəmə! Mən daha geniş açıqlama verib, bu qondarma 8 tomluq işdə zərrə qədər günahımın olmadığını daha geniş və səhih fakt və dəlillərlə sübut edə bilərdim. Lakin yuxarıda deyilənləri və vəkillərin izahatlarını kifayət hesab edirəm. İndi isə söz sizindir. İnanın ki, əgər Ədaləti bərpa edib, mənə bəraət versəniz, bu 1 il 3 aylıq həbsimə görə məsul olan hər kimsəyə də haqqımı halal edər və onların bağışlanmasını Allahdan diləyərəm. Sonda bu 1 il 3 ayda mənə mənəvi dəstək olan hər kəsə - cəmi vəkillərə, qohum, tanış, dost, məsləkdaş, jurnalist, hüquq müdafiəçiləri, dindarlar, minlərlə tələbə və gənclərə, xarici korpusların nümayəndələrinə və s. bir daha öz dərin minnətdarlığımı bildirir, Allahdan hər birinə xeyir-dua diləyirəm!

Bakı Ağır Cinayətlər Məhkəməsi,
Tarix: 27.09. 2013

# Jurnalistlər, blogerlər, yazarlar



## NİCAT ƏLİYEVİN MƏHKƏMƏDƏ SON SÖZÜ [2]

Mehriban və bağışlayan Allahın adı ilə.

Əvvəla, məhkəmə proseslərində iştirak edən və edə bilməyən yaxınlarımıza, əzizlərimizə, media nümayəndələrinə, vəkillərimə və mənə dəstək verən hər kəsə təşəkkür edirəm.

Vəkillərim mənə qarşı irəli sürülən ittihamın nə qədər qondarma və əsassız olduğunu faktlarla məhkəmə heyətinə və ictimaiyyətə dolğun şəkildə təqdim ediblər.

Düşünürəm ki, kobud şəkildə pozulmuş hüquqlarımdan və ittiham olunduğum maddələrin hər birindən ayrıca danışmağım təkrarçılıq olar.

*[2] Nicat Əliyev azadxeber.az vebsəhifəsinin baş redaktorudur. N.Əliyevin həbsindən öncə saytda hökumətin din siyasətini, "Avroviziya-2012" mahnı yarışmasına həddən artıq maliyyənin ayrılmasını, o cümlədən Bakıda "gey-parad"ın keçirilmə ehtimalını tənqid edən materiallar dərc edilib. Mahnı yarışması ərəfəsində bu materialları, həmçinin ruhanilər Abgül Süleymanov və Taleh Bağırovun çıxışlarını əks etdirən diskləri şəhərin müxtəlif yerlərində yaydıqdan dərhal sonra N.Əliyev və onunla birlikdə daha bir neçə nəfər həbs edilib.*





İttiham aktında qeyd edilir ki, yaşadığım mənzildə 3 ədəd qanunsuz dini ədəbiyyat aşkar olunub. Onlardan biri də guya "Möcüzəsiz möcüzə" kitabıdır. Bir neçə gün bundan qabaq dostlardan biri ilə əlaqə saxladım. Həmin dostumuz mənim üçün kitab aldığını və göndərəcəyini bildirdi. Kitabı "Gənclik" metrostansiyasından alsa da, digər kitab dükanlarında da bu kitaba çox rast gəlib. O kitab hazırda əlimdə saxladığım "Möcüzəsiz möcüzə" kitabıdır (Nicat Əliyev kitabı əlində tutaraq hakim Zeynal Ağayevə və iştirakçılara göstərir). Hətta dostum bilə-bilə satıcıdan soruşub ki, bu kitab qadağan olunmuş dini ədəbiyyat deyil ki? Satıcı isə deyib ki, qadağan olunsaydı, necə sata bilərdik? Daha sonra ona: "Pulunu ver, lap 300 dənəsini gətirim", - deyib. Baxın, bu, həmin kitabdır ki, buna görə mənə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 167.22.1 maddəsi tətbiq edilib. Halbuki hazırda yüksək tirajla çapdan çıxır və satılır. Kitabın içində isə müəllifin adı, şəkli, korrektorlar, redaktor haqqında məlumat və kitabın çap olunduğu ünvana qədər hər şey qeyd edilib. Yaşadığım mənzildə

*N.Əliyev 21 may 2012-ci ildə saxlanılıb. Ona qarşı CM-nin 167.2.2.1 (qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən müvafiq razılıq olmadan dini təyinatlı ədəbiyyatı, əşyaları və dini məzmunlu başqa məlumat materiallarını istehsal etmə, satış və ya yayma məqsədi ilə idxal etmə, satma və ya yayma), 234.1 (qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya prekursorları hazırlama, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma), 281.2 (bir qrup şəxs tərəfindən hakimiyyətin zorla ələ keçirilməsinə, zorla saxlanılmasına və ya Azərbaycan Respublikasının konstitusiya quruluşunun zorla dəyişdirilməsinə və ya ərazi bütövlüyünün parçalanmasına yönələn açıq çağırışlar etmə, habelə bu cür məzmunlu materialları yayma) və 283.2.3-cü (mütəşəkkil dəstə tərəfindən milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınmasına, milli ləyaqətin alçaldılmasına, habelə milli, irqi və ya dini mənsubiyyətindən asılı olaraq vətəndaşların hüquqlarının məhdudlaşdırılmasına və ya üstünlüklərinin müəyyən edilməsinə yönələn hərəkətlər, aşkar surətdə və ya kütləvi informasiya vasitələrindən istifadə olunmaqla törədildikdə) maddələri ilə ittiham irəli sürülüb.*
*Bakı Ağır Cinayətlər Məhkəməsinin 9 dekabr 2013-cü il tarixli hökmü ilə Nicat Əliyev 10 il azadlıqdan məhrumetmə cəzasına məhkum olunub.*
*16 mart 2019-cu il tarixli Prezidentin Əfv Sərəncamına əsasən azadlığa buraxılıb.*

aşkarlanan "Möcüzəsiz möcüzə" kitabı guya "Dini Etiqad Azadlığı haqqında" Qanunun 22-ci maddəsinə zidd olaraq, ölkəyə gətirilib və yayılıb. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) eksperti Nahid Məmmədov rəydə qeyd edir ki, bu kitab qadağan olunmuş dini ədəbiyyatdır. Əvvəla, bu kitabın adı qadağan olunmuş dini ədəbiyyatın siyahısında ola bilməz, çünki bu kitabın içində dindən əsər-əlamət yoxdur. Burada nə dini məsələlər, nə də ki dini mövzular müzakirə olunur. Lap əgər qadağandırsa, niyə satışdadır? Axı qanunla kitabın yayılması qadağan edilir, oxunması deyil. Ona görə də oxumaq mənim hüququmdur. Ekspert rəyində bu kitab "1 ədəd" olaraq göstərilir. Sonra da qeyd olunur ki, guya dini təyinatlıdır və qanunsuz olaraq ölkəyə daxil olub. Axı bu rəyi necə uzlaşdırıblar? Məgər bu kitabı ölkəyə gətirəndə və ya çap edəndə əlimdə tutublar? Çox təəssüf ki, bütün bu suallar cavabsız qalıb. Digər suallara isə Nahid Məmmədov cavab vermir, çünki cavablarını bilmir. Bütün bu sualların cavabı DQİDK keçmiş sədri Hidayət Orucovla getdi. Qeyd edim ki, kitab, broşur və disklərlə bağlı qərəzli rəy DQDİK keçmiş sədri Hidayət Orucovun vaxtında, onun rəhbərliyi altında verilib. Onun islamçılara mövqeyi hamıya məlum idi. Bəlkə də, hazırki sədr Elşad İskəndərovun zamanında bu kitablar, broşurlar və disklər ekspertizadan keçirilsəydi, keçmiş sədrin səhvi təkrarlanmazdı. Çünki biz buna, ən azından, yaxın günlərdə məhkəməsi keçirilən ilahiyyatçı Tale Bağırovla bağlı ekspertiza rəyində şahid olduq. Digər bir məqam isə Məhkəmə Ekspertizası Mərkəzi Təhqiqat obyektinin N-1 ştampı ilə verilmiş rəydə qeyd edilir. Bu rəy jurnalist fəaliyyətimlə bağlı sifarişli həbsimə sübutlardan biridir. Rəydə deyilir: "Azadxəbər" saytının hicabla bağlı hazırladığı videosujetlərin əksəriyyətində hicabın mahiyyəti, onun dində yeri, "Qurani Kərim"də bu barədə olan ayələrdən bəhs edilir və dövlətlə dindarlar arasında baş verən qarşıdurmalar, dinin sıxışdırılması və s.





əksini tapır".

Diqqət etsəniz, görərsiniz ki, bütün həngamələrin bir hissəsi də bu cümlənin üzərində cəmləşib. Əslində, həbsim də bu bir neçə cümlənin üzərində təşkil olunub. Çünki rəhbəri olduğum "Azadxəbər" internet qəzetində hicabla bağlı etirazları, həbsləri, tənqidi yanaşmaları və digər məqamları işıqlandırmışam. Görünür, bu da kimlərinsə evində rahat yatmasına mane olub. Burada bir məsələni xüsusi qeyd etmək istəyirəm: dini cameədə tanınmış şəxslərin həbsindən sonra inanclı insanlara qarşı yazılmamış qanunlar tətbiq olunur. Əgər haqqı izhar edən və bu səbəbdən həbsə məhkum olunmuş şəxsi müdafiə edirsənsə, gec-tez onun yanına getməlisən. Bu, əsasən də, ilahiyyatçı və ruhaniləri müdafiə edənlərə aiddir. Bu ölkədə ruhanini müdafiə etmək "qara siyahı"ya düşmək üçün kifayət edir. Çünki həbs olunmamışdan qabaq mənə də xəbər göndərilib: "Səni də Taleh Bağırovun yanına göndərəcəyik. Ağıllı ol".

İndi deyəcəklərimdən elə anlaşılmasın ki, məni Taleh Bağırova görə həbs ediblər. Sadəcə, bu da bir səbəbdir. Amma əsas səbəblərdəndir. "Ağıllı ol" ismarıcı da ona görə verilirdi ki, Taleh Bağırovun qanunsuz həbsini işıqlandırır, onu müdafiə edirdim. Müdafiə tərəfi olaraq səkkiz ölkənin nüfuzlu insan haqları təşkilatlarına müraciət edərək aktiv olmağa səsləmişdim. Bu da kimlərinsə xoşuna gəlməyib. Amma narahat olanlar artıq rahat ola bilərlər. Demirdilər ki, səni Taleh Bağırovun yanına göndərəcəyik. Göndərdilər, rahat olsunlar. And olsun Allaha ki, minlərlə insanın bəd duası zalımları, onların əmrinə tabe olanları və icra edənləri rahat buraxmayacaq.

Biz terrorçu deyilik ki, bu zülmlərin intiqamını top-tüfənglə alaq.

Bizim ondan da güclü silahımız var. Bu, haqqı deyən dilimiz və dəyərlərimiz uğrunda tərəddüd etmədən verə biləcəyimiz canımız, damarlarımızda axan qanımızdır. Necə ki hicabın və digər milli mənəvi dəyərlərimizin uğrunda azadlığımızı vermişik, yeri gəlsə, canımızı da verərik. Bu, İmam Hüseyn (ə) yoludur. Biz də İmam Hüseynin balalarıyıq. Sadəcə, həbs və ittiham edəndə də kişi kimi etmək lazımdır. Yalandan bər-bəzək vurub don geyindirmək lazım deyil. Başa düşə bilmirəm ki, 20% torpağı işğalda olan, özü də müsəlman bir ölkədə dinimi, Quranımı, millətimin hicabını qorumaq və "gey-parad"a etiraz etmək üçün niyə kimdənsə sifariş və ya dəstək almalıyam. Dəstəyi xalqımdan almışam. Çünki xalq istər hicab qadağasına, istərsə də "gey-parad"ın keçirilməsinə müxalif olub. Hər kəs özünə və öz əməlinə cavabdeh olduğu üçün mən də buradan deyirəm: "Mən "gey-parad"a etiraz edəndə də, hicabı və hicab məhbuslarını, İslam məhbuslarını dəstəkləyəndə də İran-Turan deyil, Ləbbeyk Ya Zəhra (s-ə) demişəm".

Görün, nə qədər gülüncdürlər ki, ittiham olunduğum maddələrin arasında həm "narkotik istifadəçisi", həm də "hakimiyyətin zorla ələ keçirilməsi" var. Narkoman hara, hakimiyyət uğrunda mübarizə hara? Biabırçılıq və "Ginnesin rekordlar kitabı"na düşəcək iddiadır.

Bu iddianın arxasında isə məkrli bir niyyət durur: məni ləkələmək, ictimaiyyətə narkoman kimi təqdim etmək. Bunu edənlər isə heç nə əldə edə bilmədilər, əksinə özlərini ifşa etdilər.

Peyğəmbərin gözəl bir hədisi var. Rəsulullah (s) buyurur: "İslam düşmənləri, eləcə də islamçılarla düşmənçilik edənlər axmaq olarlar".





Məgər bu, axmaqlıq deyil? Məntiqə baxın: Nicat Əliyev həm narkomandır, həm islam təbliğatçısı və həm də jurnalist. Həbs olunan zaman Yasamal Rayon 27-ci Polis Bölməsinin əməliyyatçısı ilə aramızda qısa bir dialoq oldu. Fikirləşirəm ki, görəsən, həmin əməliyyatçı haçansa ona dediyim sözü düşünəndə içindəki vicdan hissi onu narahat edibmi? Mənə deyirdi: "Bura qol çəkməsən, başına oyun açaram, başını partladaram və s".

Mən də deyirdim: "Neynirsən, elə, onsuz da erməniyə əsir düşmüşəm".

Orada da demişəm və indi də deyirəm; bütün bunlara ona görə səbr edirəm ki, hamısı Allahın şahidliyi ilə baş verir. O, hər şeyi görür və unutmur. Bütün bu qondarma ittihamlar kimlərəsə hesabat vermək üçündür? Hesabat verib nə edəcəklər? 10-15 ilimimi alacaqlar əlimdən? Qurban olsun bütün ömrüm Allahıma, dinimə. Amma bütün bu zülmlər yerdə qalmaz. Sinələrinə döyən zalımlar çox da sevinməsinlər ki, 8 il, 10 il iş verdilər. Əvvəldə sevinənlər heç vaxt qalib olmurlar. Allah buyurur ki, sonda mənim qoşunum qalib olacaq. Bu, Allahın vədidir. Mən buradan səslənirəm: İmam Zamanın (ə.f) qeybdə olmasından istifadə edərək bizi tək, kimsəsiz görənlər onu da bilməlidirlər ki, Allahın səbri kimi qəzəbi də var. Ya İslama və islamçılara qarşı bu siyasətə son qoyulmalıdır, ya da Allahın bəlasına hazırlaşsınlar. Peyğəmbər balası Həzrəti Xanım Fatimeyi-Zəhradan gözəl bir hədis var. Bu hədis haqq uğrunda həbs olunaraq zindanlara salınanlara ruhiyyədir: "Bu gün necə istəyirsiniz, elə də edin. Lakin sabah (qiyamət günü) böyük Allah sizinlə bizim aramızda hakimlik edəcək. Onda bizim rəhbərimiz Həzrəti Peyğəmbər (s) olacaq. O zaman batil əhli böyük zəlalətə düçar olacaqdır".

Vəkillərim çıxışlarında mənim üçün bəraət istədilər. Amma zülmləri, haqsızlıqları, işgəncələri, ümumiyyətlə, bütün bu olanları hətta bəraət belə unutdurmur. Yəni hətta bəraət belə qardaşım Talə Bağırovun döyülərək barmaqlarının sındırılmasını, Abgül Süleymanovun 3 körpə balasının gözü qarşısında evindən işgəncə və zorakılıqla həbs olunmasını unutmağıma səbəb sayıla bilməz. Mənim üçün bəraət hicablı şagirdlərin rəsmi şəkildə məktəbə buraxılması, zindanlarda olan islam məhbuslarının, hicab məhbuslarının, vicdan məhbuslarının azadlığa buraxılmasıdır.

Sonda isə son söz olaraq üzümü yaxınlarıma tutmaq istəyirəm: "Əzizlərim, yaxınlarım, mənim üçün dəyərli olan şəxslər, əvvəl gündən mənim yanımda olan, əməldə, dildə və hətta məni qəlbində dəstəkləyənlər, çox sağ olun. Daim Allahın xoş nəzəri üzərinizdən əskik olmasın. Dualarınızda məni də yad edin. Onsuz da haqqın və haqq tərəfdarlarının qoluna qandal vurmaq ənənəsi 1400 il bundan qabaq qoyulub. Bu qandallar Hz.Əlinin (ə) qollarına vurulub. Bu qandallar Kərbəladan Şama əsir aparılan Xanım Zeynəbin (s.ə), Xanım Rüqəyyənin (s.ə) qollarına vurulub. Xoş bu əllərə ki İslam uğrunda bağlanır. Qollarımı bağlayıb, cismimi həbs edə bilərlər. Ruhum isə azaddır. Qollarıma vurulan qandal deyil, azadlığımın qolbağıdır.

Vəssalamu-aleykum və rəhmətullah.

Bakı Ağır Cinayətlər Məhkəməsi,
Tarix: 03.12.2013



## Jurnalistlər, blogerlər, yazarlar



### ƏBDÜL ƏBİLOVUN MƏHKƏMƏDƏ SON SÖZÜ [3]

Möhtərəm hakim, ittiham olunduğum "milli" maddə ilə həbs olunduqdan sonra yaxınlarımdan, tanışlarımdan bəziləri mənə irad tutdular ki, bu sənə lazım idi? Çətin şərtlərdə də pis yaşamırdın... Həbs olunmağınla ən böyük zərbəni anana, ailənə vurmuş oldun. Həbsxana həyatı elə bir məkandır ki, düşünmək üçün kifayət qədər vaxt var. Ağlım kəsdiyi vaxtdan bəri yaşadığım bu həyatda elə bir hərəkət eləməmişəm ki, keçmişə baxıb onun peşmançılığını çəkim. Zamanı geri qaytarmaq mümkün olsaydı və zaman mənə yaltaqlıq və ya ona qarşı mübarizə aparmaq seçimini tanısaydı, sonu nə olursa olsun,

---

[3] *NİDA Vətəndaş Hərəkatının üzvü, bloger Əbdül Əbilov*
*"Facebook" sosial şəbəkəsində "Yaltaqlara dur deyək" səhifəsinin idarəçisi olub.*
*22 noyabr 2013-cü ildə Daxili İşlər Nazirliyinin (DİN) Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları tərəfindən həbs olunub. Ona qarşı Cinayət Məcəlləsinin 234.4.3-cü (külli miqdarda narkotik saxlama, gəzdirmə, satma) maddəsilə ittiham irəli sürülüb.*
*27 may 2014-cü ildə Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə Ə.Əbilov 5,6 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilib.*
*Prezidentin 17 mart 2017-ci il tarixli Əfv sərəncamına əsasən azadlığa buraxılıb.*

tərəddüd etmədən yaltaqlığa müxalif olardım.

Kiçik yaşlarımdan atasız böyüdüyümdən həyatın bütün çətinliklərini yaşamışam. Bu yaşıma kimi haram tikə yeməmişəm. Haram tikə ilə bəslənsəydim, haqq sözünü demək cəsarətini özümdə tapa bilməzdim. Mövcud olan idarəetmə sistemi, xüsusən də, məmur səriştəsizliyi ailəmin bir üzvünün ölümünə səbəb oldu, min bir əziyyətlə aldığım avtomobilimə və sağlamlığıma vurulmuş ziyan hüquq-mühafizə orqanları əməkdaşlarının "səyi" ucbatından bu günə qədər də ödənilməyib.

Mən zindanda çəkdiyim əzablardan daha ağır əzablar çəkmişəm. Amma anama və ailəmə əzab verməmişəm. Mənim həbsimə görə, anamın və ailəmin çəkdiyi əzablar mənə əzab verir. Bu əzabları bizə yaşadanlar bu dünyada da olmasa, axirətdə mütləq cəzalarını çəkəcəklər. Həqiqətdən yüksək qanun yoxdur.

Babam İmaməliyev Əbülfəz rayonun böyük ruhanilərindən olub. Sovet idarəetmə sistemində haqq sözünü dediyi üçün 1937-ci ildə böyük şair Mikayıl Müşfiqlə bir yerdə güllələnib. O repressiyalar dövründə yaltaqlıq edib, repressiyaları alqışlayanların törəmələri bü gün gəncliyi boğaraq, söz azadlığımızı əlimizdən alaraq, bizlərə 37-ci illəri yaşatmaqdadırlar. Yaltaqlığa qarşı çıxıb, haqq sözünü demək qanımda vardı. Müstəqillik dövründə repressiyalara məruz qalmağımız faciədir. Bu repressiyaları "milli repressiyalar" adlandırardım.

Ölkədə baş verən bu "milli repressiya"lara göz yummaq yaltaqlıqdır,



ikiüzlülükdür, laqeydlikdir, qorxaqlıqdır. Şəxsiyyəti olan insan haqsızlığa susmamalıdır. Yaltaqların, qorxaqların ucbatından mən bu günə kimi həbsdəyəm. Yaltaqlıqla yaxşı yaşamaq imkanım olduğu halda bunu özümə ar hesab etdim, Allahın verdiyi bir ömürü onların tərzində yaşamağı özümə rəva bilmədim.

Bu "milli repressiyalar"ın nəticəsi insanları həbslərlə bezdirməyə və ölkəni tərk etdirməyə hesablanıb. Rejimin istədiyi də budur ki, biz ya avtoritar idarəetmə sistemi ilə razılaşıb onlar üçün qul kimi işləməli, ya da ölkəni tərk etməliyik. Xalqın haqqını tələb edən xalqın düşməni ola bilməz. Xalqın düşməni, onun haqqını tapdalayanlardır.

Cəmiyyətimizdə, xüsusən, vəzifəli şəxslər səviyyəsində yaltaqlıq o həddədir ki, hətta mərhum prezident Heydər Əliyevin qızı Sevil Əliyeva müsahiblərinin birində belə bir məqamı qeyd edib: "Atam Moskvada işlədiyi zaman vəzifəyə çəkdiyi adamlar, atam pensiyaya çıxanda ondan üz döndərdilər. Həmin adamlar öz sifətlərini göstərdilər. Biz artıq bunları görmüşük, bu mərhələni keçmişik. Ancaq bu gün görürəm ki, həmin adamlar necə yaltaqlanır, kitablar yazır, onun adından istifadə edib özlərinə piar qururlar".

Sevil Əliyevanın müsahibəsi cəmiyyətə mesaj kimi qiymətləndirilməlidir. Yəni prezident İlham Əliyevin bacısı, hakimyyətin daxilində olan bir çox məmurların, onun atasının adından istifadə etdiyini, zəhməti, işgüzarlığı və tələbkarlığı ilə vəzifəyə yüksələ bilmədiyini, yaltaqlıqla vəzifəyə yüksəlib xalqa divan tutduğunu, xalqın deyil, öz maraqlarını düşündüyünü, cəmiyyətin isə buna etiraz etməli ol-

duğunun mesajını verir.

İdarəçisi olduğum "Yaltaqlara dur deyək" səhifəsinin əsas məqsədi yaltaqları cəmiyyətə tanıtdırmaq və onları ictimai qınağa çəkmək idi. Bizim cəmiyyətimizdə xalqa yaraşmayan yaltaqlıq son illərdə adi hal kimi qarşılanmaqdadır. Bir cəmiyyətdə ki yaltaqlıq baş alıb gedir, deməli, o cəmiyyətdə qanunlar işləmir. Ölkədə yaltaqlıq elə bir iyrənc səviyyədədir ki, yaltaqlıqla "Şərəf ordeni" alanlar kifayət qədərdir.

Geniş vüsət almiş yaltaqlıq insanları köləliyə doğru aparmaqdadır. Yaltaq insanlar həqiqəti deyən insanların düşmənidir. Səhifəmdə yaltaq insanlarla sözunü deyə bilən mərd insanları müqayisə də edirdim. Bu müqayisələrdən biri də youtube.com saytından götürdüyüm, mərhum prezident Əbülfəz Elçibəyin mərhum prezident Heydər Əliyev haqqında tənqidi fikirləri olan videoçarx idi. Hansı ki saxlandığım Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsində ən çox maraqlandıqları da bu idi: videonu necə və hansı mənbədən əldə etdiyimi öyrənmək istəyirdilər.

Prosedur qaydalara uyğun olaraq, məhkəmədən mənə bəraət verilməsini istəməliyəm. Nidaçı dostlarımızın təbirincə desək, hazırkı məhkəmə prosesində bu rejimin qurbanı təkcə mən deyiləm. Çünki bu sifarişli cinayət işinə hakim və prokuror kimi təyin edilməyiniz sizi də qurbana çevirib. Əslində, biz bu qəfəsdə, siz isə azadlıqda - hamımız özü boyda qəfəsə çevrilmiş Azərbaycanda girov və qurban həyatı yaşayırıq. Ona görə də sizdən, məcbur edildiyinizdən artıq bir şey tələb etmək mənim üçün də çətindir. Dustaq dustağa necə kömək



edə bilər?! Fərqimiz yalnız ondan ibarətdir ki, mən bütün bu gerçəklikləri görürəm, anlayıram, lakin qəbul etmirəm. Amma bu rejimin girovunda olan şəxslər kimi şərlənərək həbs olunmağım və qarşınızda qondarma "milli maddə" ilə ittiham olunmağım sizin mərhəmət hissinizə təsir edə bilməz.

Peyğəmbər balası imam Hüseyn onu qətlə yetirmək istəyənlərə sonunda belə dedi: "Mənim haqq sözüm sizə ona görə təsir etmir ki, bədəniniz haram tikələrlə bəslənilib".

Lənətlik Yezidin əmrini yerinə yetirərək İmamı qətlə yetirən dəstənin başçısı Ömər ibn Sədə vəd olunan vilayət rəhbərliyi belə ona verilmədi. Axirətindən məhrum olunmuş Ömərin bu dünyası da puç oldu. Sizlər, bu gün bu rejimin qanunsuz əmrlərini yerinə yetirməklə mən və mənim timsalımda şərlənərək həbs olunan nidaçılar başda olmaqla, İlqar Məmmədov, Tofiq Yaqublu, Yadigar Sadıqov, Qurban Məmmədov, Anar Məmmədli, Taleh Bağırzadə, Abgül Süleymanov, Əvəz Zeynallı, Hilal Məmmədov, Ömər Məmmədov, Elsevər Mürsəlli, Rəşad Ramazanlı, Rauf Mirqədirov, Pərviz Həşimli kimilərin barəsində hökm verməklə, bu dünyanızı abad etdiyinizi düşünürsünüz? Amma Ömər ibn Sədin aqibətini unutmamağı diqqətinizə çatdırıram. Gün gələcək, sizlər də Fərhad Əliyevin, Əli İnsanovun aqibətini yaşayanda, hakimiyyətin sizi ittiham edəcəyi əməllərdən biri də şərlənərək həbs olunmuş şəxslər barəsində verdiyiniz hökmlər olacaqdır.

Həbs olunduqdan sonra ictimaiyyətə göndərdiyim ilk qısa müraciətimi bir daha xatırlatmaq istəyirəm: vicdanı, əqidəsi, mənli-

yi olan hər bir insandan dəstək gözləyirəm, mən günahsızam, məni şərləyiblər. Bu müraciətimdən sonra müdafiəmə qalxan və qalxmağa calışan hər bir insana minnətdarlığımı bildirirəm.

Məhkəmələr millətin vicdanıdır. Mənə oxuyacağınız hökm, sizə görə bir neçə səhifəlik kağızdan ibarət ola bilər, amma tarix baxımından, verəcəyiniz hökm millətin vicdanına, namusuna yazılacaq qara ləkədir. Bu ləkədə imza sahibi olmaqdansa, dəmir barmaqlıqlar arasında olmaq şərəfdir.

Bakı Ağır Cinayətlər Məhkəməsi,
Tarix: 27.05. 2014



# Jurnalistlər, blogerlər, yazarlar



## ÖMƏR MƏMMƏDOVUN MƏHKƏMƏDƏ SON SÖZÜ[4]

"Facebook"da idarəçisi olduğum "Heydər Əliyev adına səhifə" və "AzTv-dən seçmələr" səhifələri hakimiyyəti kəskin formada tənqid edən səhifələrdən biri idi. Qısa bir zamanda "Facebook"da məşhurlaşan həmin səhifənin paylaşımlarını, təqribən, 30.000-dən 60.000-ə qədər istifadəçi görə bilirdi. Mən, həbs olunmamışdan 3 gün öncə, "facebook"un mənə verdiyi rəsmi məlumata görə, 1 ay ərzində "AzTv-dən seçmələr" səhifəsi 500.000 müxtəlif "facebook" istifadəçisini

[4] *Ö.Məmmədov "Facebook"da "AzTv-dən seçmələr" və "Heydər Əliyev adına" səhifələrin idarəçisi olub. Bu səhifələrdə hakimiyyətin siyasəti tənqid edilib. O, NİDA vətəndaş hərəkatının üzvü olub.*

*25 yanvar 2014-cü ildə gənc fəalın həbs olunması xəbəri yayılıb. Aktivliyi ilə seçilən Ömər Məmmədovun fəaliyyətinin qarşısını almaq üçün onun atası iki dəfə Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə aparılıb. Ona qarşı CM-nin 234.4.3-cü (külli miqdarda narkotik saxlama, gəzdirmə, satma) maddəsilə ittiham irəli sürülüb.*

*Bakı Ağır Cinayətlər Məhkəməsinin 4 iyun 2014-cü il tarixli hökmü ilə 5 il müddətinə azadlıqdan məhrum edilib.*

*Ö.Məmmədov 17 mart 2016-cı ildə prezidentin əfv sərəncamı ilə azadlığa buraxılıb.*

məlumatlandırırdı. Görünür, elə bu rəqəm də hakimiyyətin rəsmi nümayəndələrini qıcıqlandırıb.

Əslində, həbsim 2013-cü ilin noyabr ayının 22-də olmalı idi. Həmin gün təhsilimlə bağlı xaricdə olduğumdan atamı Baş Mütəşəkkil Cinayətkarlığa qarşı Mübarizə İdarəsinə apardılar. Elə oradan da mənimlə telefon əlaqəsi yaradan məlum idarənin yüksək rütbəli məmuruna: "Atamı rahat buraxın, yanvarın 20-i Bakıya gələcəyəm", - dedim. Söz verdiyim kimi, 2014-cü il yanvar ayının 20-də Bakıya qayıtdım. Bir gün sonra, yəni 21 yanvar səhər saat 8-də Mütəşəkkil Cinayətkarlığa qarşı Mübarizə İdarəsinin işçiləri yaşadığım evə gələrək məni idarəyə apardılar. Sizcə, qəribə deyilmi?! 14 saat idi ki, Bakıda idim.

Bəli, həbs olunacağımı bilə-bilə ölkəyə dönmüşəm. Bu seçimimə görə də qətiyyən peşman deyiləm. Saxlanıldığım zaman Baş Mütəşəkkil Cinayətkarlığa qarşı Mübarizə İdarəsinin əməliyyat qrupuna rəhbərlik edən Xəyal Nəsibov məhkəmədə ifadə verdiyi zaman, guya mənim artıq 10 gün idi ki, Bakıda olduğum və narkotik vasitələrin satışı ilə məşğul olduğum haqqında məlumat aldıqlarını, sonradan həmin ünvanda axtarış aparılarkən məlumatın doğruluğunun təsdiqləndiyini qeyd edib. Vəkilim Xalid Bağırovun məhkəməyə təqdim etdiyi sübutlarda da mənim Bakıya həbs olunmazdan 3 gün əvvəl gəldiyim öz təsdiqini tapır. Həmçinin iş üzrə şahid qismində dindirilən məlum idarənin əməkdaşı Xəyal Nəsibovun ifadəsi zamanı qeyd etdiyi ünvan – Sülh küçəsi, ev 1B ünvanında artıq uzun müddətdir ki, yaşamıram. Bura-





dan bu qondarma cinayət işi üzərində baş sındıran hüquq-mühafizə orqanlarının əməkdaşlarına öz salamlarımı göndərirəm. Gələn dəfə belə bir komediya ssenarisi hazırlayanda onlara daha diqqətli, daha məntiqli və daha kreativ olmağı məsləhət görürəm.

Bəri başdan söyləyim ki, hər dəfə saxlandığım istintaq təcridxanasından məhkəməyə gətiriləndə içimdə heç bir inam və ya ümid hissi olmur. Orada hər hansı bir ədalətli qərarın çıxarılacağını gözləmirəm. Bura sadəcə dostlarımı və valideynlərimi görmək üçün gəlirəm. Bir növ, artıq bura mənim üçün görüş yerinə çevrilib. Hüququn aliliyinin qorunmadığı bir məmləkətin məhkəməsindən ədalət gözləmək axmaqlıqdan başqa bir şey deyil. Lakin sizlərin - (dilim hörmətli də deməyə gəlmir) hakimlərin diqqətinə, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 295-ci maddəsindən bir nüansı çatdırmaq istərdim. Bilə-bilə ədalətsiz hökm və qərar çıxarma 3 il azadlıqdan məhrum edir. Sizə xatırladım ki, bu maddəni bilə-bilə verdiyiniz hər bir sifarişli qərara görə gələcəkdə cəza alacaqsınız. Nə siz, nə də öndə gedənləriniz bundan qurtula biləcəklər. Bunu tarix də sübut edir. Məşhur inqilabçı, kommunizmin ilk nəzəriyyəçilərindən biri Qrakx Baböf öz sevgilisinə məktubunda Fransa inqilabı zamanı Parisdə baş verənləri belə təsvir edirdi:

"Mən şahidi oldum ki, kütlə necə Fullonun başını küçələrdə gəzdirirdi. Sonra oraya kürəkəni də gətirdilər. Baraban gurultusu altında hamı onu ələ salır, alçaldırdı. Kütlənin bu sevinci necə də ürəyimi sı-

xırdı! Mən həm razı, həm də narazı idim... Hakimiyyət nə əkmişdisə, onu da biçirdi. Sonrası daha da pis olacaq. Bu, hələ başlanğıcdır..."

Əmin olun ki, bu gedişatla sizləri də eyni aqibət gözləyir.

Daha sonra qeyd etmək istədiyim başqa bir nüans da var: Əliyev rejimi zənn edir ki, həbsxanaları onlar kimi düşünməyən, azad fikirli və mübariz gənclərlə doldurmaqla öz hakimiyyətlərinə qarşı yönələn təhlükəni aradan qaldırır. Amma özləri istəmədən həmin həbsxanaya doldurduqları gənclərdən qəhrəman düzəltmiş olurlar. Bu isə bir növ, az da olsa, prosesə öz müsbət təsirini göstərmiş olur.

Biz, 140-a yaxın siyasi məhbusu olan bir ölkənin vətəndaşlarıyıq. Avropada olan siyasi məhbusların yarısı elə Azərbaycanın payına düşür. Bu rəqəm hazırkı hakimiyyətin cinayətkar olmasının əyani sübutudur. Biz – nidaçılar, həmçinin digər siyasi məhbuslar, İlqar Məmmədov, Tofiq Yaqublu, Yadigar Sadıqov, Elsevər Mürsəlli, Əbdül Əbilov, Rəşad Ramazanov, Anar Məmmədli, Bəşir Süleymanlı, Orxan Eyyubzadə, Pərviz Həşimli, Qurban Məmmədov, Tale Bağırzadə və digərləri bu hakimiyyət tərəfindən həbsə düçar olmamışıq, rəsmən girov götürülmüşük.

Sonda mənə girovluqda olduğum müddətdə dəstək olan üzvü olduğum N!DA Vətəndaş Hərəkatına, Vətəndaş Həmrəyliyi Partiyasına, media nümayəndələrinə, siyasi partiyaların funksionerlərinə, ictimai





fəallara, xüsusilə də valideynlərimə və fədakarlıqla təmənnasız olaraq məni müdafiə edən Xalid Bağırova, həmçinin də Əlayif Həsənova öz təşəkkürümü bildirirəm.

İnsan üçün onun vicdan məhkəməsi ən önəmli olanıdır. Orada nə üzəduran şahid var, nə qondarma cinayət işi, nə də sizlər kimi saxta hakimlər. Mən vicdanım qarşısında təmizəm və bu mənə yetir...

Bakı Ağır Cinayətlər Məhkəməsi,

Tarix: 05.06. 2014

# Jurnalistlər, blogerlər, yazarlar



## SEYMUR HƏZİNİN MƏHKƏMƏDƏ SON SÖZÜ[5]

Doğrusu, məhkəmədə son söz deyib-deməməklə bağlı xeyli düşündüm. Yəni hər şey ortadadırsa, danışıb kimə nəyi izah edəcəyəm?! Amma bir neçə məqam vadar elədi ki, bu çıxışı edim. Bu, şəxsən mənim üçün təsadüfi bir məhkəmə prosesi deyil.

1937-ci ildə babalarım 15 dəqiqəlik məhkəmədə mühakimə olunaraq, son sözlərini də demədən güllələniblər. Sonradan Əliyevlərin dövründə də bu cür repressiyalarla üzləşmişik. Mən bir vətəndaş, siyasətlə məşğul olan şəxs, nəhayət, o babaların nəvəsi olaraq, ətrafımda baş verənlərə biganə qala bilməzdim. Bu, iqtidar-müxalifət qarşıdurması deyil, Xeyirlə Şərin mübarizəsidir. Biz adil olanın, haqqın, dövlətin tərəfindəyik. Bu mübarizənin içində olduğuma görə özümü xoşbəxt sayıram. Məhbəsdə olan dostlarım - İntiqam Əliyev, Leyla Yunus, Xədicə İsmayıl, Asif Yusifli, NIDA-çılar və s. ləyaqətli insanlarla birgə mübarizəmizin nəticəsinə də inanıram. Məsələ aydındır və iki yol var: sürünmək və dik gəzmək. Sürünənlər heç vaxt yıxılmırlar. Biz isə sürünməyi yox, dik gəzməyi seçmişik. Əgər başqa yol seçsəydim, özümü indiki qədər rahat hiss eləyə bilməzdim. Bir hədis danışmaq istəyirəm: Yaqub Peyğəmbərin bədənini yara basır, nə eləyir, çarəsi olmur. Allaha yalvarır ki, ya Rəbbim, mən ki Peyğəmbərinəm, niyə mənə bunu rəva görürsən? Allah deyir ki, sən zalım hökmdarın qarşısında məzlumu qorumadın... Bu həm də mənəviyyat məhkəməsidir. Neçə il həbsdə olacağım məni qorxutmur, bu haqda heç düşünmürəm də. Allahdan istədiyim yalnız şərəfli ömür yaşamaqdır. Bu gün Azərbaycan hökuməti cinayətkarlığı, narkomaniyanı stimullaşdırmaqla məşğuldur. Bu gün Azərbaycan həbsxanaları qan ağlayır. Ölkədən üç ton heroin çıxarılır, bilinmir ki, kimindir, kim buraxıb... Buna görə heç kim cəzalandırılmır. Amma bədbəxtin birini bu heroinin 0,1 qramına görə tutub həbsxanaya salırlar. O adamların bir çoxu bu bəlaya yoluxdurulub, bəziləri həyatını itirmək təhlükəsilə üzüzədir. Mən bütün bunlara necə biganə qalım? "Kim necə istəyir, elə də yaşasın, mənə aidiyyəti yoxdur" - bu, meşşan təfəkkürüdür. Bu cür adamlar yemlənməkdən və döllənməkdən başqa heç nə bilmirlər. Bu gün Azərbaycanda mənəviyyatın, əxlaqın buzlaşması prosesi gedir. Biz buna qarşı mübarizə aparırıq. Biz neyləmişik ki, bura düşmüşük? Bunun cavabı çox sadədir; istəyirik ki, məktəbdə uşaqlarımız rüşvət almağı və verməyi öyrənməsin, müəllimlər saxtakarlıqla yox, öz işi

---

*[5] Seymur Həzi müxalif media qurumu olan "Azadlıq" qəzetinin şərhçisi, Azərbaycan hakimiyyətini və onun apardığı siyasəti sərt tənqid edən, peyk üzərindən xaricdən yayımlanan "Azərbaycan Saatı" onlayn televiziyasının aparıcısıdır.*

*S.Həzi həmçinin Azərbaycan Xalq Cəbhəsi Partiyasının üzvüdür.*

*O, 29 avqust 2014-cü ildə heç bir qanuni əsas olmadan polislər tərəfindən saxlanılıb. Ona qarşı CM-nin 221.3-cü (xuliqanlıq, silah qismində istifadə edilən əşyaları tətbiq etməklə törədildikdə) maddəsi ilə ittiham irəli sürülüb.*

*Abşeron Rayon Məhkəməsinin 29 yanvar 2015-ci il tarixli qərarı ilə 5 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilib.*

ilə məşğul olsun. Hamilə qadınlar, xəstələr, qocalar başqa ölkələrin xəstəxanalarının qapısında boyunlarını bükməsinlər. Azərbaycan insanı ahıl vaxtında o qədər pensiya alsın ki, heç kimin qarşısında boynubükük dayanmasın. Həbsxanada məcburən Azərbaycan telekanallarına baxıram. Minlərlə insan televiziyaya çıxıb, müalicə olunmaq üçün pul dilənir. Bəs səhiyyəyə ayrılan milyonlar hara gedir? Bu hökumət milyonları daşa-divara, mərmərə xərcləyir, insanlar pulsuzluq üzündən ölür. Azərbaycanın bu qədər sərvətinə rəğmən, ölkədə nə həkim var, nə müəllim. Ölkəni böyük bir mərmər qəbiristanlığına çevirməyə nə ehtiyac var? Bəzən insanlar fikirləşirlər ki, bu hakimiyyət əbədidir. Amma tarix göstərib ki, bu cür rejimlər əbədi olmur. Tarixdə belə quruluşlar, sistemlər çox olub. Amma xalqlar onlara qalib gəliblər. Avropa ölkələrini misal göstərə bilərəm. Bizim xoşbəxtliyimiz ondadır ki, biz artıq bu yolun böyük bir hissəsini gəlmişik. Əliyevlər hakimiyyəti Elmar Hüseynovu öldürdü...

**Hakim:** Sizin hakimiyyətlə nə işiniz var, ittihamdan danışın...

**Seymur Həzi:** Səbrli olun, ittihamdan da danışacağam.

**Hakim:** Mən səbrliyəm, amma sizə xəbərdarlıq edirəm, ittihamdan danışmasanız...

**Seymur Həzi:** Azərbaycanda mənim ağzımı yumacaq, sözümü kəsə biləcək adam yoxdur.

**Hakim:** Mən sizi xəbərdar edirəm.





Siz bu məhkəmə prosesi boyunca bir dəfə Məhərrəm Həsənovu (Seymur Həziyə qarşı iddia qaldıran şəxs. red) qaldırıb, həqiqəti araşdırmamısınız, ittihamın saxtalığını üzə çıxarmaq üçün heç bir addım atmamısınız, indi ittiham üzrə danışmağımı istəyirsiniz. Əgər ittihamı boş şey hesab edirsinizsə, elə mən də boş şey hesab edirəm. Bunu keçən dəfə də demişdim, bir daha təkrar edirəm: xanım olmağınız mənim üçün əsas şərt oldu ki, bu məhkəmədə özümü kifayət qədər nəzakətli apardım. Əgər təcridxanada son sözümün yazısını əlimdən alırlarsa, yaxınlarımla görüşə icazə verilmirsə, Quba hadisələrinin möhtəşəm qəhrəmanı Əhəd İbrahimov mənim işimdə dövlət ittihamçısı qismində ortaya çıxırsa, deməli, məsələ aydındır. Mən heç kimlə, hətta mübarizə apardığım adamlarla da intriqa aparmıram. Çünki bizim ideyalarımızın yanında onlar çox cılız görünürlər. Əgər Azərbaycanda qanunları qəbul edənlərin milyonlarla rüşvət hesabına o kürsüdə oturduqları konkret sübut-dəlillərlə ortaya çıxırsa, o qanunlardan nə danışmaq olar?

**Hakim:** Sizi bir daha xəbərdar edirəm, ittihamdan danışın.

**Seymur Həzi:** Biz ağcaqanad öldürmürük, bataqlıq qurudurug. Azərbaycan hökuməti...

**Hakim:** Hökumətdən yox, özünüzdən danışın. Biz sizi fikirlərinizə, prinsiplərinizə görə ittiham etmirik. Sizə də, əqidənizə də hörmət edirik...

**Seymur Həzi:** Siz niyə hökumətin əvəzindən danışırsınız, onları

müdafiə edirsiniz? Siz dövləti yox, hökuməti təmsil edirsinizsə, o başqa məsələ...

**Hakim:** Biz kimlərinsə prinsiplərini yox, konkret hadisəni mühakimə edirik.

**Seymur Həzi:** Onda icazə verin, kosmosdan, qalaktikadan danışım...

**Hakim:** Yox, icazə vermirəm.

**Seymur Həzi:** Qəribə yanaşmanız var. Bu ittihamı mənə İlham Əliyev ünvanlayıbsa, mən kimdən danışmalıyam? Bu hadisənin təşkilatçısı İlham Əliyevdir. Mənim onunla şəxsi-qərəzim...

**Hakim:** İlham Əliyev Azərbaycan dövlətinin başçısıdır, bütün dünyadakı milyonlarla azərbaycanlının pərəstiş elədiyi adamdır.

**Seymur Həzi:** Sizin zövqünüzə heyran qaldım. İkincisi, bütün azərbaycanlıların adından, şəxsən mənim adımdan danışmayın. İttihama gəlincə, Məhərrəm Həsənov nə məni tanıyır, nə mənimlə düşmənçiliyi var. Onu hansı səbəbdən, hansı şəraitdə bu işə bulaşdırıblarsa, Allah o adamların cəzasını verəcək. Mən ona kiçik qardaşım kimi yanaşıram və onu bağışlayıram (Bu yerdə Məhərrəm Həsənov: "Çox sağ ol, Allah köməyin olsun",- deyə Seymura təşəkkür edir. red).

Mən "Azərbaycan saatı" proqramında, "Azadlıq" qəzetində hökuməti ifşa edirdim. Həbsimin səbəbi də budur. Mənə 2011-ci ildə müvəqqəti saxlama təcridxanasında işgəncə vermiş adamla bağlı çoxsaylı şikayətlərim olmuşdu, amma onu cəzalandırmadılar. Həmin adamı mən Leyla Yunusun həbsində gördüm. Azərbaycan hakimiyyəti fikir adamına hüquq bərabərliyi çərçivəsində yox, cinayətkar kimi baxır. Hələ həbsimdən əvvəl oğurlandığım zaman məndən Ramiz Mehdiyevdən yazmamağı tələb etmişdilər. Mənə qarşı bu son hadisə İlham Əliyevin təşkilatçılığı, Ramiz Mehdiyevin tapşırığı ilə baş verib. Necə ola bilər ki, hadisədən heç saniyələr keçməmiş orada polislər peyda oldu? Bu işin arxasında duran hakimiyyət yazdığım fikirləri həzm edə bilmədi. Məni bu yolla susdurmaq qərarı verdilər. Hələ xaricdə olanda dostlarım yazmışdı ki, gəlmə, səni tutacaqlar. Mən isə gəldim. Azərbaycandan niyə qaçmalıyam? Mən həbsimi gözləyirdim. Ramil Usubova məktubumda da yazmışdım ki, məni həbs eləmək üçün arxamca bir dəstə adamı töküb izlətdirməyə ehtiyac yoxdur. Çağırın, özüm gəlim. Bu gün biz Azərbaycanda hər kəsin rahatlığı uğrunda mübarizə aparırıq. Hamının ailəsi, uşağı var. Deyəsən, bir bizik ki, heç nəyimiz yoxdur, nə anamız var, nə qohum-əqrəbamız, qılıncımızı götürüb hamının taleyi uğrunda mübarizəyə qalxmışıq. Bu məhkəmədən heç bir ədalət gözləmirəm. Hamıya rahat yata biləcəyi bir ölkədə yaşamağı arzulayıram!

Abşeron Rayon Məhkəməsi
Tarix: 09.01.2015

# Jurnalistlər, blogerlər, yazarlar



## XƏDİCƏ İSMAYILIN MƏHKƏMƏDƏ SON SÖZÜ[6]

Hörmətli proses iştirakçıları, məhkəmə heyəti, zorən bu prosesin müşahidəçilərinə çevrilib, məhkəməyə maraq göstərən ictimaiyyətin zala daxil olmağını əngəlləmək üçün kürsüləri dolduranlar!

Sizin bu ekspress məhkəmə prosesindən çıxardığınız nəticə nədir, bilmirəm, mənim qənaətim budur ki, repressiya maşını çökmək üzrədir. Əlbəttə, bunu neft bazarındakı çöküşün effekti kimi də

[6] *Xədicə İsmayıl araşdırmaçı jurnalistdir. O, "Azadlıq" Radiosunun Bakı bürosunun əməkdaşı olub, "Exo", "Caspian Business News", "Eurasinaet.org", "Washington Times", "The New York Times", "BBC", "Deutche Welle", "Voice of America" (Amerikanın Səsi) kimi kütləvi informasiya vasitələri üçün siyasi və iqtisadi mövzularda yazılar yazıb.*

*Xədicə İsmayıl 2014 il dekabrın 5-də həbs olunub. Ona əvvəlcə Tural Mustafayevi "özünü öldürmə həddinə çatdırma" maddəsi ilə ittihamı irəli sürülüb. 13 fevral 2015-ci ildə isə ona qarşı daha 4 maddə ilə CM-nin 179.3.2 (mənimsəmə və israf etmə - külli miqdarda törədildikdə), 192.2.2 (qanunsuz sahibkarlıq), 213.1 (vergi ödəməkdən yayınma) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə yeni ittihamlar elan edilib. 24 fevral 2015-ci ildə bütün ittihamlar bir icraatda birləşdirilib.*

*Bakı Ağır Cinayətlər Məhkəməsinin 1 sentyabr 2015-ci il tarixli hökmü ilə 7 il 6 ay müddətinə azadlıqdan məhrum edilib.*

*Azərbaycan Respublikası Ali Məhkəməsinin 25 may 2016-cı il tarixli qərarı ilə cəzası 3 il 6 ay şərti cəza ilə əvəz edilib və azadlığa buraxılıb.*





qiymətləndirə bilərik, amma başqa səbəblər də var. Səbəbin biri bizik!

Azərbaycan hüquq-mühafizə sisteminin cinayət olmayan yerdə onu uydurmaq qabiliyyəti çoxlarına məlumdur. Amma bu ölkənin vicdanlı vətəndaşları və vicdanlı jurnalistləri (bu prosesi işıqlandırmaq əvəzinə prokurorluğa mirzəlik edənləri nəzərdə tutmuram, əlbəttə ki), hüquq müdafiəçiləri Azərbaycanın məhkəmə-hüquq prosesinin biabırçılıqlarını illər boyu ustalıqla ifşa edərək, repressiya maşınını daha biabırçı yollarla öz əməllərini ört-basdır etməyə məcbur etdilər. Yalanlarının üstü açıldıqca daha çox yalan danışmağa məcbur olan dələduzlar kimi prokurorluq işçiləri də qanunsuzluqların üstü açıldıqca daha çox saxtakarlığa, daha çox qanunsuzluğa əl atmalı oldular.

Bu proses ilk növbədə prokurorluq, vergi işçilərinin aldıqları paket maaşları doğrultmadığı, onlara qanunsuz verilən imtiyazlar müqabilində düz-əməlli şərləmə işi düzüb-qoşa bilmədiyini ortaya qoydu.

Bəli, böhtan və şər də qabiliyyət istəyir. İnsanların iradəsini sındıraraq, savadsızlığından, psixoloji durumundan, qorxusundan istifadə edərək imza atdırdıqları ifadələr belə mənə qarşı açılan cinayət işi üçün kifayət qədər əsas vermirdi. Üstəlik, məhkəmə istintaqı zamanı o ifadələrin hər birinin qanunsuz yollarla, təzyiqlə alındığı, yaxud oxunmadan imza atdırmaqla saxtalaşdırıldığı, bəzən isə imzalarının belə saxtalaşdırılaraq, ifadələrə əlavələr edildiyi ortaya çıxdı. Şahidlərdən birinə hələ rüşvət də təklif olunmuşdu. Nə gündəsiniz?! Saxtakarlığın ən ucuz variantlarından istifadə edərək mənə qarşı "tikilən iş" elə özü-özünün ifşası idi. Odur ki, vəkillərimin dediklərindən əlavə bu

məsələləri uzun-uzadı təsvir etməyəcəyəm. Onsuz da vergi müfəttişləri suallara cavab verərkən çox faktlar üzə çıxdı: mənim imzam olan bircə sənəd belə görmədiklərini dedilər. Yalnız prokurorluğun onlara verdiyi sənədlərə baxdıqlarını qeyd etdilər.

Elektron materiallara - nümayəndəliyin idarəetməsi ilə etibarnamə əsasında məşğul olan Yəhya Mirzəyevin kompüterindəki sənədlərə baxmadıqlarını, elektron daşıyıcılardakı heç bir sənədi gözdən keçirmədiklərini bildirdilər.

Sənədləri almaq üçün nümayəndəliyin rəsmisinə müraciət etmədən Aralıq Aktı hazırladıqlarını, aktda iddia olunan pozuntuları əllərində olan sənədlərlə deyil, olmayan sənədlərlə ehtimal etdiklərini dedilər.

Prokurorluğun hansı dərəcədə çarəsiz olduğunu qətiləşdirməkdən ötrü bir oyun oynadım. Prokurorluğa yanlış bir pas atdım. Tural Mustafayevlə dostluğumuzun (bəli, bizim zərərçəkənlə münasibətlərimizin başqa adı və forması olmayıb) onun Cəmil Həsənlinin Sabirabad mitinqində döyülməsindən sonra hüquqlarını tələb etməsini müzakirəmizlə başladığını dedim.

Həmin gün T.Mustafayevlə ünsiyyətimizin coğrafiyasının "Azadlıq" Radiosunun ofisi ilə məhdudlaşdığını araşdırmaq və öyrənmək çətin deyildi. Mustafayevin telefonunun anten məlumatları prokurorluqda vardı. İşin içində də var, hətta mənə də verilib. Axı bundan ötrü işləmək, sənədlərə baxmaq lazım idi.





Prokurorluq əməkdaşlarının isə vaxtı yoxdur. Onlara saxtakarlıqlar və şərləmələr müqabilində verilən pulları xərcləmək üçün də vaxt lazımdır axı! Odur ki, prezidentin bu repressiya maşınına xərclədiyi pulun effektivliyini yoxlaması lazımdır. Onlar sizin etimadınızı doğrultmurlar, cənab prezident.

Şahid ifadələri bir-birinin ardınca ifşa olunduqca prokurorluq özünün düzüb qoşduğu işin materiallarının məhkəmədə tədqiq olunmamasına qərar verdi. Çünki məhkəmədə hamının gözü qarşısında onlara bu işlə bağlı sifariş verənlərə necə "atdıqları" üzə çıxırdı.

Mətbuata ötürdükləri seçmə ifadələr prokurorluğun sifarişçiyə hesabat cəhdi idi, amma yenə olmadı. Keyfiyyətsiz saxtakarlıq məhkəməni daha çox qanun pozmağa vadar etdi və əminəm ki, Ramella xanım və onun rəhbərliyi sifarişçiyə - Prezident Administrasiyasına prokurorluğun yarıtmaz işinin onları saldığı çətin durumdan şikayətlərini artıq çatdırıblar. Əminəm deyəndə ki bilirəm. İndi istəyirəm, mənə qarşı irəli sürülən ittihamlar üzrə danışım.

Məhz bu maddələrin seçilməsi təsadüfi deyildi. Axı mən bu maddələrdə təsvir olunan cinayətlər haqqında çox danışmış, çox yazmışam.

125-ci maddə barədə çox danışmayacağam. Ölkəni kasıblıq, kredit borcu, polis zorakılığı ucbatından intihar dalğası bürüdüyünü yazan və deyən tək mən deyildim. Tural Mustafayevin də intihara cəhdinin səbəbi nişanlısı ilə problemləri yox, işsizlik idisə, o zaman

əvvəl məhkəmədə dediyim kimi, İlham Əliyev də mənimlə müttəhim kürsüsünü bölüşməli idi. Çünki Mustafayev hökumətyönlü mediada iş tapa bilməməsindən də şikayətlənirdi. Əlbəttə ki, Mustafayevin özünün dediyi kimi bütün bunlar böhtandan başqa bir şey deyildi və onun bu böhtana məcbur edilməsi üçün Milli Təhlükəsizlik Nazirliyi (MTN) və Bakı Şəhər Prokurorluğu səfərbər olunmuşdu. O MTN ki 2011-ci ildə yataq otağıma kamera yerləşdirib, 2012-ci ildə isə şantajımla məşğul olmuşdu. O Bakı Şəhər Prokurorluğu ki həmin cinayəti ört-basdır edib. Buna görə onları məhkəməyə vermişəm.

"O olmasın, bu olsun" filminə baxmısınız, yəqin ki. Oradakı məşhur yengə obrazını da xatırlayırsınız. İçəridə toy gecəsi səhnəsinin olduğunu ehtimal edib, açar deşiyindən baxır. İçəridə Sərvər Məşədi İbada imtina ərizəsi yazdırıb, ona silah çəkir. Yengə isə kömək çağırmır. Çünki o xəyalındakını görür, otaqdakını yox... Mənim şəxsi həyatımı pusanlar da, təqribən, o yengənin günündədirlər. Qapı açılanda yıxılacaqlarını göz altına almayacaq qədər həvəslə girişiblər işə.

Azərbaycan hökuməti məni intihar həddinə çatdırmaq üçün əlindən gələni etdi, mən güclü çıxdım. Şəxsi həyatıma burunlarını soxdular, sınmadım, şantaj etdilər, əyilmədim. İndi 15 il, lap 25 il həbslə də sınan deyiləm. Məni Elmar Hüseynov, Rafiq Tağı, yaxud Rasim Əliyevi susdurduqları kimi də susdura bilərdilər. Amma işimi ehtiyatlı tutmuşdum. Hər zaman yanımda adam vardı. Heç vaxt tək qalmırdım. Təhlükəsizliyimlə məşğul olanlar vardı. Buna görə Tural Mustafayevlə və istənilən başqa adamla münasibətlərimizin şahidləri çoxdur. Prokuror





qanunsuz olaraq, məhkəmədə tədqiq olunmayan SMS və "Facebook" mesajlarına istinad etdi. Bəs həmin SMS və mesajlar ittihama yardımçı olacaqdısa, onları niyə məhkəmədə oxutmadılar, tədqiq etmədilər? Çünki tədqiq etsəydilər, Mustafayevin onlara bu səhifələri təqdim etmədiyi, bir hissəsinin kontekstdən çıxarıldığı, bir hissəsinin isə uydurulduğu üzə çıxacaqdı. O da məlum olacaqdı ki, istintaqın iddia etdiyi kimi Meydan TV-dən Tural Mustafayevi çıxartmayıblar. İşdən çıxmaq üçün ərizəni o 28 fevral 2014-cü ildə özü yazıb. Yəni prokurorluğun iddia etdiyi kimi münasibətlərimizin kəsilməsindən sonra deyil, 9 martdan 12 gün əvvəl...

Prokurorluğun bu hekayəni necə uydurduğu, təxəyyüllərinin gücü haqqında düşünmüşdüm, inanmağım gəlmirdi. Təxəyyüllərinin belə güclü olması mənim üçün sürpriz olmuşdu. Amma bir gün kameradakılar İzzət Bağırov və Mehriban Xanlarovanın baş rollarda oynadığı filmə baxırdılar. Oxuduğum kitablardan diqqətimi ayıran da elə tanış gələn ifadələr və süjet xətti oldu. Cinayət işində oxumuşdum. Bəli, bu da oğurluq imiş. Film gibi yani.

Yenə də yeni bir şey fikirləşməyə gücləri çatmadı. Filmdən oğurladılar...

Böhtanları da oğurluq olan şanlı hüquq-mühafizə orqanlarımızın düzüb-qoşduğu digər ittihamlara baxaq:

**Maddə 213. Vergidən yayınma**

Bu ittihamı Azərbaycan xalqından oğurlanan pulları ofşorlara daşıyıb, ofşor şirkətlər vasitəsilə dövlət kontraktlarını sümürən və vergidən yayınan prezident ailəsi haqqında araşdırmalar etmiş Xədicə İsmayılovaya qarşı irəli sürmək necə də gülməli idi. Mən və tələbələrim, həmkarlarım ofşor həqiqətlərini, vergidən yayınma hallarını, adalarda öz adlarına, Azərbaycanda seyidəhmədlərin adına yaradılan şirkətlər vasitəsilə pulların vergidən yayındırılması haqqında yazırdıq.

Mən qazandığımın hər qəpiyin vergisini ödəmişəm və budur, mənə qarşı vergidən yayınma ittihamı. Bəli, qazandığımın hər qəpiyin vergisini ödəmişəm, amma ittiham mənim vergi hesabatımla bağlı deyil.

Deyirlər ki, işlədiyim radionun Azərbaycan nümayəndəliyinin vergi hesabatları mənlik imiş. Özü də bu hesabatlar qanundakı kimi yox, onların görmək istədiyi şəkildə aparılmalıymış.

İstintaq dövrünün və məhkəmə prosesinin bir hissəsi "Azərbaycan nümayəndəliyi Bakı Bürosu deyil", "Mən nümayəndəliyin yox, büronun rəhbəri olmuşam", "Radio heç nə satmayıb və gəlir götürməyib", "Mənim maliyyə məsuliyyətim olmayıb" kimi sadə təkzibolunmaz həqiqətləri təkrar-təkrar ittiham tərəfinin nəzərinə çatdırmaqla keçdi. Amma onlar "qatıq qaradır" deyib direşdilər. Belə sifariş verilmişdi, belə də etməli idilər. Amma nə olardı, bir balaca intellektimizə hörmət edəydilər, bizi bu keyfiyyətsiz saxtakarlıqla üz-üzə qoymayaydılar.





**Maddə 179. İsrafetmə və mənimsəmə**

Hətta bizim böhtançı prokurorluq da mənim nəyisə mənimsədiyimi iddia etməyə cəsarət etməyib, dövlətə ödənməli vergiləri üçüncü şəxslərin, yəni radionun digər əməkdaşlarının xeyrinə israf etdiyimi düzüb-qoşub. Mən və həmkarlarım israfçılıq və mənimsəmə işləri barədə çox yazmışıq. Kilometri 60 milyona başa gələn asfalt yollardan, smeta dəyəri 6-7 milyon olsa da, büdcəyə 30 milyona başa gələn Bayraq Meydanından, "Eurovision" hazırlıqlarından, "Kristal Holl"un tikintisindən. Amma prokurorluqdan fərqli olaraq, biz yazılarımızı sənədlər və faktlarla əsaslandırmışıq, daha fərziyyə və ehtimallarla deyil. Özü də mənə qarşı irəli sürülən ittihamdan fərqli olaraq, mənim yazılarımın qəhrəmanı olan İlham Əliyev, həqiqətən də, ona etibar edilən dövlət büdcəsindən israf edib və onun israfçılığının benefisiarları öz ailə üzvləri – övladları olub.

Bunu yazılarıma əlavə etdiyim şirkətlərin təsis sənədləri, sərəncamların surətləri açıq-aydın göstərir. Prokurorluq və vergi müfəttişləri isə nəinki mənim səlahiyyətimi təsdiq edən sənəd, hətta imzam olan bircə müqavilə, bircə ödəniş tapşırığı ortaya qoya bilmədilər. Saxtalaşdıra bilərdilər, amma İntiqam Əliyevin imzasını saxtalaşdırdıqları sübuta yetiriləndən sonra, yəqin, buna ürək etmədilər.

**Maddə 308. Vəzifə səlahiyyətlərindən sui-istifadə**

Prokurorluq vəzifəmdən necə sui-istifadə etdiyimi də göstərə, sübut edə bilmədi. Sübutetmə işində şanlı prokurorluq əməkdaşlarından

daha uğurluyam. Məsələn, "Çovdar" da daxil olmaqla 6 qızıl yatağını işlətmək üçün, məhz, prezidentə məxsus şirkətlə müqavilə bağlamaq tapşırığını heç kimin yox, məhz prezidentin verdiyini sübut edən sənədi yazıma əlavə etmişdim. Eyni ailənin dövlət kontraktlarını asanlıqla tendersiz ələ keçirməsini, dövlət banklarını qanunsuz özəlləşdirməsini, sənaye müəssisələrini qəpik-quruşla özəlləşdirməkdən əvvəl ailə başçısının sərəncamı ilə dövlət büdcəsindən o müəssisələrə milyonlar axıdılmasını da sənədlə, sübutlarla göstərmişəm.

**Maddə 192. Qanunsuz sahibkarlıq**

Bu mənim sevimli maddəmdir. Qanunsuz sahibkarlıq nədir, bilirsinizmi? Prezident, baş nazir, deputat ola-ola sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq qanunsuzdur. Mən və xarici həmkarlarım Vircin adalarından şirkətlərdə prezidentin şəxsən təsisçi olduğunu görəndə çox təəccüblənmişdik.

O, bu şirkəti açanda hələ prezident deyildi, amma artıq deputat və ARDNŞ-in vitse-prezidenti idi. Baş nazir, sonra prezident oldu, şirkəti isə əldən vermədi. Mehriban Əliyevanın Panamadakı şirkətlərin sənədlərində adını görəndə təəccüblənmişdik. Amma nə olsun? Prokurorluq bu təəccübümüzü bölüşmədi.

Mən və həmkarlarım onlarla deputatın qanunsuz biznesi haqda yazmışıq, ifşa etmişik, haradaydı prokurorluq işçiləri? Niyə reaksiya vermədilər?





Prokurorluqdan Beynəlxalq Şəffaflıq Təşkilatına deyiblərmiş ki, bizə o yazılardakı faktlarla bağlı rəsmi müraciət olmayıb.

Yəni özlərini görməməzliyə vururlar. Hərçənd ki, qanuna görə qəzetdə çıxması cinayət işinin başlanması üçün kifayət idi. Olsun. İnanaq ki, xəbəriniz yox idi. Bu son sözümdə dediklərimi rəsmi müraciət kimi qəbul edin.

Bu qədər şahidim də var ki, mən bu müraciəti etdim. Yazılarımın linkləri də mətnə əlavə olunub.

Başlayın cinayət işinə, haydı!

Bakı Ağır Cinayətlər Məhkəməsi,
Tarix: 31. 08. 2015

# Jurnalistlər, blogerlər, yazarlar



## TOFİQ HƏSƏNLİNİN MƏHKƏMƏDƏ SON SÖZÜ[7]

Bildirdiniz ki, həqiqəti tərəzinin bir gözünə, kağızları digər gözünə qoysaq, kağızlar olan göz ağır gələr. Onda məhkəmə istintaqı niyə aparılır?!

İşdə olan ziddiyyətlərin kifayət qədər olması ilə bağlı keçən məhkəmə iclasında vəsatət veriblər. Sübut olunub ki, polis heç bir sanksiya, icazə ərizəsi olmadan, vəkil və mülk sahibi çağırılmadan dükana icazəsiz soxulub.

*[7] Tofiq Həsənli hakimiyyəti və onun apardığı siyasəti tənqid edən satirik şairdir.*

*Azərbaycanın eks-prezidenti Heydər Əliyevin siyasətini tənqid edən "Heydərnamə" adlı silsilə şeirlər toplusu, İlham Əliyevi və məmurlara həsr olunmuş satirik şeirləri onun cinayət təqibinə səbəb olub. Şair 2015-ci ildə "Azadlıq" Radiosuna müsahibəsində hədələndiyini bildirib.*

*T.Həsənli 12 oktyabr 2015-ci ildə həbs edilib. Ona qarşı CM-in 234.4.3-cü (satış məqsədi ilə qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri əldəetmə və ya saxlama, hazırlama, istehsal etmə, emal etmə, daşıma, göndərmə, yaxud qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri satma, külli miqdarda törədildikdə) maddəsi ilə ittiham irəli sürülüb.*

*22 avqust 2016-cı ildə Lənkəran Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 6 il müddətinə azadlıqdan məhrumdilib.*

*16 mart 2019-cu il tarixli Prezidentin Əfv Sərəncamına əsasən azadlığa buraxılıb.*





Əgər mən icazə ərizəsi yazmış, narkotikin bilavasitə yerini göstərmiş olsaydım, onda nə üçün bütün dindirilən şahidlər ilk olaraq zibil qutusunu, sonra paltarın ciblərini, nəhayət, axtarışdan sonra bildirdiyim yerdən tapdıqlarını söyləyirlər? Buna və yazılan ərizənin saat vaxtına baxan ağılsız adam da anlayar ki, bu ərizəni mənə bütün işləri gördükdən sonra hədə-qorxu ilə yazdırıblar.

Siz istintaq aparmadan işə xitam verməlisiniz.

Bu, açıq-aşkar ədalətsizlik olardı. Amma ədalətə əsaslanaraq desək, aparılan istintaq zamanı ortaya çıxan kifayət qədər ziddiyyətlər, şahidlərin uyğun gəlməyən ifadələri və özünüzün də təsdiq etdiyiniz polisin qeyri-peşəkarlığı mənim bir daha günahsız olduğumu sübut edir. İndi hər kəsi öz vicdanına buraxaraq soruşuram: əgər ədalət tərəzisinin bir gözünə əsassız və qeyri-peşəkar yığılan bu kağızları, digər gözünə isə haqq-ədaləti qoysaq, hansı ağır gələr? Allahı aldatmayın.

Məgər polisin qeyri-peşəkarlıqla özünü ifşa etməsi dövlətçiliyimizə qarşı olunan xəyanət deyilmi? Buna göz yummaq, ən azından, ədalətsizlikdir. Digər tərəfdən, əslində, dükana qanunsuz olaraq soxulanları, yəni Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşlarının dindirilməsini təmin etmədiniz. Hansı ki narkotiki cibə atan da, dükana qoyan da, mənim şərəf və ləyaqətimi alçaldacaqları ilə hədələyən də onlardır. Həmin şəxslər də dindirilsəydi, ziddiyyətlərin sayı-hesabı olmazdı.

Yadınızdadırsa, ilk məhkəmə iclasında dedim ki, hər kəsin vicdanı onun ədaləti ilə ölçülür. İnanıram ki, siz vicdanlı, ədalətli və dövlətin ali qanunlarına hörmətlə yanaşan bir hakimsiniz. Burada olan hər kəsi öz vicdanına buraxıram və 84 yaşlı anamı gözüyaşlı qoymamağınızı xahiş edirəm. Mənə qarşı ədalətsizlik olarsa, bunu Avropa Məhkəməsinə, möhtərəm prezidentimizə göstərəcək və məsuliyyətsiz polislərin cəzalanmasını tələb edəcəyəm. Çox güman, məni Cinayət Məcəlləsinin 234.1 maddəsi ilə ittiham edərək 1 il 6 ay müddətinə azadlıqdan məhrum edəcəksiniz. Bəraət mənim haqqım olsa da, azadlığa buraxılmağımın həm də hamının durumuna uyğun olduğunu hesab edirəm. Hər kəsin Allahın ədalət məhkəməsinə toplanacağını da unutmayın.

Lənkəran Ağır Cinayətlər Məhkəməsi,
Tarix: 23.12. 2016



## Jurnalistlər, blogerlər, yazarlar



### MEHMAN HÜSEYNOVUN MƏHKƏMƏDƏ SON SÖZÜ[8]

Mən orada (Nəsimi rayon Polis İdarəsində - red.) başıma açılan oyunların yalnız 10 faizini danışmışam. Orada mənimlə elə davrandılar, elə bil ermənilər azərbaycanlı əsir əsgərlə davranırlar. Əlirza Əbilov Musa Musayevi elə təqdim elədi, sanki Nəsimi rayonunun polis rəisi yox, bu rayonun Allahıdır. O idarədə adamlarla heyvan kimi rəftar olunur. Şəxsən mənə qarşı belə davranıblar. Mən heç kimə böhtan atmıram, əksinə, mənə böhtan atırlar. Onu da bilirəm ki, bu iddia mənim-

[8] *Videobloger Mehman Hüseynov "Facebook" sosial şəbəkəsində böyük izləyici kütləsi olan "Sancaq Production" səhifəsinin idarəçisidir. Video materialların böyük əksəriyyəti sarkastik və ironik məzmunda hazırlanırdı. Həbsindən bir gün əvvəl yaydığı videosorğuda prezident tərəfindən həyat yoldaşının, ölkənin birinci vitse-prezidenti təyin olunmasını yumoristik tənqid etmişdi. Bu videodan sonra Hüseynov Nəsimi Rayon Polis İdarəsinin rəisi Musa Musayevin irəli sürdüyü xüsusi ittiham qaydasında şikayəti əsasında məhkəmə zalında həbs edilib. Həbsinin səbəbi guya M.Hüseynovun 11 yanvar 2017-ci ildə Nəsimi Rayon Məh- kəməsinin qarşısında polisi ona işgəncə verməkdə və qeyri-insani rəftara məruz qoymaqda ittiham etməsi olub.*

*M.Hüseynov Suraxanı Rayon Məhkəməsinin 3 mart 2017-ci il tarixli hökmü ilə Cinayət Məcəlləsinin 147.2-ci (ağır və ya xüsusilə ağır cinayətdə ittiham etməklə böhtan atma) maddəsində nəzərdə tutulan əməli törətməsində təqsirli bilinərək 2 il müddətinə azadlıqdan məhrum edilib.*

*3 mart 2019-cu ildə cəza müddəti bitdiyi üçün azadlığa buraxılıb.*

fəaliyyətimlə bağlıdır. Onu da deyim ki, məni heç nə fəaliyyətimdən çəkindirə bilməz. Yəni ittihamla razı deyiləm, amma qorxmuram da. Çıxarılan qərar da vecimə deyil. Gördülər ki, onları ifşa edirəm, məni bu cür cəzalandırırlar.

Yuxarıdan nə göstəriş verilibsə, o da olacaq. Mən cinayət törətməmişəm. Məhkəmə də normal keçirilmədi. Bu da siyasi sifarişin olduğunu göstərir. Bu addım birbaşa söz azadlığını boğmağa yönəlib.

Suraxanı Rayon Məhkəməsi,
Tarix: 03.03. 2017



## Jurnalistlər, blogerlər, yazarlar



### ƏFQAN SADIQOVUN MƏHKƏMƏDƏ SON SÖZÜ[9]

Mənim bir cinayətim var: yazılarımda deyirdim ki, vətəndaşlar bir broyler toyuğu almağa pul tapmır, nazir balaları isə ayı əti yeyir. Kəndlərimizdə insanlar isinmək üçün təzək yandırır, ancaq hökumət kilsələrə pulsuz qaz verir. Əgər bunları yazmaq cinayətdirsə, mən ittihamlarla razılaşaram. Məni yolumdan döndərmək istəyirdilər, ancaq bildirmək istəyirəm ki, həbsdən sonra da fəaliyyətimi davam etdirəcəyəm. Mən bu yolu seçmişəm, yolum dəfələrlə məhkəmələrdən keçsə də, dönən deyiləm. Üzümə duranları anlayıram. Onlara demək istəyirəm ki, həbsdən çıxıb əzilən sizlərin, üzə durmağa məcbur edilən zavallı insanların hüquqlarının müdafiəsində dayanacağam.

Cəlilabad Rayon Məhkəməsi,
Tarix: 26.05. 2017

---

9 *"Azel.tv" saytının təsisçisi və redaktoru Ə.Sadıqov 22 noyabr 2016-cı ildə saxlanılıb və ona qarşı Cinayət Məcəllesinin 127.2.2-cü (xuliqanlıq niyyəti ilə sağlamlığa qəsdən ziyan vurma) maddəsi ilə ittiham ireli sürülüb.*

*12 yanvar 2017-ci ildə Cəlilabad Rayon Məhkəməsinin hökmü ilə 2,5 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilib.*

*23 may 2018-ci ildə cəza müddəti bitdiyi üçün azadlığa buraxılıb.*

# Jurnalistlər, blogerlər, yazarlar



## FİKRƏT FƏRƏMƏZOĞLUNUN MƏHKƏMƏDƏ SON SÖZÜ[10]

Ötən məhkəməyə müqəddəs "Qurani-Kərim"lə gəlmişdim. Hamının gözünün qarşısında and içdim: "And olsun əlimdə olan bu kitaba ki, bu adamları tanımıram, pul almamışam, heç vaxt əlaqəmiz olmayıb", - dedim.

Yenə təkrar edirəm: bu kitaba prezident də and içib. Mənə bundan sonra ölüm hökmü də çıxarsanız, ixtiyar sahibisiniz, amma mənə böhtan atılır. Heç bir günahım olmadan 15 aydır ki, həbsdəyəm. Mən mərhəmət yox, bəraət istəyirəm. İndi haqqımda fikir formalaşdırırlar ki, guya həbsim siyasi sifarişli deyil. Yalandır, çünki həbsimin sifariş əsasında və siyasi əsaslarla olduğu istintaq zamanı ortaya çıxır.

[10] *Fikrət Fərəməzoğlu (İbişbəyli) 30 iyun 2016-cı il tarixində Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsində saxlanılıb.*

*O, Cinayət Məcəlləsinin 182.2.1 (hədə-qorxu ilə tələb etmə, yəni zərərçəkmiş şəxsin və ya onun yaxın qohumlarının şəxsiyyəti üzərində zor göstərmə, onların haqqında rüsvayedici məlumatlar yayma və ya onların əmlakını tələfetmə hədəsi ilə özgənin əmlakını və ya əmlaka olan hüququnu və ya əmlak xarakteri daşıyan digər hərəkətlər etməsini tələbetmə, qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə), 182.2.2 (eyni əməllər təkrar törədildikdə) 182.2.4-cü (eyni əməllər xeyli miqdarda əmlak əldə etmək məqsədi ilə törədildikdə) maddələri ilə ittiham edilib.*



"Bandotdel" rəhbərliyi himayə etdiyi əxlaqsızlıq yuvaları və qumarxanaların ifşa olunduğunu, həmçinin polis özbaşınalığı barədə mütəmadi yazılar dərc etdiyimdən əndişələnərək məni həbs etdi. Bunu özləri də etiraf etdilər.

Yalançı şahidlər və iddiaçılara gəlincə, bu adamlar məni tanımır, mən də bu adamları. Heç vaxt rastlaşmadığım adamlardır. Bunlar bu yalanları özbaşına danışmırlar. Bunların arxasında duranlar bu sözləri dedirdir. Onların arxasında duranlardan biri "Bandotdel"in rəisi Seyfulla Əzimovdur, o biri də onun işlərini kurasiya edən Daxili İşlər Nazirliyinin birinci müavini Vilayət Eyvazov. Qəribədir, deyilmi?

Bəli, bir daha bəyan edirəm ki, bu adamlar mənə qarşı qəzəblidirlər. Problemin kökündə dayanan səbəb isə budur ki, mən bu adamların biznesinə toxunmuşam. "Bandotdel"də saxlanılanda mənə dedilər: "Sən bizə 400 min manat zərər vurmusan. Bizim obyektlərimiz haqqında yazılar yazmısan. Get, o pulu gətir, sonra çıx get buradan".

2006-cı ildə mənimlə Daxili işlər naziri Ramil Usubov arasında məhkəmə çəkişməsi olub, o gündən bu yana aramızda qırğın gedir.

*Fikrət Fərəməzoğlu ittihamı qəbul etməyib, rəhbəri olduğu JAM.az (Jurnalist Araşdırma Mərkəzi) saytında Bakı şəhərinin mərkəzində əxlaqsızlıq yuvaları kimi istifadə edilən mehmanxana və digər obyektlərin məmurlar tərəfindən idarə edilməsi barəsində yazılar dərc etdiyini və buna görə də həbs edildiyini bildirib.*

*Jurnalist Bakı Ağır Cinayətlər Məhkəməsinin (sədrlik edən hakim Eldar Mikayılov) 14 iyun 2017-ci il tarixli hökmü ilə 7 il müddətinə azadlıqdan məhrum edilib. 16 mart 2019-cu il tarixli Prezidentin Əfv Sərəncamına əsasən azadlığa buraxılıb.*

Bu gün mənim həbsimin səbəbi həmin 2006-cı ildən başlayan prosesin məntiqi nəticəsidir. Mən də, siz də, prokuror da gözəl bilirik ki, bu, sifarişdir. Bütün Azərbaycan bilir ki, vəziyyət nə yerdədir, məsələ nədən ibarətdir. Bu tamaşanı qurtarmaq lazımdır. Dindirmələri yekunlaşdırın, prosesi qurtarın, hökmü oxuyun. Onsuz da sizə nə deyiləcəksə, nə sifariş olunacaqsa, onu icra edəcəksiniz. Hökmü oxuyun, tezləşdirin, neçə il verəcəksinizsə, verin, çıxaq gedək.

Bakı Ağır Cinayətlər Məhkəməsi,

Tarix: 14.06. 2017



# Jurnalistlər, blogerlər, yazarlar



## ƏFQAN MUXTARLININ MƏHKƏMƏDƏ SON SÖZÜ[11]

Mənə son sözü siz verə bilməzsiniz, mən ömrümün axırına qədər sözümü deyəcəyəm. Mənə qarşı qondarma ittihamla bağlı çox danışıb vaxtınızı almaq istəmirəm. Hər bir halda cinayət törədərkən bunun səbəbi olmalıdır. İttiham tərəfi - Ağır Cinayətlərə dair İstintaq İdarəsi mənim cinayətimi guya 10000 avronu ölkəyə gətirməkdə görür. Əvvəla, bu maddə ilə müstəqillikdən sonra heç kəs həbsdə yatmayıb, heç kəsə cinayət işi açılmayıb.

11 *Əfqan Muxtarlı araşdırmaçı jurnalistdir və həbsinə qədər Gürcüstanda mühacir həyatı yaşayıb.*

*Rəsmi məlumata görə, Ə.Muxtarlı 29 may 2017-ci ildə Azərbaycan-Gürcüstan sərhədində saxlanılıb. O, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 206.1 (qaçaqmalçılıq, yəni Azərbaycan Respublikasının gömrük sərhədindən gömrük nəzarətindən kənar və ya ondan gizli, yaxud sənədlərdən və gömrük eyniləşdirilməsi vasitələrindən aldatma yolu ilə istifadə etməklə, yaxud bəyan etməməklə və ya düzgün bəyan etməməklə bu Məcəllənin 206.2-ci maddəsində qeyd edilənlər istisna olmaqla malların və digər əşyaların külli miqdarda keçirilməsi), 315.2 (xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar hakimiyyət nümayəndəsinə qarşı həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiqetmə) və 318.1-ci (Azərbaycan Respublikasının mühafizə olunan dövlət sərhə- dini müəyyən edilmiş sənədlər olmadan və ya dövlət sərhədinin nəzarət-buraxılış məntəqələrindən kənarda keçmə) maddələri ilə təqsirləndirilib.*

İkincisi, göstərilən məbləğ çox gülməlidir. Bu, təxminən, hakimiyyətdə olanların, Elçin Quliyevin "obed"inin puludur. Həmin pulu ölkəyə gətirmək üçün heç bir sənəd tələb olunmur. Vergisi yoxdur, yalnız deklorasiya yazmaqla keçirmək olur.

Üçüncüsü, mən bu pulu keçirəsi olsaydım, bunu dostlarımın arasında bölüb də keçirə bilərdim. O halda da heç bir qanunu pozmuş olmayacaqdım.

Qondarma ittihamın əsas mahiyyəti ondan ibarətdir ki, mən və Gözəl Bayramlı guya ölkəyə pul gətiririk, nəsə etmək istəyirik. Belə görüntü yaratmaq istədilər. Tapşırıq Prokurorluğa Sərhəd Qoşunlarına, Dövlət Təhlükəsizlik Xidmətinə, Xarici Kəşfiyyat İdarəsinə belə gəlmişdi. Bunlar, sadəcə, fərsiz, bacarıqsızdılar. Bu, iflasa uğramış işdir, ona görə də bununla bağlı çox danışmayacağam.

Həbsə düşməyimin əsas səbəbləri barədə danışmaq istəyirəm. Burada oturan adamların hamısı məni tanıyır. 17 yaşımdan Qarabağda vuruşmuşam, 15 yaşımdan Azərbaycanın müstəqilliyi uğrunda hərəkatda iştirak etmişəm, ölkədə azadlıq və demokratiya uğrunda mübarizədə ön sıralarda olmuşam. Xüsusən də, Əliyevlər rejimi

---

*Jurnalist isə Gürcüstan xüsusi xidmət orqanları tərəfindən Tbilisidə yaşadığı evin yaxınlığında saxlanıldığını və Azərbaycan tərəfində təhvil verildiyini deyib. O, həbsinin Azərbaycan hakimiyyətinin korrupsiya əməlləri barədə yazdığı araşdırmalarla bağlı olduğunu bildirib.*

*Əfqan Muxtarlının Gürcüstanda saxlandığını bu ölkənin sabiq prezidenti Giorgi Marqvelaşvili də təsdiq edib.*

*Ə.Muxtarlı 12 yanvar 2018-ci ildə Balakən Rayon Məhkəməsinin hökmü ilə 6 il müddətinə azadlıqdan məhrum edilib.*





dövründə bu ailənin böyük bir xalqın sərvətlərini talamasına göz yummamışam. Jurnalist olduğum müddətdə Əliyevlər tərəfindən dövlət büdcəsinin talanması ilə bağlı bir neçə araşdırmanın müəllifiyəm.

Bu araşdırmalardan biri Göygölun zəbt olunması haqqındadır. Bu məqalə "Demokrat" qəzetində çap olunmuşdu. Orada Göygöl ərazisinin zəbt olunması, dövlət hesabına böyük bir villanın tikilməsi, həmin villanın gülləkeçirməz pəncərələri, xüsusi mühafizə sədlərinin olması və s. barədə məlumatlar var.

**Hakim:** Mahiyyəti üzrə danış.

**Əfqan Muxtarlı:** İşin mahiyyəti elə budur.

Digər bir araşdırmam ordudakı yeyintilərlə bağlı idi. Həmin araşdırmamda ortaya çıxarmışdım ki, Əliyevlərin şirkətləri silahlı qüvvələrin ərzaq təminatına ayrılmış pulun 90 faizdən yuxarı məbləğini mənimsəyir və əsgərlərə keyfiyyətsiz ərzaq verilir. Daha bir araşdırmam Azərbaycandan oğurlanmış pullar hesabına Gürcüstana vəsaitin yatırılması ilə bağlı idi. Həmin yazıda ortaya qoymuşdum ki, Azərbaycan xalqından oğurlanmış vəsait Azərbaycanda iqtisadiyyata qoyulmur, ölkədən çıxarılır, Gürcüstanın turizm sahəsinə qoyulur, Gürcüstanın ərzaq sənayesinə qoyulur. Həbs olunmağımın digər səbəbi siyasi fəaliyyətimlə bağlıdır. Burada olan hər kəs bilir ki, xarici ölkələrdə və Gürcüstanda Azərbaycan səfirliklərinin, beynəlxalq təşkilatların ofislərinin qarşısında keçirilən aksiyaların təşkilatçılarından biri də mən olmuşam, xüsusən, Gürcüstanda. Və orada hər addımımı, hər günümü Azərbaycan hakimiyyəti izləyirdi. Buna görə də

milyonlarla vəsait xərcləyirdilər. Bu işə görə orada gədələr tutulurdu, çox sayda adamlar saxlayırdılar. Evimin qarşısında post qurulmuşdu. Gecə-gündüz izləyirdilər. Telefonlarımı izləyir, hətta Gürcüstan hüquq-mühafizə orqanlarında işləyən adamları pulla satın alırdılar. Bu adamlar xalqın sərvətlərini insanların rifahına xərcləməkdənsə, Gürcüstanda yaşayan bir jurnalistin izlənməsinə sərf edirdilər.

Həbsimdən əvvəl "Amerikanın Səsi" və digər beynəlxalq kütləvi informasiya vasitələrinə izlənilməyim və Azərbaycana təhvil verilməyimlə bağlı müsahibələrim var. Həmin müsahibələr Gözəl Bayramlının məhkəməsində də təsdiq olunub.

Dövlət Təhlükəsizlik Xidmətinin, Xarici Kəşfiyyat Xidmətinin göndərdiyi məktublarda, raportlarda da açıq-aydın göstərilir ki, 2 il yarım müddət ərzində böyük bir dövlətin təhlükəsizlik xidməti görün kimi izləyib: sadəcə azərbaycanlı bir jurnalisti. Ölüb yerə girmək lazımdır...

Mən sabaha kimi danışacağam, vaxtım var. Qanunla da məhdudlaşdıra bilməzsiniz. Həbsxanda oturmaq və s. bunlar boş şeylərdir. Biz həbsdə də yazacağıq. Biz ona görə yazmırıq ki, Əliyevləri devirəcəyik, biz yazılarımızla insanlara ümid veririk. İnsanlara verdiyimiz ümidi əlimizdən ala bilməzsiniz. Məni həbsxanaya atacaqsınız, başqası yazacaq.

Necə ki Elmar Hüseynovu, Rafiq Tağını, Rasim Əliyevi öldürdünüz, biz yazdıq. Siz həm də dostum Mehman Qələndərlini öldürdünüz - Gürcüstanda mənimlə birlikdə aksiyalarda iştirak edən blogeri.





Kürdəxanı həbsxanasında vicdansızcasına öldürüb qanını batırdınız. Mən onlara baxanda şanslı adamam.

Məni tutub Saqareco rayonunda bir yerə aparmışdılar. Gözümü açanda elə bildim ki, öldürəcəklər. Dedim, bıçaqla vurmayın, güllə ilə vurun. Öldürsəydilər də, vecimə deyildi.

Əfqan Muxtarlını tutmaqla, öldürməklə və yaxud digər jurnalistləri öldürməklə bu xalqın haqq deyən səsini boğa bilməzsiniz, cənab hakim. Çünki bu xalq qısır deyil. Kimlərsə hakim ailənin quludur, bu prokuror kimi...

Ona görə də heç kəs həbsxanadan qorxmasın, həbsxanada da insanlar yaşayır. Əksinə, həbsxanada bizə hörmət çöldəkindən 10 dəfə artıqdır. Çünki içəridəki insanların hamısı haqsızlıqlarla üzləşən adamlardır. Onlar hər şeyi bilirlər, həbsxana içərisində daha yaxşı başa düşürlər. Və inqilabi iş aparmaqdan ötrü, ölkədə dəyişiklik etməkdən ötrü böyük kütlə var. Həbsdə olan insanlar da bizim insanlarımızdır. Onların da yanında bizim adamlarımızdan olmalıdır və mən bu gun oradayam. Qapalı həbsxanaya salsalar, orada da işimi davam etdirəcəyəm. Nə türmələriniz, nə bıçaqlarınız, nə güllələriniz, nə bu prokuror kimi qullarınız... (Hakim son sözü yarımçıq saxlayır).

Balakən Rayon Məhkəməsi,
Tarix: 12. 01. 2018

# VƏTƏNDAŞ CƏMİYYƏTİ



## ANAR MƏMƏDLİNİN MƏHKƏMƏDƏ SON SÖZÜ[12]

Hörmətli məhkəmə heyəti və məhkəmə iclası iştirakçıları!

Öncə Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzi (SMDT) və Könüllülərin Beynəlxalq Əməkdaşlığına (KBƏ) qarşı qaldırılmış cinayət işi ilə bağlı ötən 6 aylıq dönəmdə bizə dəstək verən vəkillərə, jurnalistlərə, yerli və beynəlxalq hüquq-müdafiə təşkilatlarına, siyasi partiyalar və vətəndaş cəmiyyəti fəallarına təşəkkür edirik. Eyni zamanda həbsdə olduğum 5 aylıq müddətdə mənə və ailəmə dəstək olan hər kəsə təşəkkür edirəm.

[12] *Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzinin rəhbəri Anar Məmmədli 16 dekabr 2013-cü ildə saxlanılıb. Bu həbsdən sonra yerli qeyri-hökumət təşkilatlarına basqılar başlanıb. Hüquq müdafiəçisinə qarşı Cinayət Məcəlləsinin 179.3.2 (mənimsəmə və ya israfetmə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə ittiham irəli sürülüb.*

*"Amnesty İnternational" təşkilatı Anar Məmmədlini "vicdan məhbusu" kimi tanıyıb. Çoxsaylı beynəlxalq və yerli hüquq-müdafiə təşkilatları Məmmədlinin dərhal azadlığa buraxılması tələbi ilə bəyanatlarla çıxış edib.*

*24 dekabr 2013-cü ildə Amerika Dövlət Departamenti Anar Məmmədlinin dərhal azadlığa buraxılması barədə bəyanat yayıb.*

*26 may 2014-cü ildə Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 5,6 il müddətinə azadlıqdan məhrumedilmə cəzasına məhkum edilib.*

*A.Məmmədli 18 mart 2016-cı ildə prezidentin əfv sərəncamına əsasən azadlığa buraxılıb.*





İttiham aktında mənim, Süleymanlı Bəşir və Məmmədov Elnurun SMDT və Könüllülərin Beynəlxalq Əməkdaşlığı İctimai Birliyi çərçivəsində fəaliyyəti bir qrup şəxsin əlbir olaraq ağır cinayətlərə səbəb olan fəaliyyəti kimi göstərilib. Bu, istintaqın, konkret olaraq Baş Prokurorluğun və dolayısı ilə Azərbaycan Respublikası hökumətinin, vətəndaşlarının yerli seçki müşahidəçiliyinin təşkilinə yönəlmiş ictimai birliyinə qarşı əsassız, qanunsuz və barışmaz münasibətinin göstəricisidir. Əslində isə Azərbaycan Respublikası dövlət orqanlarının bizim vətəndaş ittifaqını tanıyıb-tanımamasından asılı olmayaraq, bu birliyin hüquqi əsasları Azərbaycan Respublikası Konstitusiyası və Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq sənədlər - BMT-nin sənədləri, Avropa İnsan Hüquqları Konvensiyası, ATƏT-in Helsinki Yekun Aktı, Kopenhagen və Moskva sənədlərilə təmin olunur.

Biz, Azərbaycanda azad və demokratik seçkilərin keçirilməsi, mövcud seçki qanunvericiliyi və təcrübənin təkmilləşdirilməsi yönündə çalışan vətəndaşların yerli seçki müşahidə qrupu olmuşuq və bu qrup 2001-2008-ci illərdə SMM, 2008-2013-cü illərdə isə SMDT kimi çalışıb. Bu baxımdan hazırkı ittihamda bizim, cinayətkar məqsədlər naminə bir araya gələn qrup kimi xarakterizə olunmağımızı birləşmək, toplaşmaq və ifadə azadlığına təcavüz və təzyiq hesab edirəm! İttiham aktında mən, "fiziki şəxs" olduğum halda hüquqi şəxs yaratmadan, qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olmaqda ittiham edilirəm. Ancaq həyatım boyu heç vaxt nə qanuni, nə də qanunsuz sahibkarlıqla məşğul olmuşam.

Azərbaycan yerli seçki müşahidəçiliyi və müstəqil vətəndaş cəmiyyətinə qarşı siyasi ayrı-seçkiliyin ən bariz nümunəsi 14 may 2008-ci

ildə SMM-in dövlət qeydiyyatının Ədliyyə Nazirliyinin qanunsuz iddiası əsasında Xətai Rayon Məhkəməsində ləğvi oldu. Bundan sonra SMM-in təsisçisi və üzvü kimi biz SMDT-ni təsis etməli olduq. Ancaq Ədliyyə Nazirliyinə olan iki müraciətimizə baxmayaraq, qanunsuz və ədalətsiz olaraq, dövlət bizim SMDT-də qurduğumuz birliyi tanımadı və bizə olan barışmaz münasibəti davam etdirdi. Ancaq Azərbaycanda unudurlar ki, hər hansı QHT-nin dövlət qeydiyyatına alınmaması bu qurumun fəaliyyət göstərməməsi üçün əsas ola bilməz. Çünki birləşmək azadlığı hər bir ölkə vətəndaşının müstəsna və təməl hüququdur, bu hüququ siyasi ayrı-seçkilik göstərmədən tanımaq isə dövlətin vəzifəsidir.

Düzdür, Avropa presedent hüququ siyasi, milli, irqi, dini və cinsi ayrı-seçkiliyi təbliğ edən QHT-lərin, habelə cinayətkar məqsədlərlə yaradılan qurumların fəaliyyətini qadağan edir. Ancaq bizim fəaliyyətimizdə bu cür hallar heç zaman olmayıb. Bildiyim qədər, ölkəmizin milli qanunvericiliyi yerli seçki müşahidəçiliyini qeyri-qanuni əməllər sırasına daxil etməyib və bu baxımdan bizim fəaliyyətimiz cinayət məqsədilə yaradılan ictimai birlik hesab oluna bilməz.

Əslində, SMM və SMDT-yə münasibətdə Azərbaycan hökuməti, üzərinə düşən öhdəliyi yerinə yetirməyib. Bununla da 2008-ci ildən başlayaraq, davamlı şəkildə SMDT təsisçiləri və üzvlərinin birləşmək hüququ pozulub. Nəticədə isə biz seçkilərin monitorinqi, vətəndaşların dövlət idarəetməsində iştirakı, seçkili hakimiyyət orqanlarının hesabatlılığının artırılması yönündə proqramlarımızı çətinliklə də olsa, qeydiyyatsız QHT kimi icra etmişik. Təşkilatın icra etdiyi proqramlar müxtəlif donorlardan olmaqla, bütünlüklə xarici fondlar və səfirliklərin





ayırdığı qrantlar əsasında gerçəkləşib. Bu proqramlar üzrə maliyyə əməliyyatlarını şəffaf qaydada həyata keçirmək üçün mən, 2006-cı ildə Vergilər Nazirliyində fiziki şəxs kimi qeydiyyatda olduğum Vergi Ödəyicisinin Eyniləşdirmə Nömrəsi və onun rekvizitlərindən istifadə etmişəm. Belə ki, fiziki şəxs kimi açdığım bank hesablarına qrant vəsaitlərin köçürülməsi və idarəsi tamamilə şəffaf qaydada aparılıb və bütün vergi öhdəlikləri icra olunub. Məsələn, 2008-2013-cü illərdə fiziki şəxs kimi mənim bank hesablarıma SMDT-nin proqramları üçün ümumilikdə 480 min AZN məbləğində vəsait daxil olub və bu vəsaitlərin xərclənməsi üzrə sənədlər və hesabatlar istintaqa təqdim edilib.

Bu məbləğlərin hamısı qrant vəsaitləri olmaqla ƏDV-yə cəlb olunmayıb, ancaq əməkhaqqı fondu və xidmət haqlarına görə 12000 AZN-dən artıq vergi və sosial ödəmələr tutularaq dövlətə ödənilib.

Bizim 2013-cü ildə KBƏ və DJM ilə Əməkdaşlığımızın isə 2 tərəfi var: SMDT-nin dövlət qeydiyyatının olmaması.

11 mart 2013-cü ildə qüvvəyə minmiş əlavə və dəyişikliklər nəticəsində qrantların qeydiyyatı ilə bağlı qaydaların sərtləşdirilməsi. Qeyd etdiyim kimi, SMDT dövlət qeydiyyatına alınmadığı üçün layihələrlə bağlı maliyyə öhdəliyini mən fiziki şəxs kimi üzərimə götürmüşəm. Ancaq 11 mart 2013-cü ildə qrant layihələrinin qeydiyyatı məsələsi icbari səciyyə daşıdı və mən artıq fiziki şəxs kimi SMDT-nin adına olan qrantlarla bağlı müqavilə bağlamaq imkanından məhrum oldum. Çünki qanunvericilikdə kommersiya təşkilatlarının qrant layihələrinin İqtisadi İnkişaf Nazirliyində, qeyri-kommersiya təşkilatları adına qrant müqavilələrinin isə Ədliyyə Nazirliyində qeydiyyatı

nəzərdə tutuldu. Bununla da SMDT-nin təsisçiləri olan şəxslərin fərdi qaydada qrant müqavilələrinin taleyi sual altına düşürdü. Məhz bu səbəblər bizi vadar etdi ki, 9 oktyabr 2013-cü il prezident seçkisi ilə bağlı birgə əməkdaşlıq barədə Könüllülərin Beynəlxalq Əməkdaşlığı İctimai Birliyi və Demokratik Jurnalistika Məktəbi ilə razılığa gələk.

Tam əminliklə bildirirəm ki, KBƏ-nin və DJM-in SMDT ilə əməkdaşlığı hüquqi zərurətdən doğan, ancaq hüquqi normalarla qadağan olunmayan əməkdaşlıq olub. Bu təxribatlar vasitəsilə 2013-cü il ərzində icra olunan layihələrdən birində mən, digərində isə Bəşir Süleymanlı layihə rəhbəri olmuşuq.

İttiham aktı üzrə bizim təqsirləndirildiyimiz hallara və maddələrə gəldikdə, qəti olaraq bildirirəm ki, istintaq bizim təqsirlərimizi sübuta yetirə bilməyib. Bunu ənənəvi Azərbaycan reallığı və bizə qarşı ittihamın siyasi xarakterli olması ilə izah edərək, hesab edirəm ki, ittihamlara özüm aydınlıq gətirməli olacağam. Əvvəla, Cinayət Məcəlləsinin 213.1-ci maddəsi üzrə mənim, fiziki şəxs kimi idarə etdiyim layihələr üzrə 2008-2013-cü illərdə vergidən və ya məcburi dövlət sosial sığorta haqlarını ödəməkdən yayınmam olmayıb. Əgər 2013-cü ildə SMDT-nin KBƏ ilə birgə icra etdiyi layihənin ƏDV-yə cəlb olunmasından söhbət gedirsə, bu, absurddur. Çünki ölkədəki bütün qrantlar ƏDV-dən azaddır. Məsələn, hazırda ölkədə milli donorçuluğun "təntənəsi" hesab olunan QHT-lərə Dövlət Dəstəyi Şurasının maliyyələşdirdiyi layihələr ƏDV-yə cəlb olunmur. Elə isə niyə bizim xaricdən maliyyəşən qrantımız ƏDV-yə cəlb olunur?





İkinci ittiham, qanunsuz sahibkarlıqla bağlıdır. Bu, o qədər gülünc və əsassız ittihamdır ki, münasibət bildirməyi yersiz hesab edirəm.

Cinayət Məcəllәsinin 308.2-ci maddəsi əsasında biz "vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə" dövlətin və cəmiyyətin qanunla qorunan mənafelərinə zərər vurmaqda və seçkinin (referendumun) nəticələrinə təsir məqsədilə törədilən cinayətdə ittiham edilirik. Açığı, bu ittiham tamamilə mənə aydın deyil. Əgər seçkinin nəticələrinə təsir etməkdən söhbət gedirsə, biz seçki müşahidə qrupu olmuşuq. Və seçkinin nəticələrinə təsir etmək imkanımız olmayıb. Bu maddə, əsasən, yerli icra hakimiyyəti orqanları, dövlət büdcəsindən maliyyələşən təşkilatlar, bələdiyyə və seçki komissiyası üzvlərinə şamil oluna bilər. Çünki bizim son 10 ildə apardığımız seçki monitorinqi göstərir ki, seçkilərin nəticələrinə qeyri-qanuni yolla təsir edənlər sözügedən qurumların nümayəndələridir. Əlbəttə ki, bizim son 10 ildə keçirilən seçkilərə təsir etmək imkanımız olsa idi, indi ölkəmizdə demokratik seçki sistemi formalaşmış olardı. İkincisi isə bu ittiham bizə ona görə tətbiq oluna bilməz ki, bizim fəaliyyətimizdə dövlətin və cəmiyyətin mənafeyinə zidd hec nə olmayıb. Əksinə, SMM və SMDT-nin 2007-2013-cü illərdə fəaliyyəti nəticəsində Azərbaycan cəmiyyəti bizim hazırladığımız hesabatlar, tövsiyələr və qanunvericilik təşəbbüslərindən faydalanıb. Biz apardığımız tərəfsiz və obyektiv seçki müşahidəçiliyi sayəsində Azərbaycanın seçki sisteminin alternativ tarixini yazmış, siyasi proseslərin salnaməsini yaratmışıq.

Digər ittihama gəldikdə, bizə etibar edilmiş özgə əmlakını talama, mənimsəmə və ya israfetmə ilə bağlıdır. Ancaq ittiham aktını oxuyanda aydın olmur ki, söhbət hansı özgə əmlakından gedir. Məsələn,

ittihamda mənim idarə etdiyim qrantlar üzrə 2008-2012-ci illər üçün 41 min AZN-in guya mənimsənildiyi və bir qrup şəxsin "zərər çəkdiyi" iddia olunur. Əvvəla, bu şəxslər ötən müddət ərzində iddiaçı olmayıblar və bizim layihələrdə istəkləri ilə layihənin büdcəsinə uyğun çalışıblar. Onlar nə mənə, nə də digər əməkdaşlara indiyədək narazılıq etməyiblər. İndi necə oldu ki, beş ayın içində "zərərçəkənə" çevriliblər?

Göründüyü kimi, istintaqın ortaya qoyduğu iddiaların heç bir əsası yoxdur və hüquqi baxımdan bu cinayət işinə başlamaq üçün motivlər olmayıb. Elə isə sual ortaya çıxır ki, siyasi hakimiyyətin sifarişi əsasında bu cinayət işinə nədən başlamaq göstərişi verilib. Təbii ki, bunun ilkin səbəbi bizim, yerli seçki-müşahidə təşkilatı kimi 9 oktyabr 2013-cü il prezident seçkilərinin Azərbaycan Respublikası qanunvericiliyinin və beynəlxalq prinsiplərin kobud şəkildə pozulması ilə baş tutmasını göstərməyimiz oldu. Bununla da hakimiyyət həm bizi cəzalandırmaq, həm ictimai rəydə bizi gözdən salmaq, həm də beynəlxalq partnyorlarımızı şantaj etmək məqsədi güddü. Xüsusi olaraq bir məsələyə diqqət çəkmək istəyirəm ki, hakimiyyət bizim fəaliyyətimizi Azərbaycan vətəndaşlarının könüllü, milli və demokratik ittifaqı nəticəsində təzahür edən faydalı və zəruri çalışma kimi qəbul etmək istəmir. Azərbaycan hakimiyyətinə elə gəlir ki, bizi yerli seçki müşahidəçili-yinə, seçkili hakimiyyət orqanlarının hesabatlılığına, vətəndaşların isə dövlət idarəçiliyi sahəsində bilgili və bacarıqlı olmasına yönəlmiş fəaliyyətə vadar edənlər xarici qüvvələrdir. Əslində, bununla da Azərbaycan hakimiyyəti təmsilçiləri Azərbaycan xalqının XX əsrin əvvəllərində formalaşan milli və siyasi kimliyindən nə qədər uzaq olduğunu göstərmiş olurlar. Ancaq görünür, biz hər dəfə xatırlatmalıyıq ki, indiki Azərbaycan Respublikası 1918-ci ildə qurulmuş AXC-nin quru





və miskin varisi deyil, gerçək, həqiqi, hüquqi, siyasi və mənəvi varisi olmalıdır. M. F. Axundovun, F. X Xoyskinin Ə.M.Topçubaşov, M.Ə Rəsulzadə kimi siyasi fikir adamlarının arzuladığı demokratik, dünyəvi, hüquqi dövləti qurmaq üçün də azad və ədalətli seçkilərin keçirilməsi çox vacibdir. Biz qəti olaraq əminik ki, Azərbaycanda seçkili hakimiyyət orqanlarının azad və ədalətli seçkilər nəticəsində formalaşması təmin olunmadıqca, ölkədə ictimai ədaləti, qanunun aliliyini, insan hüquq və azadlıqlarının qorunmasını və nəhayət, ərazi bütövlüyünü və milli təhlükəsizliyi təmin etmək mümkün olmayacaqdır. Bu yerdə M.Ə.Rəsulzadənin Ankarada 1950-ci ildə Azərbaycanda Sovet istilası ilə bağlı çıxışından bir fikri xatırlatmaq istəyərdim: "Azərbaycan xalqı milli müstəqilliyinin bərpa olunması yönündə mücadiləni tarixi missiya kimi gələcək nəsillərə ötürməlidir. Ancaq müstəqilliyin bərpasına nail olmuş nəslin ilk işi ölkədə ictimai ədalətin qorunması və siyasi haqsızlıqların aradan qalxmasına töhfə vermək olmalıdır".

Məncə, Rəsulzadənin bu fikirləri də bizim missiyamız və məqsədlərimizin ötən 10 ildə milli maraqlar üzərində qurulmasına şahidlik edib. Təəssüf edirəm ki, Rəsulzadənin arzuladığı müstəqilliyin bərpasından ötən 22 il ərzində biz ölkəmizdə ictimai ədaləti və siyasi hüquqlara hörməti qura bilməmişik. Bəlkə də, 22 illik bir dönəm kimlərəsə görə çox az bir zamandır. Amma Kürdəxanıdakı İstintaq Təcridxanasında dəfələrlə 20-22 yaşlarında siyasi motivlərlə həbs olunmuş gəncləri, o cümlədən, Şahin Novruzlunu, Əbdül Əbilovu, Məmməd Əzizovu, Bəxtiyar Quliyevi, Elsəvər Mürsəllini, İlkin Rüstəmzadəni, Ömər Məmmədovu görəndə, onlarla rastlaşanda itirdiyimiz 22 il üçün əzab çəkirəm...

İndi Azərbaycanda dəbdə olan mövzulardan biri ölkənin neft

gəlirləri hesabına artan büdcəsi, investisiya və abadlıq layihələri sayəsində sosial-iqtisadi inkişafı tərənnüm etməkdir. Ancaq bu tərənnüm nədənsə iqtisadi blokadada olan Ermənistan və Gürcüstanla müqayisədə aparılsa da, Baltikyanı ölkələrlə müqayisədə aparılmır. Məncə, Azərbaycana daxil olan neft pulları sayəsində biz Baltikyanı ölkələrin malik olduğu sosial dövlət və demokratik siyasi inkişafı qura bilərdik. Ancaq bu, baş vermədi. Çünki biz zamanla dost olmadıq, daha doğrusu, ola bilmədik, buna imkan vermədilər. Zaman bizim xeyrimizə işləsə də, biz zamanla düşmənçilik elədik. Bunun ən böyük səbəbi isə hakimiyyətin zamana, yəni inkişaf və tərəqqiyə postsovet mentalileti, köhnə zehniyyətlə yanaşması oldu. Belə bir ağır durumda bir daha hazırda həbsdə olan və yaşları ölkəmizin müstəqilliyi ilə yaşıd olan gəncləri xatırlamaq istəyirəm. Mən onlar üçün çalışmağa, onların, yəni çağdaşlıq və gələcəyin dostu olmağa çalışmışam və daim zamanın dostu olaraq qalacağam.

Bakı Ağır Cinayətlər Məhkəməsi,
Tarix: 26.05.2014



# VƏTƏNDAŞ CƏMİYYƏTİ



## İNTİQAM ƏLİYEVİN MƏHKƏMƏDƏ SON SÖZÜ[13]

Hörmətli məhkəmə və proses iştirakçıları, dəyərli vəkillərim barəmdə saxta ittihamlarla qaldırılan cinayət işinin hüquqi aspektlərinə toxundular. Mən isə daha çox bu cinayət təqibinin arxasında duran motivlərə, başqa sözlə, həbsimin əsl səbəblərinə diqqət çəkmək istərdim.

Dörd aya yaxın davam edən məhkəmə prosesi həbsimin hüquqi deyil, siyasi motivlərlə - vəkillik və ictimai fəaliyyətimlə bağlı olduğunu bir daha sübuta yetirdi. Mən, əsasən, siyasi xarakterli işlər üzrə ixtisaslaşan hüquqşünasam və 25 illik vəkillik fəaliyyətim dövründə yüzlərlə məhkəmə işində çıxış etmişəm.

13 *İntiqam Əliyev 8 avqust 2014-cü ildə həbs edilib. CM-in 213.1-ci (vergidən yayınma), 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə etmə) və 192.2-ci (qanunsuz sahibkarlıq) maddələri ilə ittiham olunan hüquq müdafiəçisi 22 aprel 2015-ci ildə Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 7,6 il müddətinə azadlıqdan məhrum edilib. "Amnesty İnternational" təşkilatı onu vicdan məhbusu kimi tanıyıb.*

*28 mart 2016-cı ildə Baş Prokuror Zakir Qaralovun əlavə kassasiya protesti əsasında Ali Məhkəmənin Plenumu CM-in 70-ci maddəsini tətbiq edərək İ.Əliyevin 5 il sınaq müddəti ilə, cəzasının qalan hissəsini şərti çəkməklə azadlığa buraxılması barədə qərar qəbul edib.*

2001-ci ildə Azərbaycan Avropa İnsan Hüquqları Məhkəməsinin yurisdiksiyasına daxil olduqdan sonra bu quruma 200-dən çox şikayət göndərmişəm, onların əksəriyyəti siyasi hüquqların pozuntusu ilə bağlıdır. Bu şikayətlərdən 50-yə yaxını uğurlu sonluqla bitib: həmin işlərin arasında 2005-ci ilin parlament seçkiləri ilə bağlı 14 iş, o cümlədən ifadə, birləşmək azadlığı, işgəncəyə məruz qalmamaq, ədalətli məhkəmə araşdırması, mülkiyyət və digər hüquqların pozuntusu ilə bağlı işlər var.

2010-cu ilin parlament seçkilərində yol verilən pozuntularla bağlı Avropa Məhkəməsində Azərbaycana qarşı qaldırılan şikayətlərin böyük bir hissəsi mənim payıma düşür. Hazırda həmin şikayətlərin otuzdan çoxu kommunikasiya və ya qərarların verilməsi mərhələsindədir. Bu işlərdə təmsil etdiyim şəxslər, əsasən, ölkənin aparıcı müxalifət partiyalarının liderləri, ictimai xadimlər, vətəndaş cəmiyyəti fəallarıdır. Şikayətlərdə seçkilərin gedişində kobud qanun pozuntuları – seçki saxtakarlıqları, dövlət resurslarından hakim partiyanın və onun namizədlərinin xeyrinə istifadə, seçki komissiyaları üzvlərinin, seçicilərin ələ alınması, yerli hakimiyyət qurumlarının, polis və digər strukturların seçki prosesinə qanunsuz müdaxiləsi və digər kobud qanun pozuntularından söhbət gedir. Həmin seçkilərdə xeyrinə saxtakarlıq edilən hakim partiyanın nümayəndələri arasında hazırda ölkə parlamentində, yerli mərkəzi icra hakimiyyəti orqanlarında, o cümlədən Avropa Şurası və ATƏT-in parlament assambleyalarında təmsil olunan xeyli şəxs var.

Hökumət həm buna görə, həm də gələcəkdə həmin işlər üzrə





Avropa Məhkəməsinin qərarlarının icrasına Avropa Şurası Nazirlər Komitəsinin (AŞ NK) nəzarətini aradan qaldırmaq məqsədilə həmin şikayətlərin Məhkəmənin baxdığı işlərin siyahısından çıxarılması üçün çox canfəşanlıq edirdi. Biz isə şikayətlərin siyahıdan çıxarılması barədə hökumətin tələbinə qarşı çox ciddi arqumentlər irəli sürməklə buna mane olurduq.

Onu da qeyd edim ki, 2005-ci ilin parlament seçkiləri ilə bağlı hökumət arxasında xoş niyyət dayanmadığı əvvəldən aşkar görünən, birtərəfli bəyanatla üzərinə öhdəliklər götürməklə, bir sıra mühüm şikayətlərin Avropa Məhkəməsinin baxdığı işlərin siyahısından çıxarılmasına nail olmuşdu. Biz o zaman həmin ədalətsiz qərarlarla bağlı ciddi etiraz kampaniyaları keçirdik. Sonradan hökumət barmağına doladığı Məhkəmənin qarşısında üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməkdən imtina etdi. 2005-ci ilin parlament seçkiləri ilə bağlı mahiyyət üzrə çıxarılmış qərarların icrası – xüsusilə, hökumətin seçki qanunvericiliyinin və onun tətbiqi praktikasının təkmilləşdirilməsinə yönəlik tədbirlər görməyə məcbur edilməsi istiqamətində səylərimizi durmadan davam etdirirdik. Strasburqa ünvanladığımız müraciətlərdə hökumətin təqdim etdiyi Fəaliyyət Proqramının formal xarakterli olduğunu, onun üzərinə götürdüyü öhdəlikləri icra etməkdən yayındığını və qərarların real icrası istiqamətində hökumətdən real addımlar atılmasının tələb olunmasının vacibliyini AŞ NK qarşısında qaldırırdıq. Bunlar seçki komissiyalarının və məhkəmələrin müstəqilliyinin gücləndirilməsi, seçki şikayətlərinə baxılması prosedurlarının təkmilləşdirilməsi, media və toplantı azadlığının təmin olunması, ayrı-seçkiliyin aradan qaldırılması, bütün partyalar və namizədlər üçün bərabər im-

kanlar yaradılması və s. ilə bağlı idi.

Digər partnyorlarımızla birgə apardığımız uğurlu işin nəticəsi olaraq, AŞ NK 2014-cü ilin iyun ayındakı iclasında Azərbaycan hökumətinin seçki işləri ilə bağlı Avropa Məhkəməsinin qərarlarının icrası üzrə təqdim etdiyi Fəaliyyət Planını qəbul etmədi və yeni Plan təqdim etmək üçün ona vaxt verdi. Həmçinin Məhkəmə 2005-ci ildən fərqli olaraq, 2010-cu ilin seçkiləri ilə bağlı hökumətin birtərəfli bəyanatları əsasında şikayətləri baxılan işlərin siyahısından çıxarmaq barədə təkliflərini rədd etdi.

Həbsimdə Avropa Məhkəməsi sahəsində, xüsusilə, seçki işləri ilə bağlı fəaliyyətim əhəmiyyətli rol oynadı. Bu fəaliyyətim hökumətdə çox qıcıq doğururdu və bunun mənim və təşkilatımız üçün arzuolunmaz nəticələrə səbəb ola biləcəyi dəfələrlə diqqətimə çatdırılmışdı. Rəhbərlik etdiyim təşkilatın ofisində axtarış aparılan zaman prokurorluğun əməkdaşları həm seçki işləri, həm də Avropa Məhkəməsinə ünvanladığım digər pozuntularla bağlı 200-dən çox şikayət üzrə bütün materialları heç bir qeydiyyat aparmadan torbalara doldurub apardılar. Bu işlərin əksəriyyəti strateji xarakterli şikayətlərdir. Götürülən məhkəmə işlərinin materialları arasında Ədliyyə Nazirliyinin illərlə qanunsuz olaraq qeydiyyata almaqdan imtina etdiyi 30-dan çox QHT-nin, o cümlədən hazırda həbsdə olan vicdan məhbusu Anar Məmmədlinin və bu yaxınlarda azadlığa buraxılan Bəşir Süleymanlının təsisçiləri olduğu Seçkilərin Monitorinqi Mərkəzinin (2008-ci ildə prezident seçkiləri ərəfəsində ləğv olunub) və Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzinin də (2010-cu ildə təsis olunmuş,





lakin ƏN-nin qeydiyyatından imtina etdiyi) sənədləri var.

Yeri gəlmişkən, Ədliyyə Nazirliyinin mənə və rəhbərlik etdiyim quruma qarşı qərəzli mövqeyinin olmasında həm də mənim bu quruma qarşı həm ölkədaxili məhkəmələrdə, həm də Avropa Məhkəməsində qaldırdığım çoxsaylı məhkəmə işlərinin, hazırladığım hesabatların, mediada və yerli və beynəlxalq tədbirlərdə tənqidi çıxışlarımın az rolu yoxdur.

Həmçinin prokurorluğun əməkdaşları HMC-nin ofisindən həm təşkilatın xətti ilə, həm də mənim fərdi qaydada ölkədaxili məhkəmələrdə təmsil etdiyim 40-a yaxın məhkəmə işinin materiallarını apardılar. Bu işlərin əksəriyyəti mərkəzi və yerli icra hakimiyyəti orqanlarının fiziki və hüquqi şəxslərin siyasi, sosial, iqtisadi və s. hüquqlarına qanunsuz müdaxilələrlə bağlı strateji xarakterli işlərdir. Həmin sənədləri bizə qaytarmaqdan imtina edən prokurorluğun qanunsuz hərəkətləri nəticəsində bu şikayətlərin bir çoxunun Avropa Məhkəməsinə göndərilməsi üçün müəyyən olunmuş 6 aylıq müddət ötürüldü.

Mənə elan edilmiş ittihamlarla heç bir bağlılığı olmadığı halda, bütün vəkil dosyelərinin götürülməsi, həmçinin həmin şikayətlərin və onlarla bağlı sənədlərin elektron versiyalarının olduğu bütün kompüterlərin, noutbukların, yaddaş kartlarının, disklərin və digər elektron informasiya daşıyıcılarının hamısının götürülməsi, istintaq başa çatdıqdan sonra da həmin sənədlərin və avadanlıqların qaytarılmasından qanunsuz olaraq imtina olunması həbsimin, həmçinin vəkillik fəaliy-

yətimlə bağlı olduğunu təsdiqləyən çoxsaylı faktlardan daha biridir.

2014-cü ilin noyabrında Avropa Məhkəməsinin sədrinin, o, Bakıda olarkən ölkənin Baş Prokuroruna təşkilatımızın ofisindən götürülən dosyelərin qaytarılması ilə bağlı müraciətindən sonra, həmin sənədlərin bir hissəsi müvafiq rəsmiləşdirmə və mənim iştirakım olmadan vəkilimə qaytarıldı. Lakin qaytarılan sənədlərin əksəriyyəti artıq Avropa Məhkəməsində baxılmış işlərlə bağlı idi; həm yerli məhkəmələrin, həm də AM-in icraatında olan məhkəmə işlərinin isə çox az bir hissəsi qaytarıldı. Qaytarılan qovluqlardan bir sıra mühüm sənədlər prokurorluq tərəfindən götürüldüyü üçün Avropa Məhkəməsi ilə kommunikasiyalarda ciddi problemlər yaranıb.

Çıxışımın əvvəlində söylədiyim kimi, həbsimin səbəblərindən biri də ictimai fəaliyyətimlə bağlıdır. Barəmdə tez-tez: "O, insanların beyinlərini zəhərləyir", – deyirlər. Bunu öncələr də eşitmişdim, məhkəmədə də bu fikir səsləndirildi, həbsxanada da bunu özümə və başqalarına eşitdirirlər. Bəli, mən uzun illər ərzində həm öz təşkilatımın, həm də çoxsaylı beynəlxalq təşkilatların xətti ilə ayrılıqda və həmkarlarımla birlikdə çoxsaylı maarifləndirici təlim və seminarlarda minlərlə insanın beynini insan haqları kimi ziyanlı ideologiya ilə zəhərləməklə məşğul olmuşam və buna görə çox mutluyam.

Son illərdə mənim yerli və beynəlxalq mediada Azərbaycanda insan hüquqları, demokratiya və hüququn aliliyinin müxtəlif problemləri ilə bağlı çoxsaylı məqalələrim, araşdırmalarım, müsahibələrim dərc olunub. Həmçinin çoxsaylı beynəlxalq konfranslarda, forumlarda, o





cümlədən Avropa Şurasında, Avropa Birliyində, BMT-də, ATƏT-in illik toplantılarında Azərbaycanda insan hüquqlarının durumu ilə bağlı müxtəlif mövzular – vəkillik, toplaşmaq, birləşmək azadlığı, azad seçki, işgəncələrə məruz qalmamaq, ədalətli məhkəmə araşdırması hüququ, o sıradan siyasi məhbus problemi ilə bağlı mövzular ətrafında çoxsaylı çıxışlarım, məruzələrim olub. Onlarda hakimiyyətin həmin sahələrdə fəaliyyəti sərt tənqid olunub.

2014-cü ilin iyun ayında Avropa Şurası Parlament Assambleyasının Yay Sessiyasında – Azərbaycanın bu qurumun Nazirlər Komitəsinə Sədrliyinin başlaması ilə bağlı ölkə prezidenti İlham Əliyevin AŞPA üzvləri qarşısında məlum çıxışından bir gün öncə AŞPA üzvləri, AŞ-ın əməkdaşları və media təmsilçiləri üçün təşkil olunan tədbirə qatılmışam. Həmin tədbirdə Azərbaycanın AŞNK-ya sədrliyi ərəfəsində ölkədə insan hüquqları sahəsində durumun əhəmiyyətli şəkildə pisləşməsi, hakimiyyətin müstəqil vətəndaş cəmiyyətinə və onlarla əməkdaşlıq edən beynəlxalq təşkilatlara basqılarının güclənməsi, müxalif siyasi partiyaların, müstəqil media və qeyri-hökumət təşkilatlarının sistemli şəkildə sıradan çıxarılması, o cümlədən siyasi məhbus problemi ilə bağlı sərt tənqidi çıxış etmişəm və İlham Əliyevi diktator adlandırmışam; həmçinin sessiya dövründə insan hüquqları sahəsində çalışan nüfuzlu beynəlxalq təşkilatların, xaricdə yaşayan azərbaycanlıların və Bakıda sessiyanın işinə qatılmaq üçün gələn bir qrup vətəndaş cəmiyyəti fəallarının iştirakı ilə keçirilən dinc xarakterli etiraz toplantılarında iştirak etmişəm. Həmin tədbirdən bir gün sonra

İlham Əliyev AŞPA üzvləri qarşısında çıxışında ölkədəki müxalifətin, insan hüquqları sahəsində təşkilatların və onlarla əməkdaşlıq edən qurumların ünvanına sərt ifadələr işlətmişdi. Həmin tədbirdən sonra sessiyanın işinə qatılan vətəndaş cəmiyyəti təmsilçiləri haqqında, o cümlədən mənim barəmdə hökümətyönlü KİV-lərdə sistemli şəkildə qara piar kampaniyasına start verildi. Bizi satqın, düşmən, Azərbaycanda zorla hakimiyyət dəyişikliyinə çalışan xarici qüvvələrin beşinci kolonu kimi təqdim edirdilər.

Çox qısa müddət sonra – 2014-cü ilin avqust ayının əvvəlində məni və həmin tədbirdə çıxış edən QHT lideri Rəsul Cəfərovu həbs etdilər. Tədbirə qatılan başqa bir QHT lideri - Gülnarə Axundova barəsində cinayət işi qaldırılsa da, o, ölkəni tərk etməklə cinayət təqibindən yaxa qurtara bildi. Barəsində cinayət işi qaldırılmış və həbs qərarı seçilmiş daha bir QHT lideri İsveçrənin Azərbaycandakı Səfirliyinə sığınıb və bunun hesabına hələ ki yarımazadlıqdadır. Həmin tədbirin daha bir iştirakçısı siyasi məhbus siyahısındakı imzasından və rəhbərlik etdiyi təşkilatın xətti ilə ölkə daxilində və Avropa Məhkəməsində apardığı işlərdən imtina etdi və bunun qarşılığında ona ailəsi ilə birlikdə ölkəni tərk etməyə icazə verildi.

Prezident İlham Əliyevin həbsimizdən çox az ötmüş – 2014-cü ilin avqustunda Beyləqanda Gənclər Mərkəzinin açılışından sonra rayon gənclərinin və ictimaiyyətin nümayəndələri ilə görüşündə səsləndirdiyi fikirlər müstəqil vətəndaş cəmiyyəti qurumlarına və onların liderlərinə qarşı basqılara ölkə rəhbərliyinin xeyir-duası ilə start verildiyini bir daha təsdiqləyir: "Bu gün Azərbaycanın uğurlu inkişafını heç də





hər kəs qəbul etmir. Ölkə daxilində də milli satqınlar var ki, onlar xarici antiazərbaycan dairələrinə öz vicdanlarını satıblar. Biz bunu bilirik. Mən bir prezident kimi gündəlik fəaliyyətimdə bu satqınlara qarşı mübarizə aparıram..."

Oxşar məzmunlu açıqlamalar və şərhlər yüksək səviyyəli digər dövlət rəsmilərinin də dilindən müntəzəm olaraq səsləndirilir. Məsələn, Prezident Administrasiyasının rəhbəri R.Mehdiyev "Vestnik Kavkaza" adlı sayta ötən ilin sentyabr ayında verdiyi müsahibədə də əslində həbsimizin əsl motivlərinə aydınlıq gətirib: "Bəzi təşkilatlar, məsələn, Sülh və Demokratiya İnstitutu (Leyla Yunusun rəhbəri olduğu təşkilat – İ.Ə.), Jurnalistlərin Təhlükəsizliyi və Azadlığı İnstitutu (Emin Hüseynovun rəhbəri olduğu təşkilat – İ.Ə.), Hüquq Maarifçiliyi Cəmiyyəti (mənim rəhbəri olduğum təşkilat – İ.Ə.), Demokratiyanın Monitoringi və Tədrisi Mərkəzi (Anar Məmmədlinin rəhbəri olduğu təşkilat – İ.Ə.) və digərləri insan hüquqlarının müdafiəsi adı altında beynəlxalq təşkilatlardan aldıqları böyük qrantları müxtəlif ünvanlara hesabatların göndərilməsi və Azərbaycanın təmsil olunduğu təşkilatlarda antiazərbaycan kampaniyalarının təşkilinə sərf edirlər".

Yeri gəlmişkən, dövlət rəsmilərinin son dövrlərdə güclənən anti-qərb ritorikası istər-istəməz, bəzi suallar da doğurur: Qərb, Avropa Azərbaycanın düşmənidirsə, niyə ölkəmiz Avropa Şurasının, ATƏT-in və digər beynəlxalq qurumların və konvensiyaların üzvü olaraq qalır; niyə dövlət büdcəsindən külli miqdarda vəsaitlər Avropada muzeylərin, tarixi abidələrin bərpasına və qeyri-tarixi abidələrin tikintisinə, Avropa "bayrağı" altında bahalı mahnı müsabiqələrinin, idman oyun-

larının, müxtəlif çempionatların təşkilinə sərf olunur; niyə Avropaya neft və qaz satırıq; niyə valyuta ehtiyatlarımızın əhəmiyyətli hissəsini Avropanın banklarında saxlayırıq?!

Yox, əgər Avropa Azərbaycanın düşməni deyilsə, niyə Avropaya inteqrasiya tərəfdarlarını həbsə atırıq, təşkilatlarını qapadırıq; Avropanın, Qərbin nüfuzlu təşkilatlarını ölkədən qovuruq, onları söyürük, təmsilçilərini ölkəyə buraxmırıq?!

Bu necə olur ki, Avropa, Qərb Azərbaycanda keçirilən saxta seçkiləri dəstəkləyəndə dostumuz, əzizimiz olur, insan haqları, demokratiya sahəsində öhdəliklərini Azərbaycan hakimiyyətinə xatırladanda, siyasi motivli həbslərə, vətəndaş cəmiyyətinə basqılara hətta yumşaq şəkildə (qətnamə və bəyanatlardan uzağa getməyən!) reaksiya verəndə pis?!

Yeri gəlmişkən, AŞPA-nın 2013-cü ildə keçirilən Qış Sessiyasında Azərbaycanda siyasi məhbuslarla bağlı məsələnin müzakirəsində Avropanın ölkədə siyasi məhbusların mövcudluğunu inkar edən Azərbaycan hakimiyyətinə dəstək verməsi, bu problemin həllinə, vətəndaş cəmiyyətinə çox ciddi zərbə idi. Qoca Qitənin demokratik dövlətləri öz ölkələrinin vətəndaşlarının qaz və enerji ilə təmin edilməsi naminə Azərbaycanda siyasi baxışlarına, fərqli düşüncələrinə görə jurnalistlərin, siyasilərin, ictimai fəalların həbsə atılmasına bəraət qazandıran qərara səs verdilər. Deyə bilmərəm, qərar fərqli olsaydı, ölkədə siyasi məhbus problemi həllini tapacaqdı, ya yox, amma onu əminliklə deyə bilərəm ki, bu qələbədən ruhlanan Azərbaycan hakimiyyəti





ölkədə vətəndaş cəmiyyətinə qarşı repressiyaları daha da gücləndirdi, saxta ittihamlarla çoxsaylı insanlar həbsə atıldı.

Azərbaycanın Avropa Şurasının Nazirlər Komitəsinə sədrliyi dövründə isə repressiyalar pik həddinə çatdı. Onlarla yerli təşkilat və bir sıra beynəlxalq qurumlar (NED, İREX, Oxfam, Norveç İnsan Hüquqları Evi Fondu, Marşal Fondu və s.) cinayət işləri ilə hədəfə alındı; onların bank hesablarına həbs qoyuldu, vergi və prokurorluq orqanları fəaliyyətlərini yoxlamağa başladı, əksər QHT-lərə qarşı yüksək cərimələr təyin olundu, onlarla fəal, cinayət təqibindən yaxa qurtarmaq məqsədilə ölkəni tərk etmək məcburiyyətində qaldı.

Ölkədə qalan və tutulmaq təhlükəsi başının üzərində "Damokl" qılıncı kimi asılan QHT liderlərinə hökumət cinayət işləri ilə mesaj verir ki, onların hər birini istənilən vaxt vergidən yayınma, mənimsəmə, qanunsuz sahibkarlıq, dələduzluq, vətənə xəyanət maddələri ilə cinayət məsuliyyətinə cəlb edə bilərlər.

İndi əminliklə demək olar ki, ölkədə müstəqil vətəndaş cəmiyyəti yoxdur, o, məhv edilib, hər an həbs olunmaq təhlükəsi ilə üz-üzə qalaraq mübarizəni davam etdirən dissidentlər var.

Belə situasiyada siyasi məhbus probleminin həlli də çox dumanlı görünür. Təkcə ona görə yox ki, bu problemin həllində prinsipial mövqeyi ilə seçilən fəallar ya həbsdədirlər, ya da həbs olunmaq təhlükəsi altında. Həm də ona görə ki, bu problem sistemlə bağlı problemdir: hakimiyyət bölgüsünün, siyasi pluralizmin, azad medi-

anın, ədalətli seçkilərin, müstəqil məhkəmələrin, güclü vəkilliyin və vətəndaş cəmiyyəti institutlarının olmadığı ölkədə siyasi məhbus problemi həmişə aktuallığında qalacaq. Azərbaycanda isə bunların heç biri yoxdur. Beynəlxalq təşkilatların bizim hökumətimizlə yaratdıqları qondarma işçi qrupları, daha çox hökumətin vəkilləri rolunda çıxış edən məruzəçiləri, uzun illərdir alver predmetinə çevrilən əfvlər bu problemi həll edə bilməz. Bunu həm özümüzün anlamağımız, həm də başqalarına anlatmağımız gərək.

Azadlığa çıxmaq həbsdə olan hər kəsin arzusudur. Amma düşünəndə ki, bu gün bir iradə əsasında boşalan siyahılar, sabah elə həmin iradə əsasında hürr və ədalət istəyən övladlarımızın, yaxınlarımızın, dost-larımızın, hesabına yenidən dolacaq, bu cür azadlığın yükü çox ağır gəlir adama.

Dövlət ittihamçısı mənə 10 il həbs cəzası istədi. "Yaxşı qurtardım" deyə reaksiya verdim. Yetərincə ciddi idim.

Bu ölkədə fərqli düşüncəyə sahib olmaq; tənqidçi medianın, jurnalistlərin, müxalif siyasilərin, gənc fəalların, mülkləri sökülənlərin, polis idarələrində, həbsxanalarda işgəncələrə məruz qalanların hüquqlarını yerli məhkəmələrdə müdafiə etmək, pozuntuları beynəlxalq məhkəmələrin müzakirəsinə çıxarmaq cinayət sayılır. Orduda əsgərlərimizin dinc şəraitdə öldürülməsinə, korrupsiyaya, monopoliyaya, qiymətlərin artırılmasına, müəlliminə, həkiminə, 150-200 manat əməkhaqqı verən, əhalisinin əksəriyyəti yoxsulluq həddində yaşayan, böyük işsizlər ordusu olan, hələ də qazsız, susuz, yolsuz kəndləri olan ölkədə dövlət büdcəsindən hər il Gül Bayramına 50-60 milyon xərclənməsinə, milyardlarla vəsaitin bahalı layihələrə - musiqi və idman yarışlarına xərclənməsinə etiraz etmək də ağır cinayətlər kateqoriyasına aid edilib. Seçki saxtakarlıqlarının və insan hüquqları pozuntularının monitorinqini aparmaq, hökumətin siyasətini tənqid edən yazılar yazmaq, araşdırmalar aparmaq, hesabatlar hazırlamaq və yaymaq, siyasi məhbusların siyahısını hazırlamaq, onların azadlığa buraxılmasını tələb etmək, bu problemi ölkə daxilində və beynəlxalq tədbirlərdə qaldırmaq da cinayət sayılır.

Mən bu və buna oxşar çoxsaylı digər cinayətləri törətdiyimi və bununla da dövlətin maraqlarına və nüfuzuna ağır zərbə vurduğumu, düşmənlərimizin dəyirmanına çoxlu su tökdüyümü etiraf edirəm. Bu anlamda prokurorun mənə 10 il iş istəməsi o qədər də ağır cəza deyil.

Mənə və QHT-lərə qarşı qaldırılan cinayət işlərində xüsusi fəallığı və canfəşanlığı ilə seçilən müstəntiqlərdən biri qızıma demişdi ki: "İmkan olanda atandan soruş ki, beynəlxalq tədbirlərdə daim hökuməti tənqid edir, beynəlxalq aləmdə onun sözünü belə eşidirlərsə, niyə həmin tədbirlərdə bir dəfə də olsun, Qarabağ problemini qaldırmayıb".

Bu ittihamı tez-tez mənim və dostlarımın ünvanına səsləndirirlər, ona görə çıxışımda buna da münasibətimi bildirməyi vacib sayıram. Çoxları kimi mən də əminəm ki, Qarabağ probleminin həlli ilk növbədə hər iki ölkədə demokratiyadan, insan haqlarının təminatından, hakimiyyətlərin azad seçki yolu ilə formalaşmasından, ölkənin taleyüklü məsələləri ilə bağlı qərarların qəbulunda toplumun iştirakından keçir.

Biz də həm ölkə daxilində, həm də beynəlxalq tədbirlərdə bu problemləri qaldırırdıq və buna görə də həbsə atılmışıq. Başqa sözlə, Qarabağ probleminin həllində maraqlı olmayan ilk növbədə hakimiyyətdir.

Əksər digər dostlarım kimi, həbs olunacağımı bilirdim. Hələ həbsimdən az öncə müalicəmlə bağlı Praqaya getmişdim. Orada olanda həbs olunacağım barədə xəbəri mənə çatdırdılar. Ölkəyə qayıtmamağı tövsiyə edənlər az deyildi. O arada Azadlıq Radiosuna müsahibəyə dəvət olundum və ölkəyə qayıdıb-qayıtmayacağım barədə sualı mənə verdilər. Dedim, qayıdacağam və işimi də daha əzmlə davam etdirəcəyəm.

Nə qayıtdığıma, nə hökumətin cinayət saydığı əməlləri törətdiyimə, nə də həbsimə görə, azacıq da olsa, peşmanam! Həbsin verdiyi məhdud imkanlar çərçivəsində məhbəsdə də bu işi davam etdirirəm, Tanrı qismət eləsə, həbsdən çıxandan sonra da davam etdirmək fikrindəyəm.

Həbsimizə görə isə üzülməyə dəyməz. Həbsimiz mübarizəmizin bir vasitəsidir.

Hər bir qaranlıq gecənin işıqlı səhəri var. Baramanın içində zülmət qaranlıq olur. Bəzən adama elə gəlir ki, o zülmətdən çıxış yolu yoxdur. Amma əslində, həmin o zülmətin içində tırtılın kəpənəyə çevrilməsi prosesi gedir. Zamanı gələndə mütləq qaranlıq işığa, durğunluq azadlığa çevriləcək, kəpənək üzə çıxacaq.





Sonda fürsətdən istifadə edərək, hazırda həbsdə olan dostlarımı, əqidə yoldaşlarımı buradan salamlayıram. Təəssüf ki, sayları çox olduğu üçün hamısının adını çəkə bilmirəm. Dostlarımla qürur duyur və onlarla məhbusluq həyatını bölüşməyi özüm üçün şərəf sayıram! Həbslər bizim azadlığımızı əlimizdən ala bilər, azadlıq istəyimizi yox. Ruhən azad olan insan həbsdə də azaddır.

Tofiq Yaqublu, İlqar Məmmədov, Yadigar Sadıqlı azadlıqda olanda söylədiklərini, yazdıqlarını eyni cəsarətlə həbsxanada da söyləyir və yazırlar.

İlkin Rüstəmzadənin, Rəşadın, Rəşadətin və digər gənc dostlarımızın mübarizə ruhunu heç bir həbsxana, kars qıra bilməz.

Leyla Yunusun təkcə həbsinin özü hakimiyyətə meydan oxumaqdır. Mövsüm Səmədovun, Abgül Süleymanovun, Taleh Bağırzadənin, Nemət Pənahlının haqq səslərini hətta Qobustanın Qapalı Təcridxanasının dəmir qapıları da kəsə bilməz.

Seymur Həzinin məhkəmə çıxışı onun "Azərbaycan Saatı"ndakı çıxışlarından az kəsərli deyil.

Xədicə İsmayılın həbsdən yazdıqlarının, o cümlədən sərt senzura səbəbindən yaza bilmədiklərinin kəsəri azadlıqda olanda dediklərindən heç də az deyil.

Azadlıqda olan, amma həyatlarını, azadlıqlarını risk altına ataraq

həm bizim azadlığa çıxmağımız, həm də övladlarımızın ədalətli cəmiyyətdə yaşamaları uğrunda mübarizə aparan hər kəsə sonsuz təşəkkürlər.

Bizə dəstək verən hökumətlərə, beynəlxalq qurumlara, xaricdəki həmkarlarımıza və adi insanlara minnətdarlığımızı bildiririk. Bu dəstəyin bizim üçün dəyəri çox böyükdür. Bu dəstəyə görə onlar Azərbaycan hakimiyyəti tərəfindən sərt ittihamlara tuş gəlirlər. İnsan hüquqları təkcə hər bir dövlətin daxili işi deyil, ümumbəşəri dəyərdir.

Dəyərli vəkillərimə dəstəklərinə görə xüsusi minnətdarlığımı bildirirəm. Bu ölkədə siyasi proseslərdə iştirak etmək cinayətə bərabər sayılır.

Normal ölkələrdə məhkəmə prosesinin sonunda dövlət ittihamçısına və hakimlər kollegiyasına təşəkkür bildirilir. Təəssüf ki, bunu edə bilməyəcəm. Dövlət ittihamçısı mənim 10 il həbsimi tələb edib, çox güman ki, məhkəmə də bir az o yan-bu yan, deyiləni verəcək. Bu halda bizlərdə "Allah əvəzini versin!" deyirlər. Amma bu ifadəni də işlətmək istəmirəm. Çünki düşünürəm ki, hüquq, ədalət adı altında baş verən rəzalət sistemlə bağlıdır. Sizə ədalətli cəmiyyətdə yaşamağı arzu edirəm, elə bir cəmiyyətdə ki, günahsız insanları baxışlarına görə ittiham və mühakimə etmək ləyaqətsizlik sayılır.

Bakı Ağır Cinayətlər Məhkəməsi,
Tarix: 22.04.2014



# VƏTƏNDAŞ CƏMİYYƏTİ



## RƏSUL CƏFƏROVUN MƏHKƏMƏDƏ SON SÖZÜ[14]

Məhkəmə istintaqı zamanı həm müdafiəçilərim, həm də özüm irəli sürülən maddələrlə bağlı mövqeyimizi bildirmişik və bu səbəbdən təkrarçılığa yol vermək istəmirəm.

Ancaq məhkəmədə konkret suallar olub ki, mən bir daha həmin məsələlərə aydınlıq gətirmək istəyirəm. Dəfələrlə məsələ qaldırılıb ki, niyə mən istintaq orqanına əlimdə olan sənədlərin əvvəlcə bir hissəsini vermişəm? Bir daha qeyd edirəm ki, məqsədim bu sənədləri gizlətmək olsaydı, ilk gündən heç nə verməzdim. Bu, sadəcə, mənim və vəkilimin seçdiyi bir taktika idi. Biz üç gün ərzində müəyyən sənədləri istintaq orqanına verdik və gözlədik, görək, istintaq hansı addımları atacaq. Sənədləri verəndən 3 gün sonra mənim barəmdə həbs-qətimkan tədbiri seçildi. Proseslərin gedişatında qərara gəldik ki,

[14] *Rəsul Cəfərov hüquq müdafiəçisidir.*

*5 iyul 2007-ci ildən Reportyorların Azadlıq və Təhlükəsizlik İnstitutunda (RATİ) hüquqşünas kimi fəaliyyətə başlayıb, 1 may 2009-cu ildən həmin qurumun Media monitorinqi layihəsinin koordinatoru vəzifəsində çalışıb. 2009-cu ilin avqustundan "Televiziya və Alternativ Media İnkişaf Mərkəzi" İctimai Birliyinin sədridir.*

*2012-ci ildə Azərbaycanda keçirilən Avroviziya Mahnı Müsabiqəsindən əvvəl yarışmadan istifadə edərək Azərbaycanda insan haqlarının vəziyyətinə diqqəti cəlb etmək məqsədilə təşkil edilən "Demokratiya naminə oxu" festivalının koordinatoru olub.*

sənədlərin qalanını istintaqa yox, işi aparacaq məhkəməyə verək. Elə də etdik və elə hazırlıq iclasında da məhkəməyə təqdim etdik. Təqdim etdiyimiz sənədlər təkcə donor təşkilatların məktublarından ibarət deyil, orada həm də xercləri göstərən təsdiqedici sənədlər var. Sənədlərlə bağlı nəsə çatışmazlıq varsa, onların da obyektiv izahını vermişik. Cinayət işinin tərkibinə baxanda da, çox asanlıqla görünür ki, mən heç bir cinayət törətməmişəm. Beş zərərçəkəndən yalnız biri ilə – Əhməd Heybətovla çox yaxın münasibətim olub. Onunla bir sinifdə oxumuşuq və indiyədək dostluğumuz davam edir. Digər dörd nəfərlə o qədər yaxın deyiləm ki, onlarla ehtimal edilən cinayət əməlini törədim, sonra da gəlib məhkəmədə məni müdafiə etmələrinə nail olum.

On üç şahidin də hər biri faktiki olaraq müdafiə tərəfinin xeyrinə ifadə verib. Onların ifadələri bir daha təsdiqləyir ki, mənim fəaliyyətim sahibkarlıq fəaliyyəti olmayıb. Fəaliyyətimin vətəndaş cəmiyyətinə töhfə vermək, insan haqlarını müdafiə etməklə bağlı olduğu heç kimdə şübhə doğurmur. Ədalətsiz olaraq həbs edildiyimi düşünürəm və bu ədalətsizliyə də dözümlə yanaşıram. Məhkəmədən də əsas xahişim odur ki, vəkillərimin və mənim çıxışımı, təqdim etdiyimiz sənədləri nəzərə alaraq bəraət hökmü çıxarsın, yalnız belə olacağı halda bu işdə ədalət tam bərpa olunacaq.

Bakı Ağır Cinayətlər Məhkəməsi,
Tarix: 15.04.2015

---

*2014-cü ildə Leyla Yunusla birlikdə Azərbaycandakı siyasi məhbusların siyahısını tərtib etmək üçün qurulan işçi qrupuna rəhbərlik edib.*

*2014-cü il avqustun əvvəllərində hər ikisi həbs edilib və onların öz adları da Norveç Helsinki Komitəsi tərəfindən dərc edilən həmin siyahıya daxil edilib.*

*2016-cı ilin martında prezident İlham Əliyevin əfv sərəncamı ilə azadlığa buraxılıb.*



# VƏTƏNDAŞ CƏMİYYƏTİ



## LEYLA VƏ ARİF YUNUSOVLARIN MƏHKƏMƏDƏ SON SÖZÜ[15]

Leyla Yunus: Siyasi məhbusları müdafiə etmək böyük cəsarət tələb edir. Arifin vəkili Xalid Bağırov idi. Onu, ümumiyyətlə, Vəkillər Kollegiyasından uzaqlaşdırdılar. Mənim vəkilim Əlayif Həsənov idi. Məni yalnız kişi nəzarətçilərin aparması, kamera yoldaşımın, mayor Yaqubovun döyməsi barədə mətbuata açıqlamalar verdiyinə görə onun barəsində mənimlə eyni kamerada saxlanılan, dəfələrlə məhkum olunmuş şəxs məhkəməyə müraciət etdi və məhkəmə də onun iddiasını təmin etdi. Əlayif Həsənov Vəkillər Kollegiyasından çıxarıldı.

---

15 *Sülh və Demokratiya İnstitutunun direktoru, hüquq müdafiəçisi Leyla Yunus və onun həyat yoldaşı, konfliktoloq Arif Yunus ölkədə hüquq müdafiəçilərinə qarşı hakimiyyətin apardığı kampaniyanın qurbanları olublar. 30 iyul 2014-cü ildə Leyla Yunus həbs edilib. Arif Yunus ev dustaqlığında saxlanılıb. L.Yunusa qarşı Cinayət Məcəlləsinin 274 (dövlətə xəyanət), 178.3.2 (külli miqdarda dələduzluq), 192.2.2 (külli miqdarda gəlir əldə etməklə qanunsuz sahibkarlıq), 213.2.2 (vergiləri, işsizlikdən sığorta və ya məcburi dövlət sosial sığorta haqlarını ödəməkdən yayınma, külli miqdarda törədildikdə),*

*320.1 (hüquq verən və ya vəzifədən azad edən vəsiqəni və ya digər rəsmi sənədi istifadə etmək məqsədi ilə saxtalaşdırma və qanunsuz hazırlama, yaxud bu cür sənədi satma, habelə eyni məqsədlə Azərbaycan Respublikasının saxta dövlət təltifini, ştampı, möhürü, blankı hazırlama və ya satma) və 320.2 (bilə-bilə saxta sənədlərdən istifadə etmə) maddələri ilə, Arif Yunusa qarşı isə Cinayət Məcəlləsinin 274 və 178.3.2. maddələri ilə ittiham irəli sürülüb.*

Digər vəkilim Cavad Cavadovu işdən kənarlaşdırmaq üçün şahid kimi dindirdilər. Lakin o dindirilmə iş materiallarında öz əksini tapmayıb. Fariz Namazlı gənc vəkildir. Mən başa düşdüm ki, ona da təzyiqlər var. Onu Vəkillər Kollegiyasından uzaqlaşdırmasınlar deyə özüm ondan imtina etdim. Ona görə deyirəm ki, vəkillərim böyük cəsarət göstərirlər. XIX əsrdə Derjavin yazırdı ki, qərəzli məhkəmə quldurlardan daha qorxuludur. Burada baş verənlər hazırda XIX əsrdə baş verənlərdən daha dəhşətlidir. Bu gün Azərbaycan eynilə keçmiş SSRİ-nin, qırmızı faşizmin yolunu davam etdirir. Bu gün diktaturayla mübarizə aparanlara qarşı repressiyalar həyata keçirilir. Keçmiş SSRİ-də CM-də 57-ci maddə vardı, bütün siyasi məhbusları bu maddə ilə ittiham edirdilər. İndi Azərbaycan, Özbəkistan kimi ölkələrdə 57-ci maddə yoxdur, ancaq siyasi, vicdan məhbuslarını ittiham etmək üçün CM-dəki bütün maddələrdən istifadə edirlər. Prokurorun istədiyi cəzanın müddəti məni təəccübləndirmədi. Çünki SSRİ təcrübəsini gözəl bilirdim və 20 ildir Azərbaycandakı repressiyaları müşahidə edirəm.

Vəkillər dəqiq qeyd etdilər ki, bizim əməlimizdə cinayət tərkibi yoxdur. Prokuror çıxışında ittiham aktını təkrarladı, lakin bir-iki səhvə yol verdi. Əslində səhvlər çox idi, mən 1-2-ni deyəcəyəm. Bank əməkdaşları dedilər ki, biz heç bir qanunsuz hərəkətə yol verməmişik,

*13 avqust 2015-ci ildə Bakı Ağır Cinayətlər Məhkəməsi Leyla Yunusu təqsirli hesab edərək 8,5 il müddətinə, Arif Yunusu isə 7 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edib.*

*"Amnesty İnternation" təşkilatı hüquq müdafiəçilərini vicdan məhbusu kimi tanıyıb. 12 noyabr 2015-ci ildə Bakı Apelyasiya Məhkəməsinin qərarı ilə Arif Yunusun həbs qətimkan tədbiri dəyişdirilərək, ev dustaqlığı ilə əvəz olunub.*

*9 dekabr 2015-ci ildə Bakı Apelyasiya Məhkəməsinin qərarı ilə Yunusovlar 5 il sınaq müddətinə şərti olaraq azadlığa buraxılıblar.*





öz hesablarımızdan istifadə etmişik. Prokuror isə deyir ki, Arif öz hesabından Leylanın hesabına pul köçürüb. Hökumət mətbuatı da yazır ki, ümumiyyətlə, başqa hesaba pul köçürüb. Bizim Ariflə ümumi hesabımız vardı. Yəni Arif öz hesabından öz hesabına pul köçürüb. Prokurorluğun ağlı kəsməyib ki, bunu araşdırsın. Çünki xarici ölkədə ailənin bir neçə üzvünün eyni hesabı ola bilər. Digər ittihamlarla bağlı da sübutlar yoxdur. Bildirirəm ki, bu məhkəmə quldurluqdan da pisdir. Amma, heç olmasa, o şahid ifadələri protokolda öz əksini tapacaq. Qrant layihələrindən biz tərəvəz əkib satmamışıq, gəlir götürməmişik. Biz o layihələr çərçivəsində seminarlar, konfranslar keçirmişik.

Bu hökumət hər gün Qarabağdan danışır. Bəs niyə biz Qarabağla bağlı təbliğatda ermənilərə uduzuruq? Arif beynəlxalq konfranslarda ermənilərin mövqeyini darmadağın edən adamlardan biridir. Onun kitabları dünyanın bütün kitabxanalarında var: Londonda, ABŞ Konqresində.

Biz bu gün təbliğatda ermənilərə qalib gələn adamların üzərində məhkəmələr qururuq. Ermənistanda isə Azərbaycana qarşı mübarizə aparan adamları həbs etmək heç ağıllarına gəlmir. Bu hökumət işğalçılara qarşı mübarizə aparanları məhv edir. Bu hakimiyyət sözdən qorxur. Bu məhkəmə göstərdi ki, siz hamınız sözdən qorxursunuz. Ona görə də məhkəməni qapalı keçirirsiniz, jurnalistləri, müstəqil şəxsləri düz sözü eşitməmələri üçün prosesə buraxmadınız. Burada baş verənlər göstərdi ki, bizi müstəqil Azərbaycan uğrundakı mübarizəmizə görə tutublar. Eramızın V əsrində Aqustin yazırdı ki, ədalətsiz dövlət quldur dəstəsidir. Bu gün Azərbaycan da faşizmin va-

risi, quldur dəstəsidir.

Ən çətini odur ki, sizin bu gün bizim barəmizdə çıxaracağınız qərar bizim üçün ölüm hökmüdür. Çünki nə mənim, nə də Arifin səhhəti imkan verir ki, uzun müddət həbsdə qalaq. Ancaq bu, bir tarixi məhkəmədir, Saxarovun məhkəməsi kimi. Bu gün Xədicə İsmayıla, İntiqam Əliyevə, Anar Məmmədliyə qarşı repressiyalar davam edir. 37-ci ildə kalonda yazırdılar: "Biz bu gün qum və ölüyük. Ancaq ölü vəziyyətdə də bizdən qorxursunuz".

**Hakim:** Leyla Yunusova, qurtardınız?

**Leyla Yunus:** Hə, Cəllad, qurtardım, siz öz işinizi görə bilərsiniz".

**Arif Yunus:** İnsan həyata bir dəfə gəlir. Kiminlə yaşayırsa, onunla həmfikir olmaq çox vacibdir. Mən çox şadam ki, Leyla Yunusla həyat yoldaşı olmuşam. Biz artıq cavan deyilik. Yanvarda Milli Təhlükəsizlik Nazirliyində (MTN) 60 illiyimi qeyd etdim. Görəsən, kimsə 60 illiyini MTN-də, təkadamlıq kamerada qeyd edibmi? Biz bu 60 ilin 37 illini Leyla ilə birlikdəyik. Bu rəqəm Azərbaycan üçün mistik rəqəmdir. Bizim məhkəməmiz də 37-ci ilin məhkəməsinə oxşayır, o üsullarla keçirilir. Babək deyirdi ki, 40 il qul kimi yaşamaqdansa, bir gün azad yaşamaq yaxşıdır. Biz tarixçiyik, Babəkin bu sözü bizim üçün devizdir. Sovet dövründə camaat partbiletini atanda biz Azərbaycanın müstəqilliyi uğrunda vuruşurduq. Azərbaycan müstəqil olandan sonra da biz mübarizəmizin ikinci mərhələsini yaşamağa başladıq, ölkənin demokratikləşməsi uğrunda vuruşduq. Bu yol çətin idi, bizə basqınlar





olurdu. Hələ 88-ci ildə Azəbaycanla bağlı həqiqətləri üzə çıxaranda bizə "ekstremist" damğası vurub, prokurorluğa çağırırdılar. Xocalı ilə bağlı həqiqətlərdə də eyni şey təkrarlandı. Biz bu yolda da birgə idik. Əgər gənclik illərinə qayıdıb yenə həyat yoldaşı seçməli olsaydım, yenə Leylanı seçərdim.

Bizim gözəl qızımız var. Bizim valideynlərimiz azərbaycandilli olublar. Onlar bizi karyera qurmağımız üçün rusdilli məktəbə qoyublar. Ancaq biz öz qızımıza Azərbaycan dilində təhsil vermişik. Görəndə ki bizə qarşı təzyiqlər nəticə vermir, qızımıza keçdilər. Şükür Allaha ki, hüquq-mühafizə orqanlarında müəyyən qədər də olsa, namuslu adamlar qalıb. Bizə məlumat verdilər və qızımızı xaricə göndərdik. O, hazırda Hollandiyada yaşayır. Çox istədi ki, onunla qalaq. Ancaq biz qalmadıq, demokratiya uğrunda mübarizə aparmağı, burada ölməyi seçdik. Bizə qarşı məhkəmələr də olub, 2011-ci ildə Ramil Usubov Leylanı məhkəməyə vermişdi. Təzyiqlərlə bağlı bir müddət Almaniyada yaşamalı olduq, təkrar döndük. Oktyabr ayına qədər, ümumiyyətlə, yata bilmirdim. Oktyabrdan bəri hər gün yuxu dərmanı qəbul etmədən yatmıram. Bu məhkəmədə baş verənlərin 90 faizini başa düşmürdüm. Çünki hər gün mənə bura gəlməzdən öncə 2 iynə vurulur. Birinci gün çağırdığınız haradan gəlib bilmirəm, ancaq o, hər kimdirsə, həkim deyil. Necə iynə vurdusa, əlim 2 gün şişdi. Mən MTN-də olan o həkimə minnətdarlıq etmək istəyirəm. O insanlara hörmət edirəm ki, həm peşəkardır, həm də insanlığı var.

Vəkillərin işi isə hakimlərdən də çətindir. Bizi əgər tutmaq istəyirlərsə, nə çox maddə, tutacaqlar. Mənə hər gün "Azərbaycan", "Yeni

Azərbaycan", "Xalq" qəzetləri verilir. Şəkillər, yazılar eyni olur, başqa imzalarla verilir.

Hakim sözünü kəsir.

**Arif Yunus:** Siz hətta minnətdarlıq etməyə də qoymursunuz. Dövlət ittihamçısı, siz saxta ittiham aktını iki dəfə oxudunuz. Azərbaycan demokratik ölkə olsaydı, "Azərbaycan", "Yeni Azərbaycan" qəzetləri sizi məhkəməyə verərdi ki, onlardan köçürdüyünüz şeyləri oxuyursunuz. Biz deyəndə "Azərbaycanda demokratiya yoxdur", bizə deyirdilər ki, bəs nə yaxşı siz azadlıqdasınız? Hakimiyyət çox sağ olsun, bu arqumenti əllərindən aldı.

Bakı Ağır Cinayətlər Məhkəməsi,

Tarix: 13. 08. 2015



## SİYASİLƏR



### BƏXTİYAR HACIYEVİN MƏHKƏMƏDƏ SON SÖZÜ[16]

"Hörmətli hakim və proses iştirakçıları!

Mənə elan edilən ittihamla bağlı münasibət bildirmək istəmirəm. Bu həbsin qanunsuzluğu məhkəmənin gedişində həm özümün, həm də vəkillərimin çıxışlarında, çoxsaylı şikayətlərdə, vəsatətlərdə yetərincə əsaslandırılıb. Hesab edirəm ki, bu məhkəmə prosesi barəmdə qaldırılan cinayət təqibinin qondarma olduğunu, günahsız olduğumu sübuta yetirməklə yanaşı, həm də yadfikirliliyi, fərqli düşüncəni boğmaq üçün hüquq-mühafizə orqanlarından, məhkəmədən bir vasitə kimi istifadə olunduğunu bir daha təsdiqlədi.

[16] *Bəxtiyar Hacıyev 2004-2006-cı illərdə Beynəlxalq Elm Olimpiadası (IJSO) Beynəlxalq İdarə Heyətinin üzvü və Azərbaycan komandasının rəhbəri olub. ABŞ-da yerləşən Təhsil İnkişaf Mərkəzinin (EDC) dəstəyi ilə Şəffaf Təhsil Şəbəkəsi (TEN) regional koordinatoru vəzifəsində çalışıb. 2005-ci ildə BMT Baş Assambleyasının 60-cı sessiyası zamanı Azərbaycanın gənc nümayəndəsi olub və Baş Assambleyanın plenar iclasında çıxış edib.*

*2007-2009-cu illərdə Harvard Universitetində İctimai Siyasət üzrə magistraturada oxuyub, MPP (Master in Public Policy) dərəcəsi alıb.*

*18 noyabrda 2010-cu ildə Gürcüstana gedərkən sərhəddə saxlanılıb və 2011-ci il yanvar ayında hərbi xidmətə gedəcəyinə dair sənədi imzalamağa məcbur edilib.*

*B.Hacıyev 4 mart 2011-ci ildə həbs edilib. 18 may 2011-ci ildə hərbi xidmətdən yayınma ittihamı ilə 2 il müddətinə azadlıqdan məhrum edilib, 4 iyun 2012-ci ildə Ali Məhkəmənin qərarı ilə vaxtından əvvəl şərti azadlığa buraxılıb.*

Fürsətdən istifadə edib, bu məhkəmə prosesi zamanı öz təcrübələri, bilikləri ilə müdafiəmi çox uğurla qurmuş müdafiəçilərim İntiqam Əliyevə, Əlayif Həsənova, Elçin Namazova, Səadət Seyidliyə təşəkkür edirəm. Bundan başqa, müdafiəmdə iştirak etmiş hər bir şəxsə, ziyalılarımıza, ictimai xadimlərə, siyasi qurumlara, jurnalistlərə, tələbə yoldaşlarıma, gənc dostlarıma təşəkkür edirəm. Xüsusi olaraq, hər zaman yanımda olan ailəmə minnətdarlığımı bildirirəm.

Bu iş üzrə məhkəmənin hansı qərar verəcəyi məndə, vəkillərimdə və çox güman ki, prosesin gedişini diqqətlə izləyən hər bir kəsdə artıq heç bir şübhə doğurmur. Böyük ictimai təhlükə törətməyən cinayətdə ittiham olunduğum halda, heç bir əsas olmadan həbs edilməyim, həbs müddətinin heç bir əsas olmadan bir neçə dəfə uzadılması, ölkənin 30-dan çox nüfuzlu şəxsinin məni zaminliyə götürmək barədə müraciətlərinin, o cümlədən işin ədalətli həlli baxımından əhəmiyyətli olan halların araşdırılmasına yönələn bütün vəsatətlərimin əsassız olaraq rədd edilməsi, hakimin dövlət ittihamçısının diqtəsi ilə qərarlar qəbul etməsi və prosesin gedişində yol verdiyi çoxsaylı maddi və prosessual pozuntular az-çox bu proseslərdən xəbəri olan hər kəsin, yekun qərarın hansı məzmunda olacağı ilə bağlı proqnoz verməyinə çətinlik yaratmır.

Bu sifariş sahiblərinin iki əsas məqsədi var: ölkədəki azad düşüncəli, vicdanlı, təhsilli, ictimai maraqları öz maraqlarından üstün tutan, dəyişikliklər uğrunda çalışan gənclərdən ibarət yeni dalğanın qarşısını almaq üçün xüsusi fəallığı ilə seçilənlərin bəzilərini saxta ittihamlarla cinayət məsuliyyətinə cəlb etməklə digər gəncləri qorxutmaq. Lakin 2009-cu ildə gənc fəallar Emin Milli və Adnan Hacızadənin həbsi bunun





əksinin baş verdiyini göstərdi. Həbsin sifarişçiləri ölkə və beynəlxalq ictimaiyyət qarşısında özlərini nüfuzdan saldılar, kəskin tənqidə məruz qaldılar. Bu həbslər azadlığı əlindən alınmış gənc fəallara ictimai simpatiyanı artırdı. Emin və Adnanın həbsi gəncləri qorxutmadı, əksinə, onları yeni enerji ilə mübarizəyə ruhlandırdı.

Onlar həbs olunanda mən ABŞ-da idim və Azərbaycana qayıdıb seçkilərdə iştirak etməyin çox riskli olduğunu, hər an həbs oluna biləcəyimi, professional karyeramda, maddi vəziyyətimdə, şəxsi həyatımda əhəmiyyətli geriləmə və itkilərin mümkünlüyünü dərk edirdim. Lakin Emin və Adnanın həbsi bir çox digər gənclər kimi mənim də üzərimə mənəvi bir yük qoydu: onların ölkədə ictimai maraqlar naminə, dəyişikliklər uğrunda apardıqları mübarizəni davam etdirmək.

Bizlərin – yeni nəslin nümayəndələri olan gənclərin əsas məqsədi Azərbaycanda qanunun aliliyinə, insan hüquqlarına hörmət edilən, ədalətli, vətəndaşların azad və firavan yaşadıqları bir cəmiyyət qurmaqdır. Bu gün dünyada inkişaf etmiş bütün cəmiyyətlər bu yolu keçiblər. Həmin ölkələrdə də ədalətə çağırış edənləri, azadlıq tələb edənləri həbs və ya sürgün ediblər, bir çoxlarını öldürüblər. Həmin ölkələrdə müsbət dəyişikliklər cəsarətli insanların davamlı mübarizəsi nəticəsində baş verib. Bu insanlar öz adlarını tarixə və ölkələrinin sadə vətəndaşlarının qəlblərinə yazıblar.

Hörmətli hakim və proses iştirakçıları!

Siyasi sifariş olan bir işdə ədalətli nəticəyə inamım az olsa da, bu fikirləri səsləndirməyi vacib saydım. Sifarişin icrasından imtina etməklə siz həmkarlarınızı bu cür təhqiramiz duruma etiraz etməyə ruh-

landıra bilərsiniz, bu addım məhkəmələrimizin müstəqilliyi yolunda çox ciddi hadisəyə çevrilə bilər. Bu addım həmçinin sovet təfəkkürü ilə ölkəni idarə edənlərin Azərbaycan ordusundan opponentlərinə qarşı cəza aparatı kimi istifadə etməsi praktikasına ciddi zərbə vura bilər. Məndən əvvəl də bir çox şəxsləri müvəqqəti və ya davamlı zərərsizləşdirmək, mənəvi baxımdan sındırmaq, yaxud məhv etmək üçün hərbi xidmətdən vasitə kimi istifadə edilib, buna etiraz edənləri, müqavimət göstərənləri rəsmi təbliğatın köməyi ilə ictimai qınaq obyektinə çeviriblər, ictimai rəydə qeyri-vətənpərvər kimi təqdim ediblər.

Biz, fərqli düşünən gənclər belə hesab edirik ki, vətənpərvərlik yalnız vətənin torpağını, daşını yox, həm də vətəndaşını, onun hüquqlarını qorumaqdır. Məhz, buna görə də gənclərimizin daha keyfiyyətli təhsil almasına, vətəndaşlarımızın maariflənməsinə, hüquq dövlətinin qurulmasına, ölkəmizin maraqlarını beynəlxalq aləmdə qorumağa çalışırıq.

İttiham olunduğum maddə üçün Cinayət Məcəlləsində iki ilə qədər azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulub. Siz məni qolları qandallı ictimaiyyət qarşısına çıxara bilərsiniz, məni zindana ata bilərsiniz, amma azadlığımı əlimdən ala bilməzsiniz. Çünki azadlıq insanın ruhunda, mənəviyyatında, düşüncəsindədir. Onları isə həbs etmək mümkün deyil.

Gəncə Şəhəri Nizami Rayon Məhkəməsi
Tarixi: 16.05.2011



# SİYASİLƏR



## ARİF HACILININ MƏHKƏMƏDƏ SON SÖZÜ[17]

2 aprel mitinqi ilə əlaqədar başlanmış cinayət işi ilə bağlı 6 aydır ki, həbsdəyik. Təxminən 2 aydır ki, məhkəmə araşdırmaları gedir. Bu araşdırmalar həbsdə saxlanılmağımız və digər 6 nəfərin barəsində qanunsuz, əsassız hökm verilməsi bu işin siyasi sifarişli qərar əsasında aparılmasını bir daha ortaya qoydu. Və faktiki olaraq bu araşdırmalar İctimai Palata üzvlərinin 2 aprel mitinqində hər hansı bir qanunsuzluğa yol vermədiyini bir daha təsdiqlədi. Buna görə də məhkəmədən bəri başdan barəmizdə bəraət hökmü çıxarmasını xahiş edirəm. Bu prosesdə əziyyət çəkən vəkilərimizə təşəkkürümü çatdırıram. Çünki bu gün Azərbaycanda siyasi məhbus olmaqla yanaşı siyasi məhbusun vəkili olmaq da cəsarət, qürur tələb edir. Mən Fuad Qəhrəmanlının

[17] *Müsavat Partiyasının başqanı Arif Hacılı 16 oktyabr 2003-cü ildə Prezident seçkilərinin nəticələrinin saxtalaşdırılmasına qarşı keçirilən etiraz aksiyasının əsas təşkilatçılarından biri kimi həbs olunaraq 5 il müddətinə azadlıqdan məhrum edilib. O, 2005-ci ildə Azərbaycan ictimaiyyətinin və beynəlxalq qurumların tələbləri nəzərə alınaraq azadlığa buraxılıb.*

*A.Hacılı 2011-ci ildə "Ərəb Baharı" adlanan siyasi fəallıq dönəmində Müsavat Partiyasının təşkil etdiyi 12 mart və İctimai Palatanın təşkil etdiyi 2 aprel mitinqlərinin əsas təşkilatçısı kimi həbs olunaraq yenidən 2,6 il müddətinə azadlıqdan məhrum edilib.*

*A.Hacılı 22 iyun 2012-ci ildə Prezidentin Əfv sərəncamına əsasən azadlığa buraxılıb.*

vəkili, qanunsuz olaraq kollegiyadan uzaqlaşdırılan Elçin Namazova da təşəkkürümü çatdırıram. 2 aprel mitinqində tutulanlar adından Müsavat başqanı İsa Qəmbər başda olmaqla, AXCP sədri Əli Kərimli başqa olmaqla hər iki partiya üzvlərinə təşəkkürümü çatdırıram.

2 apreldə nə baş verib? Əslində 2 apreldə keçirilən mitinq digər dövrlərdə keçirilən mitinqlərdən heç nə ilə fərqlənməyib. Fərq onda olub ki, Azərbaycan hakimiyyəti həmin dövrdə politologiya elminə "Ərəb baharı" kimi daxil olan dünyadan gedən siyasi proseslərdən narahatçılıq keçirirdi və bu proseslərin Azərbaycana keçməsi ehtimalından ehtiyatlanırdı. İlk simptoplarını da görürdü. Ona görə ölkədə gedən siyasi fəallığın qarşısını almaq üçün müxalifətə zərbə endirdi. Eyni zamanda bizi həbsə almaqla Azərbaycan cəmiyyətində xof yaratmaq istədi. Bununla müvəqqəti olaraq və qismən istəyinə çatdı. Hesab edirəm ki, hakimiyyət bu cür davranışı ilə daha böyük və daha güclü bir hərakatın əsasını qoymuş oldu.

### Biz niyə görə kütləvi aksiya keçirmək istədik?

İnkişaf labüd deyil və özü-özünə baş vermir. Amma bəşəriyyət daim inkişafdadır və inkişafın surəti get-gedə artır. Dünyanın heç bir ölkəsində yüksək texnoloji, demokratik sıçrayışlar öz-özünə baş vermir. Bunlar hamısı zaman-zaman ayrı-ayrı insanların təsirlərə, təzyiqlərə, mərhumiyyətlərə baxmadan apardıqları mübarizənin nəticəsidir. Bu gün demokratiyanın simvolları kimi tanınan Skandinaviya dövlətləri də, ABŞ-da bu prosesləri keçib. ABŞ-da, Avropa ölkələrində demokratiya uğrunda gedən mübarizə Azərbaycanda gedən mübarizədən qat-qat çətin olub. ABŞ müstəqilliyinə nail olmaq üçün da-





xili vətəndaş müharibələrində keçib. Ağlar və qaralar arasında gedən iddiyyətlərdən keçib. Ancaq bu gün elə bir mükəmməl duruma gəlib çatıb ki, Barak Obama ABŞ prezidenti ola bilib. Bizlər Azərbaycanda belə bir kamil cəmiyyət qurmaq üçün elə çətin yolların seçilməsinin lazım olmadığını bilirik. Biz yaradılan nümunələr, çığırlar üzərində hərəkət etməklə Azərbaycanda elə bir cəmiyyət qurmaq istəyirik və buna nail olacağıq. Demokratik cəmiyyət qurulmadan Azərbaycanın davamlı inkişafı mümkün deyil. Bu gün Azərbaycan vətəndaşı özünü xoşbəxt hiss etmir. Vətəndaşlarımızın böyük bir qismi Rusiyada, bir qismi Avropa ölkələrinə səpələniblər. Bilirsiniz ki, vətəndaşlarımızı bu ölkələrdə heç də xoş qarşılamırlar. Təsəvvür edin ki, Avropa ölkələrində vətəndaşlarımız Azərbaycanda yaşamağın mümkün olmamasını məhkəmə qaydasında sübut etmə kimi bir alçaldıcı prosedurdan keçirlər. Rusiyada vəziyyət daha acınacaqlıdır. Vətəndaşlarımız hər cür mərhumiyyətlərlə üzləşirlər və bunlar yalnız azərbaycanlı olduqlarına görədir. Bununla belə milyonlarla Azərbaycan vətəndaşı Rusiya çöllərindədir.

### Azərbaycan başqa cür yaşaya bilərmi?

Hazırda bu suala cavab vermək çox asandır. Çünki hazırda Azərbaycan elə bir tarixi məqama gəlib çatıb ki, 80-ci illərin sonlarında 90-cı illərin əvvəllərində bizim dəyər verdiyimiz dünyanın firavan dövlətlərindən birinə çevrilmək imkanını qazanıb. Dünya bazarında neftin qiymətinin qalxması, yeni neft və qaz yataqlarının aşkarlanması və digər amillər Azərbayanın dünyanın ən firavan ölkəsinə çevrilmək imkanı verir, təəssüf ki, bu gün Azərbaycan hakimiyyəti ölkə vətəndaşlarının firavan yaşamasına mane olan ən başlaca amilə

çevrilib. Bizim kütləvi aksiyalarda istefa tələbini irəli sürməyimizin əsas səbələri bunlardır. 80-ci illlərin sonlarında 90-cı illərin əvvəllərində bizlər çıxışlar edib Azərbaycanın müstəqil bir dövlət ola bilməsini və firavan yaşayacağı barədə çıxışlar edirdik. Bizim çıxışlarımız indi bizi mühakimə edən adamlar, onların liderləri tərəfindən həqarət, istehza ilə qarşılanırdı. Bizə irad kimi deyirdilər: Xalq Cəbhəsi deyir ki, Azərbaycanın yollarını qızıldan etmək mümkündür. Faktiki biz belə söz deməmişdik. Amma bu gün Azərbaycanın yollarını qızıldan etmək mümkündür. Sovet dövründə və ondan əvvəl, həmçinin Vəzirovun, Mütəllibovun, Əbülfəz Elçibəyin, Heydər Əliyevin dövründə bu, mümkün deyildi. Hazırda Azərbaycan vətəndaşlarının təxminən yarısı rəsmi statistikaya görə aclıq və səfalət içində yaşayır. Faktiki isə yoxsullar çoxdur. Bulqakovun "Master və Marqarita" əsərində belə bir səhnə var ki, sirkdə foks göstərən qara magiyadan istifadə etməklə göydən pul yağdırır. Bu pulların üstündə toqquşmalar başlayır. Bu toqquşmalar pullar yoxa çıxandan sonra daha da böyüyür. Təxminən Azərbaycanın hazırki durumu kimidir. Göydən milyonlarla pul yağır, Azərbaycan hakimiyyəti də bu pulların Azərbaycan xalqına çatmaması üçün əlindən gələn hər bir şeyi edir, bütün vasitələrdən istifadə etməklə xalqın səfil durumda yaşamasına çalışır.

"Yoxsul insan siyasət barədə düşünə bilməz", – deyir İlham Əliyev. O bu sözləri ABŞ-dan olan diplomatla söhbətində deyib. Onu bu fikirləri ilə razıyam. Çünki yoxsul adam dayanmadan öz varislərinin dolanışığı barədə düşünür və buna çalışır. Bütün sirr bundadır. Azərbaycan vətəndaşının varlanmasının qarşısının alınmasının başlıca səbəbi budur. Bilirlər ki, Azərbaycan vətəndaşı varlansa, siyasət barədə düşünəcək. İndiki kimi onu əzmək, müti kimi saxlamaq





mümkün olmayacaq. Çünki insanlar yoxsul olmasalar, öz haqlarının bərpası barədə düşünəcəklər. Bir daha İlham Əliyevin sözlərini təkrar edirəm: "Yoxsul adam siyasıt barədə düçünə bilməz".

Ona görə Azərbaycana gələn milyardlarla puldan zavod və fabrikdən, istehsal sahələrindən başqa hər şey tikilir. Bir ailə başçısının əlinə haradansa 10 min manat düşsə o həmin vəsaiti darvazasının gözəlləşdirməsinə xərcləməlidir, yoxsa hansısa bir sahəyə yönəldib gəlir əldə etməklə bu işi görsə, yaxşıdır? Əlbəttə ki, həmin pul hansısa sahəyə yönəldilməlidir və sonra gələn gəlirdən lazimi işlər görülməlidir. Azərbaycan hakimiyyəti isə gələn pulları ancaq gəlir gətirməyən sahəyə qoyur. Azərbaycanda bütün proyektlər milyardlıq proyektlərdir və bu proyektlərin gəlir gətirməsinə inam yoxdur. Bayraq meydanına 55 milyon ayrılmışdı, indi isə meydanın ətrafındakı 4-5 kilometrlik yolun yenidən qurulmasına 65 milyon ayrılıb. 120 milyon getdi, amma Azərbaycan vətəndaşı Müstəqil Dövlətlər Birliyi (MDB) məkanında aldığı təqaüdə görə ən sonuncu yerdədir. Halbuki Azərbaycana gələn gəlir MDB ölkələrinə gələn gəlirdən qat-qat yüksəkdir. Biz bu acınacaqlı vəziyyətin dəyişməsini istəyirik. Bilirik ki, bu vəziyyəti dəyişib Azərbaycanı həqiqətən çiçəklənən, firavan bir dövlətə çevirmək mümkündür. Qarabağ məsələsini pul vəsaiti hesabına həll etmək mümkündür. Bu gün Azərbaycan hakimiyyəti orduya ayrılan xərclərlə öyünür. Amma orduya ayrılan xərclərlə yox, bir kəndi, bir yüksəkliyi almaqla öyünmək lazım idi. Biz nəyin şahidiyik? Bu gün orduya ayrılan vəsaitlə öyünərək torpaqlarımızn 20 faizi erməni işğalında saxlayırıq. Azərbaycanın büdcəsi 2 milyard olanda da bu cürdür, bizim hakimiyyətdə olduğumuz dövrdə də Azərbaycanın büdcəsi cəmi 180 milyon olanda da bu cür idi. Amma bizim dövrümüzdə

Azərbaycanın milli ordusu keçmiş Şamuyan adlanan Gülüstan kəndi, Ağdərəni azad etmişdi. Şəhidlər gəlirdisə də, Ağdam, Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl bizdə idi. Amma indi şəhidlər gəlir, torpaqlar isə erməni tapdağında qalmaqdadır. Biz dövlət büdcəsinə 180 milyon pul yığmışdıq deyə fəxr edirdik. Çünki dövləti təhvil alanda büdcədə 1 sent belə yox idi. Onda büdcəyə neft pulları daxil olmurdu. Buna baxmayaraq uğurlu döyüş əməliyyatları keçirirdi, iqtisadi siyasi islahatlara imza atmışdıq. Bu hakimiyyətin dövründə cəmi 6 il fasilə olub və Azərbaycan bu cür nailiyyətlərə imza atıb uğurlar qazanmışdı. Bu 6 ildə Azərbaycan müstəqil oldu, milli valyutasını buraxdı, Bakını, Gəncəni və bir çox şəhər və rayonları ermənilərdən azad etdi. Bütün bu hadisələr həmin 6 ildə olub. 93-cü ildən biz yenidən geri qayıtmağa, geriləməyə başladıq. 15 iyul Qurtuluş günündən sonra rayonlarımızı itirdik və dünyadakı imicimiz, nüfuzumuz məhv edildi. 89-cu ildə Azərbaycan xalqı bütün dünyada ilin xalqı olmuşdu. Bütün dünyada Azərbaycan demokratiyasını nümunə göstərirdilər. Bütün bunlar məhv edildi. Bü gün bütün dünyada çörək istəmirəm, azadlıq istəyirəm şüarı səslənir. Azərbaycan xalqı Misir, Suriya, Liviya xalqlarından daha artıq demokratiyaya hazırdır. Azərbaycan cəmiyyətinin inkişaf səviyyəsi bu dövlətlərin cəmiyyətlərinin inkişaf səviyyəsindən daha yüksəkdir. Hər dəfə "Azərbaycan xalqı demokratiyaya hazır deyil" deməklə xalqımızı təhqir edir, böhtan atırlar. Azərbaycan xalqı Şərqdə ilk dəfə olaraq Azərbaycan Cumhuriyyətini yaratmış xalqdır. 100 il əvvəl siyasi partiya olan Müsavat Partiyasını yaratmış xalqdır. Azərbaycan xalqı hətta ABŞ-dan əvvəl qadınlara seçki hüququ vermiş, çoxpartiyalı sistem yaratmış xalqdır. Biz buna görə mübarizə aparırıq və bu mübarizəni aparmasaq, özümüzü günahkar sayarıq. Mənim üçün hər yer mübarizə meydanıdır. Kürdəxanıda da bu beledir. Nə qədər sağam belə





olacaq. Ölsəm də, ruhum bu mübarizəni davam etdirəcək.

Burada məhkəmə istintaqı dövründə ittiham tərəfi çox gülünc vəziyyətə düşdü. Əleyhimizi qərəzli şəkildə ifadə verən polis işçiləri belə öz çıxışlarında bizim haqlı tərəf olduğumuzu bir daha sübut etdilər. Bildirirlər ki, xəsarət almayıblar, biz onlara tabeçilik göstərmişik, onları görüb polislə toqquşmaq istəmədiyimiz üçün yolumuzu dəyişmişik. Burada nümayiş etdirilən və hətta montaj edilsə belə, kəsilsə belə həmin videolarda bir kimsənin polisə əl qaldırmadığı əks edilməyib. Baş Prokurorluqla Daxili İşlər Nazirliyi rəsmi məlumat yayıb deyirlər ki, 2 aprel mitinqində 50-60 nəfər iştirak edib və 26 polis əməkdaşı xəsarət alıb. Axı necə ola bilər ki, 26 polis xəsarət alır və bilavasitə polisə xəsarət yetirən bircə nəfər olsa belə tutulmur? Bütün bunlar bir daha sübut edir ki, bu cinayət işi qondarmadır, quramadır, hakimiyyətdəkilərin qurğusudur, bu həbslərə siyasi sifariş verməklə özlərini qorumağa çalışırlar. Bu, mümkün olmayacaq.

Mən burada Məhəmməd Məcidli ilə tanış olmuşam. Bizi tutub məhkəməyə gətirən gün Məhəmməd Məcidli də burada idi. Hakim Famil Nəsibov, məhz siz ona 2 aylıq həbs cəzası vermişdiniz, o saxlama yerində gözləyirdi. Onunla burada tanış olmuşam. Vaqif Bayatılı Ödər "Azadlıq" qəzetində onun barəsində çox gözəl bir yazı yazmışdı. Onun atası Çərkəz müəllim hələ 60-70-ci illərdə Xəlil Rza Ulutürklə dostluq edib, onunla bu xalq uğrunda mübarizə aparıb. O vaxt onun atasından danos yazanların övladları indi onun oğlunun barəsində danos yazırlar, üzünə dayanırlar. Dünən "Azərbaycan" radiosunda "Gecəyarısı döyülən qapı" adlı bir verlişə qulaq asdım. Orada 1937-ci ildə Əhməd Cavada, Hüseyn Cavidə, Mikayıl Müşfiqə, Əli Hüseyn

Dağlıya verilən işgəncələrdən söhbət açılırdı. Əli Hüseyn Dağlı 18 ay NKVD "podval"larında ona verilən işgəncələrə baxmayaraq heç bir gizli təşkilata üzv olmadığını deyib və ona 8 il cəza veriblər. Amma bu gün biz Azərbaycan qəzetlərində Ziya Bünyadov kimi dahi şəxsiyyəti öldürməkdə suçlanan Fazil Muxtarova verilən dəhşətli işgəncələr barədə MTN müstəntiqinin yazdıqlarını oxuyuruq. Fazil Muxtarova dəhşətli işgəncələr verməklə Ziya Bünyadovun qətlini onun boynuna qoyublar. Deməli hazırkı Azərbaycan repressiya maşını NKVD-də olan işgəncələrdən daha artıq insanlara işgəncələr verir, istənilən ittihamı onların boynuna qoyur. Sizin qarşınızdakı 13 cildlik cinayət işində bizim Məhəmməd Məcidli ilə necə mitinq təşkil etməyimiz barədə bircə dənə də olsun sübut yoxdur.

Son sözümü Azərbaycan dövlətinin banisi Məhəmməd Əmin Rəsulzadənin 28 mayda etdiyi tarixi çıxışından sitat gətirməklə yekunlaşdırıram:

***Sən bizimsən, bizimsən,***
***Durduqca bədəndə can,***
***Yaşa, yaşa, çox yaşa***
***Ey şanlı Azərbaycan.***

Səbail Rayon Məhkəməsi
Tarix: 30.09. 2011



# SİYASİLƏR



## TURAL ABBASLININ MƏHKƏMƏDƏ SON SÖZÜ[18]

Məhbəsi xoş bir əyləncə saymasam da, bu getdiyimiz yolun bir dayanacağıdır. Fəxr edirəm ki, saxlanılanlandan sonra gənclərin fəaliyyəti səngiməmdi. Gənclər bu gün də ayaqdadırlar. Elə mənimlə 2 aprel aksiyasına çıxan gənclik bu məhkəmə zalına gəlir, çöldə dəstək aksiyaları keçirir.

Azərbaycandakı siyasi məhbusların tən yarısının gənclər olmasını təsadüfü deyil. Bu hökumətin özü üçün təhlükə mənbələrini zərərsizləşdirmək taktikasıdır. Onlar nə qədər darkafalı olsalar da, "BBC", "CNN"-ə baxıb görürlər ki, bütün diktatorların nəfəsini gənclik kəsir.

Hakimiyyət gənclər həbsə salmaqla necə böyük səhv etdiyini hələ dərk etmir.

---

18 *Müsavat Partiyasının keçmiş üzvü Tural Abbaslı etiraz aksiyalarında dəfələrlə iştirakına görə inzibati qaydada həbs edilib.*

*2011-ci ildə "Ərəb Baharı" adlanan siyasi fəallıq dönəmində Müsavat partiyasının təşkil etdiyi 12 mart və İctimai Palatanın təşkil etdiyi 2 aprel mitinqlərinin əsas təşkilatçısı kimi həbs olunaraq 2,6 il müddətinə azadlıqdan məhrum edilib.*

*T.Abbaslı 22 iyun 2012-ci ildə prezidentin əfv sərəncamına əsasən azadlığa buraxılıb.*

Bu həbslər artıq gənclər üçün yeni simvollar, nümunələr yaradıb. Azərbaycan gəncinə daha "pavlik morozov" nümunələri təqdim etməyə gərək yoxdur. Gəncliyin özünün dönməz nümunələri yarandı.

Milli Azadlıq Hərəkatında iştirak edənlərin artıq 90-ci il təvəllüdlülər olması misalında layiqli varislərinin yetişməsi Azərbaycanın demokratikləşməsi yolunda "atalar və oğullar" arasında ciddi mübarizə getir, buna misal olaraq Məhəmməd Məcidliyə mənfi xasiyyətnamə verən Böyük Mərcanlı kəndi üzrə icra nümayəndəsi Fəxrəddin Niftəliyevin atası da 37-ci ildə üzəduran olub. O və yoldaşları sırf siyasi fəaliyyətlərinə görə tutulublar. Əslində, bu məhkəmə bizim yox, azad söz, azad seçki, demokratik dəyərlər üzərində qurulan siyasi prosesdir.

Cinayət işinin qondarma, məhkəmə də müstəqillikdən uzaqdır. Bu həqiqəti istintaqı aparan 30 müstəntiqdən 29-u etiraf etməyə hazırdır.

Biz bu sifarişlə işləyən məhkəmədə hansısa həqiqətin üzə çıxması, ədalətli mövqe görmək üçün yox, Azərbaycan məhkəməsi adına, buradakı babalarımızın ucaltdığı üç rəngli bayrağa, gerbimizə ehtiram əlaməti olaraq iştirak etdik. Çoxları bu məhkəməyə tragikomediya desə də, mən buna bəsit komediya deyirəm. Məhkəmə primitiv yalanlar üzərində quruldu, nə şahidlər və nə də dırnaqarası zərərçəkənlər bizim iştirakımızla hər hansı cinayətin törədildiyini deyə bildilər.

Məhkəmə bizə qarşı qərəz nümayiş etdirdi. Məhkəmə əlavə şahidlərin dindirilməsi, 2 aprel aksiyasında şüşə qıranların üzə çıxması üçün verilən əhəmiyyətli vəsatətləri təmin etməyib. Prosesdə saxtakar,





cinayətkar polislərin ifadəsi ilə ittiham tərəfi rəzil və rüsvay olub. Gənc fəal vətəndaşların mitinqə çıxması onların konstitusion hüququdur. Nə Zakir Qaralov, nə də İlham Əliyev bu hüququ heç kimə qadağan edə bilməz. Bəli, mitinqə çıxımışam, "Azadlıq" da demişəm, "İstefa" da. Əcəb də eləmişəm. Bu uzaqbaşı inzibati xətadır, 15 manat cərimə yazın, iş bitsin.

2 aprel aksiyasında guya vətəndaşların istirahət hüququnun pozulması, nəqliyyatın hərəkətində tıxac yaranması gülüncdür. Hər il "Gül bayramı" evimizin yaxınlığında keçirilir və 2-3 gün tıxac həmin ərazidə bütün nəqliyyatı iflic edir, ancaq buna görə hələ bir nəfər də məsuliyyətə cəlb olunmayıb.

Əliyevlərin sayəsində Azərbaycan məhkəmələri ədalətsizlik qalalarına çevirilib. İndi cinayətkar aləmin avtoritetlərin daha böyük inam var, nəinki hər hansı dövlət aparatına. Bu ölkənin, hüququn böhranıdır. Dövlət başçısının Avropaya inteqrasiya haqqında danışığı nağıldır.

Hakim və prokuror məsuliyyətli olmalıdır. Çox keçməyəcək Azərbaycanda haqq-ədalət bərqərar olacaq, ölkədə normal hüququ mühit yaranacaq. O zaman qanunsuz hökmu ərsəyə gətirənlər cavab verməli olacaqlar. Unutmayın ki, siz qanunsuz yerə insanları bir gün belə həbsə atırsınızsa cinayət edirsiniz. Bu vaxta qədər sizin kimilərin belə hərəkətlərini bir çoxları bağışlayıb, biz isə keçməyəcəyik. Bilin, sonra "bizim uşağımız, ailəmiz var idi" kimi sözlər keçməyəcək. Hakim sovet dissidenti A.Soljentisinin "Yalansız yaşamaq" adlı Nobel çıxışından ibrət götürməlidir. Yalana qarşı mübarizə aparamaq çətindirsə, heç

olmaya özünüz şəxsən yalanda iştirak etməyin.

Gəncliyin 3 yolu var: Anası seçki komissiyasının üzvü olsa da, polis qəddarlığı ilə öldürülən YAP-çı Elvin Əsgərovun yolu, əbədi kölə xislətli "İrəliçi" olmaq yolu və mübarizə meydanına atılıb, xalqın azadlığı üçün çalışmaq yolu. Üçüncü yolu daha şərəfli və qürurvericidir. Mən bu yolda hər kəsi avtoritarizmlə mübarizəyə səsləyirəm.

T.Abbaslı çıxışını Müsavatın himnindən bir parça oxumaqla bitirdi:

***Dünya bulanıb bir durulan vaxt olacaqdı,***
***Zalımlara divan qurulan vaxt olacaqdı,***
***Sənsiz bu Vətən torpağı bədbəxt olacaqdı,***
***Sənsən bu Vətən torpağının baxtı, Müsavat!***

Səbail Rayon Məhkəməsi
Tarix: 01.10.2011



# SİYASİLƏR



## YADİGAR SADIQOVUN MƏHKƏMƏDƏ SON SÖZÜ[19]

Hörmətli xanımlar və bəylər!

Çıxışıma başlamazdan öncə sizlərə məhkəmə adlanan, lakin ədalətdən əsər-əlaməti olmayan bu məzhəkədə daim yanımda olub, mənə mənəvi dəstək verdiyinizə görə təşəkkür edirəm. Eləcə də məruz qaldığım repressiyaya etiraz səsini ucaldan, hüquqlarımı müdafiə edən təşkilatlara, KİV-lərə, hüquq müdafiəçilərinə və şəxslərə minnətdaram. Çox sağ olun ki, dəstəyinizi əsirgəmədiniz, dostlar.

Cinayət işinin materialları ilə tanış olarkən o qədər cəfəngiyyat, uy-

*[19] Müsavat Partiyasının keçmiş başqan müşaviri Yadigar Sadıqov 27 iyun 2013-cü ildə yaşadığı Lənkəran şəhərində polis tərəfindən saxlanılıb. Polis şöbəsində 6 saatlıq dindirmədən sonra Yadigar Sadıqov barəsində saxlanılma qərarı çıxarılıb.*

*O, Lənkəran şəhər sakini, II qrup Qarabağ əlili olan Rəşid Kərimovu döyməkdə ittiham olunub və barəsində Lənkəran rayon Polis Şöbəsinin istintaq bölməsində Cinayət Məcəlləsinin 221.3 ( silahdan və ya silah qismində istifadə olunan əşyalardan istifadə edilməklə törədilməsi zərər çəkmiş şəxsə zor tətbiq olunması ilə, yaxud özgənin əmlakının məhv edilməsi və ya zədələnməsi ilə müşayiət olunan xuliqanlıq) maddəsi ilə cinayət işi qaldırılıb.*

ğunsuzluqlar gördüm ki, bir ara onların hamısını qeyd edib burada sadalamaq fikrimdən vaz keçmək istədim. Zira, hamınıza məlumdur ki, vəkilim Xalid Bağırov və mən ittihamı nə qədər sübutlu-dəlilli ifşa etsək də, bunun hüquqi nəticəsi olmayacaq, onsuz da hakim Elçin Kazımov aldığı sifarişi can-başla yerinə yetirərək məni məhkum edəcək. Buna görə də, özümə "dəyərmi?" sualını verdim və düşündükdən sonra "dəyər" qərarına gəldim. Çünki bizlər, dəyərlər və ideyalarla yaşayan- lar, təkcə bu günü deyil, eyni zamanda tarixi, gələcək nəsillərin verəcəyi hökmü düşünürük. Məhz tarixin və gələcək nəsillərin, o cümlədən, bu prosesdə zərərçəkən, ittiham şahidi, müstəntiq, dövlət ittihamçısı və hakim rolunda çıxış edənlərin xələflərinin çıxaracağı hökm üçün bu əhatəli çıxışı hazırladım.

Təbii ki, öncə prosesdə "zərərçəkən" kimi tanınan Rəşid Fərman oğlu Kərimovun ifadələrindən başlayıram. Guya məruz qaldığı döyülmə haqqında R.Kərimov 4 dəfə ifadə verib: 25.06.2013-cü il tarixində təhqiqata, iyunun 26-da istintaqa, oktyabrın 14-də üzləşdirmə zamanı və noyabrın 12-də məhkəmədə ifadə verib. Bu ifadələrin hər biri ayrıca fantaziyanın məhsuludur və bir-birilərinə münasibətdə xeyli uyğunsuzluqları var. Hamısını sadalamaq çətin işdir, ən əsaslarını deyəcəyəm.

Aramızdakı mübahisənin necə başlaması haqqında ilk ifadəsində R.Kərimov göstərir ki, mənimlə bir stolda oturan Şahin Ağayev onun-

*13 yanvar 2014-cü ildə Lənkəran Rayon Məhkəməsinin hökmü ilə Y.Sadıqov 6 il müddətinə azadlıqdan məhrumedilmə cəzasına məhkum edilib.*

*Y.Sadıqov Prezidentin 18 mart 2016-cı il tarixli əfv sərəncamına əsasən azadlığa buraxılıb.*





narkomana oxşadığını deyib. Rəşid də "narkoman özünüzsünüz" cavabını verib və bundan sonra mən onu təhqir etmişəm, mübahisə başlayıb. Ertəsi gün, yeni ilk ifadəsindən cəmi 13-14 saat sonra R.Kərimov iddia edir ki, Şahin onu "fırıldaqçı" adlandırıb və buna görə onlar arasında mübahisə başlayıb, mən isə sonradan müdaxilə etmişəm. Üzləşdirmə zamanı isə bu adam söyləyir ki, Şahin deyil, mən onu "narkoman" adlandırmışam, mübahisənin səbəbi də bu olub. Məhkəmədə isə "zərərçəkən" öz işverənliyinə siyasi çalar qatır. Guya stolumuzdakı üçüncü şəxs – Fikrət Əhmədov ondan dövlətdən razı olub-olmadığını soruşub. Rəşid də müsbət cavab verib. Azərbaycan dövlətçiliyinin ideoloji əsaslarının yaradıcı və dönməz daşıyıcısı, bu dövlətin bütün atributlarının müəllifi olan Müsavat Partiyasının üzvü Yadigar Sadıqov da R.Kərimovun dövlətə sədaqətindən əsəbiləşərək onu təhqir edib və mübahisə başlayıb. Beləliklə, "zərərçəkən"in bu məqam haqqında 4 ifadəsindən heç biri digərinə uyğun gəlmir. Məgər, bu onun yalançılığından irəli gəldiyini isbatlamırmı?

Çayxanadan çıxmamız haqqında R.Kərimov əvvəlcə deyir ki, mən ona çıxıb bayırda söhbət etməyi təklif etmişəm, o da dəvətimi yerə salmayıb, sağ olsun. Artıq ertəsi gün isə onu itələyə-itələyə çölə çıxardığımı iddia edir. Üzləşdirmə protokolunda isə oxuyuruq: "Siz stoldan durub çayxanadan çıxdınız. Mən də sizinlə bərabər çayxanadan çölə çıxdım".

Üç ifadə və üç fərqli fikir! Əslində sonuncu versiya həqiqətə yaxındır. Doğrudan da, biz bu adamın təxribatçı olduğunu təsbit etdikdən sonra ondan uzaqlaşmağa çalışmışıq. O isə arxamızca gələrək məni

hövsələdən çıxarmağa çalışıb, lakin müvəffəq olmayıb. "Zərərçəkən"in bu məqam haqqında məhkəmədəki ifadəsini xatırlamıram. Çünki hakim Elçin Məmməd oğlu Kazımov qanunvericiliyi kobud şəkildə pozaraq, hər iclasdan sonra ptorokolları müdafiə tərəfinə verməkdən imtina edir. Bu, həm də mənim müdafiə hüququmun qanunsuz şəkildə məhdudlaşdırılmasıdır. Belə ki, məhkəmədə səslənən bütün fikirləri yadda saxlamağım qeyri-mümkün olduğundan onlara münasibət bildirməyim də imkansız olur. Şübhəsiz ki, hakim bu addımı protokolları saxtalaşdırmaq üçün atır. Məhkəmə baxışı tam bitdikdən sonra protokolları alarkən görəcəyik ki, orada məhkəmə zamanı səslənməyən fikirlər yer alıb və əksinə, səslənən fikirləri, xüsusən də, "zərərçəkən"in və ittiham şahidlərinin buraxdığı yanlışlıqlar yer almayıb. Elçin Kazımov bu məqsədə çatmaqdan ötrü özünü "məhkəmə baxışı" və "məhkəmə iclası" ifadələrinin mənalarını bilməyəcək qədər savadsız göstərməkdən də çəkinmədi. Protokolda yer alacaq saxtakarlıqlardan biri də, şübhəsiz ki, sındırılmış eynəklə bağlı olacaq. R.Kərimov bu nüansla bağlı elə səhv buraxdı ki, protokola salınması halında mənə bəraət verilməlidir.

Guya telefonla vurub eynəyi sındırdığım məkan haqqında "zərərçəkən" və "şahid" ifadələrində qeyri-müəyyənlik var. Lakin məntiqi analiz aparmaq mümkündür. İttiham şahidləri iddia edirlər ki, çayxanadan çıxdıqdan sonra uzaq məsafədən (20-25 metrdən 45-50 metrə qədər məsafə göstərilir) guya mənim eynəyi sındırdığımı görüblər. Hadisə yerinə baxış zamanı çəkilmiş fotoşəkildə isə eynəyin çayxananın qapısından 5-6 metr aralıda olduğunu görürük. Bu da "şahid" ifadələri ilə heç cür uyğun gəlmir. Lakin bu uyğunsuzluq "zərərçəkən"in məhkəmədə buraxdığı səhvlə müqayisədə çox xırdadır. Belə ki, R.Kərimov, onun eynəyini A.Əliyev və Firdovsi küçələrinin kəsişməsində sındırdığımı iddia etdi. Vəkilimin şəkildəki yer, yəni Cavanşir küçəsindəki səki barədə qəfil sualı ilə üzləşən R.Kərimov özünü itirdi və olduqca uğursuz yalan uydurdu. Sən demə, onun 2 eynəyi varmış, onlardan biri, yəni fotoşəkildəki, yeriyərkən əlindən düşüb və özü tərəfindən qeyri-ixtiyari tapdalanıb. İkincisini isə A.Əliyev və Firdovsi küçələrinin kəsişməsində mən sındırmışam. Çox gözəl, çox pakizə. Bəs belə olan halda niyə mənim "sındırdığım" eynəyin deyil, sahibinin özünün sındırdığı eynəyin şəkli çəkilir, ekspertizaya göndərilərək maddi sübutlar siyahısına salınır? Digər tərəfdən, üzləşdirmə protokolunda R.Kərimovun hadisədən sonra: "Oraya polislər gəldilər. Mən eynəyi və köynəyi təqdim etdim", - dediyini oxuyuruq. Əgər o, hadisə yerindən tərpənməyib polisləri gözləyibsə, üstəlik 2 eynəyindən birini özü, digərini mən sındırmışamsa, o zaman hadisədən dərhal sonra çəkilmiş fotoşəkillərdə gözünə taxdığı eynək haradan peyda oldu? Təbii ki, bu suallar cavabsız qalacaq. Əks halda sözügedən eynək çoxdan maddi sübutlar siyahısından çıxarılardı. Halbuki 23 dekabr tarixli məhkəmə iclasında hakim Elçin Kazımov gözünü qırpmadan maddi sübut kimi R.Kərimovun özünün sındırdığı eynəyin üzərində aparılmış ekspertizanın nəticələrini açıqladı. Etdiyim etiraza görə isə mənə xəbərdarlıq etdi.

Digər maddi sübut – cırılmış köynək haqqında da Rəşid Kərimovun məhkəmədəki ifadəsi diqqətəşayandır. Dediyinə görə, guya onu təpiklə vurmuşam, o da yolun kənarında olan kanalizasiya xəndəyinin üstündən uçub. Bu uçuş qazpaylayıcı yarımstansiyayla toqquşma ilə

sonuclanıb. Sözügedən aviatoqquşma çox faciəli nəticələrə səbəb olub: "zərərçəkən"in köynəyi cırılıb, özünün də sol qanadı... üzr istəyirəm, sol qolu əzilib. Bilmirəm, bu ifadəni verməmişdən öncə R.Kərimov hind filminəmi, yoxsa Ceki Çanın filminəmi baxıb, amma bu ifadə də tənqidə dözmür. Belə ki, ekspertiza köynəyə baxış keçirərkən onu cıran kənar predmetin izlərini tapmayıb və onun fiziki gücün təsirilə cırıldığı qənaətinə gəlib. Beləliklə, "zərərçəkən"in ifadəsi ekspertizanın rəyi ilə üst-üstə düşmədiyindən sözügedən köynək də maddi sübutlar siyahısından çıxarılmalıdır. Yeri gəlmişkən, fotoşəkillərdə hadisə yerindən tərpənməyən R.Kərimovun əynindəki köynəyin cırılmadığını görürük.

Diqqətinizi rica edəcəyim növbəti məsələ həbsimin qurama olduğunu dolayı yolla, lakin bəlkə də, ən bariz şəkildə sübut edir. R.Kərimov döyüldüyünü iddia etdiyi yerin yaxınlığında "VAZ-21099" markalı, 8611 xarici nömrə-nişanlı bir maşının dayandığını söyləyir və onun sürücüsünü "əvvəllər görmədiyim, dolu bədənli, qarayanız oğlan" kimi təsvir edir. Şillə-təpik altında olan adamın maşının nömrəsinə fikir verməsi və yadda saxlaması özlüyündə heyrətamizdir. Lakin əsas bu deyil. "Zərərçəkən" ertəsi gün verdiyi ikinci ifadəsində: "Səsə gələnlərdən mən bircə Qorxmazı tanıdım", - deyir. Bəs bu Qorxmaz kimdir? Cinayət işində "xuliqanlığım"a şahidlik edən 7 nəfərin ifadəsi var. Onlardan dördü ittiham şahidi kimi məhkəməyə dəvət olunublar.

Xolmili kənd sakini Qorxmaz Naib oğlu Hacıyev məhkəməyə dəvət edilməyən 3 yalançı şahiddən biridir. Onun istintaqa verdiyi ifadəsində oxuyuruq: "Özümə məxsus "VAZ-21099" markalı "AN-8611-VN" nömrəli avtomobilimlə sərnişin daşımaqla ailəmi dolandırıram".





Beləcə aydın olur ki, R.Kərimovun bir ifadəsində "əvvəllər görmədiyim", ikinci ifadəsində isə "bircə Qorxmazı tanıdım" deyə bəhs etdiyi eyni şəxsdir. Dediyim kimi bu halın işin mahiyyətinə o qədər də aidiyyəti yoxdur. Lakin qurama, uydurma olduğunu aydın göstərir.

Günahsızlığımı sübut edən dolayı dəlillərə keçmək istəyirəm. Çayxanada işləyən İdrak Mustafayev məhkəmədə sualıma cavab olaraq bildirdi ki, sözügedən hadisədən nə əvvəl, nə də sonra R.Kərimovu həmin çayxanada görüb. Bu da təbiidir. İnsan, xüsusən də, şəxsi avtomobili olmayanda, adətən, evinə maksimum yaxınlıqda yerləşən çayxanaya gedir. Necə ki, mən evimdən 400-500 metr aralıda yerləşən çayxanaya getmişdim. Nəqliyyat vasitəsi olmayan, müharibədə aldığı xəsarətlər üzündən ayaqlarının pis işlədiyini iddia edən R.Kərimovun, evindən 4-5 km aralıda olan çayxanaya krossvord həll etməyə getməsi ilk baxışda çox təəccüblüdür. Əslində isə burada təəccüblü şey yoxdur. O, Lənkəran şəhər İcra Hakimiyyətinin və polisinin sifarişi əsasında məni təxribata çəkmək üçün orada idi. Mən bu təxribata uymayanda isə cinayət işini sadəcə heç nədən qondardılar.

İdrak Mustafayev "zərərçəkən"in bizim ardımızca çıxdıqdan, təxminən, 1 saat sonra polislərlə çayxanaya qayıtdığını, lakin onun üzərində heç bir xəsarət görmədiyini söylədi. Dövlət ittihamçısı Elnar Əli oğlu Hüseynov bunu şahidin pis yaddaşı ilə əlaqələndirməyə çalışdı. Lakin bu məsələdə xeyrimə olan ən böyük dəlili bizə təhqiqat göstərir. Hadisə yerinə baxış zamanı çəkilmiş fotoşəkillərdə

"zərərçəkən"in heç bir zərər çəkmədiyi görünür, üzərində heç bir xəsarət gözə dəymir. Qısa müddət öncə 20-25 dəqiqə ərzində amansızca döyüldüyü iddia olunan R.Kərimovun fotolarda dimdik duruşu, sınmış eynəyi göstərərkən ikiqat əyilə bilməsi diqqət çəkir. Heç döyülən adama oxşamır.

İttihamın məni 20-25 dəqiqə ərzində R.Kərimovun döyməkdə ittiham etməsi, xüsusilə, bərbad bir cəfəngiyatdır. Bu iddia adını unutduğum gürcü filmində birinin daş tullamaqda dünya rekordu müəyyən etməsini xatırladır. Müstəntiq, ittihamçı və hakim 20-25 dəqiqə ərzində adam döyməyin nə demək olduğunu təsəvvür etmirlər. Bu adamlar anlamırlar ki, hər gün saatlarla məşq edən gənc boksçular hər biri 3 dəqiqə olan 3 raundun sonuncusunda ayaqlarını sürüyə-sürüyə hərəkət edirlər. 45 yaşlı Yadigar Sadıqov isə 20-25 dəqiqə adam döyür, üstəlik səsə gələnlər onu tutmaq istəyərkən elə sürətlə qaçır ki, kimsə çata bilmir. Məzəniz olsun.

R.Kərimovun ifadələrində daha kiçik, lakin heç də əhəmiyyətsiz olmayan xeyli uyğunsuzluqlar var. Məsələn, ilk ifadəsində göstərir ki, səs-küyə 5-6 nəfər yığışmışdı. İkinci ifadəsində isə bu say 15-ə çatır. Belə kalibrli yalanların hamısını sadalamaq istəmirəm və "şahid" ifadələrinə keçirəm. Lakin öncə şahidlərlə bağlı bir neçə ümumi məqamlara toxunacağam.

Xuliqanlıq etdiyim iddia olunan yer əhalinin sıx yaşadığı yerdir. Burada bir ikimərtəbəli bina var ki, təkcə orada 50-yə qədər insan yaşayır. Həyət evlərini də hesablasaq, həmin yerin bilavasitə yaxınlığında





yüzdən artıq adamın yaşadığını əminliklə söyləyə bilərik. Amma nə sirdirsə, 20-25 dəqiqə ərzində törətdiyim və ucadan söydüyüm söyüşlərlə müşayiət olunduğu iddia edilən xuliqanlığıma bu qədər insandan heç biri şahid olmur. Bir nəfər çıxıb demir ki, ay filankəs, nə ixtiyarla evimin yanında, arvad-uşağımın qulağının dibində söyüş söyürsən. Amma Lənkəranın müxtəlif kəndlərində yaşayan 7 "şahid" tapılır. Özü də elə bir saatda ki, idarə və müəssisələr bağlandığından, kənd avtobuslarının hərəkəti dayandığından o zaman kənd əhalisi, adətən, evlərində olur. Lakin necə olursa, "xuliqanlığımı" orada yaşayan heç kəs görmür, 7 kənd sakini isə istintaqa şahidlik edir. Bu müəmmanın cavabı çox sadədir: şahidlər yalançıdır.

**İkinci məqam.** Hadisə yerinə baxış zamanı çayxanada oturduğumuz stolun şəkli çəkilib. Bu stol müəssisənin ən yuxarı hissəsində yerləşir. Digər stolların paralel şəkildə düzülüşünü, müştərilərin, adətən, stolun eni istiqamətində üzbəüz əyləşdiklərini nəzərə alsaq, başqa stollarda oturan hər iki nəfərdən birinin arxası bizə tərəf olmalı idi. İttihamın bizə şahid kimi təqdim etdiyi şəxslər də guya çayxanaya iki-iki gəliblər. Amma necə olursa, hamısı bizim stolla üzbəüz oturub, üstəlik, bütün diqqətləri stolumuzda olub. Xeyir ola? Əgər bizim stolda qəşəng bir xanım olsaydı, onların diqqətini görməmişlikləri ilə izah etmək olardı. Təəssüf ki, yanımızda belə bir xanım yox idi və "şahid"lərin niyə israrla yanbayan oturub bizə diqqət ayırmalarını izah etmək çətindir. Bu xüsusda "şahid" Əbülfət Cavadovun ifadəsi daha maraqlıdır. 13 iyulda o, qeyd edir ki, həmkəndlisi Rəşid Hüseynovla nərd oynamaq məqsədilə çayxanaya gedib. Onlardan birinin mütləq arxası bizə olmalı idi. Lakin hər ikisinin stolumuzda guya baş verənləri

təsvir etmələrindən belə çıxır ki, onlar yanaşı oturub nərd oynamağın üsulunu kəşf ediblər.

**Üçüncü məqam.** "Şahidlər" istintaqa ifadələrində çayxanadan müxtəlif vaxt intervalında çıxdıqlarını deyirlər. Məsələn, Ə.Cavadov, R.Hüseynov guya bizdən dərhal sonra çıxıblar. Pərviz Cəfərov və Namiq Nəsirov isə 20 dəqiqədən sonra çıxdıqlarını deyirlər. Axı, o zaman necə olur ki, onların hamısı eyni şeylərin hamısını görürlər? Eyni yerdə müxtəlif vaxtlarda olanlar eyni şeyi görə bilməzlər, axı. Bu müəmmanın cavabı da sadədir: "şahidlər" gördüklərini deyil, müstəntiqin istədiklərini yazıblar.

Nəhayət, **dördüncü məqam.** "Şahidlər" istintaqa verdikləri ifadələrində məni əvvəllər tanımadıqlarını, "xuliqanlığım"a isə uzaq məsafədən (20-25 metrdən 45-50 metrə qədər) şahid olduqlarını söyləyirlər. Bu 0halda, üstəlik, mənim daim buqələmun eynək taxdığımı nəzərə alsaq, prosessual qaydalara görə mütləq tanıtma hərəkəti keçirilməli idi. Lakin bu edilmədi. Əvəzində isə "şahidlər"dən ikisinə üzləşdirmə zamanı, ikisinə də məhkəmədə məni göstərərək de-fakto "üzünə duracağınız adam budur" söylənilib.

İndi də keçək "şahid" ifadələrinə. Çayxanada olduqları iddia edilərək istintaqa ifadə verən cütlüklər bunlardır: Boladi kənd sakinləri Əbülfət Nuru oğlu Cavadov və Rəşid Ağaxan oğlu Hüseynov; Separadi kənd sakinləri Namiq Əlihüseyn oğlu Nəsirov və Pərviz Əziz oğlu Cəfərov; Şovu kənd sakinləri İmran Mustafa oğlu Məmmədov və Güloğlan Ağaxan oğlu Şəkərov; Xolmili kənd sakini Qorxmaz Naib





oğlu Hacıyev və onun dostu. Sonuncu istintaqa ifadə vermədiyindən adını çəkmirəm.

Onlardan dördü məhkəməyə ittiham şahidi kimi cəlb olunublar. Ə.Cavadov və R.Hüseynov cütlüyü ilə üstəlik, istintaq zamanı videoçəkilişlə müşayiət olunan üzləşdirmə keçirilib. Lakin 14 oktyabrda baş tutan bu prosedurun nəticələri istintaq üçün o qədər rüsvayçı olub ki, işi aparan yeni müstəntiq Nizami Məhərrəmov cinayətə əl ataraq videoçəkilişi məhv edib və onun diski istintaq materiallarının içində yoxdur. Hərçənd mənə və vəkilimə "kişi kimi" söz vermişdi ki, heç bir montaj olmayacaq və diski bizə verəcək. Yazıq nə biləydi ki, əvvəlki müstəntiq Polad Mehdiyev "şahidlər"ə heç çayxananı göstərməyib.

Bu 2 şahidin üzləşdirmə zamanı dediklərindən yaranan ümumi mənzərəyə əsasən, mübahisə "Xan evi"nin önündəki "Təbriz" çayxanasında başlayıb. Xuliqanlıq "Xan evi"nin bilavasitə önündə baş verib, onlar da bunu 8-9 metrdən, çayxananın yerləşdiyi "Dostluq" parkından müşahidə ediblər. Bununla da onlar nəinki sözügedən hadisədən, eləcə də özlərinin əvvəlki iki ifadələrindən də yerli-dibli bixəbər olduqlarını ortaya qoyurlar. Axı, istintaqda "Xan evi"nin önündəki deyil, arxasındakı çayxanadan söhbət gedir, ittiham R.Kərimovun A.Əliyev və Firdovsi küçələrinin kəsişməsində, yəni şahidlərin dedikləri yerdən 250-300 metr uzaqda, döyüldüyünü iddia edir. Ə. Cavadov və R.Hüseynov da əvvəlki ifadələrində hadisəni Firdovsi küçəsində 30-40 metrdən izlədiklərini söyləyiblər. Üstəlik, həmin çayxana 2 metr hündürlükdə hasarla əhatələndiyindən çöldə baş verənləri müşahidə etmək mümkün deyil. Bundan əlavə, həm Ə.Ca-

vadov, həm də R.Hüseynov üzləşdirmə zamanı söyləyirlər ki, hadisədən sonra maşınlarına minib gediblər. Halbuki əvvəlki ifadələrində polis gələnə qədər orada qaldıqları yazılıb. Bütün bunlar göstərir ki, bu iki "şahid"in, əvvəlki ifadələrində nə yazıldığı haqqında təsəvvürləri yoxdur. İfadələri işi aparan ilk müstəntiq Polad Mehdiyev yazıb, onlar isə sadəcə imza atıblar.

Ümumiyyətlə, bu şahidlərlə üzləşdirmə zamanı gözümün önündə daim "Avtomobildən özünü gözlə" filmindən səhnə canlanırdı. Yadınızdadırmı:

Kim şahiddir?

Mən şahidəm. Bəs nə baş verib?

Ə.Cavadov və R.Hüseynov da belə şahidlik edirlər. Onların hər biri istintaq zamanı 2 ifadəyə imza atıblar. Bu ifadələrdə "xuliqanlığım" ətraflı təsvir edilir. Cütlük hadisəni 20-25 dəqiqə seyr etdiklərini, R.Kərimov şillə, təpiklə vurduğumu, söyüşlərlə təhqir etdiyimi, özlərinin də bunları 30-40 metrdən müşahidə etdiklərini deyirlər. İki nəfər sağlam kişinin uzaqda duraraq 20 dəqiqə ərzində zəif birisinin döyülməsinə tamaşa etmələrinin çox vicdansız bir hərəkət olmasını kənara qoyuram. Problem ondadır ki, bu adamlar həm üzləşdirmə, həm də məhkəmə zamanı "gördüm ki, telefonla vurdu"dan savayı bir söz demədilər. Belə çıxır ki, əvvəlki ifadələrində yalan yazıblar. Halbuki bu ifadələr haqqımda 3 dəfə həbs qətimkan tədbirinin seçilməsinə, məhkəməyə qədər 4 ay həbsdə yatmağıma əsas olublar. "Şahidlər"in mənimlə və vəkilimlə üz-üzə gəldikdə belə lakonik olmalarının səbəbi





odur ki, çox danışıb səhv buraxmaqdan, biri digərini inkar edən ifadələr səsləndirməkdən qorxurlar. Çox güman ki, onlara: "Qısa danışın ki, vəkil və müttəhim sizdə səhv tuta bilməsinlər. Ehtiyac olsa, protokolları tərtib edəndə hakim Elçin Kazımov lazımi fikirləri əlavə edər", - təlimatı verilib. Necə ki istintaq zamanı Polad Mehdiyev tərəfindən tərtib olunan "şahidlər"in imza atdıqları ifadələrdə xeyli yanlışlar və uyğunsuzluqlar var. Məsələn, Ə.Cavadovun 13 iyul tarixli ifadəsində oxuyuruq: "Bir də gördüm ki, həmin oğlanla (yəni Rəşid Kərimovla) stol arxasında oturanlar ucadan danışaraq mübahisə edirlər. Necə oldusa, onlar mübahisə edə-edə stoldan durub uzaqlaşdılar".

Cəmi 6 cümlədən sonra Ə.Cavadov çöldə dava-dalaşı görüb təəccübləndiyini yazır: "Ona görə baxmaq qərarına gəldim ki, görüm 10 dəqiqə bundan əvvəl mehriban olan şəxslər indi niyə mübahisə edirlər".

Yahu, bu mehribanlıq haradan çıxdı? Axı, Ə.Cavadov bizim çayxanada da mübahisə etdiyimizi yazırdı?! Aydındır ki, gerçək hadisənin gerçək şahidi bu qədər cəfəng uyğunsuzluğa yol verməz. Yalnız uydurma, təxəyyül məhsulu olan ifadələrdə belə hala rast gəlmək mümkündür. Təxəyyüllə cinayət uydurmaq üçün A.K.Doyl, A.Kristi, R.Staut, F.Dostoyevski kimi istedad sahibi olmaq lazımdır. Müstəntiq Polad Mehdiyevin belə istedad çoxluğundan əziyyət çəkmədiyi göz önündədir. Ümumiyyətlə, istintaq işində "Qaynana" filmində Cənnət xalanın "soyuq, bumbuz çayı tökdü üstümə, əl-ayağım yandı" deyərək, gəlininə atdığı böhtan tipli cəfəngiyata tez-tez rast gəlinir. Məsələn, Namiq Nəsirovun 28 iyun tarixli ifadəsində mənim "sarı

köynəkli Rəşidin kürəyinə zərbələr" vurduğum iddia olunur. Növbəti cümlədə isə oxuyuruq: "Rəşidin əynindəki ağ rəngli köynək arxa sol tərəfdən cırılmışdı." Dalbadal yazılan iki cümlənin birində köynək sarı, digərində isə ağ olur. İsa bəy demişkən, nə gündəsiniz? Açığı, həbsimə qədər hüquq-mühafizə orqanları haqqında daha yüksək fikirdə idim.

Məhkəməyə dəvət olunmuş digər "şahidlər"in də ifadələrində xeyli uyğunsuzluqlar var. Hamısını sadalamayacağam, bir-iki məqama diqqətinizi yönəldəcəyəm. Şovu kənd sakini İmran Məmmədov ilkin ifadəsində telefon haqqında bir söz deməyib. Bunu görən yeni müstəntiq Nizami Məhərrəmov sentyabrın 23-də ondan yeni ifadə alır və hadisədən 3 ay sonra "şahid"in "yadına düşür" ki, mənim telefonla Rəşidi vurmağımı görüb, özü də 20-25 metr məsafədən.

İ.Məmmədov hadisə yerini təsvir edərkən onun markasını təyin edə bilmir. "Şahid" bunu bir gözünün tamamilə kor olması ilə izah edir. Çox maraqlıdır, yanında dayanan o boyda maşının markasını təyin edə bilməyən gözdən əlil 20-25 metrdən əlimdəki telefonu necə görür?

Nəhayət, məhkəməyə dəvət olunmuş sonuncu "şahid" – Separadi kənd sakini Pərviz Əziz oğlu Cəfərovun ifadəsinə toxunaq. Əslində, onu Pərvizin ifadəsi adlandırmaq da mümkün deyil. Cinayət işində Pərvizin həmkəndlisi Namiq Nəsirovun iyunun 28-də verdiyi ifadə var. P.Cəfərov isə iyunun 30-da ifadə verib. Kompüterdə yazılmış bu ifadədə "şahid" 20 cümlə yazıb və onlardan 14-ü Namiq Nəsirovun ifadəsindən nöqtə-vergülünə dəymədən kopyalanıb. Belə olan halda





bu "şahid"in hansı şahidliyindən danışmaq olar? Məgər, aydın deyil ki, müstəntiq P.Mehdiyev özünə əziyyət verməmək üçün bir ifadəni, 6 cümlə istisna olmaqla kopyalayıb, yeni ifadə tərtib edərək Pərviz Cəfərova sadəcə qol çəkdirib?

Mən ittihamçının da, hakimin də diqqətini özümün və müdafiə şahidlərinin ifadələrinə yönəltmək və soruşmaq istəyirəm: bizim ifadələrdə niyə belə cəfəngiyatlar, bir-birini inkar edən fikirlər yoxdur? Cavabı çox sadədir: ona görə ki, biz gerçəkliyi təsvir edirik, özümüzdən uydurmuruq. Gerçəklik də ondan ibarətdir ki, çayxanada çay içən yerdə Rəşid Kərimov yaxınlaşaraq müxalifətin, müxalifətçilərin ünvanına təhqirlər yağdırıb. Bununla da o, işvərəni olduğu Lənkəran polisinin, şəxsən Möhübbət Hüseynovun tapşırığını yerinə yetirərək, məni təxribata çəkmək istəyib. Onun bu məramını dərhal anlayaraq, ondan uzaqlaşmağa çalışmışıq. Rəşid isə bir müddət A.Əliyev və Firdovsi küçələrinin kəsişməsinə qədər arxamızca gələrək, istəyinə nail olmağa çalışıb. Lakin biz bütün səbrimizi və təmkinimizi toplayaraq, ona barmağımızı da toxundurmadan uzaqlaşmışıq. Vəssalam, hadisə bundan ibarət olub.

Rəşid Kərimov narkotik ticarətçisi və polisin işvərənidir. Həbsdə olduğum müddətdə bu adamın tutdurduğu bir neçə dustağa rast gəldim. Narkotik almaq istəyənləri evinə dəvət edir, çıxanda isə polislər tuturlar. Onlara istintaqda və məhkəmədə Rəşidin adını çəkmək qadağan olunur, narkotiki yerdən tapdıqlarını və ya tanımadıqları şəxsdən aldıqlarını demək tələb edilir. R.Kərimovu narkotiklə kimin təmin etməsi də maraqlı sualdır. Hər halda mənimlə üzləşdirmə zamanı əsəbləşib

əhvalı pozulanda o, müstəntiq Nizami Məhərrəmova: "Özümü pis hiss edirəm, dərman atmalıyam, Vüqar müəllim işdədir?", - sualını verdi.

Məhkəmə iclasları zamanı bu qədər əsəbi, aqressiv olmasının da səbəbi odur ki, həmin gün narkotik qəbul edə bilmir, polis qadağan edib. Hakimiyyətə yaxın mətbuat orqanları müsavatçının Qarabağ əlilini döyməsi haqqında hay-küy qaldırmışdılar. Guya əlillərin qayğısına qalırlar. Bir neçə gün öncə özünü yandıran Zaur Həsənovun timsalında gördük "qayğınızı".

Bəlkə, Qarabağ qazisi Tofiq Yaqublunu artıq 1 ildir haqsız həbsdə saxlamağınızdır "qayğı"? R.Kərimov, bəlkə də müharibədə aldığı yaraların ağrı-acısından narkotikə qurşanıb. Bundan istifadə edərək onu işverən, üzəduran səviyyəsinə qədər alçaltmağınızdırmı qayğı?

Bu hakimiyyət nə qədər vətəndaşı "yalançı şahid" kimi şərəfsiz peşə sahibi edib? Təkcə mənim işimdə yeddisi keçir. Hətta həqiqətən cinayət törətmiş insanları tutarkən prosedur qaydalarına riayət olunmur. Əvəzində hər kəsə qarşı və hər şeyə şahidlik etməyə hazır olan yalançı şahidlərin xidmətindən istifadə olunur. Bir hakimiyyət də öz vətəndaşlarını bu qədər alçaldarmı?

İnsanlar siyasi görüşlərinə görə həbs edilir, sonra da sındırılaraq əqidələrindən dönmələri tələb olunur. "Qarabağ ermənilərindir" deməyin, Azərbaycan bayrağını təhqir etməyin tələb olunduğu erməni əsirliyi ilə Azərbaycan həbsxanalarının fərqi nədir? Narkotik maddələrin istifadəsi ittihamı ilə həbs olunmuş iki siyasi məhbusun son aylarda öz





partiyalarından çıxıb YAP-a keçmələri təntənə ilə elan olunub. Əgər narkomandırlarsa, YAP-a keçmələrinə niyə belə sevinirsiniz? O məhbuslardan biri II qrup əlil idi. Bir insanın əlilliyindən bu qədər mənəviyyatsızca istifadə etmək olarmı?

Təkcə siyasi deyil, dini, milli, ümumiyyətlə, hər hansı bir insan hüququndan söz açan dərhal həbs olunur. Sanki insan deyilik və hüquqlarımız da yoxmuş. Alim demirlər, ziyalı demirlər, dindar demirlər, ruhani demirlər, hamının cibinə narkotik atıb tuturlar. Ölkədə məhbusluğun neçə növü olarmış... Vicdan məhbusu, hicab məhbusu, "Eurovizion" məhbusları, "Molotov məhbusları", İsmayıllı məhbusları, Quba məhbusları, "Binə" məhbusları... Avqustun sonunda Xəzər-Lənkəran-Neftçi oyunundan sonra hətta futbol məhbusları da peyda oldu. Öz xalqına bu qədər düşmən kəsilməyin səbəbi nədir?

Mən Müsavat başqanının milli məsələlər üzrə müşaviriyəm. Rusiyada Federal Təhlükəsizlik Xidmətinin (FTX) qucağında oturmuş agentlərin qeyri-türk etnoslara mənsub gənclərin beyinlərini zəhərləmə, xalqlarımız arasında nifaq toxumu səpmə cəhdlərini öz savadım və arqumentlərimlə ifşa edirdim. Yadımdadır, bir neçə talış gənci etiraf edirdilər ki, yalnız mənim internetdə fəallığım onların gözünü açıb, agentlərin təsirinə düşməyə qoymayıb. Amma ən dəhşətlisi o idi ki, belə zəhəri yayanlar təkcə rus agentləri deyildilər. Bizim xüsusi xidmət orqanlarının agenti olduqlarına şübhə etmədiyim adamlar da bu işlə məşğul idilər. Onlar ən kiçik məmurun belə ünvanına bir tənqid demirdilər. Əvəzində Azərbaycan dövlətini, Azərbaycan türklərini təhqir edirdilər. Kimsə onlara toxunmur, bu gün

də Lənkəranda asudə şəkildə yaşayırlar. Bunun müqabilində mən, Azərbaycan xalqları arasında nifaq toxumlarına imkan verməyən, bu xalqların qardaşlıq və bərabərlik halında yaşamalarının davamına çalışan, "parçala, hökm sür" siyasətini ifşa etdiyimə görə həbs olundum. Üzümü hakimiyyətə tutub məşhur lətifədəki sualı vermək istəyirəm: siz kimin əmisioğlusunuz? Nəyə nail olmağa çalışırsınız?

Elşad Abdullayevin videosunda Ağır Cinayətlər Məhkəməsinin hakimi Ağabala Babayevin "bunlar faşistdən də pisdirlər" fikri çoxuna şişirtmə görünə bilər. Lakin xatırlayaq ki, nasist məhkəməsi Reyxstaqın yandırılmasında ittiham olunan kommunist Dimitrovun arqumentləri qarşısında duruş gətirməyib bəraət hökmü çıxarmışdı. Azərbaycan məhkəmələrində isə müsavatçının, hakimiyyətə müxalif olan digər şəxslərin bəraət alması presedenti hələ olmayıb. Atılan böhtan nə qədər ağlasığmaz olsa da, ittiham nə qədər bərbad tərtib edilsə də, müdafiənin arqumentləri daşı dəlib keçsə də, xeyri yoxdur. Onsuz da hakimlər sifarişə uyğun hökm çıxaracaqlar.

Türk müğənnisi Yalın demişkən:

**Bu nasıl bir cümhuriyyət,**
**Səninki nasıl bir hakimiyyət?**

Həbs olunmamışdan öncə də Azərbaycan məhkəmələrinin ədalətdən uzaq olduğunu bilirdim. Ancaq həbsim müddətində gördüklərimdən dəhşətə gəldim. Sözlə ifadəsi mümkün olmayan rəzalət yaşanır. Ədalət ilahəsi Femidanı özünü sağa da, sola da satan pozğun qadına çeviriblər. Son 4 ayda istintaq hərəkətləri və məhkəmə prosesi ilə





əlaqədar mütəmadi olaraq Lənkərana aparılıb-gətirilirəm, dustaqlarla təmasda oluram. Onlar sanki ədalət önünə deyil, bazara, möhtəkir yanına gedəcəklərmiş kimi davranırlar. Çünki ədaləti satılı əmtəəyə çeviriblər. Son aylarda istər Lənkəran Rayon Məhkəməsində, istər Lənkəran Ağır Cinayətlər Məhkəməsində kimin hansı məbləğ müqabilində nə qədər iş aldığını əzbər bilirəm. Dustaqlar arasında bu tipli söhbətləri təsəvvür edə bilsəydiniz... Məsələn, filankəsdə də sənin maddən idi, 5 min verdi, 1 il iş aldı. Və ya filankəsdən bu maddəyə görə 10 min almışdılar, səni aldadıb çox alıblar. Sanki bazarda aldadıb xiyar-pomidoru baha satıblar. Vay o günə ki müstəntiqin, hakimin önünə az-maz rifahı olan, lakin qanunlardan bixəbər birisi çıxa! Mal-qarasını, sonuncu toyuq-cücəsini satana qədər soyacaqlar. Başqalarına 5 manata satdıqları Femidanı ona 50 manata sırıyacaqlar. Dəhşətli məqamlardan biri də odur ki, dövlət tərəfindən (əslində isə müstəntiq tərəfindən) təyin edilən vəkillərin də əksəriyyəti bu işdə onlara yardım edirlər.

Axı, azacıq vicdanı və ləyaqəti olan şəxs bu zülmə necə biganə qala bilər? Hakimiyyət məni cəzalandırdığını, əzab verdiyini düşünürsə, çox yanılır. Mən elə azadlıqda da əzab çəkirdim. Yuxarıda sadaladıqlarıma görə, neft pulları havaya sovrulduğuna görə, insanımız bütün hüquq və azadlıqlardan məhrum edildiyinə görə, XXI əsrdə ölkə orta əsr düşüncəsi ilə idarə olunduğuna görə əzab çəkirdim. Təqaüdü dərmanına yetməyən qocalara görə, sosial yardımı yeyilən kasıblara görə, uçuq-sökük məktəblərdə təhsil alan uşaqlara görə, narkotikin məhv etdiyi gənclərə və dağılan ailələrə görə, Rusiyaya işləməyə gedən, övladına həsrət valideynlərə, atalarına həsrət övladlara görə,

bir gədanın əmri ilə küçələri süpürməyə çıxan Lənkəran hakim və müəllimlərinə görə əzab çəkirdim və susmurdum. Yazdığım məqalələrdə Lənkəran İcra Hakimiyyətinin yarıtmaz fəaliyyətini və "gözə kül üfürmə" siyasətini tənqid etdiyimə görə həbs olundum. Lənkəran polisində müəmmalı şəkildə həlak olmuş Cəmil adlı Velədi kənd sakininin qardaşının harayını videoya çəkib internetdə yerləşdirdiyimə görə həbs olundum. Lənkəranın sosial bəlasına çevrilən narkotik ticarəti haqqında informasiya topladığıma görə həbs olundum. Siyasi, milli, dini hüquqları müdafiə etdiyim üçün həbs olundum. Uzun müddət sosial şəbəkələrdə hakimiyyəti kəskin tənqid etdiyimə görə həbs olundum. Seçki ilində yanvar ayında prezidentliyə namizədliyini irəli sürmüş Müsavat başqanı İsa Qəmbəri elə yanvar ayında Lənkərana dəvət etdiyim və onun Lənkəran əhalisi ilə təmasına çalışdığım üçün həbs olundum. Həmin səfər zamanı rejim İsa Qəmbərə hücum təşkil etdi və onu müşayiət edən müsavatçıların avtomobillərini dağıtdı, özlərinə də xəsarət yetirdilər. Məhz, bu tarixdən etibarən rejim mənim həbsim üçün planlarını qətiləşdirməyə qərar vermişdi. Çox maraqlıdır ki, Lənkəran məhkəməsi bu saxta ittihamlar üzrə hökmü də mənə İsa Qəmbərin 1 il əvvəl Lənkərana səfəri günü -13 yanvarda oxuyacaq. Lənkəran kimi çoxsaylı əhaliyə malik rayonda Müsavat Partiyasının və ümumən, müxalifətin fəaliyyətini zəiflətmək məqsədilə həbs olundum. Bir sözlə, mən iliyinə qədər müsavatçı, Azərbaycan sevdalısı, hürriyyətsevər olduğuma görə həbs olundum. Bununla məni susduracağınızımı sanırsınız? Yanılırsınız.

Ölməz şairimiz, müsavatçı Əhməd Cavadın:

**"Nə qədər ki, hakimlik var, məhkumluq var, mən varam,**





**zülmə qarşı üsyankaram, əzilsəm də susmaram"**, - misraları biz müsavatçıların həyat devizidir.

Əhməd Cavad Stalin repressiyalarının qurbanı oldu. Bu zalda da Lənkəranın qocaman müəllimlərindən, əski müsavatçılar nəslinin nümayəndəsi Adil Əsədov əyləşib. Baxmayaraq ki, bu gün onun 80 illik yubileyidir, bütün məhkəmə iclaslarında olduğu kimi, indi də mənə mənəvi dəstək verməyə gəlib. Onu təbrik edirəm və qarşısında baş əyirəm. Adil müəllimin atası İbad Əsədov 20-30-cu illərdə bir neçə dəfə həbs olunub. Sonuncu dəfə Adil müəllimin doğumundan az sonra Sibirə sürgün edilərək orada vəfat edib. Bu prosesdə Adil müəllimin hansı hisslər yaşadığını təxmin etmək çətin deyil. O, dövlət ittihamçısının da, hakimin də simasında atasını gedər-gəlməzə göndərmiş daşnak-bolşevik zehniyyətinin inikasını görür. Bəlkə də, məhz, buna görə hər məhkəmə iclasından sonra mənimlə sağollaşanda gözlərində yaş görürəm.

Təəssüf, çox təəssüf ki, müstəqil Azərbaycan dövlətində müsavatçılara qarşı daşnak-bolşevik siyasəti davam etdirilir. Müsavat Partiyasının ölkəyə bəxş etdiyi bayrağın və gerbin altında əyləşənlər müsavatçılıq məfkurəsinin daşıyıcılarını repressiyaya məruz qoyurlar. Lakin bu siyasət Müsavat Partiyasının, ölkənin azadlıqsevər ictimaiyyətinin demokratik və hüquqi dövlət, ədalətli cəmiyyət uğrunda mübarizəsini durdura bilməyəcək. Böyük Rəsulzadənin "Azərbaycan davası" adlandırdığı müqəddəs davamız labüd qələbəyə qədər davam edəcək. Əgər müsavatçı sələflərimiz amansız Stalin repressiyaları qarşısında Şimal Buzlu Okeanı adalarında və Sibir buzlaqların-

dakı ölüm düşərgələrində sınmayaraq əqidələrinə sadiq qaldılarsa, bizə də onlara layiq olmaq düşər. Əgər qəbilə halında yaşayan CAR zəncilərindən öz amalı uğrunda 27 il həbsxanada yatmış Nelson Mandela çıxırsa, Azərbaycan xalqı kimi zəngin tarixə və mədəniyyətə malik toplumda millətinə görə həbsə hazır Yadigar Sadıqov olmazmı olur?

Henri Toronun "Ədalətsiz dövlətdə ədalətli insanın yeri həbsxanadır" fikri var. Mən də iyunun 27-də qoluma vurulan qandalları Tanrının lütfü kimi qəbul etdim. Zalım hakimiyyətdən qandal almaq bir mükafatdır. Bu gün içində olduğum bu qəfəsi həyatımda yetdiyim ən yüksək məqam sayıram. Çünki məni buraya cinayət deyil, Vətənim və millətim naminə apardığım mübarizə yolu gətirib. Mən bu yolun heç bir qarışına görə peşman deyiləm, əksinə onunla qürur duyuram.

Cənab dövlət ittihamçısı və hakim!

Bayaqdan mən sizlərə deyil, zaldakılara xitab edərək danışıram. İndi isə üzümü sizə tutub soruşmaq istəyirəm: günahsız insanı məhkum edərkən heçmi vicdan əzabı çəkmirsiniz? Axı, bu, təkcə bir kişinin müəyyən müddətə həbs olunması deyil. Həm də valideynlərinin, xanımının, övladlarının, digər sevənlərinin həsrəti, ah-naləsi, göz yaşlarıdır. Bu boyda günahın altına necə girə bilirsiniz, gecələr necə yatırsınız, güzgüdə özünüzü görəndə necə utanmırsınız? Sanmayın ki, bunları ürəyinizi yumşaltmaq, cəzanı yüngülləşdirmək məqsədilə söyləyirəm. Mənə, doğrudan da, çox maraqlıdır. Bilirsiniz, uzun müddət müəllim işləmişəm. Olub ki, tələbə "yaxşı" ilə "əla" arasında cavab verib, qiymətini "yaxşı"ya daha layiq bilmişəm. Sonra da gün ərzində





xatırlayıb özümdən soruşmuşam ki, görəsən, o tələbəyə qarşı ədalətsizlik etmədim, haqqını yemədim ki? Bəz siz belə duyğusuz olmağı necə bacarırsınız? Uşaqlıqda bir kitab oxuyanda, bir filmə baxanda mənfi personajdan, yoxsa müsbətdən nümunə götürmək istərdiniz? "Dədə Qorqud"da Yalıncığımı örnək seçdiniz? Niyə "aldadıb ər tutmaq arvad işidir" deyən Beyrəyə oxşamağa calışmadınız?

Sizlər, bəlkə də düşünürsünüz ki, Yadigar Sadıqovun həbsi, cəza müddəti haqqında qərar başqa yerdə, başqa şəxslər tərəfindən qəbul olunub, sizin günahınız yoxdur. O zaman yadınıza Fransa istehsalı olan "Oyuncaq" filmindən bir səhnəni salmaq istəyirəm. Despot bir kapitalist öz işçisinə, şalvarını çıxarıb ofisdə gəzməyi əmr edir. İşçi şalvarını çıxarandan sonra rəislə arasında belə bir dialoq yaşanır:

Siz nə edirsiniz?

Şalvarımı çıxardım, necə ki siz istəmişdiniz.

Deməli, siz bu halda ofisi gəzərək öz dalınızı işçilərə göstərməyə hazırsınız?

Axı siz əmr etdiniz.

İndi deyin görək, kim daha dəhşətlidir: sizə şalvarınızı çıxarmağı əmr edən mən, ya da elə ilk tələbdə şalvarınızı çıxarmağa hazır olan siz?

Cənab hakim və prokuror!

Siz necə, cavab verə bilərsinizmi, kim daha dəhşətlidir – sizə günahsız insanı həbs etməyi əmr edənlər, ya da bu əmri dinməz-söyləməz yerinə yetirən sizlər? Bəlkə siz bu qədər əmrə müntəzir, bu qədər buyruq qulu olmasaydınız, onlar da bu qədər zalım olmazdılar.

Əmrin özünə aid hissəsini ittihamçı Elnar Əli oğlu Hüseynov artıq yerinə yetirib. Bu səbəbdən yalnız hakim Elçin Məmməd oğlu Kazımova müraciət edirəm. Bilirəm, faydası yoxdur, lakin borcumu yerinə yetirirəm. Çünki Həzrət Əlinin ölüm ayağında söylədiyi nəsihət var: "İnsanları yaxşı əməllərə çağırıb, pis işlərdən çəkindirməyi tərk etməyin. Əks halda pis adamlar sizə hakim olarlar. O zaman xilas üçün dua edərsiniz, fəqət Allah dualarınızı müstəcəb etməz".

Mən də o böyük insanın tövsiyəsinə əməl edərək sizi ədalətsizlikdən çəkinməyə, mənə bəraət verməyə çağırıram. Bilirəm, Lənkəran-məhkəməsinin sədri kimi səlahiyyətlərinizdən istifadə edərək bu işi icraatınıza götürmüsünüz ki, fürsətdən yararlanaraq, özünüzü yuxarılara tanıdasınız. Bilsinlər ki, Lənkəranda belə bir hakim var ki, sifarişi dinməz-söyləməz yerinə yetirir, bəlkə qabağa çəkdilər. Mən isə sizi daha yuxarıları düşünməyə, ilahi ədalət qarşısında duracağınız anı düşünməyə çağırıram.

Deyirlər ki, Yaradan mələklərə yalnız ağıl, heyvanlara yalnız şəhvət, insanlara isə hər ikisini bəxş edib. Ağlı şəhvətindən üstün olan insan mələk səviyyəsinə qalxır, əksinə olanda isə heyvan səviyyəsinə enir.





Məncə, heyvandan fərqli olaraq, insan şəhvəti yalnız cinsi istək deyil, yeyib-içməklə, var-dövlətlə, şöhrətpərəstliklə, vəzifə ilə də bağlıdır. Sizi şəhvətinizə deyil, ağıl və vicdanınıza ram olmağa çağırıram.

İndi isə seçim sizindir. Buyurun, verəcəyiniz hökmü dinləməyə hazıram. Son sözüm isə budur:

**Millət yoludur, haqq yoludur tutduğumuz yol,**
**Ey haqq, yaşa, ey sevgili millət, yaşa, var ol!**
Vətən sağ olsun!
Millət sağ olsun!
Müsavat sağ olsun!

Lənkəran Rayon Məhkəməsi,
Tarix: 13.01. 2014

# SİYASİLƏR



## TOFİQ YAQUBLUNUN MƏHKƏMƏDƏ SON SÖZÜ[20]

Bu yolun axırında –
susuz, yuxusuz bir çöl,
nə cadar-cadar olmuş
səhranın yovşan qoxusu,
nə qaratikanları
keşik çəkən çölün
şanapipik nəğməsi.
Yarpaqlarını tökmüş
dar ağacları ulayar,
ulayar
qana susamış yalquzaq kimi.

---

[20] *Müsavat Partiyasının sabiq başqan müavini Tofiq Yaqublu 2013-cü il fevral 4-də guya İsmayıllı hadisələrində iştirakına görə həbs edilib.*

*T.Yaqublu Milli Azadlıq Hərəkatının fealı və Qarabağ müharibəsi veteranıdır.*

*Ona qarşı Cinayət Məcəlləsinin 233- cü (ictimai qaydanın pozulmasına səbəb olan hərəkətləri təşkil etmə və ya bu cür hərəkətlərdə feal iştirak etmə) və 315.2 (hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə) maddələri ilə ittiham irəli sürülüb.*

*Şəki Ağır Cinayətlər Məhkəməsinin 14 mart 2014-cü il tarixli hökmü ilə T.Yaqublu 5 il azadlıqdan məhrum edilib.*

*O, 17 mart 2016-cı ildə prezidentin əfv sərəncamına əsasən azadlığa buraxılıb.*





Düşəcəyin mənzil –
dəmir barmaqlıqlar arasında paslanmış
quş nəfəsi,
isinəcəyi bir qanı qaçmış məhbusun
güclə gedib-gələn
yazıq nəfəsi.
Bilirsənmi –
orada qapı arasında
sındırılan barmaqların,
burada ayaqların altda
xırçıldayan qarın səsinə bənzər
"Azadlıq" kəlməsi.
İçəridə – siqaret dumanı,
pəncərəyə bənzər
balaca çirkli gözlük
tamam his.
Qapıda vecsiz, duyğusuz,
evdən gələn birgünlük yeyəcəyinə,
çəkdiyin ucuz
siqaretə göz dikən
piylənmiş polis.
İşə bax – dünyanın belə bir vaxtında
"bu da sənə azadlıq" deyib
bir kütbeyin zorladığı haram kürsüdən
yazacaq həbs fərmanını.
Əlində –

İstəsə canavar kimi içər
hamımızın qanını.
...Səhərin gəlişini nədən duydun,
Bildim –
qapına dəyən təpikdən.
Haydı, qalx, gözətçi görməmiş
yığışdır gecə yandırdığın şamları.
Bir azdan gətirəcəklər üzünə duracaq
yalançı namərd adamları...

Koroğludan soruşurlar ki, səni başa düşmək olmur, belindəki qılınc nədir, döşündəki saz nə? Koroğlu deyir ki, qananı sazla başa salıram, qanmayanı qılıncla. Bu rüsvayçı, heç cür məhkəmə adlandırıla bilməyəcək proses zamanı sizləri sazla başa salmağa çox çalışdıq, amma heç nə alınmadı, indi növbə qılıncındır, özü də Misri qılıncın. Son sözümün əvvəlində saxta cinayət işini ifşa edəcəyəm, sonda isə işin siyasi yönü haqda danışacağam. Əvvəlcə ittiham aktı haqqında bir-neçə kəlmə demək istəyirəm. Onu 12 oktyabr 2013-cü il tarixində baş prokurorun birinci müavini Rüstəm Usubov imzalayıb. Oxuduqca bu əcaib sənəd adamı heyrətə gətirir. İnanmaq olmur, 128 səhifəlik ittiham aktını öz doğma türkcəmizdə normal oxumağı, danışmağı və yazmağı bacaran adam yazıb.

İttiham aktının adamı heyrətə gətirən ikinci cəhəti ondan ibarətdir ki, bunlara istintaqın hazırladığı 26 cildlik saxta sənədlərlə, şərlə, böhtanla, yalanla, saxtakarlıqla və fantaziya ilə dolu cinayət işi kifayət etməyib. Həmin cinayət işində adamı güllələmək üçün yetərincə yalanlar olsa da, ittiham aktına da əlavə yalanlar dürtüblər. Məsələn, bu aktın 8-ci səhifəsində yazılanlara görə 23.01.2013 tarixində İsmayıllı şəhərində baş verənləri də İlqar Məmmədovla mən təşkil etmişik. Halbuki cinayət işində bizim İsmayıllıya 24.01.2013 tarixində gəldiyimiz və 23.01.2013 hadisələri ilə heç bir əlaqəmiz olmadığını yazmağa qanacaqları çatmışdı. Cinayət işində göstərilir ki, hadisələr zamanı vətəndaşların əmlakına dəyən ziyan 474,0 min manat təşkil edib və bunların hamısı 23.01.2013 tarixində baş verib. Elə həmin 8-ci səhifədə yazılır ki, guya həmin əmlak 24.01.2013 tarixində məhv edilib. Yenə də həmin bədnam 8-ci səhifədə yazılır ki, guya istintaq zamanı mən təqsirimi etiraf etmişəm. Halbuki belə bir şey olmayıb və istintaq materiallarında da bu, aydın görünür. Səhifə 20-də yazılır ki, guya mən istintaq prosesi zamanı 24.01.2013 tarixində mən İsmayıllı şəhərində olduğumu etiraf etmişəm. Hətta çoban da bilir ki, "etiraf etmək" başqalarından gizlətdiyin, demək istəmədiyin, aşkarlanması sənə sərf etməyən məlumatın, əməlin boyuna alınmasıdır. Məgər mən həmin tarixdə İsmayıllıya getdiyimi kimdənsə gizlətmişdim? İsmayıllı səfərim haqda KİV-ə məlumat vermişəmsə, özüm bü haqda mətbuatda, internet sosial şəbəkələrində çıxış etmişəmsə və şahid kimi dindirilərkən bu haqda ətraflı danışmışamsa, sonradan bunu necə etiraf edə bilərdim?

112-ci səhifədə belə bir ifadə var: "İttiham sübutları ilə kifayət qədər təqsirləndirilirəm".

Halbuki təkcə telefon danışıqlarımın qaiməsini araşdırarkən birmənalı şəkildə sübut olunur ki, mənə qarşı irəli sürülmüş ittihamın heç bir əsası yoxdur. Hələ mən başqa sübut və alibiləri demirəm. 113-cü səhifədəki ifadəyə baxaq: "Yanlış "üsyan" təfəkkürü ilə ölkədə süni gərginlik yaratmaq məqsədilə" və s. Bu hoqqa haradan çıxdı? Nə ilə sübut edirlər ki, mən bütün ölkədə gərginlik, özü də süni gərginlik yaratmaq istəyirəmmiş? Axı istintaq bu yöndə heç bir araşdırma aparmayıb, yalançı şahidlər və sübutlar toplamayıb. İsmayıllı hadisələrinin üsyan adlandırılmasına gəldikdə isə mənim təfəkkürümdə yox, məhz Eldar Əhmədovla Rüstəm Usubovun təfəkküründə problem var. İsmayıllıda məgər kirvə qonaqlığı və ya xınayaxdı baş vermişdi? Bir həmin gecə sosial şəbəkələrdə on minlərlə adamın, ertəsi günü KİV-in həmin hadisələri necə adlandırmasına baxın heç olmasa. Bir də ki hadisəni və ya prosesi kimin necə adlandırmasının məsələyə nə dəxli?

İsmayıllı Şirvanın tacıdır. Dahi şirvanlı Seyid Əzim Şirvani deyirdi:

**Nəfsi-əmmarə edər təğrib xəlqi zillətə,**
**Meyli-üsyan etməz idi kimsə, şeytan olmasa!**

Məhkəmə hazırlıq iclası keçirilərkən, məhkəmə heyəti və ittiham tərəfilə bağlı etirazın olub-olmadığı soruşuldu. Mən bildirdim ki, respublikanın baş prokuroru Zakir Qaralovun mənimlə ədavəti var. İstintaq onun idarəsi aparıb, ittiham aktını da onun tabeçiliyində olan mundirli şəxslər müdafiə edir, belə halda ədalətli mühakimənin aparılması mümkünsüzdür. Lakin məhkəmə mənim etirazımı qəbul etməyərək, prosesi davam etdirdi.

Mən Müsavat Partiyası başqanının müavini, "Yeni Müsavat" qəzetinin köşə yazarı və Milli Şuranın üzvüyəm. 2013-cü ilin yanvarın 24-də əməkdaşı olduğum qəzetin rəhbərliyi tərəfindən İsmayıllı şəhərinə ezamiyyətə göndərilmişəm. Lakin şəhərə çatanda cəmi 10 dəqiqədən sonra yerli polislər məni saxlayaraq polis idarəsinə apardılar. Oradan da məcburi qaydada Bakıya yola salıblar. Peşə fəaliyyətimə imkan vermədiklərinə, bununla da cinayət törətdiklərinə görə mənə mane olmuş polislər haqqında 28.01.2013 tarixində baş prokurora şikayət ərizəsi yazdım. "Ərizə və şikayətlərin baxılması haqqında" Qanunun və "Prokurorluq haqqında" Qanunun tələblərini kobud surətdə pozaraq prokurorluq ərizəmə heç bir reaksiya vermədi. Təxminən iki aydan sonra artıq həbsdə olduğum vaxt bu məsələ ilə bağlı yenidən Respublika Prokurorluğuna şikayət ərizəsi yazdım və orada birinci şikayətimə baxılmadığını göstərdim. Yalnız bundan sonra Baş Prokurorluqdan vəkilim Nemət Kərimliyə şifahi şəkildə bildirdilər ki, ərizəm İsmayıllı hadisələrinin istintaqını həyata keçirən müstəntiq Nadir Mirzəyevə göndərilib. Sual olunur, mənim ərizəm nəyə görə məni ittiham edən, barəmdə saxta cinayət işi hazırlayan müstəntiqə göndərilməli idi? Birinci yazdığım ərizə cinayət işinin materialları arasında var. Təsəvvür edin ki, 9 ay davam etmiş istintaq zamanı müstəntiq bir dəfə də ərizəmlə bağlı məndən heç nə soruşmayıb. Halbuki o, ərizədə adı çəkilən şəxsləri dindirməli, mənimlə üzləşdirmə keçirməli və göstərdiyim faktları araşdırmalı idi. Məgər aydınca görünmürmü ki, Respub-

lika Prokurorluğu şikayətimə baxmamaqla mənə qarşı cinayət edib? Bu orqan, hətta şikayətimlə bağlı saxta istintaq keçirib, onun əsassız olduğunu yazmağı da özünə rəva bilməyib. Soruşuram, prokurorluğun buna ixtiyarı varmı?

Mən jurnalist dostlarımla İsmayıllı şəhərinə təxminən 16:10-da çatmışam. Bu zaman şəhərdə tam sakitlik olub. Şəhərin mərkəzi Çevik Polis Alayının mühasirəsində olub. İcra Hakimiyyəti binasının qarşısında təxminən 10 dəqiqə ərzində şəkillər çəkmişəm və bundan sonra məni, ardımca da 2 jurnalisti Rayon Polis Şöbəsinə dəvət ediblər. Şöbədə təxminən 35-40 dəqiqə olmuşuq. Bu müddət ərzində RPŞ-nin rəisi Nazim Qocayev, onun müavini Şöhrət Kərimov və DİN-in yüksək rütbəli məmuru Arzu Daşdəmirov İsmayıllıda tam sakitlik olduğunu və Bakıya qayıdıb öz qəzetimizdə gördüklərimizi yazmağı xahiş ediblər. Bundan sonra mən və digər jurnalist dostlarım Dövlət Yol Polisinin müşayiəti altında birbaşa Bakıya qayıtmışıq. Əlahəzrət fakt bundan ibarətdir. Respublika Prokurorluğu isə buna görə mənə 46 cildlik cinayət işi toxuyub.

Məhkəmə istintaqı zamanı məlum oldu ki, 24.01.13 tarixində İsmayıllı camaatı ancaq və ancaq icra başçısı Nizami Ələkbərovun istefası tələbi ilə etiraz aksiyası keçirməyə cəhd edib, ancaq polis buna imkan verməyib. Çünki elə 23.01.13 hadisələrinin kökündə də elə bu icra başçısına etiraz dayanır. Fikir verin, onun evindən və "Çıraq otelindən başqa heç bir dövlət, bələdiyyə və şəxsi əmlaka ziyan vurulmayıb. 24.01.13 tarixində bir kəsin toyuğuna kış deyilməyib, o boyda





şəhərdə bircə pəncərə də sınmayıb. Onda sual yaranır, 24.01.13-də hansı iğtişaş baş verib? Məgər sanksiyalaşdırılmamış etiraz aksiyasına cəhd və bu zaman polislə qarşıdurma yaranması iğtişaşdır? Sizin hüquq savadınıza quzu kəsim, bir, hər gün Avropa şəhərlərində polislə etirazçılar arasında qarşıdurmalara baxın. O ölkələrdə bu hadisələri iğtişaş adlandırmaq heç kimin ağlına gəlmir. Çünki hüquqi cəhətdən savadlıdırlar, üstəlik də adam balasıdırlar. Burada isə həbsimdən 3 ay keçəndən sonra üzr istəyib məni azad etmək, yalançı şahidləri və onları mobilizasiya etmiş polis və prokurorluq işçilərini cəzalandırmaq əvəzinə, barəmdə qaldırılmış 233-cü maddə ittihamı dəyişdirilərək 220.1 maddəsi ilə əvəz edirlər. Niyə? Yeni hansı hallar ortaya çıxdı ki? Heç nə! Sadəcə olaraq vəkilim Nemət Kərimli çox haqlı olaraq, vəsatət qaldırdı ki, mənə qarşı irəli sürülmüş 315.2 və 233-cü maddələr ağır cinayətlər sayılmır. Bu səbəbdən də İstintaq Respublika Prokurorluğunun Ağır Cinayətlər İşlər üzrə İstintaq İdarəsində aparıla bilməz. Bəs, bu haqlı vəsatət qarşısında Zakir Qaralovun maralları neyləyirlər? Mənə və İsmayıllı işi üzrə həbs olunmuş digərlərinə 220.1 maddəsi üzrə ittiham irəli sürüb deyirlər, alın, bu da sizə ağır cinayət! Heç təəccüblənmədim də. Abır-həyanın nə olduğunu qanmayanlardan nə desən, gözləmək olar.

1993-cü ildən bu yana dəfələrlə razılaşdırılmamış aksiyalarda saxlanılmışam. Dəfələrlə olub ki, polis bölməsinə gətirildikdən sonra məni tanıyıblar, "Yeni Müsavat" qəzetinin əməkdaşı olduğumu bildirərək "siz jurnalitsiniz" deyib buraxmaq istəyiblər. Hər dəfə də demişəm ki, buraxılmağıma etiraz etmirəm, amma mən həmin aksiyaya jurnalist kimi

yox, təşkilatçı və ya iştirakçı kimi qatılmışam. İsmayıllıya isə sırf jurnalist kimi gəlmişəm, amma məni baş verməmiş hadisənin təşkilatçısı və iştirakçısı kimi ittiham edirlər. Əgər İsmayıllıda hakimiyyətə xoş gələn bir aksiya keçirilsəydi, sübut edə bilməyəcəkdim, deyəcəkdilər ki, sən orada olmamısan, hər şeyi YAP edib.

Bu cinayət işinin saxta, absurd olmasına vəkilim Nemət Kərimli çox ustalıqla və xırda detalları ilə sübut etdi.

Mənə və İlqar Məmmədova qarşı şahid ifadələri bir beyinin məhsuludur. Bütün şahidlər guya gördükləri hadisəni eyni sözlərlə və eyni ardıcıllıqla təsvir edirlər. Onlar deyirlərmiş ki, guya biz təşviş yaradırıqmış. Məhkəmə dinləmələri zamanı İsrafil Mehdiyev, Rövşən Novruzov və bir neçə polisin "təşviş" sözünün mənasını bilmədikləri üzə çıxdı. İnsanlar gördükləri hadisəni bilmədikləri sözlərlə necə təsvir edə bilərdilər? Bir də həm deyirlər ki, biz camaatı heç nədən və heç kimdən qorxmamağa çağırırıqmış, deməli, biz təşviş yaratmırıqmış, əksinə insanları təşvişə düşməməyə çağırırıqmış. Bu da sizə növbəti absurd.

Siz elə bilməyin ki, rüşvət almaq imkanı təkcə vəzifədə olan iqtidar sahiblərindədir. Xeyr, müxalifətdə olub, heç bir yüksək vəzifə tutmadan da rüşvət almaq olar. Necə ki bunu bir xeyli keçmiş müxalifətçilər ediblər. Bu çox sadə işdir, sizin kimi əqidəsini, vicdanını, ləyaqətini satmaq kifayətdir ki, yoxsulluğun daşını atasan. Biz isə lüks həyatı yox, lüks şərəfi seçmişik!





Bizimlə bərabər mühakimə olunan digər 16 nəfərin tam günahsız olduğuna əminəm. Buna necə əmin olmaya bilərəm? Axı onlar da mənə qarşı sürülmüş maddələrlə ittiham olunurlar. Əgər etmədiyim əmələ görə mənə qarşı ittiham irəli sürülürsə, deməli, onlar da mənim kimi günahsızdırlar. Bilirəm ki, hakimiyyətin onlarla bağlı bir problemi yoxdur, əsas məsələ mənim və İlqar Məmmədovun cəzalandırılmasıdır. Razıyam, onlara verəcəyiniz cəzanı da mənə verin, azad edin bu insanları. Artıq 1 ildən çox nahaqdan həbsxanadadırlar, bu sizə bəs etmir məgər?

İsmayıllı hadisələri haqda danışan İlham Əliyev məmurların və onların övladlarının qudurduqlarını etiraf etdi. Elə İsmayıllı hadisələri də buna görə baş vermişdi. Bəs hakimiyyət özü bu qudurğanlara görə hansı tədbirləri görüb, kimi cəzalandırıb? Heç kimi! Nə İsmayıllı hadisələrindən əvvəl, nə də sonra ta bu günəcən bir nəfər də olsun qudurğanlığa görə məmur cəzalandırmayıb. Onda məmur özbaşınalığından boğaza yığılmış İsmayıllı camaatı neyləməli idi? Onları bu etirazlara hakimiyyət öz hərəkətsizliyi, məmurların qudurğanlığının stimullaşdırılması ilə sövq edib. İndi bu insanlardan nə istəyirsiniz? İnsanlar çarəsiz qalanda emosional qərarlar qəbul edirlər. Yadınıza bir şey salım. 20 Yanvar qırğınına görə o vaxt İsmayıllıda məhkəmənin sədri işləyən Tahir Kərimli və Bakının Qaradağ rayonunun prokuroru İxtiyar Şirinov Mixail Qorbaçova qarşı cinayət işi açıb və hökm çıxarmışdılar. Onların hər ikisi də peşəkar hüquqşünas idilər və çox yaxşı bilirdilər ki, atdıqları addım hüquqi cəhətdən doğru deyil. Amma yazıqlar nə etməli idilər, bu boyda haqsızlığı görüb biganə qala bil-

mirdilər. Ona görə də vicdan borcunu qanun qarşısındakı borcundan üstün tutaraq bu addımı atmışdılar. Bax İsmayıllı camaatı da eləcə, çarəsizlikdən bu addımı atmağa məcbur oldular. Gələcəkdə dərsliklərdə onlar haqqında qəhrəman kimi yazılacağına heç bir şübhəm yoxdur.

Mənim özümün polisə müqavimət göstərməyim və camaatı onları daşlamağa çağırmağıma gəlincə, onu deyim ki, burada göstərilmiş video sübutlarda da aydınca göründü ki, bu ağ yalandır. 1993-cü ildən bu yana Müsavat Partiyasının və müxalifətin müxtəlif birliklərinin mitinq komitələrində təmsil olunmuşam. Çoxlu sayda razılaşdırılmış və razılaşdırılmamış kütləvi aksiyaların birbaşa təşkilatçısı olmuşam. Mitinqçiləri davranışları barədə təlimatlandırmışam. Dediklərimin ana xətti belə olub: "Polisə müqavimət göstərmək olmaz, çünki bu, cinayət tərkibi yaradır. Əgər polis, hətta heç nə etmədiyiniz halda, rezin dəyənəklə başınıza vurursa, sizin edəcəyiniz hərəkət başınızı yana əymək və ya əllərinizlə başınızı tutmaqdır".

Heç kimə sirr deyil ki, hüquq-mühafizə orqanlar müxalifətin bütün tədbirlərini, toplantılarını özlərinə məlum vasitələrlə izləyir və telefon tapşırıqlarını dinləyir. Dəfələrlə razılaşdırılmamış aksiyalara görə çək-çevirə məruz qalmışam. Amma bir dəfə də mənə qarşı belə suçlama olmayıb. 2003-cü ilin oktyabrında prezident seçkilərində parlaq qələbə çalmış İsa Qəmbərin prezident hüquqlarının müdafiə olunması üçün mən də Azadlıq meydanına çıxmışdım. Orada məni o qədər döymüşdülər ki, sanki ət maşınından keçirilmişdim. Amma nə





qədər qəribə olsa da, onda məni həbs etmədilər. Başlanmış cinayət işi ilə əlaqədar minlərlə insanı prokurorluğa çağırıb dindirdilər. Yaxın bir müsavatçı mənə dedi ki, onu da "Bandotdel"ə çağırıblarmış. Onu dindirən müstəntiq uşaqlıq dostu imiş. Necə olubsa, orada məndən söhbət düşüb. Müsavatçı dostum soruşub ki, nə əcəb Tofiq Yaqublunu həbs etməyibsiniz. O da bildirib ki, 16 oktyabr hadisələri ilə bağlı video materiallarda Tofiq Yaqublu 6 epizodda kadrlara düşüb. İkisində kütlənin içində sakitcə addımlayır, birində qabağa çıxıb var gücü ilə polislərə daş atmamağı tələb edir, ikisində yerə yıxılmış polisə yardım edir və birində də başı yarılmış əsgəri kütlədən qoruyur. Özünüz fikirləşin, əgər sevimli başqanımın prezidentliyi uğrunda aksiyada polislərə qarşı bu qədər sevgi, mərhəmətlə davranırdımsa, mənə birbaşa aidiyyəti olmayan məlum hadisələrdən bir gün sonra jurnalist kimi gəldiyim İsmayıllı şəhərində nədən polislərə qarşı belə aqressiv olmalı idim?

Mən şəhid olmaq üçün Qarabağ döyüşlərinə qatılmışdım. Amma ölmədim, əvəzində çoxlu düşmən əsgəri öldürdüm. Deməli, hələ 22 il əvvəl ölümü gözaltına almış birini uzunmüddətli həbs cəzası ilə nə sındırmaq, nə də qorxutmaq olar. Düzdür, hökmü oxuyanda buradan, dəmir barmaqlıqlar arasından layiq olduğunuz sözləri üzünüzə deyəcəyəm, amma həmin hökmü bal kimi qəbul edəcəyəm. Onu öpüb əzizləyəcəyəm. Vaxtı gələndə, mənim bal kimi qəbul etdiyim bu saxta hökm sizin üçün əfi, gürzə zəhərinə dönəcək. Sizin məhkəmə adlandırdığınız bu proses bilirsiniz nədir?

İttiham aktında belə bir ifadənin olduğunu demişdim: "Qabaqcadan əlbir olaraq". Hər kəsə aydındır ki, həmin hadisələr qəfildən başlayıb. Amma bu işdə qabaqcadan əlbir olma halları var. Hacı Məmmədova arxa olmuş, Ziya Bünyadovun, Rail Rzayevin, Elmar Hüseynovun, Rafiq Tağının, Fətulla Hüseynovun və digər məşhurların qatillərini tapa bilməyən Zakir Qaralovla, qatı cinayətkar Abuzər Abuzərovun Heydər Əliyevin göstərişi ilə həbsxanadan çıxardıb qaçışını təşkil edən Ramil Usubovla qabaqcadan əlbir olaraq, mənə qarşı cinayət törədiblər. Bu cinayətin üstü açıqdır. Əbülfəz Elçibəy demişkən, hər şeyin zamana ehtiyacı var.

Mənə qarşı bu cinayətin başında şəxsən İlham Əliyev durur. Yoxsa nə Ramil Usubov, nə Zakir Qaralov nə də hər hansı bir hakim bu cinayətin altına girməyə risk edərdi. İlham Əliyev keçən il mənim şərlənərək həbs edilməyim haqda sərəncam verdi və o, dərhal icra olundu. Bu il isə o, M.Ə.Rəsulzadənin 130 illiyinin qeyd edilməsi haqda sərəncam verdi; A xala xətrin qalmasın; candərdi verilmiş bu sərəncam, xalqın mənafeyinə uyğun nadir sərəncamlar kimi kağız üzərində qaldı. Məsələn, sənədsiz evlərə əmlak şəhadətnaməsi verilməsi haqda sərəncam kimi. Bilirəm ki, mənə mümkün qədər ağır cəza veriləcək. Heç umrumda deyil. Mənə kəsiləcək azadlıqdan məhrumetmə cəzamı ulu öndər, ümummilli lider, Azərbaycan xalqının mənəvi atası və ən böyük şəxsiyyəti M.Ə.Rəsulzadənin 130 illiyinə ithaf edirəm. Mən o böyük kişinin əsgəriyəm, onun yolunda hər çür cəfa mənə xoşdur. Nə etsəniz də, o kişinin ideyaları qalib gələcək, Azərbaycanda demokratiya bərqərar olacaq!





***Sən bizimsən, bizimsən,***
***Durduqca bədəndə can.***
***Yaşa, yaşa, çox yaşa,***
***Ey şanlı Azərbaycan!***

Siz, ey qəlbi, vicdanı və ləyaqəti kölə olanlar, azadlıq sevdasının nə olduğunu haradan biləsiniz. Ancaq qarnını düşünənlər, yemək üçün yaşayanlar azadlıq sevdasını anlaya bilməzsiniz:

***Sevda elə bir şey ki...***
***hələ haqq sevdası, vətən, azadlıq sevdası...***
***bir baxarsan, uğruna baş qoyduğun davada***
***günahdan boynu yüklü,***
***pozuq sifətlər durar üzünə,***
***hələ yalançı, üzsüz bir hakimin***
***ölü vicdanıyla saxta hökm***
***oxudarlar üzünə...***

Şəki Ağır Cinayətlər Məhkəməsi,
Tarix: 11.03. 2014

# SİYASİLƏR



## İLQAR MƏMMƏDOVUN MƏHKƏMƏDƏ SON SÖZÜ[21]

Həbsimdən 30 il əvvəl Amerika prezidenti Ronald Reyqan Sovet İttifaqını Şər İmperiyası adlandırmışdı.

Şər İmperiyası parçalananda bəzi hissələri insana yaraşan dövlətçiliyə qovuşmağı bacardı, ancaq digərləri nisbətən daha kiçik ölçülü Şər xanlıqlarına çevrildilər ki, Azərbaycan da bu gün vətəndaşlarını şərləyib həbsə atan xanlıqlardan biridir.

Dünya dövlətləri və ictimai qurumları hətta bilir kimlər və kimin adından məni həbsdən sağ ya da salamat çıxmayacağımla hədələyib.

[21] *Real Partiyasının sədri İlqar Məmmədov 4 fevral 2013-cü ildə İsmayıllıda baş verən hadisələri ilə bağlı cinayət məsuliyyətinə cəlb edilib. Ona qarşı CM-nin 233-cü (ictimai qaydanı pozulmasına səbəb olan hərəkətləri təşkil etmə və ya bu cür hərəkətlərdə fəal iştirak etmə) və 315.2 (hakimiyyət nümayəndələrinin qanuni tələblərinə tabe olmamaq müqavimət göstərmək) maddələri ilə ittiham irəli sürülüb.*

*Şəki Ağır Cinayətlər Məhkəməsinin 14 mart 2014-cü il tarixli hökmü ilə 7 il müddətində azadlıqdan məhrum edilib.*

*Şəki Apellyasiya Məhkəməsinin 13 avqust 2018-ci il tarixli qərarına əsasən hökm dəyişdirilib. Ona iki il sınaq müddəti təyin olunaraq ölkədən çıxma qadağası qoyulub. İ.Məmmədov Şəki Apellyasiya Məhkəməsinin zalından azadlığa buraxılıb.*





Bacararlar da bunu, çünki adından bəlli olduğu kimi Şər Xanlığı çox pisliklərə qadirdir, ancaq Cümhuriyyətimizin mənli ya mənsiz, xanlığınızı yenəcəyinə inanıram.

Amerika Birləşmiş Ştatları, Avropa Birliyi, İsveçrə, Norveç, ayrıca Böyük Britaniya, Fransa, Almaniya - oturduğumuz bu məclisi 5 ay ərzində 20-dən çox diplomatdan ibarət heyətlə izləmiş, bəşəriyyətin ən qabaqcıl 1 milyard əhalisini təmsil edən bu dövlətlərin səfirliklərinin gələcəyi nəticə mənim üçün daha önəmlidir, nəinki dərvişin Parisi partlatması ənənəsinə sadiq üslubda hökm ifası.

İnanıram, qurama həbsimə bir tək səbəbin, doğrudan da, 2013-cü il prezident seçkilərindən səsverməyə 8 ay qalmış məni kənarlaşdırmaq olduğunu bütün dünya bu "məhkəmə"də aydın şəkildə gördü.

Hökm deyildiyi kimi çıxarılsa, mən artıq 2015, 2018, 2020, 2023, 2025 seçkilərindən də xaric olunuram.

Odur ki, bunu demək istəyirəm: əgər Avropa Şurasında üzvlüyünə rəğmən Azərbaycana Avropa demokratik legitimlik tələbləri şamil edilməyəcəksə, gənclərimizə bunu indidən açıq-aydın deyin, getsinlər demokratik dəyişikliyin Xruşov, Den Seo Pin, Həsən Ruhani yoluna çıxsınlar; mən isə bu mübarizəmdə Azərbaycanı Avropa ölkəsi görməkdə davam edəcəyəm.

Şəki Ağır Cinayətlər Məhkəməsi,
Tarix: 12.03.2014

# SİYASİLƏR

## NİDA-ÇILARIN MƏHKƏMƏDƏ SON SÖZÜ[22]

NİDA VƏTƏNDAŞ HƏRƏKATI

Hörmətli proses iştirakçıları, biz, təqsirləndirilən şəxslər, bu məhkəmədə deyəcəyimiz son sözü hamımızın adından bir nəfərin səsləndirməsinə qərar vermişik. Bunun səbəbi odur ki, iqtidar bizi fərd olaraq yox, fəalı olduğumuz "Nida" Vətəndaş Hərəkatını hədəf seçib və repressiyaya məruz qoyub. Siz bizim bu son sözümüzü həm bu 8 nidaçının, həm də azadlıqda, yaxud həbsdə olan digər bütün nidaçıların sözü kimi qəbul edə bilərsiniz.

Adətən, son sözdə təqsirləndirilən şəxslər məhkəmədən mərhəmət

---

22 *2014-cü il may ayının 6-da Bakı Ağır Cinayətlər Məhkəməsində "Nida"çı gənclərə hökm oxunub. Verilən hökmə əsasən Zaur Qurbanlı, Rəşadət Axundov, İlkin Rüstəmzadəyə 8 il, Məmməd Əzizov, Rəşad Həsənova 7 il 6 ay, Bəxtiyar Quliyev, Üzeyir Məmmədliyə 7 il, Şahin Novruzluya 6 il azadlıqdan məhrumetmə cəzası verilib.*

*Nidaçılar 2013-cü ilin ilin mart-aprel aylarında tutulan "Nida"çılar əsasən kütləvi iğtişaşları təşkil etmə cəhdində təqsirli bilinirdilər. Hökmə görə, gənclər Məmməd Əzizov, Bəxtiyar Quliyev, Şahin Novruzlu, Rəşadət Axundov, Üzeyir Məmmədli, Rəşad Həsənov, Zaur Qurbanlı, İlkin Rüstəmzadə 2013-cü il martın 10-da Bakıda kütləvi aksiya zamanı "Molotov kokteyli"ndən istifadəyə hazırlaşırmış.*

*"Nida"çılar ittihamı əsassız və siyasi sifariş hesab ediblər. Beynəlxalq hüquq müdafiə təşkilatları onları siyasi və "vicdan məhbusu" kimi tanıyıb.*





umurlar, bəzən peşmançılıqlarını ifadə edirlər. Bizim mərhəmətə ehtiyacımız yoxdur, hər hansı bir əməlimizdən peşman da deyilik, onsuz da peşmançılıq çəkiləsi bir iş görməmişik. Bu qondarma işə baxan məhkəmədən də ədalət gözləmirik, çünki o, qanunu ali tutmağa, sərbəst və ədalətli qərar qəbul etməyə qadir deyil. Məhkəmə prosesi boyunca izah etdiyimiz həqiqətlərlə, dindirilən şahidlərin ifadələrilə, digər sübutlarla, müdafiə tərəfinin yüksək səviyyəli çıxışları ilə bu cinayət işinin boş, mənasız bir səfsəfə olduğu qeyd-şərtsiz sübut edildi.

Həbslərin başladığı ilk günlərdə Məmməd Əzizov, Bəxtiyar Quliyev və Şahin Novruzlu fiziki zor və işgəncələrə məruz qoyularaq başdan-ayağa iftira olan mətnləri imzalamağa və sonradan onları əzbərləyib kamera qarşısında təkrarlamağa məcbur ediləndə, televiziya kanalları dərhal və təkrar-təkrar Milli Təhlükəsizlik Nazirliyinin (MTN) onlara ötürdüyü görüntüləri nümayiş etdirəndə, iqtidarın sözçüləri, deputatlar şərhlər verəndə NİDA-ya qarşı linç kampaniyasının təşkil edildiyi aydın görünürdü.

Prezident İlham Əliyev 2013-cü il iyunun 7-də YAP-ın qurultayında, yeni hələ istintaq getdiyi dövrdə, barəmizdə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü olmadığı halda, bizi cinayətkar adlandıranda isə NİDA-ya qarşı repressiyaların siyasi sifariş olduğuna şübhə qalmadı.

Bu çıxış, əslində, bizim taleyimizlə bağlı verilən qərar idi. İstintaq

---

*2014-cü ilin may ayının 1-də Bakı Ağır Cinayətlər Məhkhəməsində Bəxtiyar Səməndəroğlu Quliyevin, Şahin İbrahim oğlu Novruzlunun, Məhəmməd Rasim oğlu Əzizovun, Rəşad Zeynalabdin oğlu Həsənovun, Rəşadət Fikrət oğlu Axundovun, Üzeyir Məhəmməd oğlu Məmmədlinin, Zaur Araz oğlu Qurbanlının, İlkin Bakir oğlu Rüstəmzadənin adından NİDA-nın son sözünü Rəşadət Axundov səsləndirib.*

sonrakı fəaliyyətində bu qərarın icrasından kənara çıxa bilməzdi. Belə bir vəziyyətdə dövlət ittihamını müdafiə edən prokurorun da, siz hakimlərin də kifayət qədər ciddi və çıxılmaz vəziyyətdə olduğunuzu fərqindəyik. Sizin bu məhkəmədəki işiniz də bir notarius kimi bu siyasi sifarişi təsdiqləməkdən ibarətdir. Hətta hüquq və vicdan başqa qərar tələb etsə belə, siz bu sifarişdən kənara çıxmağa cəsarət edə bilməzsiniz. Onu da qeyd etməliyik ki, hazırkı məhkəmə prosesində bu rejimin qurbanları təkcə biz deyilik. Çünki bu sifarişli və quraması cinayət işinə sizin hakim və prokuror kimi təyin edilməyiniz sizi də qurbana çevirib.

Əslində, biz bu qəfəsdə, siz isə azadlıqda - hamımız özü boyda qəfəsə çevrilmiş Azərbaycanda girov və qurban həyatı yaşayırıq. Ona görə də sizdən məcbur edildiyinizdən artıq bir şey tələb etmək bizim üçün də çətindir. Dustaq dustağa necə kömək edə bilər ki?! Fərqimiz yalnız ondan ibarətdir ki, biz bütün bu gerçəklikləri görürük, anlayırıq, lakin qəbul etmirik və NİDA olaraq məqsədimiz də belə haqsızlıqlara yer olmayan cəmiyyətdir. Biz bu Son sözümüzdə cinayət işinin detallarına çox da girmək fikrində deyilik. Çünki özümüzə də aydındır ki, hətta qurama cinayət işi belə çox süni, arqumentsiz və ifşa edilmiş şəkildədir. Ancaq yenə ümumi şəkildə olsa da, bəzi məsələlərə toxunacağıq. İttiham tərəfi iddia edir ki, bizi 2013-cü il 10 mart aksiyasına görə tutub. Bu, qismən həqiqətdir. Niyə qismən və niyə həqiqət? Və niyə biz buna görə peşman olmalı deyilik? Başlayaq birinci sualdan. İttiham tərəfi dolayısı ilə etiraf edir ki, bizi ictimai fəaliyyətimizə və NİDA Vətəndaş Hərəkatının aktivliyinə görə həbs ediblər. Lakin bu, yalnız 10 mart aktivliyi deyildir. NİDA yaranandan ətrafında aktiv, dəyərli gəncləri birləşdirməyə başlayıb. Hakimiyyət onda da bizim





əleyhimizə idi. Çünki bu rejim xalqı mağmun, hərəkətsiz, rəzil, dəyərsiz kölələrə çevirmək istədiyindən, aktiv və dəyərli, fərqli düşünən insanlara düşmən kəsilib. Gənclik isə dinamik inkişafa, qeyri-statikliyə, hərəki fəallığa can atır. Bu rejim buna görə gənclərə düşməndir. Ona görə də, rejimin guya bizə cinayət törətdiyimizə görə düşmən kəsildiyini düşünmək kökündən səhvdir. Tam əksinə. Biz cinayət törətsəydik, bu rejimin dostu olardıq. Çünki özləri cinayətkar mahiyyətlidir.

Hakimiyyət elə bir qanunsuzluq mühiti yaradıb ki, vətəndaşlar aqressivləşir və qisas almaq istəyir.

10 mart və ondan əvvəlki aksiyalar çox əhəmiyyətlidir. Bu aksiyalar cəmiyyətdəki özbaşınalığı, dərəbəyliyi və məmur mənəmliyini çılpaqlığı ilə ortaya qoyduğuna görə, rejimin mahiyyətini açdığına görə iqtidar üçün xoşagəlməz idi. Ona görə də 10 mart aksiyası bəhanədir. Əsil səbəb bizim hüquqa zidd olmayan, dinc və davamlı mübarizəmiz və çirkinliklərlə barışmazlığımızdır. Bizi buna görə tutublar. Məqsədləri həm intiqam almaq, həm də bizi durdurmaqdır.

Bunlar başa düşmürlər ki, ümumiyyətlə, cəmiyyətdə vətəndaşların zorakılığa meyllənməsinin əlamətləri müşahidə olunursa, bunun birinci səbəbkarı hakimiyyətdir. Hakimiyyət elə bir qanunsuzluq mühiti yaradıb ki, vətəndaşlar aqressivləşir və qisas almaq istəyir. Biz bunun qarşısının alınması üçün bir hərəkat olaraq, qeyri-zorakı mübarizənin təbliği üçün əlimizdən gələni etmişik. Məhz, qeyri-zorakılığın zorakılıqdan daha uğurlu mübarizə üsulu olduğunu dünya təcrübəsindən misallarla göstərmişik. Bütün bunlara baxmayaraq, bizi utanmadan zorakılıqda ittiham edirlər. Bu, sözün əsl mənasında iyrənclikdir. Ona

görədir ki, əleyhimizə qondarılan cinayət işi avtoritar rejimlər tarixindəki ən gülünc cinayət təqibləri sırasında öz yerini alıb artıq. Həbs edilmiş ilk 3 nəfərin MTN-də hansı işgəncələr və zülmə məruz qoyulduğunu bu məhkəmədə iştirak edən hər kəs aydın şəkildə gördü.

Ancaq, təəssüf ki, bu isgəncələrin araşdırılması üçün məhkəmə tərəfindən ən xırda addım belə atılmadı. Məhkəmə prosesindəki araşdırmalar əleyhimizə yönələn ittihamların kökünə qoyulan sübutların məhkəmə baxışından çıxarılması üçün yetərli əsaslar versə də, müvafiq qərar qəbul edilmədi. Təbii ki, belə qərarı yalnız azad və ədalətli məhkəmə çıxara bilərdi, siz yox. İttiham tərəfinin bu məhkəmədə ifadəsinə güvəndiyi əsas şahid, hətta ilk baxışda narkotik vasitələrə mübtəla olduğu və psixoloji problemlərdən əziyyət çəkdiyi aşkar görünən, əqli qüsuru olduğu sənədsiz-sübutsuz anlaşılan Anar Abbasovun məhkəmədə verdiyi ziddiyyət abidəsi sayılmalı ifadəni hər kəs xatırlayır. "Venesiya" kafesini təsvir edə bilməyən, NİDA sözünün mənasını bilməyən, ittiham tərəfinin, guya o görüşdə iştirak etdiyini iddia etdiyi 9 nəfəri yox, qəfəsdə oturmuş 8 nəfəri görüş iştirakçısı kimi göstərən və bu şəxslərin heç birini adı-soyadı ilə xatırlamayan, "Venesiya" və " Nida" barədə ağzına və ağlına gələn digər şeyləri danışan bu şahid əslində bu işdə bizim təqsirsizliyimizin ən böyük və ən mötəbər sübutu oldu.

Bu iqtidar bizi xarici dairələrlə işbirliyində ittiham edir. Təsəvvür edin, hərbi çevriliş yolu ilə hakimiyyətə gəlməsindən tutmuş 15-16 oktyabr 2003-cü il hadisələri və Elmar Hüseynov, Ziya Bünyadov, Rafiq Tağı kimi onlarla dəyərli insanımızın qətli daxil olmaqla çoxsaylı hadisələrdə xalqına qarşı silah qaldıran, əli öz xalqının qanına batan bu





iqtidar bizi zorakılıqda ittiham edir. Bu, taleyin ironiyasıdır.

Azərbaycanın marağını xarici ölkələrə satan, hakimiyyətini qorumaq üçün hər cür rola girən YAP iqtidarından fərqli olaraq, biz - nidaçılar heç vaxt nə rus "KQB"-sinin köləsi olmuş, nə ABŞ və Avropa neft maqnatlarının dollar-avrosuna biət etmiş, nə İran mollalarının əmmaməsinin, nə də Türkiyə nurçularının "badem bıyık"larının altından keçmişik. Nidaçılar öz gəncliyini, həyatını gözünü qırpmadan öz milləti uğrunda qurban etməyi bacaran fədailərdir. Bizə verdikləri bu ittihamlar isə özlərinin pasportudur.

Xarici dairələr mövzusuna toxunmuşkən, MTN-in əməliyyat zamanı Şahin Novruzlunun atasından taladığı 94000 AZN-in cinayət vəsaiti kimi təqdim edilməsinə münasibət bildirək:

Məhkəmədə şahidlər bu vəsaitin Şahinin ailəsinə məxsus olduğunu kifayət qədər sübut etdi. Bir haşiyə çıxacağıq:

1980-ci il 12 sentyabr hərbi çevrilişində Türkiyədə hakimiyyətə gələn hərbi xunta öz xislətinə uyğun olaraq Erdal Ereni edam etdi. 100 ilə yaxın yaşı olan Türkiyə kimi böyük bir cümhuriyyət Erdal Eren ləkəsini hələ də alnından silə bilmir. O hadisədən 33 il sonra Azərbaycandakı YAP xuntası Erdal Erenin həmyaşıdı olan Şahini ittiham edir və öz alverçi xislətinə uyğun olaraq, Şahinin atasının pulunu oğurlayır. Hərbçilər edam edir, yapçılar isə həmişəki kimi pul oğurlayırlar, sərvət mənimsəyirlər.

İqtidarlar gəldi-gedərdir, amma əmin olun ki, məhz, Şahinin həbsi və ailəsinin, o cümlədən bibisinin min bir zəhmətlə qazandığı pulun

bu cür həyasızlıqla talanması hər zaman Azərbaycanın çiyni üzərində "Domokl qılıncı" kimi asılacaq və biz dövlət və millət olaraq bu hadisənin xəcalətini çəkəcəyik.

Adi rəqsə görə bizdən 2 nəfərimizin üzərinə xuliqanlıq ittihamı da qoyulub. Halbuki bu rəqsdə heç xırda xuliqanlıq əlamətləri də yoxdur, nəinki cinayət əlamətləri. Bu, verdiyimiz vəsatətlərdə və müdafiə tərəfinin çıxışlarında sübut olunub. Ona görə də, "Son söz"ümüzdə hüquqi məsələlərdən yox, əsil səbəblərdən danışırıq. Bu maddənin işə əlavə olunması bizi cəmiyyətə "əxlaqsız" kimi təqdim etmək məqsədi güdür. Məhz, bu niyyətlə mənəviyyatını itirən "Lider TV"-də açıq nümayiş etdirilən gizli pornoqrafik çəkilişləri şərh etmiş birinin dili ilə guya biz - 8 təqsirləndirilən şəxsin hər birinin o rəqsdə iştirak etdiyi barədə rişxənd edilərək yalan informasiya verilib. Amma bunların ucuz və mənasız səylərinə baxmayaraq, rəqs əxlaqsızlıq adlandırılmaz. Əxlaqsızlıq deputat mandatını oğurlamaqdır, satmaqdır, seçkini saxtalaşdırmaqdır, xalqın son tikəsini də ağzından alıb ölkəni talamaqdır, oliqarx olmaqdır. Bu əxlaqsızlığa qarşı mübarizə aparmaq isə ən əxlaqlı, ən şərəfli, ən namuslu işdir.

21 İldə bu iqtidar belə "yeni azərbaycanlı"ların yetişdirilməsində xeyli uğura nail olub. Bizim məhkəmə hər detalı ilə bu hakimiyyəti ifşa etdi, onun mahiyyətini, xislətini açıb ortaya qoydu. Yuxarıda qeyd etdiyimiz "şahid" Anar Abbasova diqqət edin. Anar Abbasov Əliyevlər rejiminin son 21 ildə yetişdirmək istədiyi yeni insan tipi - zombilərin nümayəndəsidir. Bu "yeni azərbaycanlı" qorxaq və gözükölgəli olmalı, mənəviyyatına köləlik və məddahlıq hakim kəsilməli, yalanla yaşamalı, öz mənafeyi naminə hətta öz qardaşını da lazımi məqamda şərləməyi bacarmalı, rüşvətlə dolanmalı və dolandırmalı, ən adi haqsızlığa belə etiraz etməyə cürət etməməli, yaltaqlığı, ikiüzlülüyü həyat kredosuna çevirməlidir. 21 ildə bu iqtidar belə "yeni azərbaycanlı"ların yetişdirilməsində xeyli uğura nail olub.





NİDA Vətəndaş Hərəkatı bu siyasətin tam qələbəsinə mane olmağa, müqavimət göstərməyə çalışıb. Bizim və digər üzvlərimizin davamlı həbsi, bizə münasibətdə açıq nümayiş etdirilən hiddət və qıcıq da onu göstərir ki, bu siyasəti iflasa doğru yönəldə bilmişik. Bizə müqavimətimizi və dəyanətimizi, mövqeyimizdən dönməzliyimizi, bu iqtidarın yanında olmağın məziyyətlərinə uymayaraq həqiqətin tərəfində durmağımızı başqa yolla qarşılaya bilmirlər. Başa düşmürlər ki, bir yerdə pislik varsa, hətta bütün insanlar üzünü tərs tərəfə çevirsə belə, insanlığı olan hər kəs bu pisliyin üzərinə getməlidir. Biz azad insan olduğumuza görə bu pisliyə, əxlaqsızlığa, ümumiyyətlə, hakimiyyətin mənfi əməllərinə göz yummuruq, yalnız haqlı gücə boyun əyirik. Cümhuriyyətçilik ənənəsi başqasının despotik iradəsi qarşısında müdafiəsiz olaraq yaşamağı böyük pislik olaraq görür. Çünki köləlik özünün ən pis nəticəsi olan yaltaqlıq və səfillik ruhu yaradır. Biz cümhuriyyətçilər isə təhlükəli olsa belə, azadlığı kölə rahatlığına dəyişmirik! Ona görə də bu rejimin, polis və digər güc strukturlarının zorakı və vəhşi əməllərini "qanuna xidmət", bizim konstitusion azadlığımız olan sərbəst toplaşmağımızı kütləvi iğtişaş, dinc mübarizəmizi zorakılıq adlandırması, bizi şərləyib həbsə atması bizi qorxutmur və öz mövqeyimizdən çəkindirmir. Bizim təməl prinsiplərimizin aydınlığı, onlara sadiqliyimiz, radikalizmi, zorakılığı, mənəviyyatsızlığı qətiyyətlə rədd etməyimizdir ki, həbsimizdən keçən bir il ərzində sıralarımıza yüzlərlə yeni həmfikirlərimiz üzv olub. Biz əvvəldə qeyd etdiyimiz kimi,

bu məhkəmədə formal olaraq iştirak edirik. Bu saxta cinayət işində məhkəmədən istədiyimiz bəraət də müəyyən mənada formal xarakter daşıyır. Çünki əminik ki, bizə bəraəti bu məhkəmə yox, xalqımız və tarix verəcək. Məhkəmədə iştirakımızın və Son söz söyləməyimizin bir səbəbi də var. Biz məhkəmə sistemini dövlətin əsası, cəmiyyətin ədalətliliyinin qarantı kimi dəyərləndiririk. Məhkəmə sözündəki əzəmətə və qürura hörmətlə yanaşırıq. Ona görə də işimizə baxan məhkəmənin bu kriteriyalardan uzaq olmasına baxmayaraq, hakim və məhkəmə adına hörmət edərək formal prosedurlara tabe oluruq, onları gözləməyə səy göstəririk. Əsil Son söz isə hələ deyilməyib. Son sözü gec-tez həbsdəki 10 nidaçının və bizim azadlıqdakı mübarizə dostlarımız olan nidaçıların ön cərgəsində durduğumuz millət deyəcək.

Qədim yunan filosofu Sokratı gənclərin fikrini bulandırmaqda ittiham edib məhkəmə qarşısına çıxarırlar. O, ölkəni tərk edə bilərdi, yaxud susmaq, fikirlərini yaymamaq təklifini qəbul edə bilərdi. Əks halda edam ediləcəyini bilirdi. Sokrat məhkəmədə həqiqəti öz azadlığına və canına qurban verməyəcəyini bəyan edib ölümü seçdi. Biz də nə azadlıqda, nə də həbsdə həqiqəti heç bir şeyə satmadıq, satmayacağıq da. Biz tək deyilik. Əqidəli ziyalılarımız və ictimai xadimlərimiz - REAL-ın sədri İlqar Məmmədov, Müsavat başqanının müavini Tofiq Yaqublu, Yadigar Sadıqov, Qurban Məmmədov, Anar Məmmədli, Azər- baycandakı mömin kəsimin cövhəri Taleh Bağırzadə, şərlənən gənc dostlarımız Əbdül Əbilov, Ömər Məmmədov, Elsevər Mürsəlli, Rəşad Ramazanlı, jurnalistlər Rauf Mirqədirov, Pərviz Həşimli və daha onlarla vicdan məhbusu və siyasi məhbuslar bu gün, məhz, həqiqət naminə şərlənərək həbsdə saxlanılır. Bu iqtidar anlamalıdır ki, hətta ölkədə bir nəfər vicdanlı adam qalsa belə, onların bu mənfur antixalq siyasətinə qarşı müqaviməti davam etdirəcək, sonda isə qələbə yalanın yox, məhz, həqiqətin qisməti olacaq.

Korrupsiya üzrə analoqu olmayan "inkişaf"a nail olsaq da, bilirik ki, hakimlərin və prokurorluq işçilərinin seçimi üzrə imtahanlar çox çətin olur. Ona görə də hakim və prokurorlarımız, adətən, müəyyən hüquqi savada malik olurlar. Hazırda qarşımızda olan məhkəmə heyətinin və dövlət ittihamçısının da yüksək savada malik olduqlarına şübhə etmirik. Bu həm də ondan görünür ki, bizi Azərbaycanın ən güclü vəkilləri müdafiə edir və onların qarşısına, məhz, sizi seçib çıxardıblar, bu absurd ittihamları müdafiə etməyin siyasi sifarişini məhz sizə veriblər.

Hüququn ali məqsədi ədalətdir. Siz də ədaləti peşəkarcasına müəyyən etmək ixtisasına yiyələnmisiniz. Bu ittihamların puç olduğunu görməyə bilməzsiniz və əminik ki, buna şübhə etmirsiniz. Ona görə də bizim barəmizdə ittiham hökmünü çox çətinliklə verəcəksiniz. Çünki savadlı insanların peşə ləyaqətindən və insanlıqdan irəli gələn vicdanlarının məhkəməsi bu cür məhkəmədən daha ağırdır. Buna baxmayaraq, rahatlıq vicdana üstün gələcək və siz ittiham hökmünü oxuyacaqsınız. Bu səbəbdən sizdən nəsə xahiş etmirik. Əksinə, vicdanınızı bir az sakitləşdirmək, sizə təsəlli vermək üçün bildiririk ki, barəmizdə verəcəyiniz hökmlə ömrümüzdən alacağınız illər heçə getmir, Azərbaycanın azadlığı üçün sərmayə olaraq yatırılır. Yəni siz də antiqəhrəman kimi olsa da, bu ölkə üçün nələrsə edirsiniz. Biz bu yola başlayanda azadlıq kapitalı olacağımızı nəzərə almışıq. İndi biz ünvanımıza atılan böhtanlara, düşünmədiyimiz və törətmədiyimiz əməllərə görə peşman ola bilərikmi?!

Bir daha bəyan edirik, əminik və sizləri də əmin edirik ki, biz üzvü olduğumuz xalqa, sakini olduğumuz əraziyə azadlıq istədiyimizə, azadlığın, demokratiyanın hüququn aliliyinin, ən yüksək dəyərə malik olmasının insan və vətəndaş hüquq və azadlıqlarına hörmətin bu ölkədə təmin olunması üçün fəaliyyət göstərdiyimizə görə tutulmuşuq və bununla fəxr edirik.

Dostlardan, yoldaşlardan, xüsusən də, valideynlərimizdən xahiş edirik ki, ağır hökmə hazırlıqlı olsunlar, isterik qarşılamasınlar, qarğışa, təhqirə yol verməsinlər. Bu zalda əcnəbilərdən başqa hər kəs qurbandır, bir qurbanın o biri qurbanı qarğaması isə əhəmiyyətsiz və mənasızdır.

Bizim müdafiəmizdə iştirak edən hər kəsə, o cümlədən əqidə yoldaşlarımıza, həmişə bizimlə olan ailə üzvlərimizə, balaca Araza, bizi fədakarcasına müdafiə edən vəkillərimizə təşəkkür edirik. Eləcə də hüquqlarımızın bərpası uğrunda çalışan, narahat olan yerli və beynəlxalq hüquq-müdafiə təşkilatlarına, partiyalara və digər qurumlara, xarici dövlətlərə və onların səfirliklərinə minnətdarıq. Yarım ildir, bizim məhkəmə iclaslarımızda iştirak edən xarici səfirliklərin və beynəlxalq təşkilatların nümayəndələrinə həm də ona görə təşəkkür edirik ki, onlar bizim də müdafiə etdiyimiz Qərb dəyərlərinin neftə, geostrategiyaya görə merkantil maraqlardan yox, azadlıq və ədalətdən ibarət olduğunu sübut etdilər. Əziyyətlərinə və diqqətlərinə görə jurnalistlərimizə borcluyuq. Çox sağ olsunlar.

Sonda buradan çöldəki mübariz nidaçılara səslənmək istəyirik. Sovet dövründə 7 üzvü olan, antisovet fəaliyyəti ilə məşğul olduğu üçün 7 üzvü də həbs edilən "İldırım" təşkilatının üzvü İsmixan Rəhimov hökm oxunduqdan sonra maşına mindirilərkən, dönüb yaxınlarına demişdi: "Biz gedirik, amma qayıdacağıq".

İsmixan müəllimin bu sözlərini indi biz sizə ayrı formada çatdırırıq: Biz heç bir yerə getmirik, qayıtmayacağıq da. Çünki biz onsuz da varıq, burdayıq, sizinləyik. Həbsdə 10 nidaçı olsa da, azadlıqda olan sizlər bizi əvəz edirsiniz. Bu mübarizəni həm də bizim yerimizə daha prinsipial, daha ardıcıl aparın. Heç zaman şərə təslim olmayın! Alnınızı dik, iradənizi möhkəm tutun!

Rədd olsun diktatura və despotizm!
Yaşasın zülmə və haqsızlığa boyun əymeyən bütün insanlar!

Bakı Ağır Cinayətlər Məhkəməsi,
Tarix: 01.05. 2014

# SİYASİLƏR



## ELVİN ABDULLAYEVİN MƏHKƏMƏDƏ SON SÖZÜ[23]

Bu, əslində son sözüm deyil, son sözümü Allah dərgahında deyəcəyəm. Mən xoşbəxtəm, çünki mən qalibəm, mən siyasi məhbusam. Bu, mənim diktatura üzərində qələbəmdir. Zalım hakimiyyətin məndən qorxub məni həbsə atması qələbəmdir. Bəli, mən xoşbəxtəm. Bu rejim qarşısında sınmadığım, vicdanla mübarizə apardığım üçün xoşbəxtəm. Həm də ona görə xoşbəxtəm ki, zalımlardan yox, vicdanlılardanam. Mən vicdanlı olduğum, vətəni sevdiyim üçün buradayam. Allahdan başqa məni heç kəs mühakimə edə bilməz. Bir

[23] *Əvvəl müxalif Azərbaycan Xalq Cəbhəsi Partiyasının üzvü olan Elvin Abdullayev 11 yanvar 2015-ci ildə həbs edilib.*

*Elvin Abdullayev 2 gün Nərimanov rayon təcridxanasında saxlanılıb.*

*Siyasi fəala qarşı Cinayət Məcəlləsinin 234.4.3-cü (külli miqdarda narkotik vasitə əldə etmə, saxlama, satma, daşıma, göndərmə) maddəsi ilə ittiham irəli sürülüb.*

*1 iyun 2015-ci ildə Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 6 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilib.*

*22 iyun 2016-cı ildə Azərbaycan Respublikası Ali Məhkəməsinin qərarı ilə fəalın ittihamı Cinayət Məcəlləsinin 234.4.3-cü (külli miqdarda narkotik vasitələrin qanunsuz dövriyyəsi) maddəsindən daha yüngül 234.1-ci (qanunsuz narkotik saxlama) maddəsinə dəyişdirilib. Həbs müddəti 6 ildən 2,5 ilə endirilib. 17 Mart 2017-ci ildə E.Abdullayev prezidentin əfv sərəncamı əsasında azadlığa buraxılıb.*

*Hazırda Müsavat Partiyasının üzvüdür.*





gün başda İlham Əliyev olmaqla, zalım hakimiyyət, ədalətsizlik edən bütün məmurlar burada mühakimə olunacaq.

Üstündə üç ton narkotik tutulan hakimiyyət, bu gün məni bir neçə qram narkotiklə şərləyir, mühakimə edir. Bu qədər ədalətsizliyin bir sorğusu olacaq. Mənim həbsimdə məqsəd, mübariz insanları, əqidədaşlarımı qorxutmaq, susdurmaq idi. Amma bacarmadılar, onların gözlətilərinin əksi baş verdi. Heç bundan sonra da bacarmayacaqlar. Mən seçdiyim yola, apardığım mübarizəyə görə peşman deyiləm. Çünki cinayət törətməmişəm. Cinayətkarlar vəzifə başında oturan bu rejimin məmurlarıdır. Ona görə də, bunlar məni mühakimə edə bilməz. Zalım hakimiyyət istəməsə belə, Azərbaycanda demokratik inqilab olacaq. Tutduğum yoldan qürur duyuram.

Yaşasın Azərbaycan!
Yaşasın Azərbaycan xalqı!
Yaşasın Xalq Cəbhəsi!

Bakı Ağır Cinayətlər Məhkəməsi,
Tarix: 02.06. 2015

# SİYASİLƏR



## ASİF YUSİFLİNİN MƏHKƏMƏDƏ SON SÖZÜ[24]

Çıxışımda iki əsas məsələyə münasibət bildirmək istəyirəm: mənə qarşı irəli sürülən ittihama və niyə burada olmağıma.

Birincisi, bütün ifadələrdən də göründü ki, heç bir qabaqcadan əlbir olan qrupdan, kiminsə əmlakını ələ keçirməkdən söhbət getmir. Əvvəldən deyildiyi kimi, zərərçəkənin təhsil haqqı kimi ödədiyi 6500 manat pulu Rafiq Hüseynova vermişəm. Həm Rafiq Hüseynovun, həm Fəridə Zülfüqarovanın və şahidin ifadələrində, eyni zamanda,

---

[24] *Asif Yusifli Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) Rəyasət Heyətinin üzvü, Qarabağ qazisi, 1-ci qrup əlil, ixtisasca hüquqşünasdır.*

*25 noyabr 2014-cü ildə dələduzluq və sənədlərin saxtalaşdırılması ittihamı ilə Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları tərəfindən saxlanılıb.*

*31 iyul 2015-ci ildə Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 7 il 6 ay müddətinə azadlıqdan məhrum edilib. Ali Məhkəmə (sədrlik edən Əli Seyfəliyev) cəzanın 6 ilə endirilməsi barədə qərar qəbul edib. Cinayət qanunvericiliyinə edilən vurulmuş ziyanın həcmi ilə bağlı dəyişiklikləri nəzərə alan Nizami Rayon Məhkəməsi A.Yusifliyə qarşı ittihamı Cinayət Məcəlləsinin 173.2-ci maddəsindən 178.2.4-cü maddəsinə tövsif edərək cəzaçəkmə müəssisəsinin rejimini dəyişsə də, cəza müddətini azaltmayıb.*

*Ali Məhkəmə isə 2 mart 2017-ci il tarixli qərarı ilə cəzanı 5 ilə endirib.*

*Asif Yusifli Penitensiar Xidmətin 6 saylı cəzaçəkmə müəssisəsində saxlanılır.*





yazılı olaraq verdiyim qəbzlərdə Rafiq Hüseynovun oğluna məxsus avtomobilin girov qoyulması haqda iltizamda məsələnin, məhz bu cür qoyulduğu sübut olunub.

Ədalət naminə deməliyəm ki, Rafiq Hüseynovun da məqsədi kiminsə pulunu ələ keçirmək olmayıb. Çünki belə məqsədi olsaydı, pulu almağı haqda qəbz verməz, oğluna məxsus avtomobili girov qoymazdı. Lakin sonradan Rafiq Hüseynovun həbs edilməsi həmin pulun qaytarılmasında problemlər yaratdı.

Ümumiyyətlə, bu işdə söhbət 6500 manatdan gedir. Verdiyimiz qəbzdə də məbləğ bu qədər göstərilib. Şikayətçi tərəf istintaqa verdiyi ifadədə 2009-cu ilin sentyabrında 6500, oktyabrında isə guya daha 1200 manat ödədiyini göstərib. Halbuki 2010-cu ilin noyabrında verilmiş qəbzdə məbləğ 6500 manat göstərilib.

Həbsimin əsas səbəbi siyasi fəaliyyətimdir. Hər kəsin bilməsi lazımdır ki, mənə qarşı irəli sürülən ittiham üzrə maksimum cəza 12 ildir. Bu rejim 12-ni 12-yə vurub, mənə 144 il cəza versə də, əqidədaşlarıma, xalqıma, əqidəmə görə bunu qəbul etməyə hazıram. Tarixdə Yezid də, imam Hüseyn də mövcud olub. Amma qoca tarixdə imam Hüseynə rəhmət, Yezidə isə lənət qaldı.

Fərqindəyəm ki, Azərbaycan kimi ölkələrdə ədalət tələb edənlərə münasibət 60-cı illərin aparteid rejimlərində zəncilərə olan münasibətdən heç də yaxşı deyil. Amma bu, məni məyus etmir. Fəxr edirəm ki, əqidədaşlarım Seymur Həzi, İntiqam Əliyev, Anar Məmmədli, Rəsul

Cəfərov, Xədicə İsmayıl, Tofiq Yaqublu, Leyla Yunus, Pərviz Həşimli və digər ədalət carçıları ilə bir sıradayam. Kim bilməsə də, "xalqlar həbsxanası"nın, "şər imperiyası"nın keçmiş sakinləri siyasi repressiyanın nə olduğunu yaxşı bilirlər. 37-ci ildə, az qala, ədalət sözünü nə vaxtsa tələffüz etmiş bütün sovet vətəndaşları Stalinin barmaq işarəsi ilə repressiyalara məruz qalır, məhv edilirdi. Amma Süleymana qalmayan dünya Stalinə də qalmadı. Cəmi 19 il sonra repressiya qurbanlarına bəraət verildi. Repressiya əmri verənlərin hər yeri bəzəyən heykəllərinin boynuna kəndir keçirib yerlə bir etdilər. Unutmayın ki, əziz peyğəmbərimizə, Çingizə, Teymura qalmayan dünya, bu həbsin sifarişçilərinə də qalmayacaq. Gec-tez Pifaqorun dediyi ədalətli cəmiyyəti quracağıq.

Cəbhəçi olmağımla qürur duyuram. Mənə qarşı bu münasibətdən, cəzalandırmadan narahat deyiləm və belə şeylər məni yolumdan döndərə bilməz. Məni narahat edən yeganə məsələ cəbhədaşlarımın mənə görə əziyyət çəkməsidir. Onları çağırıram ki, bundan sonra məndən narahat qalmasınlar. Əminəm ki, hər şey yaxşı olacaq. Biz bu rejim üzərində qələbə qazanacağıq.

---

Bakı Ağır Cinayətlər Məhkəməsi,

Tarix: 30.07.2015



# SİYASİLƏR



## QİYAS İBRAHİMOVUN MƏHKƏMƏDƏ SON SÖZÜ[25]

Ətraflı olsun deyə, yazılı şəkildə son söz hazırlamışdım, amma əlimdən aldılar. Mənə verilmiş ittiham üzrə özümü müdafiə etmək fikrim yoxdur. Əsl cinayət fəaliyyətim püskürtmə boyamın rəngi kimi ağdır. Əsl səbəbi, vətəndaşı olduğum bu ölkənin, bu ölkədə mövcud olan siyasi sistemin yalanlarına və dərəbəylik zehniyyətinə adi tələbə gənc olaraq yetəri qədər sivil şəkildə etiraz etməyimdir. Heç bir yazılı qanunu pozmamışam. Üstəlik, yazılı qanunda etdiyim əməl cinayət hesab olunmur. Pozduğum sistemin yazılmamış qanunudur. Sistem bu yazılmamış qanunları ilə ayaqda qalmaq, ədalətsizliyi ədalət, köləliyi azadlıq kimi göstərmək üçün istifadə edir. Dövlə- tin yazılı və kağız-

---

[25] *10 may 2016-cı ildə Qiyas İbrahimov dostu Bayram Məmmədovla birlikdə eks-prezident Heydər Əliyevin Bakının mərkəzində olan heykəlinin postametinin üzərində "Qul bayramınız mübarək" və "Fuck the System" ifadələri yazıb və anarxistlərə məxsus simvolika çəkiblər. Mayın 10-da Azərbaycanda H.Əliyevin doğum günü ilə əlaqədar Gül Bayramı keçirilir. Bu yazılar həmin bayrama etiraz forması idi. Qiyas İbrahimov 10 may 2016-cı ildə saxlanılıb və ona qarşı Cinayət Məcəlləsinin 234.4.1 və 234.4.3-cü (satış məqsədi ilə qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri əldə etmə və ya saxlama, hazırlama, istehsal etmə, emal etmə, daşıma, göndərmə, yaxud qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri satma, qabaqcadan əlbir olan bir qrup tərəfindən və külli miqdarda törədildikdə) maddələri ilə ittiham irəli sürülüb. 25 oktyabr 2016-cı ildə Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə Q.İbrahimov 10 il müddətində azadlıqdan məhrum edilib.*

da əksini tapan qanunlarını pozmaqla cəzasız qalmaq mümkündür, yetər ki, sistemin mövcudluğunda hansısa rol oynayasan, yaxud bu rol oynayanlardan kimlərisə, yaxud kimisə satın almaq iqtidarında, gücündə olasan. Belə olan halda yazılı qanunları pozub cəzasız qala bilərsən, ancaq bu sistemin yazılmamış qanunlarını pozanda cəzasız qalmaq mümkün deyil. Təbii ki, sistemin yazılmamış qanunlarını pozmusansa. Bunlar, hamıya məlum olduğu kimi, bir jurnalistin doğruları, həqiqətləri yazıb göstərməyi, bir siyasətçinin müxalif mövqeyi, bir blogerin internetdə öz fikirlərini yazmağı, bir aktivistin dinc etirazı, bir ölkə vətəndaşının öz haqqını tələb etməyidir. Qısası, vicdanına qulaq asan dilinin olmasıdır. Vicdanlı olursunuzsa, siz artıq sistemin yazılmamış qanununu pozursunuz və artıq cəzadan qurtulmaq şansınız yoxdur. Mən də bu gün həmin qanunu pozmuşam və özüməqədərki bu vəziyyətdə olanların sırasına qoşulmuşam. Ancaq bu yazılmamış qanunları pozanda bu sistem bizi yazılı qanunları pozmaqla ittiham edir, cinayətlə şərləyir və həmin qanunlarda nəzərdə tutulan cəzaları verir. Bu da hamıya məlumdur. Bunu eləməklə öz yazılmamış qanunlarını kağıza köçürməyə guya utanırlar. Ancaq hər il bu utancaqlıq daha da azalır. Yəqin, növbəti intervalda bu utancaqlıq, ümumiyyətlə, qalmayacaq və insanları, elə birbaşa kölə olmaq istəmədikləri üçün ittiham edib cəzalandıracaqlar. Əslində, bu bizim üçün yaxşı olardı. Yəni vicdan məhbusları, doğrunu istəyən insanlar üçün yaxşı olardı. Çünki ci-

[21] *Qiyas İbrahimovun işinə baxan Bakı Apellyasiya Məhkəməsinin hakimlər heyəti Q.İbrahimov və onun atası Həsən İbrahimov tərəfindən proses zamanı təhqir edildiklərini iddia edərək şikayət etdikləri üçün hər iki şəxsə qarşı cinayət işi açılıb. Bu iş üzrə Q. İbrahimov Yasamal Rayon Məhkəməsinin 18 dekabr 2017-ci il tarixli hökmü ilə 3 ay müddətinə azadlıqdan məhrum edildiyindən onun cəzası 10 il 3 aya qaldırılıb. Fəalın atası isə 6 ay müddətinə ictimai işlər növündə cəza təyin edilərək məhkum edilib.*

*Prezidentin 16 mart 2019-cu il tarixli Əfv Sərəncamına əsasən azadlığa buraxılıb.*





bimizə, evimizə qoyulan narkotik, "molotov kokteyli"nin, silah-sursatın bizim olmadığını sübut eləməyə, danışmağa əziyyət çəkməzdik. İğtişaş törətmək yox, sadəcə söz demək istədiyimizi sübut eləməyə əziyyət çəkməzdik. Kimisə kök saldığı kreslodan yıxıb, o kresloda özümüzün kök salmaq istədiyimizi yox, sadəcə həmin kresloda oturanın vaxtı gələndə getməli olduğunu istədiyimizi açıqlamağa əziyyət çəkməzdik. Birbaşa nə etmişiksə, onunla da ittiham olunardıq. Yəni totalitar bir sistemin vətəndaşı olarıq. Bilmirəm, bu olacaq, ya olmayacaq, mən hər halda bunun olmamalı olduğuna inananlardan biriyəm, ona görə də bu gün vicdan məhbusu kimi burda hökm verməyiniz üçün sizin dırnaqarası ədalət məhkəmənizə çıxarılmışam. Sistemin qanunlarından birini pozub, vicdanlı insan olaraq hansısa şəkildə etiraz eləməyim, etirazımı heykələ şüar yazaraq çatdırmağım, bildirməyim, sistemin öz yalanlarını doğru kimi qəbul etdirmək üçün yaratdığı pərəstiş kultunun simvolunda yazı yazaraq etiraz eləməyim, bəziləri tərəfindən guya mənim və Bayramın həyatda olmayan şəxsin xatirəsini təhqir etməsi kimi qələmə verilib. Hərçənd bu, belə olsa da, olmasa da, biz heykələ yazıb etiraz etməsək də, başqa şəkildə bizdən əvvəlki insanların timsalında gördüyümüz kimi bura çıxarılacaq vəziyyətdəyik. Yəni demək istədiyim odur ki, bu hadisəni hay-küylə bizim həyatda olmayan birinin xatirəsini təhqir etməyimiz kimi qələmə verməyiniz, bizə verəcəyiniz cəzanı buna görə bir qədər də artırmağınızın yanlışdır, bunun heç bir əhəmiyyəti də yoxdur. Bu, sadəcə başının içində beyin yerinə pambıq gəzdirənlərin deyib-danışa biləcəyi bir şeydir. Çünki indiki halda, mövcud vəziyyətdə sistemin simvoluna - həmin heykələ şüar yazıb etiraz bildirməklə biz onu kiminsə şəxsinə ucaldılmış abidə kimi yox, bu sistemin, "böyük qardaş"a göstərdiyi sevgi olaraq təzim etdirilən

bir pərəstiş kultu, simvolu kimi görmüşük. Ona görə ona şüar yazıb, sistemə bu cür etiraz eləmişik, yoxsa kiminsə xatirəsinə ucaldılmış abidə kimi yox. Bir daha təkrar edirəm ki, bu cür, yəni kiminsə guya xatirəsini təhqir elədiyimizi söyləyib, "heykələ niyə yazırdınız, gedib öz babanızın qəbir daşına yazaydınız", demək sadəcə gülüncdür. Bayaq dediyim kimi, bunu ancaq başının içində beyindən başqa nə desəniz daşıyan biriləri deyə bilər. Təcridxana rəisi də belə adamlardan biri idi. Mənə deyirdi ki, bunu elədiyinə görə xalq səni linç eləyər. Bilmirəm, bu dediyinə nə qədər inanır... Bəlkə, xalq deyəndə polis idarəsindəki bir dəstə qulduru nəzərdə tutur, deyə bilmərəm. Amma xalq bizi, doğrudan da, linç edərdisə, rəisin sözündən belə çıxır ki, bu sistemin bir ünsürü kimi biz ona və polis idarəsinə, polislərə təşəkkür eləməliyik. Təşəkkür eləməliyik ki, nə yaxşı, siz bizi tutmusunuz, yoxsa xalq bizi linç eləyərdi. Bu, çox klişe bir ifadəni xatırladır mənə: "Nə yaxşı ki siz bizi döyürsünüz, nə yaxşı ki siz az yeyirsiniz, başqaları gəlib bizi çox döyərdi, başqaları gəlib çox yeyərdi". Rəisin dedikləri də bu kimi fikirlərin analoqudur. Bundan başqa, ən başda da dediyim kimi, narkotik ittihamı ilə özümü müdafiə etməyəcəyəm. Özü alçaqlığın hansısa bir pilləsində qərar tutmuş polis idarəsinin rəisi guya bizə mənəvi işgəncə vermək, ya da alçaltmaq üçün yer süpürdürürdü, təmizlik işləri görməyə məcbur etdirirdi. Bu aciz məxluq başa düşmür ki, biz onun əmri ilə məcbur olub yeri təmizləməklə özümüzü alçalmış hiss eləmərik. Biz həbsxanaya girməyi gözə alanlarıq. Bundan qorxmayanlar olaraq özümüzü onda alçalmış hiss edirik ki, yalan maşınının dili ilə desək, Avropanın inkişaf eləmiş şəhərlərinə, paytaxtlarına bənzəyən bir şəhərin küçələrini ac qalmamaq üçün yaşlı qadınların süpürdüyünü görürük. Biz onda özümüzü alçalmış hiss edirik ki, oturduğu kresloda kök salan və bizim kimi adi tələbələrə – fərqi yoxdur, etirazçı və ya başqa biri olsun - "qabağımda diz çökməlisiniz", "mən şaham, qanun da mənəm" deyən xəstə zehniyyətli mirqafarlar və onun kimi xəstə zehniyyətlilər, iyerarxiyada qərar tutanların əmri ilə sistemin qurduğu kölələr, quldurlar övladlarını orduda itirən anaları meydanlarda sürüyürlər. Onların səsini çatdırmağa çalışan insanları təhqir edirlər. Biz bunu görəndə özümüzü alçalmış hiss edirik. Mirqafar kimilərin qabağında diz çökəndə özümüzü alçalmış hiss eləmirik. Özümüzü onda alçalmış hiss edirik ki, bu cür zehniyyət sahiblərinin əmrləri ilə hərəkət eləyən muzdlu quldurlar...

**Hakim:** Sən ittihama qayıt, ittihama.

**Qiyas:** Xeyr, mən ittihama qayıtmayacağam. Bu mənim söz haqqımdır. Mən özüm bilərəm, cənab hakim, nə deyirəm. Mən başda sizə dedim ki, özümü narkotik ittihamı ilə bağlı müdafiə etməyəcəyəm. Mən danışmaya da bilərəm, mahnı da oxuya bilərəm.

**Hakim:** Hə, oxuya bilərsən, oxu.

**Qiyas:** Çox sağ olun, icazə verin tamamlayım.

Dediyim kimi, özümüzü o zaman alçalmış hiss edirik ki, bu cür xəstə zehniyyətin iyerarxiyasında yer tutanların əmri ilə hərəkət eləyən muzdlu kölələrin, muzdlu qatillərin, sistemin yalan maşınının dediklərinin tam əksinə olaraq, ölkənin səfalət güzgülərindən biri olan Nardarana girib, orada haqlarını istədilər, sadəcə, səslərini qaldırdılar, söz dedilər deyə insanları vəhşicəsinə öldürmələri, qalanlarını da

eynən bizim kimi etmədikləri cinayətlərlə şərləyib həbsxanalara doldurduqlarını görəndə...

**Hakim:** Nardaran sənə aid deyil.

**Qiyas:** Xeyr, bu ölkədə baş verən hər şey mənə aiddir, ona görə buradayam.

**Hakim:** Sənə aid olan ittihamdan danış, qanunla o deyil.

**Qiyas:** Bu ölkədə qanun olsaydı, mən burada olmazdım.

**Hakim:** Bəs harada olardın?

**Qiyas:** Tarix göstərəcək harada olacağam.
Nardarana girən muzdlu quldurların, zəncirli kölələrin heyvan cüssəsi qarşılığında Vətəni qorusunlar deyə səngərə tökülən uşaqların, hələ də körpə simalarını itirməmiş ana quzuları olduğunu, ana övladları olduğunu görürük. Bizi alçaldan budur. Bunun əvəzində isə belə heyvan cüssəlilər öz insanlarına işgəncə verib öldürürlər.

**Hakim:** Oğul, mahiyyətə qayıt.

**Qiyas:** Həbsimin mahiyyəti budur, cənab hakim.

**Hakim:** Yaxşı, son sözün nədir hakimə?





**Qiyas:** Son sözümü bitirmək üzrəyəm, əlbəttə ki, icazə versəniz. Biz - Bayram Məmmədov, mən və məndən sonra şərlənərək həbs olunan insanlar belə bir zehniyyətin yaşadığımız ölkədə bizi öz köləsinə, quluna çevirməyə çalışdığını, alçaltdığını başa düşəndə həbsdən qorxmayan və doğruları deməyə çəkinməyən insanların yanında olmağın vacibliyini anlamışıq.

Bunu anladığımıza görə də, o insanlardan biri olmağa çalışdığımız üçün heyfislənmirik. Bir neçə il əvvəl də bizim kimi gənc insanlar - aralarında qadın və yaşlı olanlar da var idi - eynən bizim kimi doğruların yanında olduqlarına, düzünü dediklərinə, haqları olan şəkildə etiraz etdiklərinə görə, eynən bugünkü kimi, eynən 10 may 2016-cı ildəki kimi, Bayram Məmmədova və mənə qarşı edilən kimi şərlənib, etmədikləri cinayətə görə həbsxanalara salınıblar.

Sistem bununla doğru, haqlı olanı darmadağın edə biləcəyini, öz yalanları ilə ayaqda qala biləcəyini fikirləşirdi. Amma sizin də, hamının da gördüyü kimi, bu insanların həbsxanaya doldurulması, cəzalandırılması sistemin aləmində heç də hamıya, həmçinin mənə, Bayrama gözdağı olmadı. Və ona görə də, bu gün mən buradayam. Və gözdağı ola da bilməz. Ümumiyyətlə, həbsimiz gözdağı olmayacaq, əlbəttə ki, vicdanlı insanlar olduqca, bu cür əhəmiyyətsiz cəzalar heç kimi qorxuda bilməz. Mənə təcridxanada hədə-qorxu gəlirlər ki, özümü dərin quyuya salmışam. Bəli, elədir, mən də, Bayram Məmmədov da, bizdən əvvəlkilər də özümüzü quyuya salmışıq. Bunu bilirik. Ona görə salmışıq ki, bu quyunun suyunu tapıb çıxardaq və onun suyu bütün bu çirkabları, bütün bu iyrənclikləri yuyub aparsın. Bəlkə də, bu quyunun

suyu bizi boğa bilər, fərqi yoxdur, amma bu çirkabların təmizlənəcəyinə inandığımız üçün biz özümüzü bu quyuya salmışıq. Buna görə də burdayıq və buna görə də, sizdən bəraət diləmirik. Məndən əvvəl etmədikləri cinayətlərə görə şərlənən, bu gün də həbsdə olan və həbs cəzasını çəkib çıxan insanlar, vicdan məhbusları bu qapılardan girəndə ümidlərini bayırda qoyub giriblər. Çünki məsələnin mahiyyəti onlara çox aydındır, mən də eynən onlar kimi bu qapıdan girəndə ədalətə olan ümidlərimi bayırda qoyub girmişəm, eynən Dantenin "İlahi komediya"sında cəhənnəmə girənlərdən tələb olunduğu kimi. Ancaq bu məhkəmə, bu həbsxanalar bizim üçün cəhənnəm deyil. Sistemin düşüncəsizliyinə rəğmən, ola da bilməz.

İstər bu məhkəmə, istər həbsxanalar bizim kimi insanlar, xüsusən, mən və yaxud digərləri üçün qorxulu deyil, deyərdim ki, doğruların yanında olan, bunları deməyə çəkinməyən insanların müvəqqəti olaraq müəyyən çətinlik çəkdiyi bir istirahət yeridir. Bu çətinliyi çəkməkdən qorxmuruq. Biz verdiyiniz hökmün kağız üstündə ağırlığından asılı olmayaraq, bundan çəkinmirik. Hətta deyərdim ki, bu cür insanların olduğu yerə, bu cür yaxşı insanların, doğrunu deyən insanların azadlıqlarından məhrum olub, salındığı yerlərə hətta sevə-sevə gedirik. Çünki bu inamımız doğruya, həqiqətə, azadlığa olan inamdır və bu inamımızın tapıb çıxardığı təmiz suyun, bütün bu çirkabları tarixin zibilliyinə qarışdıracağına inanırıq. Anam burada ifadə verərkən dedi ki, o, bir övladı üçün fəryad edir. Əlbəttə, o, anadır və digər vicdan məhbuslarının anaları da elə deyə bilərlər. Amma demək istəyirəm ki, övladlarının doğruların yanında olanlar olduğunu bilib, heç də fəryad eləməsinlər. Heç də olmayan ədalətdən bəraət





istəməsinlər. Əksinə, çox rahat və şən olsunlar. Odur ki, haqqımda hökm verərkən bu dediklərimi də nəzərə alacağınızı, bu son sözümü də nəzərə alacağınızı yaxşı bilirəm. Elə bunun üçün də dedim. Odur ki, cənab hakim, haqqımda qərar verəndə öz insiyativinizi, öz təşəbbüsünüzü irəli sürün. Hətta deyərdim ki, yəqin, cənab ittihamçı bir neçə gün əvvəl mənə 9 il iş istədiyi üçün çox peşman olub. Yəqin, maksimum cəza olan 12 ili istəyərdi. Onun peşmanlığına görə mən burda müəyyən qədər şənlənirəm. Qısası, cənab hakim, haqqımda qərar verəndə çəkinməyin. Biz doğrulara inanırıq, buna görə də həbsxanalar, işgəncələr, təhqirlər və s. bunun kimi əhəmiyyətsiz şeylər bizim kimiləri kölə və qula çevirməyə yetərli deyil. Çox sağ olun!

Bakı Ağır Cinayətlər Məhkəməsi,
Tarix: 25. 10. 2015

# SİYASİLƏR



## MƏMMƏD İBRAHİMİN MƏHKƏMƏDƏ SON SÖZÜ[26]

Həbs olunandan sonra həbsxanada yüksək vəzifəlilərdən biri məni fərdi söhbətə dəvət edib soruşdu ki, nə vaxtdan bu yoldasan?

Dedim ki, 1988-ci ildən hərəkatdayam, 1989-cu ildə AXC yarandıqdan sonra onun sıralarındayam. Soruşdu ki, həmin dövrə qayıtsaq, yenə bu yolu seçərdin?"

Bu mənim özümdən asılı olan bir şey deyil, istəsəm də, haqsızlığa, ədalətsizliyə qarşı susa bilmərəm, çünki belə görüb, belə tərbiyə almışam. Atam-anam 1988-ci ildə rayondan Bakıda oxuyan iki oğlunu

---

*[26] Məmməd İbrahim Azərbaycan Xalq Cəbhəsi Partiyası (AXCP) sədrinin müşaviri, qurumun Siyasi Şurasının üzvüdür.*

*"Facebook" sosial şəbəkəsi və digər onlayn platformalarda hakimiyyəti sərt tənqid edən çıxışları ilə fərqlənib, partiyanın tədbirlərinin və aksiyalarının fəal təşkilatçılarından olub.*

*O, AXCP-nin 28 sentybarda keçirilən Qurultayından iki gün sonra saxlanılıb.*

*2015-ci ilin fevralında AXCP-dən uzaqlaşan Mikayıl Quliyevin şikayəti əsasında tutulub.*

*28 dekabr 2015-ci ildə ifadə verdikdən və vəkillərin suallarını cavablandırdıqdan sonra Mikayıl Quliyev şikayətindən imtina etmək istədiyini bildirib, məhkəmə zalında barışıq ərizəsi yazaraq hakimə verib və ərizə iş materiallarına əlavə olunub.*

*M.İbrahim 15 mart 2016-cı ildə Nərimanov rayon məhkəməsinin hökmü ilə 3 il müddətinə azadlıqdan məhrum edilib. Hazırda Penitensiar Xidmətin 16 saylı cəzaçəkmə müəssisəsində saxlanılır.*





görməyə gələndə birbaşa Azadlıq meydanına gəlmişdilər. Bilirdilər ki, oğulları orada olacaqlar. Onlara "Məmməd təhlükəli yoldadır, onu döyəcək, söyəcək, həbs edəcəklər" deyəndə cavab vermişdilər ki, Məmməd nə etdiyini gözəl bilir. Mən bütün bunları, sual verən yüksək vəzifəli şəxsə anlatmağa çalışdım. İzah eləməyə çalışdım ki, xalqın, dövlətin milyardları talandığı, hüquqları pozulduğu, 1000-2000 manat kredit borcuna görə intihar edən vətəndaşların sayının hər gün artdığı bir vaxtda milyardlarla xərc çəkilib mahnı müsabiqələri, Avropa oyunları, Formula-1 yarışlarının keçirilməsinə necə susa bilərəm? Bütün bunlara görə, mən də bu yolda olmalı idim.

Tək mübarizə aparmağın çətin və əhəmiyyətsiz olduğunu bildiyim üçün də hansısa təşkilatın sıralarında olmalı idim. Elə bir təşkilat ki, güclü rəhbəri və dönməz, əyilməz üzvləri olsun. Bütün bu kriteriyalara cavab verən yeganə partiya AXCP olduğu üçün mən də onun sıralarındayam. Azərbaycanı bir dəniz kimi təsəvvür etsək, mən AXCP-ni o dənizdə hüquqi, demokratik dövlət olan sahilə üzən üzgüçüyə bənzədərdim. Bu yolda bir çoxları yorulub çəkilsələr də, bəziləri tiranın gəmisinə minsələr də, mən və əqidədaşlarım üzməkdə davam edirik. İndiyə qədər o sahildən uzaq olsaq da, yorulmadan ora doğru üzmüşük. Artıq o sahil çox yaxındır və bu gün, sabah bizim üzüb ora

---

*29 sentyabr 2018-ci ildə azadlığa çıxmasına bir gün qalmış M.İbrahimə qarşı Cinayət Məcəlləsinin 317-2.1 (həbsdə saxlanılan şəxs tərəfindən qadağan olunmuş əşyaların hazırlanması, saxlanılması, gəzdirilməsi, daşınması və ya istifadəsi) maddəsilə ittiham irəli sürülüb.*

*10 yanvar 2019-cu ildə Suraxanı rayon məhkəmesinin hökmü ilə təqsirli bilinərək 5 ay 22 gün müddətinə azadlıqdan məhrum edilib.*

*13 fevral 2019-cu ildə Bakı Apelyasiya Məhkəməsində cəzası azaldılaraq azadlığa buraxılıb.*

*16 mart 2019-cu il tarixli Prezidentin Əfv Sərəncamına əsasən azadlığa buraxılıb.*

çatacağımıza qəti əminəm.

Bu 27 ildə çox təhdidlər, təhqirlər, həbslər, döyülmələr gördük, geri çəkilmədik. Qərargahımız əlimizdən alındı, sədrimizin xaricə çıxışı yasaqlandı, dəfələrlə həbs olunduq və bəzən cərimə, bəzən sutka ilə cəzamı çəkib qurtardım. Ancaq bu dəfə həbsimdən əvvəl vəziyyət dəyişdi. Mənə qarşı başqa təzyiq vasitələri işə düşdü. İzləmələr, polisə çağırılmalar, işlətdiyim mağazanın vergi ilə sınağa çəkilməsi, mağaza sahibinin təzyiq nəticəsində məni mağazadan çıxartması təsadüfi deyildi.

Əslində, hər şey ondan başladı ki, hakimiyyətin gündəminə AXCP-ni bölmək planı gəldi. Bu məqsədlə külli miqdarda pul ayrıldı və onun bir hissəsi də AXCP-dən ifşa edilərək qovulmuş Razi Nurullayevə verildi. Mənim xüsusi hədəfə alınmağımın səbəbi də, hər bir AXCP üzvü kimi hakimiyyətin Razi maskasını cırmaqla, onları ifşa etməklə bağlı fəaliyyətim oldu. Bundan sonra internetdə sosial şəbəkələr vasitəsilə ünvanıma anonim söyüşlər, təhdidlər, təhqirlər gəlməyə başladı. Məni nalayiq söyüşlərlə təhqir edir, oğlumun başını kəsəcəklərilə hədələyirdilər. Bu barədə 17-ci polis bölməsinə yazılı ərizə versəm də, heç bir tədbir görülmədi. Bundan başqa, xəbər çatdırmışdılar ki, həbs növbəsi mənim və Fuad Qəhrəmanlınındır. Bəzi dostların da bildiyi kimi, AXCP-dən istefa verəcəyim təqdirdə mənə böyük məbləğdə pul təklif olunurdu. Bütün bunların səmərəsiz olduğunu görüb Mikayıl Quliyev adlı şəxs vasitəsi ilə məni təxribata çəkməyə başladılar. Mən bu təhqir və təhdidlərin surətini çıxararaq istintaqa təqdim etmişəm. Bilirdim ki, Mikayıl bunu öz istəyi ilə etmir, o, kimlərinsə əlində alətdir.





Düşündüyüm kimi də oldu. Onu öyrədib üstümə göndərdilər. Dava etmək istəmədiyimi görüncə, özü üzərimə hücuma keçib, yumruq atıb aranı qarışdırdı.

Mən bu yola bütün məhrumiyyətləri gözə alaraq çıxmışam. Heç bir həbs və ya təzyiq, hətta ölüm qorxusu belə məni yolumdan döndərə bilməz. Hakimiyyətdəkilər öz rahat yataqlarında hər gecə səksəkə içində yatdıqları halda, mən Şüvəlan təcridxanasında daş kimi yataqda çox rahat yatıram. Çünki mən doğru yoldayam, mənim mübarizəm haqq, ədalət, hüquqi cəmiyyət mübarizəsidir. Çünki mənim arxamda AXCP ordusu, onun arxasında da xalq dayanıb. Biz bu ölkədə kimliyindən asılı olmadan hər kəsin qanun qarşısında bərabər olduğu bir cəmiyyət uğrunda mübarizə aparırıq və ona görə hədəfdəyik. Mənim həbsimi sifariş verənlər, Milli Təhlükəsizlik Nazirliyi (MTN) generallarının acı aqibətindən sonra, hər gecə qapılarının döyüləcəyini gözlədikləri halda, mən bu yolda AXCP sıralarında, liderim Əli Kərimli ilə çiyin-çiyinə sona qədər varam. Bütün istintaq və məhkəmə prosesi sübut etdi ki, bu həbs sifarişdir. İndi buyurun, hökmünüzü oxuyun. Bu başdan deyirəm, bəraətdən başqa bütün qərarları özümə qarşı qərəz, böhtan və sifariş hesab edəcəyəm.

Nərimanov Rayon Məhkəməsi,

Tarix: 14.03.2016

# SİYASİLƏR



## BAYRAM MƏMMƏDOVUN MƏHKƏMƏDƏ SON SÖZÜ[27]

Buradan həm də gənclərə səslənirəm: doğruluq, ədalət və bərabərlik uğrunda mübarizə aparın!

Vəliyev (hakimi nəzərdə tutur. red), siz ilk məhkəmə iclasında dediniz ki, sən burada əqidənə görə yox, verilmiş ittihamlara görə mühakimə olunursan. Amma hamı kimi, siz də yaxşı bilirsiniz ki, mən məhz Heydər Əliyevin heykəlinə "Qul bayramınız mübarək!" yazdığıma görə burdayam. Amma mənim bura düşməmək şansım da var idi.

*[27] Bayram Məmmədov 10 may 2016-cı ildə dostu Qiyas İbrahimovla birlikdə keçmiş Prezidenti Heydər Əliyevin Bakının mərkəzində olan heykəlinin postamentinin üzərində "Qul bayramınız mübarək" və "Fuck the System" ifadələri yazıb və anarxistlərə məxsus simvolika çəkilib. Mayın 10-da Azərbaycanda H.Əliyevin doğum günü ilə əlaqədar Gül Bayramı keçirilir. Bu yazılar həmin bayrama etiraz forması idi.*

*Bayram Məmmədov 10 may 2016-cı ildə saxlanılıb və ona qarşı Cinayət Məcəllesinin 234.4.1 və 234.4.3-cü (satış məqsədi ilə qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri əldə etmə və ya saxlama, hazırlama, istehsal etmə, emal etmə, daşıma, göndərmə, yaxud qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri satma, qabaqcadan əlbir olan bir qrup tərəfindən və külli miqdarda törədildikdə) maddələri ilə ittiham irəli sürülüb.*

*8 dekabr 2016-cı ildə Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə B.Məmmədov 10 il müddətində azadlıqdan məhrum edilib.*

*Prezidentin 16 mart 2019-cu il əfv sərəncamına əsasən azadlığa buraxılıb.*





Mən bundan sonra polislər haqqında adamlar ifadəsini işlədəcəyəm, amma bu adamlar dırnaq içində deyilmiş olacaq. Mənə dəfələrlə Heydər Əliyevin heykəlinin qarşısına gül qoyub, üzr istəmək, AZ TV-yə çıxmaq təklif olundu. Peşman olub, əfv diləməklə azadlığa çıxmaqdansa, həbsdə olmaq daha şərəflidir.

Özümü qətiyyən dustaq saymıram. Mən azadlıq aşiqiyəm. Bunların anormal vətən, vətənpərvərlik anlayışı var. Bunların vətən anlayışı ulu öndərləri Heydər Əliyev və layiqli davamçısı İlham Əliyevə münasibətlə ölçülür. Onları sevirsənsə, deməli, vətənpərvərsən. Qarşı çıxırsansa, deməli, xəyanətkarsan. Vətənə xəyanət edirsən. Sonra da telekanallarda məlum olur ki, sənin Qərb təşkilatları ilə əlaqələrin var, o təşkilatları da erməni lobbisi maliyyələşdirir. Əgər Vətən Heydər Əliyev Fondudursa, Heydər Əliyev adına Hava Limanıdırsa, Heydər Əliyev adına idman kompleksidirsə, Heydər Əliyev Mərkəzidirsə, Heydər Əliyev Muzeyidirsə, ucsuz-bucaqsız Heydər Əliyev prospektidirsə, Azərbaycanın bütün şəhər və rayonlarındakı saysız-hesabsız Heydər Əliyev parklarından ibarətdirsə, bəli, mən vətənə xəyanət edirəm və bununla fəxr edirəm. Məni vətənə xəyanətə görə də mühakimə edə bilərsiniz. Axmaqlar haradan bilsinlər ki, əsl vətənpərvərlik xalqı bu hakimiyyətdən qorumağa çalışmaqdır.

Mən birinci təklifdən imtina edəndən sonra başqa təkliflər gəlməyə başladı: "Cavan oğlansan, yaxşı maaşın, işin ola bilər..."

Əxlaqlı insanlar aldıqları yaxşı təhsildən başqalarını yağmalamaq, rüşvət almaq, zülm etmək məqsədilə istifadə etmirlər. Bilmirəm, bu

zalda rüşvət alan var, ya da yoxdur. Varsa da, Rəsul Rzanın bu iki misrasını demək istəyirəm:

**Sən də kişi qoymusan adını,**
**Rüşvət alıb, saxlayırsan arvadını.**

Azərbaycanda bu gün polislərin işi cinayətkarlığın qarşısını almaqdan ibarət deyil. Onlardan bu rejimin xalq üzərində hakimiyyətini qoruyub saxlamaq üçün istifadə olunur. Qiyası tutanlardan xəbərim yoxdur, amma məni tutanlar: "Ə, babamızın heykəlini yazan sənsən?", - deyə soruşurdular. Görəsən, onların nənələri necə həyat yaşayıb ki, babalarının kim olduğunu bilmirlər? Bizi həbs qorxutmur. Əsas odur ki, biz bütü dağıtdıq. Bu rejim devriləndən sonra çox adam o heykəllərin başına çox oyun gətirəcək. Sevindirici hal odur ki, bundan sonra 10 may təkcə Heydər Əliyevin doğum günü kimi yox, həm də onun heykəlinə "Qul bayramınız mübarək" yazıldığı gün kimi qeyd olunacaq. Heç nəyə peşman deyiləm. Əlimdə imkan olsaydı, yenə edərdim. Mən son sözümdə bunlardan əfv diləyən insan kimi yadda qalmaq istəmirəm. Gördüyünüz kimi, hakim son sözümə dözə bilmədi. Buradan həm də gənclərə səslənirəm: doğruluq, ədalət və bərabərlik uğrunda mübarizə aparın!

Bakı Ağır Cinayətlər Məhkəməsi
Tarix: 08.12.2016



# SİYASİLƏR



## FUAD QƏHRƏMANLININ MƏHKƏMƏDƏ SON SÖZÜ[28]

İlham Əliyev korrupsioner tiraniya yaratmaqla, fərqli düşünənləri öz hakimiyyətinə qarşı təhlükə görür. Hakimiyyət təlaş içindədir. Narkoman dozanı getdikcə artırdığı kimi, bunlar da cəzanı ağırlaşdırır.

Sabah 20 Yanvardır. Bu gün Azərbaycan tarixində böyük, ən şanlı salnamələrdən biridir. Biz bu günü həmişə belə xatırlayacağıq…

Bu gün narkotiklə şərlənən, terrorçu kimi qələmə verilən günahsız insanlarla gələcək nəsillər fəxr edəcək. Qürur duyacaqlar ki, məhz bu insanların sayəsində indiki hakimiyyətin iç üzü ifşa olunur. Altı aydı, bu proses gedir. Bu müddətdə bizi tək buraxmayanlara təşəkkür edirik. Vəkillərimizə təşəkkürümüzü bildiririk – peşə borcunu yerinə

[28] *2015-ci il noyabrın 26-da Bakının Nardaran qəsəbəsində "Müsəlman Birliyi" Hərəkatının sədri Taleh Bağırzadə və tərəfdarları ilə polis arasında ikisi polis, beşi sakin olmaqla 7 nəfərin ölümü ilə nəticələnən münaqişə baş verib.*

*F.Qəhrəmanlı Nardaran hadisələri ilə başlı "Facebook"da statuslar yazaraq fikirlərini bölüşüb və 8 dekabr 2015-ci ildə saxlanılıb. Ona qarşı Cinayət Məcəlləsinin CM-in*

*(hakimiyyət nümayəndəsinin qanuni tələblərinə fəal şəkildə tabe olmamağa və kütləvi iğtişaşlara, habelə vətəndaşlara qarşı zorakılıq etməyə çağırış etmə), 281.2 (hakimiyyətin zorla ələ keçirilməsinə, zorla saxlanılmasına və ya ölkənin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə və ya ərazi bütövlüyünün parçalanmasına*

yetirərək, öz həyatlarını təhlükə altına atıb bizi müdafiə etdiklərinə görə. Səfirliklərə minnətdarlığımızı bildiririk, məhkəməni izləyib, bu prosesdə yalanların ifşasının şahidi oldular. Əziyyət çəkib hər məhkəmə iclasına gələnlərə təşəkkür edirəm. Media nümayəndələrinə, siyasi partiya nümayəndələrinə, xüsusilə, AXCP sədri Əli Kərimli, Milli Şuranın sədri Cəmil Həsənliyə minnətdaram. Onların fədakarlığı nəticəsində bu hakimiyyətin insanları, xalqı aldatmaq planları baş tutmadı. Burada gördüm ki, Aqil İsmayılov danışanda anası tez-tez ağlayırdı. Bunu görmək məni çox incidirdi. Amma o göz yaşlarının arxasında həm də qürur hiss elədim. Onların oğulları bu zalım rejimin əməllərinə qarşı çıxdığına görə onunla qürur duyurdular. İnsanlar əvvəl çəkinirlər, qorxurlar, ağlayırlar, amma sonra qürur hissi duyurlar. Bu gün burada oğulları ilə fəxr eləyən analar var. İnsanları qorxu altında saxlayıb kölələşdirmək mümkün olmadı...

Biz niyə burdayıq? Biz ideyalarımıza, dəyərlərimizə görə burdayıq. Heç bir cinayətin törədilməsindən söhbət gedə bilməz. Ölkədə özbaşınalığa, korrupsiyanın dövlət siyasətinə çevrilməsinə, hakimiyyətin mənəvi deqradasiya, soyqırım siyasətinə qarşı çıxdığımıza görə burdayıq. İlham Əliyev korrupsioner tiraniya yaratmaqla, fərqli düşünənləri öz hakimiyyətinə qarşı təhlükə görür. Biz qorxduqca daha çox rejimin qurbanına çevriləcəyik. Bizi həbs eləməklə cəmi-

---

*yönələn açıq çağırışlar etmə, habelə bu cür məzmunlu materialları yayma) və 283.2.1-ci (milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınmasına, milli ləyaqətin alçaldılmasına, habelə milli, irqi və ya dini mənsubiyyətindən asılı olaraq vətəndaşların hüquqlarının məhdudlaşdırılmasına və ya üstünlüklərinin müəyyən edilməsinə yönələn hərəkətlər, zor tətbiq etməklə və ya zor tətbiq etmə hədəsi ilə törədildikdə) maddələrilə ittiham irəli sürülüb.*

*F.Qəhrəmanlı Bakı Ağır Cinayətlər Məhkəməsinin 25 yanvar 2017-ci il tarixli hökmü ilə təqsirli bilinərək 9 il müddətinə azadlıqdan məhrum edilib.*

*Prezidentin 16 mart 2019-cu il tarixli Əfv Sərəncamına əsasən azadlığa buraxılıb.*





yyətdə qorxu mühiti yaratmaq istəyirdilər, alınmadı. Hakimiyyət təlaş içindədir. Necə ki narkoman dozanı getdikcə artırır, bunlar da cəzanı ağırlaşdırır. Mənim qorxu hissim yoxdur.

Burada mühakimə olunan şəxslər ən ağır 21 maddə ilə ittiham olunurlar. Taleh Bağırzadəyə ömürlük həbs cəzası istənilib. Buna baxmayaraq, hakimiyyətin cəmiyyətdə yaratmaq istədiyi qorxu əks effekt verdi. Taleh Bağırzadəgil göstərdilər ki, qorxmaq lazım deyil, bunlardan da keçmək olar, mübarizə həyatımızdan üstündür.

Azərbaycanda elə bir məhkəmə olmayıb ki, bu qədər adam toplaşsın, gündəmi məşğul etsin, sosial şəbəkələrdə müzakirələrə səbəb olsun. Bu da onu göstərir ki, artıq xalq oyanış mərhələsindədir, adamlar ətraflarında olanlara reaksiya verirlər. Hakimiyyət heç nəyə nail olmadı, sadəcə gücə arxalanaraq bizlərə cəza verməyə hazırlaşır. Bizi hakimiyyətin qəddarlığı məyus edə bilməz. Elə ideyalar var ki, sabahın, dəyişikliyin bünövrəsini yaradır. Azərbaycan xalqının sabahı üçün biz qanımızdan, canımızdan keçməyə hazırıq. Bizim ideyalarımız da xalqa xidmət edir.

Bu gün Azərbaycanda ədalət olsaydı, gənc prokuror bizə ağır cəza istəyəndən sonra üzünü yana çevirmək məcburiyyətində qalmazdı, utanmazdı. Biz insanları utandıran rejimə qarşı çıxırıq ki, gənclər hakimiyyətin çirkin cinayətlərinin iştirakçısına çevrilməsinlər.

Mən dövlət əleyhinə çağırışlarda ittiham olunuram, amma bu haqda müdafiə nitqi söyləməyəcəyəm, çünki özümü qətiyyən təqsirli bilmirəm. Dövlətə və hakimiyyətə qarşı çağırışları fərqləndirə bilmirlər.

Bunlar özlərini dövlət sayırlar. Dövlət bizim üçün əzizdir. Çünki, məhz, Azərbaycan Xalq Cəbhəsinin səyləri nəticəsində Azərbaycan dövlətinin müstəqilliyi əldə olunub. Xalq Cəbhəsi bu dövlətə görə mübarizə aparanda bunlar küncdə-bucaqda kommunizm adı altında gizlənirdilər. Bunlar öz əməlləri ilə dövləti təhlükə altında qoyur, onun təməlini sarsıdırlar. Bu gün dövlətin büdcəsi talan olunub. İnsanların qanuna olan inamı itib. Dünyada Azərbaycanın nüfuzunu məhv ediblər. Ölkədə hüquq adına heç nə yoxdur, məhkəmələr alverxanadır. Azərbaycan Cinayət Məcəlləsində cəzanı yüngülləşdirən hallar var, amma reallıqda tətbiq olunmur. Azərbaycanda cəzanı yüngülləşdirən hal puldur. Həyasızcasına Azərbaycan iqtisadiyyatının analoqsuz inkişaf etdiyini deyirlər. Halbuki bu gün Ümumi Daxili Məhsul iki dəfə azalıb. İlham Əliyev deyir ki, biz o qədər inkişaf eləmişik, bizə deyirlər, bəlkə yavaşlayasınız. Hansı inkişafdan danışırsınız? Bu gün "regionların inkişafı" adı altında büdcədən milyardlarla pul ayrılır. Amma büdcə daxilolmalarında regionların payı, ümumilikdə, 300 milyon manatdan çox deyil. Budurmu inkişaf? Ölkəyə 150 milyard neft pulu gəldi, amma heç bir istehsal sahəsi inkişaf etdirilmədi. Hətta kartofun da 60 faizi xaricdən idxal olunur. Əgər ölkə özünü adi kartofla təmin edə bilmirsə, nədən danışırsınız? Bunlar elmi, texnologiyanı inkişaf etdirəcək?

Təhsil adı altında gənclərin mənəvi deqradasiyaya uğraması siyasəti yürüdülür. Buraxılış imtahanında şagirdlərin 50 faizi ana dilindən 2 alıb. Məktəbsiz, təhsilsiz xalqın gələcəyi necə olacaq? Hakimiyyətin istədiyi odur ki, təhsil məhv olsun, gənclər düşünə bilməsinlər, ətraflarında baş verənlərə biganə olsunlar.

Azərbaycanın səhiyyəsindən danışmağa dəyməz. Bunun üçün Azərbaycan-İran sərhədindəki xəstə növbəsinə baxmaq kifayətdir.





İmkansızlar müalicə üçün İrana, imkanlılar da Avropaya gedir.

Bu xalq sizə neyləyib ki, başına bu oyunları açırsınız? Bu, avtoritarizm də deyil, xalqla açıq düşmənçilikdir. Mən bunların sərvət eşqini başa düşürəm, amma bunu xalqla açıq düşmənçilik səviyyəsində eləmək olmaz, axı. Bütün bu sadaladıqlarımdan sonra kimdi cinayətkar?

Burada mənim 17 qardaşım terrorda, mən də onları müdafiə etməkdə günahlandırılırıq. Terror insanları qətlə yetirmək, cəmiyyətdə kütləvi qorxu yaratmaqdır. Adamlar bu gün polisin onları narkotiklə şərləməsindən, məhkəmələrin ədalətsizliyindən, mülkiyyətinin zorla əlindən alınmasından qorxurlar. Hər il sosial problemlər üzündən yüzlərlə insan intihar edir. Onları bu hakimiyyətin siyasəti qətlə yetirir. Bütün bunlar terror deyil, bəs nədir?

O adamlar bizim yaxınımız, qohumumuz olmasa da, bizi yandırır. Çünki bunlardan fərqli olaraq, bizim üçün təkcə öz qohumlarımız yox, hər bir azərbaycanlı əzizdir.

Nardaran məsələsi niyə ortaya çıxdı? Hakimiyyətin istəyi odur ki, dindar kəsim siyasi proseslərdən kənarda qalsın, ölkədə baş verən ictimai-siyasi hadisələrə biganə olsun. Amma qəfildən Hacı Taleh meydana çıxdı, inanclı kəsimə çatdırdı ki, dindarlıq təkcə namaz qılmaq deyil, əməlsiz namazın dəyəri yoxdur. İnanclı adam haqsızlıq, zülm qarşısında da susmamalıdır. Hakimiyyət bu qondarma əməliyyatı təşkil elədi ki, həm Hacı Taleh və ətrafındakılara "terrorçu" damğası vurub onları məhv eləsin, həm də Qərbə göstərmək istəyirdi ki, amandı, biz bu gün onları asıb-kəsməsək, sabah radikalları yığışdırmaq mümkün

olmayacaq. Həmin o Qərb ölkələrinin səfirlikləri məhkəmədə görd ki, bu adamlar tamamilə günahsızdırlar, onlar nə radikal dindardır, nə də terrorçu. Hamısı günahsızdır. Bu adamlarda nə qumbara olub, nə avtomat. Əslində, bu əməliyyat dövlət səviyyəsində həyata keçirilmiş terrordur. Təsəvvür edin, hansısa terror təşkilatı, məsələn, İŞİD müraciət edir ki, məni dövlət qeydiyyatına alın. Belə şey mümkündürmü? Müsəlman Birliyi Hərəkatı qeydiyyat üçün iki dəfə Ədliyyə Nazirliyinə müraciət edib. Deməli, bu adamlar qanuni fəaliyyət göstərmək istəyirlər. Hələ mən bu əməliyyatın qeyri-peşəkar hazırlanmasından danışmıram. Bura gələn polislərə bir-iki sual verdim, məlum oldu ki, onların, ümumiyyətlə, əməliyyatdan xəbəri yoxdur. Burada gəlib deyirlər ki, gedib Nardarana çatandan sonra içəri girməmiş 15 dəqiqə qapının ağzında gözlədik. Terrorçuların qapısının ağzında 15 dəqiqə gözləyərlərmi? Guya orada on nəfər polisə qumbara atılıb, onun da cəmi bir qəlpəsi bir polisin ayağına dəyib, dünyasını dəyişib. Birqəlpəli qumbara olur? Belə biabırçılıqla hələ hökm də çıxarılacaq. İnanclı insanlara qarşı dövlət səviyyəsində terror həyata keçir, sonra da multikulturalizmdən danış! Bunlar Qərbə xoxan göstərmək istəyirdilər, Qərb səfirlikləri burada həqiqəti gördü. Bunlar dindarları müxalifətdən ayrı görmək istəyirdilər, biz isə hətta qəfəsdə də bir yerdəyik. Ümidsiz olmaq lazım deyil. Həqiqət o qədər çılpaqdır ki, kimisə inandırmağa ehtiyac yoxdur. Bu gün nümunə yaratmağa ehtiyac var, Allaha şükür, o nümunələr də yaranır. Bizə baxıb kədərlənməyin, əksinə, ümidlənmək lazımdır, çünki bu qədər repressiyalara, mənəviyyatsızlıqlara baxmayaraq, hələ də şərəfli, xalqın azadlığı uğrunda həyatından keçən oğullar yetişir. Biz özümüzü şüurlu şəkildə Vətənə fəda demişik. Vətənpərvərlik təkcə torpaq uğrunda ölmək deyil. Bu gün ölkədəki korrupsiyaya, ədalətsizliyə, insanların hüquqsuzluğuna





qarşı mübarizə aparırsansa, bu da vətənpərvərlikdir. Çünki korrupsiya ölkəni içəridən dağıdır, ədalətsizlik vətəndaşlarımızı öldürür. Dinimizə görə zülmün qarşısını almağa çalışmayan da zülm eləyən qədər məsuliyyət daşıyır. Biz inamla bu mübarizə yoluna çıxmışıq. İnanırıq ki, xalqın haqq elədiyi azadlığı, demokratiyanı, rifahı ona verəcəyik. Biz ideyalarımızın əsgəriyik. Bizim ideyalarımız ümumbəşəridir. Bu ideyalar Azərbaycanda da gerçəkləşəcək və bunun qarşısını almaq mümkün olmayacaq. Gerici rejimlər bir-bir dünya səhnəsindən gedir.

Mən bu hakimiyyətin əməllərində, ancaq haramçılıq gördüm. Amma mən öz qanımı bunlara halal eləyirəm. Bacarırsınızsa, məni içəridə öldürün, qanım sizə halaldır. Yetər ki, ölümüm bizim demokratiya, azadlıq ideallarımıza xidmət eləsin.

Bakı Ağır Cinayətlər Məhkəməsi,
Tarix: 19. 01. 2017

# SİYASİLƏR



## ƏLİ İNSANOVUN MƏHKƏMƏDƏ SON SÖZÜ[29]

Olmayan cinayətə görə 8 il cəza istəyirlərmi? Siz kimə cəza istəyirsiniz? 13 il Heydər Əliyevlə çiyin-çiyinə işləmiş adama? Akademikə? YAP-ın qurucularından birinə? Bu zərərçəkmiş 35 gün harada müalicə olunub? Ən ağır xəstə də iki həftədən sonra sağalır. Bütün bunlarla bağlı heç bir sənəd təqdim eləmədilər. Əli İnsanovun evə getməyinə 56 gün qalmışdı. Onu ən ağır şəraitdə saxladılar. 11 ildir yaxınları ilə görüşmür. Saxlanıldığı müəssisənin rejim qaydalarına həmişə əməl eləyib. Əli İnsanova işgəncə verilməsi Avropa Məhkəməsinin qərarında da təsdiqini tapıb. Hadisə baş verdiyi iddia olunan vaxt cəzaçəkmə müəssisəsində 15 əməliyyatçı olub. O qədər adamın yanında Əli İnsanov özündən fiziki cəhətdən üstün olunan adama xəsarət yetirdi?

[29] *Əli İnsanov hakim Yeni Azərbaycan Partiyasının (YAP) qurucularından sayılır. O, 1993-cü ildən həbs edilənə qədər Azərbaycan Respublikasının Səhiyyə naziri vəzifəsində çalışıb.*

*Əli İnsanov 20 oktyabr 2005-ci ildə Cinayət Məcəlləsinin 179.3.2 (mənimsəmə və israf etmə külli miqdarda törədildikdə), 306.2 (məhkəmənin hökmünü, qərarını, yaxud digər aktını icra etməmə vəzifəli şəxs tərəfindən təkrar törədildikdə), 308.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə, yəni vəzifəli şəxsin xidməti vəzifələrinin icrası ilə əlaqədar özü və ya üçüncü şəxslər üçün qanunsuz üstünlük əldə etmək məqsədilə öz qulluq səlahiyyətlərindən qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə etməsi və ya qulluq mənafeyi tələb etdiyi halda istifadə etməməsi fiziki və hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə, yaxud cəmiyyətin və ya dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurduqda), 311.3.1 (rüşvət alma qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə), 311.3.2 (rüşvət alma təkrar törədildikdə), 311.3.3 (rüşvət alma külli miqdarda törədildikdə) və 313-cü (vəzifə saxtakarlığı, yəni vəzifəli şəxs tərəfindən rəsmi sənədlərə və ya informasiya resurslarına bilə-bilə yalan məlumatların daxil edilməsi, habelə göstərilən sənədlərdə və ya informasiya resurslarında onların həqiqi məzmununu təhrif edən düzəlişlərin edilməsi, bu əməllər tamah və ya sair şəxsi niyyətlərlə törədildikdə) maddələri ilə təqsirli bilinib.*

*20 aprel 2007-ci ildə Bakı Ağır Cinayətlər Məhkəməsinin qərarı ilə 11 il müddətinə azadlıqdan məhrum edilib.*

*Prezidentin 16 mart 2019-cu il tarixli Əfv Sərəncamına əsasən azadlığa buraxılıb.*





Əli İnsanovla birlikdə həbs olunanların hamısı azadlığa buraxıldı.

Dövlət ittihamçısına deyirəm ki, arxayın olsun. Burada baş verənlər, mənə istənilən cəza məndə heç bir isterika yaratmayacaq. Mən kiminsə ünvanına təhqir yağdırmayacam. Buna mənim tərbiyəm yol vermir. Bu yalanları bu cür pafosla necə deyirsiniz? Bununla hara gedirsiz? Bu baş verənləri özümə qarşı terror kimi qəbul edirəm. Bir akademikə qarşı terror bütün xalqa qarşı terror deməkdir. Guya mən haradasa narkotik tərkibli dərmanlar saxlamışam. Bu yalana göstəriş verənlər də elə bu işi düzüb-qoşan serjantın səviyyəsinə düşüb. Görün Azərbaycan nə gündədir. Biri tapşırır, biri qoyur, o biri də hüquqi don geyindirir. Hüquqi don geyindirən də elə həmin serjantın səviyyəsinə düşür. Bu böhtana kiminsə inanacağını düşünmürəm. Bütün bunlar izahı olmayan uydurmadır. Ən az demokratiya olan cəmiyyətlərdə belə, məhkəmə iclasları canlı yayımlanır. Mənim məhkəmələrimdə isə jurnalistlərə məhdudiyyət yaradılır. Məni və jurnalistləri Lenin muzeyinə çağırmamısınız ki...

Hörmətli prokuror, siz nəvələrinizlə söhbətdə gördüyünüz hansı işdən fəxrlə danışacaqsınız? Deyəcəksiniz ki, bir alimi, akademiki cib-

inə narkotik atdırıb məhv elədim? Prokuroru öyrədib bura göndərənlərə çatdırın ki, Əli İnsanovun dəmir barmaqlıqlar arxasında kədər heykəlinə dönməsini görməyəcəklər. Əli İnsanov mübarizə üçün doğulub. Bilin və agah olun, Əli İnsanov ölümlə rəqs edənlərdəndir...

2005-ci ildə qanunsuz olaraq, şərləyib, 11 il cəza verdilər. Azadlığa çıxmağıma az qalmış eyni prosesləri davam elədilər. Arzuları məhv eləmək olmaz. Mən bu yola kəfənlə çıxmışam. 11 ildə 107 məhkəməm olub, bu, 108-cidir. Bu məhkəmələrin birində də mənim xeyrimə qərar çıxarılmayıb. Bu "Ginnesin rekordlar kitabı"na düşəcək hadisədir. Mənim qaldığım 118 nəfərlik barakda hərəyə bir qəbirlik yer düşür. Oradan heç nə tapmadılar. Anbar kimi bir yerdə axtarış aparanda heç olmasa, məni çağıraydılar.

Müdafiə hüququm pozuldu. Məni çağıranda dedim vəkilim yoxdu, ifadə vermirəm. Çevrilib gedəndə rəis çağırdı. Anar Məmmədov da orada dayanmışdı, onda artıq cibi cırıq idi. Yazılmamış protokolu necə cıra bilərəm? Əgər protokol cırılmışdısa, niyə əl izlərimi götürmədilər? Əgər ekspertiza keçirilsəydi, istintaq ifşa olunacaqdı. Necə ola bilər ki, eyni vaxtda həm protokolu cırıram, həm Anar Məmmədovun po-

---

*Ə.İnsanovun cəza müddətinin bitməsinə 57 gün qalmış, 23 avqust 2016-cı ildə ona qarşı 3 maddə əsasında ittiham irəli sürülüb: Cinayət Məcəlləsinin 234.1 (satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə və ya saxlama), 315.2 (hakimiyyət nümayəndəsinə qarşı həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə) və 317-2.1 (cəzaçəkmə müəssisələrində və ya istintaq təcridxanalarında saxlanılan şəxs tərəfindən qadağan olunmuş əşyaların hazırlanması, saxlanılması, gəzdirilməsi, daşınması və ya istifadəsi) maddələri ilə ikinci ittiham irəli sürülüb. Ə.İnsanov ona qarşı qaldırılmış yeni cinayət işi üzrə Qaradağ Rayon Məhkəməsinin 26 aprel 2017-ci il tarixli hökmü ilə 7 il 5 gün müddətinə azadlıqdan məhrum edilib.*





qonunu cırıram, həm ona kəllə-beyin travması yetirirəm? Mən orada izahat vermədim, qoluma qandal vurub karsa saldılar? Məni aparanda Anar Məmmədov qapıda dayanıb gülürdü. Kəllə-beyin travması alıbsa, niyə başının tomoqrafiyası yoxdur? Bu həm gülməlidir, həm də əcaibdir. O ki qaldı dərmanlara, bu iş də tam quramadır, ortada heç nə yoxdur. Azərbaycanda bir akademikin cibinə narkotik atırlarsa, deməli, nazirlərin, nüfuzlu beynəlxalq qurumlarda işləyənlərin və başqalarının da cibinə narkotik atmaq çox asandır. Bununla heç kimi inandıra bilməzdiniz, çünki mənə uyğun gəlməyən ittihamlardır. İctimai fikirdən qorxu hissi Allahdan qorxu hissinə bərabərdir.

Mən lazım olan hər şeyi dedim. Xahiş edirəm, bu yalançı zərərçəkmiş və şahidlər barəsində xüsusi qərar çıxarasız. Zaman hər şeyi yoluna qoyacaq. Bu gün prokuror gülümsəyir. İlk dəfə məhkəməmdə prokuror Kamran Əliyev idi. O sonradan vəzifə aldı. Bu prokurora da vəzifə verəcəklər. Amma cənab hakim, sizə isə sadəcə, "çox sağ ol" deyəcəklər. Bu "sağ ol"un yükü isə ağır olacaq.

Mən çox şey bilirəm. Bunları qorxudan da mənim bildiklərimdir. Elə bilirlər bura 3-5 min adam yığacam. Amma mən heç qohumlarımı da gəlməyə qoymuram. Bu gün demokratik inqilab Azərbaycanın sərhədlərinə yaxınlaşmaqdadır. Əgər ədalət bərpa olunmasa, bu yanğın bütün Azərbaycanı bürüyəcək. Azərbaycanda vəziyyət heç vaxt bugünkü qədər ağır olmayıb.

---

Qaradağ Rayon Məhkəməsi,
Tarix: 26.04.2017

# SİYASİLƏR



## FUAD ƏHMƏDLİNİN MƏHKƏMƏDƏ SON SÖZÜ[30]

**Susmadım, savaşdım, şərləndim və girovam!**

Özümdən daha çox son aylarda "cənab hakim" və "cənab prokuror" titulları fonunda məhz sizin düşdüyünüz duruma acıyıram. Ən qatı düşmənimə belə, arzulamıram bu durumu. Vaxtilə millətimizin müstəqillik savaşına açıq düşmənçilik edən general Yazov, Şerbakov, Şaumyan, Əlikram Bayramov kimilər şanlı tariximizin arzuolunmaz və qaranlıq səhifələrində mənfi obrazlar olaraq səciyyələndirildiyi kimi, siz də tarixdə bu cür qalacaqsınız. Amma şəxsən mən, sifarişçi kim olursa olsun, sifariş nə olursa olsun, bu cür rəzil bir iş tutmağa razı

30 *AXCP Xətai Rayon Şöbəsi Gənclər Komitəsinin sədri olan F.Əhmədlini 18 avqust 2016-cı ildə Dövlət Təhlükəsizlik Xidmətinin (DTX) əməkdaşları saxlayıb, onun evində axtarış aparılıb. F.Əhmədlinin mənzilində axtarış zamanı Türkiyəli din xadimi Fətullah Gülənin çıxışlarının olduğu kitablar, CD-disklər tapılıb. DTX və Baş Prokurorluq F.Əhmədli "Azərfon" MMC-də çalışdığı müddətdə abonentlərin şəxsi məlumatlarını üçüncü şəxsə ötürülməsi barədə məlumat yaymışdır. Ona qarşı Cinayət Məcəlləsinin 302.1 (əməliyyat-axtarış fəaliyyəti haqqında qanunvericiliyi pozma) və 308.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə ittiham irəli sürülüb.*

*F.Əhmədli Bakı Ağır Cinayətlər Məhkəməsinin 16 iyun 2017-ci il tarixli hökmü ilə 4 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilib.*





olmazdım.

Kimsə mənə və ya ailəmə "Qəzan mübarək, bəy" tipli xitablar müraciət etməsin. Çünki mən qəzamı deyil, istiqlal davasının nisbətən çətin mərhələsini yaşadığımı düşünürəm. Mənim əsl qəzam Seymur Həzi, Taleh Bağırzadə, Gözəl Bayramlı, Faiq Əmirli, İlkin Rüstəmzadə, Fuad Qəhrəmanlı, Asif Yusifli, Məmməd İbrahim, İlqar Məmmədov, Bayram, Qiyas kimi cəsur insanlar əsir götürülərkən yaşanıb. Bu dəfə isə olsa-olsa, qarşı düşərgənin çılpaqcasına qorxu nümayişindən daha artıq deyil.

Kiçik tədbirlərdə və virtualda üzrlü səbəbdən gec-gec görünəcəyimi nəzərə almasaq, əmin ola bilərsiniz ki, yanınızdayam. Hədəfimiz də, səngərimiz də, mübarizə yolumuz da, məqsədimiz də birdir, dəyişməzdir. Bir Fuad gedər, yerinə mini gələr. Yaşasın hürriyyət aşiqləri! Yaşasın istiqlaliyyət davamız! Yaşasın doğma respublikamız - Azərbaycan!

Bakı Ağır Cinayətlər Məhkəməsi,
Tarix: 16.06. 2017

# SİYASİLƏR



## GÖZƏL BAYRAMLININ MƏHKƏMƏDƏ SON SÖZÜ[31]

İlk gündən mənə dəstək verənlərə, məhkəmələrdə iştirak edənlərə təşəkkürümü bildirirəm. Siyasi partiya fəallarına, vətəndaş cəmiyyətinin nümayəndələrinə, müstəqil mediaya, vəkillərimə təşəkkür edirəm. Sağ olsunlar, həqiqətin yanında oldular...

Bu gün məhkəmə-hüquq sistemi adına qara ləkə olan, siyasi sifariş yerinə yetirən daha bir prosesə şahidlik edirsiniz. Məni ittiham eləyən tərəf xirtdəyə qədər korrupsiyanın, rüşvətin içində olan, oğru, kriminal, cinayətkar bir rejimdir. İttiham olunan isə bu oğru, avtoritar rejimin cinayətkar mahiyyətini qorxmadan ifşa edən, onun üzünə deyən, daim bu haqda yazan, insanları məlumatlandıran daha bir siyasi fəaldır, daha bir mübarizə insanıdır. Heç nə dəyişməyib...

---

[31] *Gözəl Bayramlı Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədr müavinidir.*

*25 may 2017-ci ildə Gürcüstandan qayıdan G.Bayramlı sərhəddə saxlanılaraq həbs edilib və ölkəyə bəyan edilmədən 12 min ABŞ dolları keçirməklə qaçaqmalçılıq etməkdə ittiham olunub.*

*G.Bayramlı məhkəmədə deyib ki, həmin pulu hüquq-mühafizə əməkdaşları özləri onun əşyaları arasına atıblar, onun həbsi siyasi xarakter daşıyır. O, Gürcüstana müalicə məqsədilə getdiyini, son iki ildə Gürcüstanda dörd dəfə əməliyyat olunduğunu bildirib.*

*23 yanvar 2018-ci ildə Qazax Rayon Məhkəməsinin hökmü ilə G.Bayramlı Cinayət Məcəlləsinin 206.1-ci (qaçaqmalçılıq, yəni Azərbaycan Respublikasının gömrük sərhədindən gömrük nəzarətindən kənar və ya ondan gizli, yaxud sənədlərdən və ya gömrük eyniləşdirilməsi vasitələrindən aldatma yolu ilə istifadə etməklə, yaxud bəyan etməməklə və ya düzgün bəyan etməməklə bu Məcəllənin 206.2-ci maddəsində qeyd edilənlər istisna olmaqla malların və digər əşyaların külli miqdarda keçirilməsi) maddəsində nəzərdə tutulan əməlin törədilməsində təqsirli bilinərək 3 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilib.*

*Prezidentin 16 mart 2019-cu il tarixli Əfv Sərəncamına əsasən azadlığa buraxılıb.*





Dövlət ittihamçısından bundan artıq çıxış gözləmirdim. Bir ölkədə ki hüquq-məhkəmə sistemi kriminal Azərbaycan hakimiyyətinin əlində cəza mexanizminə çevrilib, mən nə gözləyəcəyəm?

Mən törətmədiyim bir əməldə – qaçaqmalçılıqda ittiham olunuram. Guya mən Gürcüstandan Azərbaycana 12 min dollar pul gətirmişəm və bunu gömrükdə bəyan eləməmişəm. Tam absurd məsələdir. Gürcüstanda izlənildiyini istintaqa bildirən, Eynulla Fətullayevin öz saytında mənim barəmdə yazdıqlarını görəndən sonra mən, hansı məntiqlə Azərbaycana pul gətirərdim? Bu absurd, heç olmasa, özləri özlərini inandıra bilirlərmi? Yəni tamamilə yalan, böhtandır.

Bu ölkədə 160 nəfərdən çox siyasi məhbus var. Bu zalda elə insanlar var ki, onlar da siyasi məhbus həyatı yaşayıblar. Hətta eləələri var ki, bir neçə dəfə... Bütün dünya da bilir ki, onlar siyasi fəaliyyətlərinə görə həbs olunublar, onların cinayət törətdiyini sübut etmək mümkün olmayıb. Bu gün mən də onlardan biriyəm.

Mən 2014-cü ilin oktyabrından dəfələrlə müalicə məqsədi ilə Gürcüstanda olmuşam. Üç dəfə orada ağır əməliyyat keçirmişəm, daim həkim nəzarətindəyəm. Hər 3-4 aydan bir həkim müayinəsindən keçməliyəm. Azərbaycan səhiyyəsinin durumunu da hamınız bilirsiniz. Azərbaycanın milyonlarla insanı ən adi müayinələrə görə İrana, Türkiyəyə, Gürcüstana və digər xarici ölkələrə getmək məcburiyyətində qalırlar. Bir ölkədə ki dövlət başçısı, nazirlər müayinə və müalicə üçün xaricə gedirlər, özləri də Azərbaycan səhiyyəsinə etibar eləmirlər, daha nə danışasan? Sonuncu səfərim mayın 24-də olub. Bir gün yarımlıq səfər idi. Ayın 24-də səhər gedib, həkim müayinəsindən keçmişəm, qalan müayinələr 25-də olub. Dərmanlarımı alıb geri qayıdarkən "İkinci Şıxlı" sərhəd-nəzarət məntəqəsində Dövlət Sərhəd Xidmətinin rəisi, general Elçin Quliyevin qohumları tərəfindən mənim ayaqqabılarım olan sellofan torbaya o pul atılıb.

Dövlət ittihamçısı deyir ki, guya özümü müdafiə məqsədi ilə inkar etmişəm, torbaya pulun atıldığını demişəm. Mənim özümü müdafiə eləməyimə ehtiyac yoxdur. Azərbaycan xalqı məni də tanıyır, 48 milyardı ölkədən çıxarıb ofşor zonalara daşıyan dövlət başçısını da, onun ailəsini də. Həmçinin 95 milyardı ölkədən oğurlayan digər məmurları da..."

**Hakim:** İttihamda yazılanlar haqda danışın.





**G.Bayramlı:** Elçin Quliyev cavab versin, o pulu kimdən rüşvət alıb? Nə ittiham? İttihamın mahiyyəti 12 min dollardır. 12 min dollara görə cavabdeh Elçin Quliyevdir. O gəlib cavab verməlidir ki, həmin pulu haradan alıb atıb mənim torbama? Mənim son sözümü kəsə bilməzsiniz. Mən siyasi məhbusam, onu əsaslandırıram.

Mənə irəli sürülən ittiham siyasidir. Mən o ittihamı qəbul eləmirəm. İlk gündən də qəbul eləməmişəm. Təəssüf ki, siz hakim olaraq, məhkəmədə həqiqətin üzə çıxmasına şərait yaratmadınız. Verdiyimiz bir vəsatət də təmin olunmadı. Bütün bunlar siyasi sifarişin olduğunu göstərmirmi? Siyasi sifarişlə məni həbs elətdirənlər, siyasi ittihamı mənə qarşı irəli sürənlər haqqında danışmağımdan niyə narahat olursunuz? Mən siyasi məhbusam, çıxışımın mətni də siyasi olmalıdır. DSX-nın rəisi Elçin Quliyevi çağırın, desin görək, mənim çantama atdıqları 12 min dolları kimdən rüşvət alıb seyfdə saxlamışdı? Siz niyə maraqlı olmadınız ki, pulun ekspertizası keçirilsin? Niyə mənim əl-barmaq izlərim götürülmədi? Dövlət ittihamçısı bəhanə elə- di ki, pulun üzərində başqa adamların da əl izləri ola bilər. Əlbəttə, başqa adamların var, mənim əl izim yoxdur. Hörmətli hakim, siz də bütün bunların araşdırılmasında maraqlı olmadınız. Ona görə də xahiş edirəm, mənim sözümü kəsməyin. Məhkəmədə çıxış eləmək, son sözü demək mənim hüququmdur, heç kim buna müdaxilə edə bilməz.

Bu, Qazaxda mənimlə bağlı yeddinci məhkəmə iclasıdır. Azərbaycan hakimiyyəti çox narahatdır. Qazaxda da bu narahatlıq müşahidə

olunur. Polisin, rayonun digər güc strukturlarının hərəkətə gətirilməsi də bunu göstərir. Adi bir qaçaqmalçılıq cinayətinə görə hakimiyyətin bu qədər narahatlığı absurd olardı. Məni qatarla Bakıdan- istintaq təcridxanasından Qazaxa gətirəndə üç dəqiqə dayanılan stansiyalarda belə, polis postu qurulur. Çoxlu sayda polis əməkdaşları cəlb olunur ki, birdən Gözəl xanıma görə aksiya keçirilər. Buradan da görünür ki, həbsim siyasidir.

Azərbaycanda 160 nəfərdən çox siyasi məhbus var. Onların bir günahı var: Azərbaycan hakimiyyətini tənqid ediblər, hakimiyyətdən hesab sorublar ki, niyə ölkəyə gələn neft pullarından sadə camaata bir qara qəpik də çatmadı? Onlar hakimiyyətdən o hesabı sorublar ki, niyə 2005-2015-ci illərdə 95 milyard pul oğurlanaraq ölkədən çıxarılıb, xarici banklara qoyulub? Niyə 48 milyardı dövlət başçısı və ailəsi ofşor hesablara yerləşdirib? Niyə müxtəlif korrupsiya layihələrinə, gərəksiz yarışlara milyardlar xərcləndiyi halda, 17 min tələbə təhsil haqqını ödəyə bilmədiyinə görə təhsildən kənarda qalmağa məcbur olub? Bu gün intiharlar adi hala, statistikaya çevrilib. Hər il 400-500 nəfər özünə qəsd edir. Niyə bunun kökü araşdırılmır? Niyə bu ölkənin 4 milyona yaxın insanı bir tikə çörək üçün ailəsindən, vətənindən uzaqdadır? Niyə bu ölkənin 2,5 milyon əhalisi yüksək faizli kreditlərin əsirinə çevrilib? Kimlərindir bu banklar? Dövlət başçısının ailə üzvlərinin və digər dövlət məmurlarının.





Analoqu olmayan iqtisadi inkişafdan, sosial vəziyyətdən danışırlar. Bir gündə dörd nəfər intihar edib. Budurmu Azərbaycan hakimiyyətinin analoqu olmayan sosial-iqtisadi inkişaf siyasətinin nəticəsi? Qarabağ uğurlarından danışırlar. Əliyevlərin hakimiyyətdə olduğu 24 ildə bir qarış torpaq da işğaldan azad olunmayıb...

Siz imkan verməyəcəksiniz, mən sözümü deyim? Mən ittihamı qəbul eləmirəm. O ittiham da, prokurorun çıxışı da mənə vız gəlir. Tamamilə qondarma ittihamdır, mənim siyasi fəaliyyətimə görədir. Mən ömrümün 30 ilini bu ölkənin azadlığı, demokratiya uğrunda mübarizəyə həsr eləmişəm. Eşitmişəm ki, 20 Yanvar günü Əli Kərimli başda olmaqla, müxalifətin kolonunu Şəhidlər Xiyabanına buraxmaq istəmirlərmiş. Bəlkə demək istəyirlər ki, 20 Yanvar şanlı tarixini də YAP rejimi yazıb? Bu gün 20 Yanvar şəhidlərini ziyarətə gedənlər ölkənin azadlığı uğrunda mübarizədə çiyin-çiyinə olmuş insanlardır. Hansı haqla onları Şəhidlər Xiyabanına buraxmırlar? Budur Əliyev rejiminin apardığı siyasət...

Əgər mən siyasi sifarişlə şərlənib həbs olunmuşamsa, ittihamın mahiyyətindən necə danışım? Elçin Quliyevin üç qohumunun əli ilə icra olunan sifariş... Mən "İkinci Şıxlı" sərhəd-nəzarət məntəqəsinə daxil olanda Elmar Yusifov adlı biri gəlir. Bundan sonra bir nəfəri – Anar Hüseynəliyevi dəvət edirlər, o gəlir. Hər ikisi də Elçin Quliyevin qohumu... Bu, necə təsadüfdür? Sonradan Tovuz Gömrük İdarəsindən Həsən Mahmudov adlı birini çağırılar, o da əslən Naxçıvandandır.

Bir bölgəni ittiham eləmək, onların milli-azadlıq hərəkatındakı roluna xələl gətirmək istəmirəm. Sadəcə hakimiyyətin ailə, klan, qudalar hakimiyyəti olduğunu demək istəyirəm. Görün, bizi kimlər idarə edir?

Elçin Quliyevin ifadəsi, şər-böhtanı nə vaxtdan sübut hesab olunur? Niyə bir yoxlamadınız, o pulun mənə aidiyyəti olub-olmadığını niyə araşdırmadınız? Mən pul gətirsəydim, bunu niyə gömrüyə bəyan etməyim ki? Məgər bu ölkənin qanunlarını bilmirəm? Öz dediyinizi öz qulağınız duyur?

Bu, nə birincidir, nə də sonuncu. Azərbaycanda demokratiyanın, ədalətin bərqərar olması, azad, demokratik cəmiyyətin formalaşması, qanunların aliliyinin təmin olunması, müstəqil məhkəmə sisteminin, azad mətbuatın mövcudluğu bizim əsas istəyimizdir və bunun üçün mübarizəmiz də davam edir. Azərbaycan hakimiyyətini də buna görə tənqid edirik. Amma hakimiyyət bu rəzalətləri aradan qaldırmaq əvəzinə onu tənqid edənləri həbs edir, hədələyir. Bu ölkədə insanların sərbəst toplaşmaq hüququna belə, müdaxilə olunur. Razılaşdırılmış mitinqdə iştirak edən insanları belə, kütləvi şəkildə polis idarələrinə çağırıb hədələyirlər.

2018-ci il də Cümhuriyyətimizin 100 illiyidir. O Cümhuriyyət ki Məhəmməd Əmin Rəsulzadə başda olmaqla, qurucu babalarımız onu bizə miras qoyub gedib. 70 İllik sovet imperiyasının caynağından qurtulub, Əbülfəz Elçibəyin başçılığı ilə biz ikinci dəfə Azərbaycanın müstəqilliyinə nail olduq. 100 İllik Respublika ənənəsi olan Azərbaycanı görün, bu gün hansı vəziyyətə salıblar? İnsan hüquq və azadlıqlarının durumuna görə dünyada ən axırıncı yerlərdən birini tutur, Afrika ölkələri ilə müqayisə olunur. Təsəvvür edin, Cibuti müxalifəti öz prezidentini tənqid edəndə deyir: “Cibutini Azərbaycanın gününə salmısınız”.

Təsəvvür edirsiniz, bu, nə deməkdir?

70 illik imperiyadan azad olan Azərbaycan xalqı əminəm ki, korrupsioner Əliyev rejimindən də xilas ola bilər. Bəli, mən razıyam ki, bu gün azadlıqların önündə ən böyük sədd Əliyevlər hakimiyyətidir. Azərbaycan xalqı necə ki 88-ci ildə qalib gəldi, Əliyev rejiminə də qalib gələcək...

*Hakim bu yerdə Gözəl Bayramlının sözünü kəsərək, məhkəmə zalını tərk edir.*

Qazax Rayon Məhkəməsi,

Tarix: 24.01.2018

# SİYASİLƏR




## ORXAN BAXIŞLININ MƏHKƏMƏDƏ SON SÖZÜ[32]

Möhtərəm hakim, ilk növbədə mənə söz verdiyiniz üçün təşəkkür edirəm. Bu gün burda tariximizin şanlı səhifəsi yazılacaq. Xeyirlə şərin mübarizəsi gedir. Bu zal, 4 divar, sizlər və zalda əyləşən hər kəs bu tarixi məhkəmə prosesinin şanlı şahidi olurlar. Sizin kimi vicdanlı, ədalətli hakim heyəti çətin də olsa, ədalətli qərar verməlidir. Sizdən və zalda əyləşən hər kəsdən xahiş edirəm ki, qəlbimin səsinə qulaq asasınız. Qayəsiz, məqsədsiz keçən bir insan ömrü mənə heç bir heyvan həyatından fərqli görünmür. Mənə elə gəlir ki, bəşər tarixində qəhrəmanları yetirən ancaq uca, saf bir məqsədə olan meyl, proqressiv bir ideyaya olan məhəbbət, dərin, nəcib bir arzuya doğru bir

[32] *Gənc fəal 2011-ci ildən AXCP Gənclər Komitəsinin üzvüdür, partiyanın gənclər komitəsinin fəaliyyətində, tədbirlərin və mitinqlərin təşkilində ən fəal iştirak edən gənclərdən biridir. Bu səbəblərə görə o, dəfələrlə polisə çağırılıb, xəbərdarlıq edilib, cərimələnib və inzibati həbslə cəzalandırılıb.*

*O. Baxışlı 6 may 2018-ci ildə axşam radələrində Elmlər Akademiyasının qarşısındakı bağda mülki geyimli şəxslər tərəfindən saxlanılıb, bir gün onun hara aparıldığı və harada saxlandığı barədə məlumat əldə etmək mümkün olmayıb. Daha sonra bəlli olub ki, gənc fəal, Yasamal Rayon Polis İdarəsinə aparılıb və ona qarşı Cinayət Məcəlləsinin 234.4.3.-cü (qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını hazırlama, saxlama, daşıma, göndərmə və ya satma- külli miqdarda törədildikdə) maddəsi ilə ittiham irəli sürülüb.*

*18 sentyabr 2018-ci ildə Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə təqsirli bilinərək 6 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilib.*





çırpınışdır. Bunsuz insan heç vaxt özünü qurban verə bilməz, həyatından keçə bilməz. Bir ideya, bir eşq, bir arzu yolunda ölümə gedən qəhrəmanlarsız isə həyat dadsız və yeknəsəq olardı. Eşq olsun ideala! Eşq olsun məhəbbət və arzulara! Qəhrəmanları yetişdirən onlardır. Eşq olsun qəhrəmanlara! Yalnız onlar həyata gözəllik gətirirlər. Biz bir şam kimi yanmışıq, halbuki günəş kimi alovlanmaq mümkün idi. Gəncliyimiz mübarizələrdə çırpınmaqla keçir. Bununla fəxr edirəm və yaxşı ki bu məmləkətdə, Azərbaycanda dünyaya gəlmişəm. Ana vətənimizi canımızdan çox sevdiyimiz üçün burdayıq. Bu şanlı mübarizəyə, zərrə qədər də olsa, xeyrim dəyibsə, dünyanın xoşbəxti olaram. Gəncliyimiz, ömrümüz vətənimizi, gələcək nəsilləri azad günə, azad həyata, azadlıq və məhəbbətin sevincini hiss etmək üçün hazırlamaqla keçir. Bizlər bir sirri gizləyib ədalətə ziyan yetirməkdənsə ədalət naminə özümüzün ziyan çəkməyimizi üstün tuturuq. Biz başımızın üstündəki mavi göylərə, parlaq ulduzlara belə, doyunca baxmağa fürsət tapmadıq. Hər zaman insanların yaxşı yaşaması üçün onların qəlbində kiçik bir ümid və sevinc yaratmaq üçün mübarizə aparırıq. Məni bu yola çəkən nə şöhrət, nə mənsəb, nə də var-dövlət həvəsi oldu. Həyat özü məni bu yola atıb. Mən yüz minlərlə özüm kimilərini sıxan, əzən və məhv edən ana vətənimizin zəncirlərini qırmağa cəhd etmişəm. Bəlkə də, gələcək nəsillər mənim yaxşı vuruşa bilmədiyimi deyəcəklər. Lakin onlar heç bir zaman məni natəmiz fikirlər və hərəkətlərdə ittiham etməyəcəklər. Onlar qəlbimin pak arzularının ətrini duymaya bilməzlər. Duyacaqlar! Çünki hər şeyi çürüdən zaman uca fikirləri çürütməkdə acizdir. Bir canlı susuz yaşaya bilmədiyi kimi mən də bu mübarizəsiz yaşaya bilmərəm. Artıq istənilər bir güc, azadlıq alovu ilə alışıb yanmaqda olan qəlbi öldürməkdə acizdir. Dünya xoşbəxtlik cəmiyyəti xoşbəxtliyə iki yol müəyyən etmişdir. Bunlar

xalqa xidmət etmək və insanlara məhəbbətlə yanaşmaqdadır. Biz narkoman, antimilli ünsür, narkobaron, radikal deyilik. Biz sivil şəkildə demokratiya uğrunda mübarizə aparırıq. Biz xalqa xidmət etməyi, insanlara məhəbbətlə yanaşmağı seçib bunu həyata keçirtmək üçün mübarizə aparırıq. Anamızı bu ağır vəziyyətdən qurtarıb yenidən çiçəklənməsi üçün bu yolda ölümün, həbsin üzünə belə gülə-gülə gedirik. 2014-cü ildən böyük AXCP ailəsinin bir üzvüyəm. Bizim yolumuz məşəqqət- li yol olduğu qədər də şərəfli yoldur. Bu yolu tapdığıma, bu yolda irəlilədiyimə görə xoşbəxtəm. Digər şəxslər kimi mən də hər zaman polis əməkdaşlarının psixoloji təzyiqlərinə məruz qalmışam. Əmilərimə, atama dəfələrlə polis əməkdaşları zənd edərək, mənim bu yoldan çəkilməyim üçün söhbətlər aparıblar. Anamı mənim fəaliyyətimə görə TN-in rəsmi orqanı olan "Təhsil" jurnalında işdən azad ediblər. Sonuncu dəfə həbs ediləcəyim haqda atama keçən il sentyabrın 8-də məlumat verib bunun sonuncu xəbərdarlıq olduğunu bildiriblər. Hətta Cəlilabad Rayon Polis İdarəsinin rəisi də atamı qəbul edib bu haqda məlumat vermişdi. Bununla əlaqədar olaraq azadliq.info saytında da məlumat dərc olunub. Daha sonra bu yolda olduğum üçün sevdiyim xanımın ailəsi də məni seçim qarşısında qoydu. Bu yoluma görə ondan da ayrılmalı oldum. Bu məhrumiyyətləri dəf etdikcə daha da mətinləşib daha enerjili mübarizə aparırdım. Lakin mübarizədən geri çəkilmədim. Bu gün burda olmağım qalib gəldiyimin sübutudur. Gəncliyə qarşı mübarizə aparanlar məğlubiyyətə məhkumdur. İnşallah, bu sınaqlardan üzüağ çıxmağa çalışacağam. Bu səhifə həyatımda yeni bir başlanğıcdır. Bu səhifədə ilk yazımı əqidəli yazdığım kimi, bu səhifədə son nöqtəni də əqidəli şəxs kimi atmağa çalışacağam. Ağ vərəqə qara ləkənin düşməsinə imkan verməyəcəyəm. İnşallah, "yıxılmadım, ayaqdayam" demək qismətim olar.





Möhtərəm hakim, məni həbs edən şəxslər, bu həbsi sifariş edən şəxslər mənəvi cəhətcə qul edildiyi halda, biz yalnız cismən qul edilmişik. Onlar yanlış əqidə və adətlərin əsarətindən əl çəkə bilməzlər. Bu əsarət onların ruhunu öldürmüşdür. Bizlərin isə daxili azadlığına mane olacaq heç bir şey yoxdur! Bədbəxtlik üzərində xoşbəxtlik əldə etmək istəyənlər də insanlığını çoxdan itirmiş şəxslərdir. Mən onları bağışlayıram və Allahdan da bağışlanmalarını diləyirəm. Tarix isə xəyanətkarları əsla bağışlamır. Möhtərəm hakim! Qarabağı azad etmədən, Şahbazla Dilqəmi və digər əsirlərimizi əsirlikdən azad etmədən erməniləri vətənə gətirmək, onların bu müqəddəs torpaqlara qədəm basmaları şəhid ruhunu, xalqı təhqir etmək deyilmi? Mən bir gənc olaraq, şəhid məzarına baxa bilmirəm. Vicdanım sızıldayır. Axı, onların sual dolu baxışlarına nə cavab verim? Vətən azad olmayınca ulu öndər M.Ə.Rəsulzadənin, ümummilli lider Ə.Elçibəyin, şəhidlərimizin, demokratiya şəhidlərimizin, bacım Nərgiz Yaqublunun, əmim Həsən Kərimovun, qardaşım Mübariz İbrahimovun ruhları şad olmayınca mübarizəmdən dönsəm, ana vətənimizin suyu, çörəyi, havası mənə haram olsun. Balıqçı balıq tutanda duzlu su sıçrantılarına dözdüyü kimi biz də azadlıq naminə bu məhrumiyyətlərə dözməliyik. Döyüşdə qalib gəlməmişdən öncə qorxuya qalib gəlməliyik. Bunu da biz bacarmışıq. Deməli, biz qalib gələcəyik. İnşallah, vətənimizin üzündən qara buludlar çəkiləcək, qaranlıq gecələr gəlib keçəcəkdir. Biz qalib gələcəyik. Ədalət mütləq zəfər çalacaqdır. Lakin bunun baş tutması üçün daha artıq səylə, əzmlə Milli Şuraya dayaq olmaqdan başqa yol yoxdur. Qalib gəldiyimiz zaman bu gün bizi boğan əllər yoldaşlıqla bizim əlimizi sıxacaqdır. Ulu öndər M.Ə.Rəsulzadənin, Cümhuriyyət banilərinin, Əbülfəz Elçibəyin, şəhidlərimizin, demokratiya şəhidlərinin ruhları həmin zaman şad olacaqdır. Onda bu dərdləri

də unudarıq. Qarabağımızı da, məhz, o gün azad edə biləcəyik. Ən ədalətli qərarı zaman ver- ir. Günahsız yerə həbs olunmuş G.Bayramlı, F.Qəhrəmanlı, Seymur Həzi, Asif Yusifli, Hacı Taleh, F.Əhmədli, Qiyas, İlkin, M.Hüseynov və digər şəxsiyyətlərlə birlikdə olmağımla qürur duyuram. Şərlənərək həbs olunmuş şəxslərin və mənim barəmdə də ədalətli qərarı zaman verəcəkdir. Valideynlərdən tək xahişim budur ki, övladlarının haqq uğrunda mübarizə aparmalarına qadağalar qoymasınlar. Ümumən, hər kəsə səslənirəm: haqq uğrunda mübarizə aparıb adınızı şanlı tarixi- mizə həkk etdirməyə tələsin! Şanlı tariximizə qəhrəman ailə tablosu yaradaraq həkk olunmuş Yaqublular, Əhmədlilər, İbrahimovlar, Qəhrəmanlılar ailələri kimi sizlər də qəhrəman ailə tablolarına ailənizlə birlikdə daxil olun. Yer üzündə ancaq gerçək bir güc vardır: düzgünlüyün qulluğunda dayanan vicdan.

Bircə ulu ad-san vardır: doğruluğun qulluğunda dayanan uzaqgörənlik. Bu mənim həyatımda yeni bir səhifədir. Doğruluq taxtının hakimləri, çətin də olsa, bu uzaqgörənliyinizdən irəli gəlib həmin səhifəyə layiq olduğum qiyməti, vicdanlı qərarı verməyinizi istəyirəm. İndi isə özümü ədalət mühakiməsinin ixtiyarına buraxıram. Qulaq asdığınız üçün təşəkkür edirəm.

Bakı Ağır Cinayətlər Məhkəməsi,
Tarix: 18.09. 2018



# İNANCLI MƏHBUSLAR



## TALEH BAĞIRZADƏNİN MƏHKƏMƏDƏ SON SÖZÜ[33]

Mən dəfələrlə şərlənib həbs edilmişəm, hamısında da bir-iki maddə Mən dəfələrlə şərlənib həbs edilmişəm, hamısında da bir-iki maddə verilib, ancaq indi 21 maddə ilə ittiham verdikləri üçün hər şeydən danışacağam.

Fuad Qəhrəmanlının həbsi bizim xeyrimizə oldu

Nardaran hadisəsi Azərbaycanın şərəfli tarixini yazıb. Qarşı tərəf üçün bu, ləkədir, amma bizim üçün şərəfdir. Siz mənim cismimi həbs

33 *"Müsəlman Birliyi" Hərəkatının sədri Taleh Bağırzadə 26 noyabr 2015-ci ildə Nardaran hadisələri zamanı saxlanılıb. Ona qarşı Cinayət Məcəllәsinin CM-in 120.2.1 (qəsdən adam öldürmə, yeni digər şəxsi qəsdən həyatdan məhrumetmə, bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (təşkilat) tərəfindən), 120.2.3 (zərərçəkmiş şəxsin xidməti vəzifəsini və ya ictimai borcunu yerinə yetirməsi ilə əlaqədar onun özünü və ya yaxın qohumlarını öldürmə), 120.2.4 (xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla adam öldürmə), 120.2.7 (iki və ya daha çox şəxsi öldürmə), 120.2.12 (milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə adam öldürmə), 29, 120.2.1 (cinayət törətməyə cəhd, qəsdən adam öldürmə, yeni digər şəxsi qəsdən həyatdan məhrum etmə, bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (təşkilat) tərəfindən), 29, 120.2.3 (cinayət törətməyə cəhd, zərərçəkmiş şəxsin*

etmisiniz. Mənə işgəncə veriləndə mən mənəvi həzz alırdım. Allah özü mənə ilham verdi. Mən hələ 2013-cü ildə həbs olunanda, Qobustan həbsxanasında Zümrüd xanımın yazılarını, Fuad Qəhrəmanlının çıxışlarını oxuyanda bu ailə ilə tanış olmaq istəyirdim. İş elə gətirdi ki, tanış oldum. Fuad Qəhrəmanlı bizə görə həbs edildi. Nə qədər düşünürəmsə, onun həbsinə bir məntiq verə bilmirəm. Bu, Allahın işidir. Fuad Qəhrəmanlının həbsi bizim nə qədər xeyrimizə oldu. Allah o ailəni Nardaran hadisələrində yardımçı kimi göndərib. Mən özümə 32 yaşımda bacı tapmışam: Zümrüd Yağmuru. Mən cəsarətli qadınlara "kişi kimi qadın" deyilməsinin əleyhinəyəm. Elə "qadın kimi qadın". Elə qadınlarımız var ki, kişilərə dərs keçər.

Mən tək-tük hallarda bəddua edərəm. Prokuror bizə ağır iş istədi, mənə ömürlük cəza verilməsini təklif elədi, amma o gənc prokurora da bəddua etməyəcəyəm. Çünki əgər ədalətli sistem olsaydı, o da ədalətli çıxış edərdi. YAP-ın yaradıcılarından olan Siruz Təbrizli deyirdi: "YAP simasız quldurlar partiyasıdır". Lakin mən deyirəm ki, simalı quldurlar partiyasıdır. Biz quldur hökumətlə baş-başa gəlmişik.

Əslində, Nardaran hadisəsi ilə tarix təkrarlanıb. Tutulanda mənə 1937- ci il repressiyası ilə bağlı kitab verdilər, oxudum, oxuya-oxuya özümü apardım ora. Onda da dövlət çevrilişi, işgəncə, həbslər var idi. Ancaq o vaxt xalq müstəqil deyildi, sözünü deyə bilmirdi. İndi isə müstəqildir. O müstəqilliyi bizə Əliyevlər verməyib. 1988-ci ildə xalq qazanıb.

Nardaran hadisəsi Allahın lütfüdür. Məndən Əli Kərimlinin əleyhinə ifadə almaq istəyirdilər, dedim, o insan sizə nə edib? Bizim birliyimizdən qorxurlar. Hakimiyyət bizi cəzalandırmaq istədi, lakin cəzalandıra bilmədi. Bu gün xalq quyudadır. Xalqı çıxarmaq üçün hamımız – dindar, ateist bir olmalıyıq. Xalqın bu günə düşməsinin səbəbi banklar və devalivasiya deyil, ölkə rəhbərliyidir, xalqın susqunluğudur. Xalq Allahdan qorxmur, amma MTN-dən, "Bandotdel"dən, bu quldurlardan qorxur. Biz də Nardaran hadisəsi ilə xalqa çatdırdıq ki, qorxmaq lazım deyil. Türkiyədə polis şəhid olanda adamlar ona şəhid kimi baxır, onu dəfn edir. Çünki polis onları qoruyur. Amma burada polis insanları şərləyir, işgəncə verir. İnsanlar qorxurlar ki, polis onların cibinə narkotik vasitə atar. "Bandotdel"də 47 gün məni hamama getməyə qoymadılar. Mən paltarımı yuyub, yaş geyinirdim.

---

*xidməti vəzifəsini və ya ictimai borcunu yerinə yetirməsi ilə əlaqədar onun özünü və ya yaxın qohumlarını öldürmə), 29, 120.2.4 (cinayət törətməyə cəhd, xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla adam öldürmə), 29, 120.2.7 (cinayət törətməyə cəhd, iki və ya daha çox şəxsi öldürmə), 29, 120.2.12 (cinayət törətməyə cəhd, milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə adam öldürmə), 28, 214.2.1 (cinayətə hazırlıq, terrorçuluq, yəni ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq, yaxud dövlət hakimiyyət orqanları və ya beynəlxalq təşkilatlar tərəfindən qərar qəbul edilməsinə təsir göstərmək məqsədilə insanların həlak olması, onların sağlamlığına zərər vurulması, əhəmiyyətli əmlak ziyanının vurulması və ya başqa ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və ya digər hərəkətlər (terror aktı) törətmə, habelə həmin məqsədlə bu cür hərəkətlərin törədiləcəyi ilə hədələmə, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədildikdə) 28, 214.2.3 (cinayətə hazırlıq, odlu silahdan və silah qismində istifadə olunan predmetlərdən istifadə etməklə törədildikdə) və digər maddələri ilə ittiham irəli sürülüb.*

*25 yanvar 2017-ci ildə Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə Taleh Bağırzadə və digər 17 nəfər təqsirli bilinərək T.Bağırzadə 20 il müddətinə azadlıqdan məhrum edilib.*

Məmurlar gəlib Heydər Əliyevin məzarı önündə baş əyirlər. Niyə bütpərəstliyə şərait yaradırsınız? Mən erməni tərəfdə qalan əsgərin meyitinə görə çox narahatam. Ermənilər bu hakimiyyətə görə sevinirlər. Ona görə sevinirlər ki, bunların Qarabağı almayacaqlarını bilirlər. Bizə ömürlük həbs verilməsinə sevinirlər, çünki biz xalqla bir olub Qarabağı ala bilərik. Görün, biz necə hakimiyyətlə qarşı-qarşıyayıq. Hakimiyyət soyğunçuluğu, rüşvətxorluğu, oğurluğu dövlət siyasətinə çevirib və bununla fəxr edir. Bu hakimiyyət 100 faiz gedəcək.

Mən hicablı bacılarımızı müdafiə edəndə mənə dedilər ki, sənə nə qalıb. Dedim bacılarımızın qeyrəti mənim qeyrətimdir. Bunlarda ancaq fərdi maraqdır. Bunlara başqalarını müdafiə etmək təəccüblü görünür. Azərbaycan hakimiyyətində milli maraq yoxdur, bunlar üçün ancaq ailə və öz maraqlarıdır.

Hakimiyyətin televiziyalarında bizə qarşı təbliğat kampaniyası gedən dövrdə Əbülfəz Bünyadov evinin qapısını bizim üzümüzə açdı. Nardaran qətliamında onun ailəsi, usağı, yaşlı anası da evdə idi. O hadisələrdə evdəki qadınlara da rezin güllələr vurulmuşdu, evdəki uşaqlar qorxudulmuşdu. 1400 il əvvəl baş vermiş Kərbəla müsibəti 2015-ci ilin noyabrında Nardaranda təkrarlandı. O vaxt Yezid suyun qarşısını kəsmişdi, bunlar da Nardarana gedən yolları kəsib, insanların ən zəruri ehtiyacları üçün lazım olan qida məhsullarının da aparılmasına imkan vermirdilər. Kərbəla müsibətində başları kəsirdilər, Nardaran müsibətində də şəhid qardaşlarımızın cəsədləri üzərində çəkmə ilə gəzirdilər. Cəsədləri dəfn eləmək üçün yaxınlarına vermədilər, girov saxladılar.





Əbülfəz Bünyadov ağır güllə yarası alıb, daha gəzə bilməyəcək. Amma deyib ki, Allah mənim 38 il yeriməyimi istəyib, indi istəmirsə, deməк, Allahın istəyi belədir. Bu insanın böyüklüyünə baxın…

Hakimiyyət Nardaran hadisəsindən qabaq bizə seçim yeri qoymuşdu: ya hakimiyyətlə razılaşmalı, ya da cəzalanmalı idik. Biz Azərbaycan xalqının xilas yolunu demişik. Bir gün xalq öz hakimini seçəcək. Niyə biz, axı, 25 ildir mənfur, çox az sayı olan ermənilərin qarşısında məğlubuq? Niyə? Niyə bu xalq məğlubdur? Cavab sadədir: Ədalət yoxdur. Bu ölkədə ədalət olsaydı, biz çoxdan Qarabağı da almışdıq, hələ tarixi torpaqlarımızı da. "Əgər"lə deyil, almalıydıq.

Hökumətdə ədalət yoxdur. Mən əvvəllər ümid və güman edirdim ki, bu hakimiyyət nə vaxtsa məcbur olub, islahatlar aparacaq, islah olunacaq. Ancaq "Bandotdel"ə düşəndən sonra fikrimi birmənalı şəkildə dəyişdim. Bu hakimiyyət güc strukturlarına arxalanır. Ona görə, güc strukturları, o cümlədən "Bandotdel" hakimiyyətin simasıdır. "Bandotdel"də elə şeylər gördüm ki… Anladım ki, bu hakimiyyət islah olunan deyil. Bu hakimiyyət yalnız xalqın qanını axıtmaq üçündür. Mən ora islahatçı düşüncəsində girmişdim, çıxanda inqilabçı kimi çıxdım. Söhbət silahlı inqilabdan yox, demokratik, sivil inqilabdan gedir. Bu gün xalq bu inqilaba hazırlaşmalıdır.

Dindar təkcə namaz qılıb, oruc tutan deyil. Əgər zülm qarşısında susacaqsansa, sənin belə ibadətinin nə faydası?! Bu hadisələrdən sonra bəzi dostlar qorxusundan kənarlaşdılar, amma gözləmədiyimiz

yerdən bizə dəstək gəldi.

Allahım məni heç vaxt tək buraxmayıb. Allah deyir ki, mənə söykən, mənə inan, sonrasını özün görərsən. Fuad bəyin burada olması Allahın işidir. Çünki onun burada olması heç bir məntiqə sığmır. Nə qədər təhlil etsən, araşdırsan, düşünürsən ki, bu adam bura gəlməməli idi. Amma bu işdə ilahi iradə var. Cəmiyyətin bu gün oyanışının da səbəbi Allahdır. Allah zalımlara cəza verəcək. Bunlar Yezid xislətlidirlər. Təsəvvür edin, Əbülfəz Bünyadovu güllələyiblər, həbs eləyiblər, işgəncə veriblər, şikəst eləyiblər, amma yenə ürəkləri soyumayıb, sinəsinin üstündə oturub, dindar adamın ağzına zorla araq töküblər. Bu, Azərbaycan hakimiyyətinin simasını göstərir.

Uzun illərdir ki, bu hakimiyyət demokratiya imitasiyası ilə məşğuldur.

Hakimiyyət deyir ki, ölkədə siyasi məhbus yoxdur. Bəs keçən martda əfv sərəncamı ilə buraxdıqların kimlər idi? Necə yoxdur ki, sən Xədicə İsmayılovanı buraxmağa məcbur oldun? Hamısı beynəlxalq təzyiqin nəticəsində oldu. Bizim bir problemimiz var, o da düzgün rəhbərin olmamasıdır. Xalq layiqli rəhbərə layiqdir.

Bizi ölkənin konstitusion quruluşunu dəyişməkdə günahlandırırlar. Biz heç bir halda dövlətin konstitusion quruluşunun, dünyəvi dövlətin dəyişməsini istəməmişik, istəmirik də. Biz Konstitusiyaya, dünyəvi dövlətçiliyə əməl olunmasını istəyirik.

Ölkənin neftini, sərvətlərini talayırsınız, daha nə istəyirsiniz? Bunların düşmənçiliyi xalqladır. Şükür Allaha ki, xalq da artıq düşmənini tanıyır. Konstitusiyanın birinci maddəsində deyilir ki, hakimiyyətin mənbəyi xalqdır. Amma reallıqda buna əməl olunmur. Konstitusiyanın 6-cı maddəsində deyilir ki, hakimiyyəti mənimsəmək ən böyük cinayətdir. Əliyevlər hakimiyyəti mənimsəməklə ağır cinayət törədib. Biz də bu cinayətlərə qarşı mübarizə aparırıq. Layiqli cəzalarını alacaqlar. Kimin ağlına gələrdi ki, Eldar Mahmudov, Akif Çovdarov bu vəziyyətə düşə bilər? Nardaran hadisələrindən əvvəl – 2015-ci il sentyabrın 22-də məni Milli Təhlükəsizlik Nazirliyinə (MTN) çağırıb dindirən Antiterror Mərkəzinin rəis müavini İlqar Əliyev oldu. Dekabr ayında isə televizorda eşitdim ki, bu adam Kürdəxanı təcridxanasında özünü asıb. Hələ

MTN-də dindirmədə ona demişdim ki, bu bina da, oturduğun kreslo da xalqındır...

Mənə "Bandotdel"də şərəfsiz işgəncə verəndə, hətta prokurorluğun müstəntiqi dözmədi, dedi ki, "daha bunu eləməyin də". Həmin müstəntiq deyirdi: "Hacı, qorxuram, bunlar məni də tutarlar".

Nardaran qətliamının törədilməsində əsas rol oynayan Ramil Usubovun düşüncə və əməlləri haqqında bir neçə mühüm məqamı çatdırmaq istəyirəm. Azərbaycan cəmiyyəti bu şəxsi atanızın və sizin rəhbərliyiniz dövründə çox ziqzaqlı fəaliyyəti ilə tanıyır. Belə ki, 2005-ci ildə onun rəhbərlik etdiyi nazirlikdə yuva salmış poqonlu quldurlar ifşa olunanda əsl polis işçisinə məxsus qürurla istefa verib getmək əvəzinə, dünyasını dəyişmiş və bu səbəbdən həmin vaxt özünü müdafiə edə bilməyən atanız Heydər Əliyevi şantaj edərək, hansısa cinayətkarın onun göstərişi ilə azadlığa buraxıldığını bildirdi və beləcə, şantajla postunda qalmağı bacardı. Daha sonra 2015-ci ilin

noyabrında Nardaranda baş vermiş qətliamda yenə özünü hər şeydən kənarda qoymaq məqsədilə cəmiyyətə sizi nişan verərək, mətbuatda "qəsəbədə baş vermiş qanlı əməliyyatın keçirilməsinə göstəriş prezidentdən gəlib" açıqlamasını verdi. Hər şeyi başa düşmək olar, lakin cənab Usubovun hərəkətlərini anlamaq çox çətindir. Lap deyək ki, o cinayətkarı buraxmağa sizin atanız göstəriş verib, lap tutaq ki, Nardaranda o qanlı əməliyyatın keçirilməsinə şəxsən siz göstəriş vermişdiniz, bəs bütün bunları xəbər verməkdə Usubovun niyyəti nədir? Axı, müdrik atalar deyir ki, kişinin yanında baş kəsərlər.

Cənab Əliyev, naziriniz Ramil Usubovun hərəkətləri bununla bitmir. Belə ki, bizim məhkəmə prosesində qondarma cinayət işinin materiallarına əlavə edilmiş "Tale Bağırzadənin müraciəti" adlı kitabçada ulu naziriniz (gərək "ulu nazir" medalı təsis oluna və verilə Ramil Usubova) Usubovun siz və hakimiyyətiniz haqqında olan ürək sözləri öz əksini tapıb. Hətta hakim Əlövsət Abbasov belə, bu məşhur kitabçanın tədqiq olunmasından imtina edərək, Ramil Usubovun qəzəbinə tuş gəlməkdən qorxdu. İlk olaraq, bu kitabçanın mənə aid olmadığını sizə açıq dəlillərlə sübut etdikdən sonra əsas mətləbə keçirəm.

Cənab Əliyev, siz ali təhsilli, ingilis dilində danışmaq bacarığına malik şəxssiniz, yəqin, bu kitabçanın mənə aid olmaması ilə bağlı gətirdiyim dəlilləri anlamaqda çətinlik çəkməyəcəksiniz. Dəlillər isə bundan ibarətdir ki, bu məşhur kitabçanın mətnində Nardaran hadisələrinə işarə olunur. Məlumunuz olsun ki, Nardaran hadisələri 26 noyabr 2015-ci ildə baş verib. Şübhəsiz ki, bu kitabçanı Nardaran





əməliyyatının keçirildiyi zaman kəsiyində yazmağım qeyri-mümkündür. Deməli, bu kitabça mən həbs olunandan sonra yazılıb. Mənim də Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin təcridxanasında bu kitabçanı hazırlamağım qeyri-mümkün olduğuna görə, deməli, bu kitabçanın müəllifi də mən yox, sizin naziriniz Ramil Usubovdur.

Niyə Ramil Usubov? Ona görə ki, Nardaran əməliyyatında bizim qardaşlarımızı güllə atəşinə tutaraq, məzlumcasına şəhid edən polis cildində quldurların içində şəxsən Ramil Usubov yoxdur. Lakin hadisədən sonra Usubov televiziya kanalları vasitəsilə Nardaranda şəhid edilən qardaşlarımıza hörmətsizlik edərək, "beş nəfəri məhv etdik" açıqlamasını verdi. Buna əsasən, "Hacı Taleh Bağırzadənin müraciəti" adlı kitabçanın da birbaşa Ramil Usubov tərəfindən yazılması məlum olmasa da, onun rəhbərlik etdiyi qurumun bu kitabçanı təşkil etməsinin məsuliyyəti birbaşa Usubovun boynundadır. Bu səbəbdən də həmin kitabçanın müəllifinin Ramil Usubov olduğunu qeyd edirəm.

İndi isə keçək nazirinizin bu kitabçada mənim adımdan istifadə edərək, sizin və hakimiyyətinizin haqqında yazdığı ürək sözlərinə. Kitabçada sizin haqqınızda "oğru İlham Əliyev", hakimiyyətiniz haqqında da "fahişəliyin tərənnümü olan hakimiyyət" ifadəsi işlədilir.

Bundan əlavə, məhkəmə prosesi zamanı verilən ifadələrə əsasən, xanımınız Mehriban Əliyevanın yüksək çinli polis məmurları tərəfindən ağır formada təhqir olunması haqda çox ciddi məlumatlar açıqlandı (Bir şeyi deyim ki, türmədəki dustaqların çoxunun ümid yeri Heydər Əliyev Fondudur. Düzdür, bizim üçün ora, ümid yeri deyil, korrupsiya

ünvanıdır. Bunlar o məktublara Mehriban Əliyevanı söyməklə cavab verirlər).

Yadınıza salım ki, 2013-cü il mart ayının 31-də Ramil Usubovun şər maşını məni şərləyərək, cibimə narkotik vasitə atıb həbs edəndə görkəmli sənətkar Zeynəb Xanlarovanın adından istifadə etmək istədilər. Ancaq həmin vaxtlar millət vəkili Zeynəb xanım cəsarətlə: "Kimi tutmaq istəyirsinizsə, kişi kimi öz adınızdan tutun, mənim adımı bu işə qatmayın", – dedi. Zeynəb xanımın bu cəsarəti müqabilində sizin ictimai-siyasi məsələlər üzrə köməkçiniz, "Nardaran əməliyyatı"nın əsas ssenaristlərindən biri olan Əli Həsənov Zeynəb xanımı yetkin siyasətçi olmamaqda ittiham etmişdi. Yəqin, Əli Həsənovun nəzərində yetkin siyasətçi üçün kriteriyalarda "üzə durmaq" əsas şərtlərdən hesab olunur. Mən də öz növbəmdə Zeynəb xanımın cəsarətli mövqeyindən çıxış edərək, Ramil Usubov və komandasına deyirəm ki, mənim adımdan istifadə edib İlham Əliyev və onun xanımı Mehriban Əliyevaya ürək sözlərinizi deməyin. Kişiliyiniz çatırsa, o sözləri öz adınızdan deyin.

Cənab Əliyev, yəqin ki, sizə mənim haqqımda müxtəlif məlumatlar verilib. Lakin istərdim, kimliyim haqqında sizə özüm məlumat verim ki, kiminlə qarşı-qarşıya gəldiyinizin fərqinə varasınız. Mən yetkinlik yaşına çatdıqdan, özümü qismən dərk etdikdən sonra İmam Hüseynlə tanış oldum. O böyük inqilabçı şəxsiyyətin məhəbbəti qəlbimi alovlandırdı, ali məqsəd və məramımı, əqidəmi, düşüncələrimi möhkəmləndirdi. Həzrəti Hüseyn bizə Allahı xalisanə sevməyi, Ona təslim olmağı, Onun yolunda canından, malından, bir sözlə, hər şeyindən keçməyi, zülmlə, zalımlarla barışmamağı, qətiyyətlə mübarizə aparmağı eşq yolu ilə öyrətdi. Allah nəsib etdi, müqəddəs Kərbəla ziyarətinə gedərək, könüllərin sultanı Həzrəti Hüseynlə son nəfəsimizə qədər bu mübarək yolda sabitqədəm olacağımıza and içərək, sədaqət əhd-peymanı bağladıq. Uca Allahdan o böyük şəxsiyyətin ehtiramına xatir şəhadətin nəsibimiz olmasını təmənna etdik. Həzrəti Hüseyn məktəbi həyatımızın mənasına çevrildi.





Cənab Əliyev! Sizin və hakimiyyətinizin illərdir ki, Taleh Bağırzadəyə qarşı zülm və haqsızlıqlarının əsas səbəbi Taleh Bağırzadənin şəxsindən qorxmağınızda deyil. Hakimiyyətinizi qorxudan və sarsıdan, Taleh Bağırzadənin qəlbində daşıdığı nəcib İmam Hüseyn sevgisi və Hüseyni düşüncələridir. Əslində, haqqınız da var ki, qorxasınız. Çünki 1400 ildir, bu əzəmətli Hüseyni düşüncə – "Ölümü səadət, zalımlarla yaşamağı zillət sayıram" pıçıltısı zalım hakimlərin yuxularını ərşə çəkib, həyatlarını kabusa çevirib. Sizi əmin edirəm ki, Nardaran faciəsini törətməklə, günahsız insanların qanını axıtmaqla öz hakimiyyətinizin sonunu yaxınlaşdırdınız. Əgər bir hakimiyyət yersiz güc nümayiş etdirərsə, həmin güc onun məhvinə səbəb olacaqdır.

Sonda sizdən tələb edirəm ki, əgər cəsarətiniz varsa, mənə veriləcək ömürlük həbs cəzasını başqa bir cəza növü ilə əvəz etməyəsiniz.

Biz bu şərəfli xalqın azadlığı uğrunda, gələcək xoşbəxtliyi naminə nəinki ömürlük həbs cəzası almağa, hətta edam olunmağa, tonqalda diri-diri yandırılmağa hazırıq. Qoy Allah bizim və sizin aranızda hakim olsun.

Biz hazırıq ki, dünya məhkəmələrində haqqa və ədalətə görə mühakimə olunaq, amma qiyamətdə – həqiqi məhkəmədə müttəhim qismində olmayaq. Azərbaycan hakimiyyəti bilsin: biz Nardaranda şəhid olan qardaşlarımızın bədənindən axan qanıq, məzlumun səsiyik, ananı baladan ayırıb həsrət yaşadıblar, biz o həsrətik, övladını Qarabağda şəhid vermis, illərdir, "Qarabağı alırıq" yalanları ilə aldadılan anaların göz yaşıyıq.

Sonda dahi şairimiz Məhəmmədhüseyn Şəhriyarın fikirlərindən sitat gətirmək istəyirəm:

***Ya rəbb, nədir bir bu qədər ürəkləri qan etməyin?***
***Qolu bağlı qalacaqdır nə vaxtacan, Azərbaycan?***
***Övladların nə vaxtadək tərki-vətən olacaqdır,***
***Əl-ələ ver, üsyan elə, oyan, oyan Azərbaycan!***
***Bəsdir ayrılıq odundan kül ələndi başımıza,***
***Dur ayağa, ya azad ol, ya tamam yan, Azərbaycan!***

Bakı Ağır Cinayətlər Məhkəməsi,
Tarix: 18.01.2017



# İNANCLI MƏHBUSLAR



## ABGÜL SÜLEYMANOVUN MƏHKƏMƏDƏ SON SÖZÜ[34]

Livanda 2 min nəfər şiə Seyyid Həsən Nəsrullahın başçılığı ilə 2006-cı ildə Hizbullah-İsrail döyüşündə Hizbullahı qalib etdi. Onlar da sizin və bizim kimi insanlardır. Onlar göydən zənbillə düşməyiblər ki... Onlar şücaətlərilə İsrailin ağzını və dişlərini sındırdılar, 2 min nəfər İsrail ordusunu yerinə oturtdular. Erməni kimdir ki, 20 il ərzində torpaqlarımızı geri ala bilmirlər?!

Biz azad insanlarıq. O ruhanilər ki hakimiyyətin islam düşmənçiliyinə etiraz eləmirlər, onlar zindandadırlar. Bilirsiniz, məhkəməni niyə saat 12 üçün demişdilər? Çünki bilirdilər ki, insanlar "Qədr

[34] *Abgül Süleymanov - Azərbaycanda inanclı fəal və nüfuzlu ruhani kimi tanınır. 2010-cu ilin sonlarında Təhsil Nazirliyinin qərarı ilə orta məktəblərdə hicaba qoyulmuş qadağaya etiraz olaraq keçirilmiş hər iki aksiyada iştirak edib, bu qərarın qanunsuz olması ilə bağlı mətbuata açıqlamalar verib.*

*2011-ci ilin mayında keçirilmiş "Hicaba azadlıq" aksiyasından sonra təqiblərlə üzləşir və elə həmin ilin avqust ayının 12-də Milli Təhlükəsizlik Nazirliyinin (MTN) keçirdiyi əməliyyat nəticəsində saxlanılır. O, Cinayət Məcəlləsinin 228.1 (qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı (yivsiz odlu ov silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla), partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmə), 233 (ictimai qaydanı kobud surətdə pozan və ya hakimiyyət nümayəndəsinin qanuni tələblərinə tabe olmamaqla əlaqədar olan, yaxud nəqliyyatın, müəssisə, idarə və*

gecəsi"ndən sonra yorğun olacaqlar, ona görə də gələ bilməyəcəklər. Bunu düşünərək məhkəməni saat 12-yə təyin etdilər. Bunlar Allahdan qorxmurlar, amma unudurlar ki, Allah Quranda buyurur: "Biz böyük əzabdan əvvəl kiçik əzabı bunlara dadızdıracağıq".

Böyük əzab qiyamətdədir, kiçik əzab bu dünyada. Hüsnü Mübarək kimilərinin axırı nə oldu? Hamısı rəzil-rüsvay oldular. Bunların da axırı elə olacaq.

İmam Müseyi-Kazımın (ə) əlini-qolun bağlayıb zindana saldılar və zindanda şəhid oldu. O əzabın yanında bizim çəkdiklərimiz nədir ki?! Bu hakimiyyət paklığımızı ala bilməz. Düzdür, cəmiyyətdə əxlaqsızlığı yaya bilər, amma möminlərin paklığını əllərindən ala bilməzlər. Bütün möminlərə deyin ki, Hacı Mehdi Məmmədov və jurnalist Hacı Nicat

Əliyev kimi olsunlar. Çünki onlar əsl kişilərdir! Onlar bir an olsun Allahın dinindən dönmədilər. Onları, cəmiyyətə təsirləri var idi deyə

---

*təşkilatın normal fəaliyyətinin pozulmasına səbəb olan hərəkətlərin bir qrup şəxs tərəfindən törədilməsini təşkil etmə və ya bu cür hərəkətlərdə fəal iştirak etmə), 234.1 (satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə və ya saxlama), 234.4.3 (satış məqsədi ilə qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri əldə etmə və ya saxlama, hazırlama, istehsal etmə, emal etmə, daşıma, göndərmə, yaxud qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri satma, külli miqdarda törədildikdə) və 283.2.1-ci (zor tətbiq etməklə və ya zor tətbiq etmə hədəsi ilə milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınmasına, milli ləyaqətin alçaldılmasına, habelə milli, irqi və ya dini mənsubiyyətindən asılı olaraq vətəndaşların hüquqlarının məhdudlaşdırılmasına və ya üstünlüklərinin müəyyən edilməsinə yönələn hərəkətlər, aşkar surətdə və ya kütləvi informasiya vasitələrindən istifadə olunmaqla törədildikdə) maddələri ilə ittiham olunur.*

*A.Süleymanov Bakı Ağır Cinayətlər Məhkəməsinin 10 avqust 2012-ci il tarixli hökmü ilə 11 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilib.*





həbs etdilər. Haçansa proseslərə təsiriniz olsa, sizi də tutacaqlar. Ancaq qorxmayın, çünki bu yolun sonunda şəhadət var.

Bu hakimiyyət hicabı məktəblərdə qadağan edir. Biz də çıx- ıb hüquqlarımızı tələb etmək üçün etiraz aksiyası keçirdirik. Sonra da deyirlər ki, aksiyanı İranın tapşırığı ilə ediblər. Bir dəfə bu sözü demişəm, indi də deyirəm: əgər İran bizə qeyrətimizi qorumağı deyirsə, öpürük onların əllərini, amma yox, bizim hakimiyyət qeyrətsizliyimizi və şərəfsizliyimizi istəyirsə, biz elə bir hakimiyyəti tanımırıq. Bizə İran demir ki, gedin, etiraz aksiyası keçirin. Bunlar yalandan bizi şərləyib həbsə atırlar. Bütün Azərbaycanda İrana qarşı mənfi fikir yaradıblar və biz şiələri də ora bağlayıblar. Bunların başı xarabdır. Öz qızlarımızın hicabına görə aksiya keçirik, deyirlər ki, İran deyib. Çünki bunlar özlərini itiriblər, bilmirlər, nə edirlər.

Bunlar istəyirlər, desinlər ki, bizim dinimiz yoxdur. Görmədiniz, Prezident Administrasiyasının İctimai-siyasi məsələlər üzrə şöbə müdiri Əli Həsənov nə dedi? Avropaya dedi ki, bizim hökumət nə sünnidir, nə də şiə. Müsəlman ya sünni olmalıdır, ya şiə, üçüncüsü yoxdur. Əli Həsənova deyirlər ki, bəs, sən nəsən? Deyir ki, biz "şinniyik". Belə çıxır ki, özün təzə məzhəb yaratmısan, adını da "şinnilik" qoymusan. Bu, birbaşa Avropaya mesajdır ki, biz nə sünniyik, nə də şiə, yəni müsəlmançılıqdan çıxmışıq. Yaxşı, təzə məzhəb yaratmısınızsa, bizi niyə aranıza qəbul etmirsiniz? Ölkənin 85%-i şiədir, 13%-i sünni, 2%-i də yəhudi, xristian və s. İndi nə demək istəyirsiniz? Nə sünnisiniz, nə də şiə, amma əsl müsəlmansınız?

Bu, Azərbaycanın müsəlman əhalisinə təhqirdir. Yəni demək istəy-

irlər ki, nə sünni yaxşıdır, nə də şiə, tək biz yaxşıyıq. Sizin nəyiniz düzdür ki, məscid sökürsünüz, məktəblərdə hicaba qadağa qoyursunuz! Hələ utanmaz-utanmaz deyirlər ki, biz Peyğəmbərin (s) gətirdiyi İslama inanan müsəlmanıq. Başa düşmədim, o, hansı İslamdır? Əli Həsənovdan soruşsan ki, Peyğəmbərin (s) gətirdiyi İslam hansı İslamdır, iki kəlmə danışa bilməz! Əli Həsənov o sözü havadan demir, ona deyirlər, belə de, o da deyir. O, "kolonka"dır, mikrofonla yuxarıdan deyirlər, o da səs çıxarır.

Biz şiəliyimiz, sünniliyimiz və müsəlmançılığımızla fəxr edirik. Bütün Avropa, dünya İslama gəlir. Bu da deyir ki, biz müsəlman deyilik. Hədislərdə var ki, bütün insanlar dünyaya gələndə müsəlman doğulur, sonra atası və anası və yaxud olduğu mühit onun dinini dəyişir. İnsanın dəyişməsinin bir neçə səbəbi var. Onlardan biri də mühitdir. Burada diqqətli bir mövzu var: Niyə Nuh peyğəmbərin oğlu Kənan yaxşı olmadı? Çünki mühiti xarab idi. Ən böyük təsir mühitdir. Bu gün hakimiyyət mühiti xarab edir ki, biz xarab olaq. Niyə Aygün Kazımovanı xalq artisti edir, onun üçün xarici lüks maşınlar təşkil edib, cangüdənlər tuturlar? Bəlkə bütün qadınlara demək istəyirlər ki, kim Aygün Kazımova kimi olsa, maddi durumu onun kimi olacaq?!

Bizim qəbahət bildiyimiz şeyləri adiləşdirmək istəyirlər. Bir neçə il bundan əvvəl üzdəniraqlar cəmiyyətdə az sayda idilərsə də, indi çoxalıblar. Hakimiyyət maviləri küçələrə doldurub. Biz bir zamanlar sorğu keçirdik. Əvvəllər - 9 ay ərzində Heydər Əliyev sarayının qabağında 7 nəfər mavi var idi. Amma sonra 80 nəfərdən çox qadın paltarında olan üzdəniraq mavi kişini Heydər Əliyev Sarayının qabağına çıxardılar. Gedin, hamıya deyin ki. ölkədə təhlükə var. Bu gün yatmaq deyil, oyanmaq vaxtıdır. Oyanıb ölkədəki zalımları və zülmü





tanımaq, buna qarşı mübarizə aparmaq lazımdır. Bilirsiniz, MTN-də Allahşükür Paşazadəyə "Sansanoviç" deyirlər. Bunlar çox gülməli siyasət aparırlar. Deyirlər ki, din siyasətdən ayrıdır. Bəs niyə Allahşükür üçün dini idarə yaradıblar? Bu sizin dediyinizin yalan olduğunu açıq-aşkar göstərmir? Baxın, Allah Quranda bir ayədə deyir: "Biz Zəburda da demişik ki, axırda hakimiyyəti zəif və məzlum insanlara verəcəyik".

Niyə deyir, Zəburda demişik? Çünki "Zəbur" hökmdar Davud peyğəmbərə gəlmişdi. Bunun vasitəsilə bildirir ki, ən axırda hakimiyyət məzlumlara veriləcək. Bunlar məzlumların ahından qorxmurlar. İstəyirlər ki, bizim qadınlarımızı soyundurub çılpaq şəkillərini ətirlərin, reklamların üzərinə vursunlar. Amma bu olmayacaq, buna icazə verməyəcəyik.

Sonra Hacı Abgül üzünü məhkəmədə iştirak edən oğluna tutur:
- Muhamməd, atan Kəbəyə gedəndə ilk dəfə hansı duanı etmişdi? Yadındadır, demişdim ki, Allah buyurur: "Kəbəni ilk dəfə görən bəndə nə dua etsə, Allah qəbul edər".

Mənim də ilk duam bu oldu: İlahi, mənə şəhadəti nəsib et! Prokuror 12 il iş istədi. Mənə hökm oxunanda bu cəzanı aşağı salmayın. 12 imama xatir 12 il!

Bakı Ağır Cinayətlər Məhkəməsi,
Tarix: 10 avqust, 2012-ci il

# HƏBSXANALARDA ÖLƏN SİYASİ MƏHBUSLAR

*Onların son sözləri bizə gəlib çatmayıb. Amma bu şəxslər Azərbaycan repressiyalar tarixində son sözlərini öz həyatlarını qurban verməklə deyiblər*

Siyasi məhbusların ağır şəraitdə saxlanması hamıya bəllidir. Hüquq müdafiəçilərinin məlumatına görə, 1993-cü ildən bu günə qədər Azərbaycan həbsxanalarında 50-dən çox siyasi məhbus ölüb. Həmin siyasi məhbuslarla bağlı qısa xronika belədir:

- 26 oktyabr 2016-cı ildə sabiq iqtisadi inkişaf naziri Fərhad Əliyevin müavini Əlihüseyn Şalıyev Bakı İstintaq Təcridxanasında intihar edib.

- Azərbaycan Sosial Demokrat Partiyasının (ASDP) sədr müavini Aypara Əliyev 1994-cü ildə həbsxanada işgəncələr nəticəsində dünyasını dəyişdi.

- AXCP üzvləri Yaqub Rzayev və Novruz Novruzov 1993-cü ildə həbs edilib və müvafiq olaraq 1993 və 1995-ci illərdə türmədə vəfat ediblər.

- General Vahid Musayev 1995-ci ildə həbs edilib, 1999-da türmədə ölüb.

- Nüsrət Budaqov adlı siyasi məhbus 1994-cü il 4 oktyabr dövlət çevrilişinə cəhdin qarşısı alındıqdan sonra həbs edilib, bundan az sonra həbsxanada vəfat edib.

- Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) üzvləri Fətullah Hüseynov və Yusif Əliyev 1994-cü ildə həbs olunub və ikisi də həbsxanada ölüb.

- 1995-ci ildə türmədə daha bir məşhur siyasi məhbus Şahmərdan Cəfərov vəfat edib.

- Daha bir müxalifətçi fəal Faiq Baxşəliyev 1995-ci ildə OMON işinə görə tutulub və 1999-cu ildə Qobustan Qapalı Həbsxanasında qiyamda öldürülüb.

- Siyasi məhbus kimi tanınaraq həbsxanada vəfat edənlərdən biri də Ədalət Partiyası Sumqayıt şəhər şöbəsinin sədri Fəzail Tağıyevdir. F.Tağıyev 19 sentyabr 2001-ci xuliqanlıq ittihamı ilə həbs edilib. 9 fevral 2002-ci ildə Ədliyyə Nazirliyi Məhkəmə Qərarları İcrası Baş İdarəsinin hospitalında dünyasını dəyişib.

- Məhbəsdə vəfat edənlər sırasında sıravi müxalifətçilər də var. Onlardan biri 2005-ci il fevralın 17-də Binə qəsəbəsində yerləşən 17 saylı cəzaçəkmə müəssisəsində müəmmalı şəkildə dünyasını dəyişən 20 yaşlı seçki məhbusu Alqayıt Məhərrəmo-

vdur. A.Məhərrəmov 2003-cü il 15-16 oktyabr hadisələri ilə bağlı həbs olunub və 3 il azadlıqdan məhrum edilmişdi. Seçki məhbusunun ürək çatışmazlığından vəfat etdiyi bildirilsə də, yaxınlarının və hüquq müdafiəçilərinin buna əsaslı şübhələri var idi.

- Siyasi məhbus kimi tanınan Ayaz Mütəllibovun tərəfdarı olan Hacı Seyfəl Babayevdir. Əslən Maştağa kəndindən olan Hacı Seyfəl bir müddət özünə İranda sığınacaq tapsa da, daha sonra Bakıya dönmüş və burada həbs olunmuşdu. Hacı Seyfəlin 1995-ci ildə həbsxanada dünyasını dəyişdi.

- 1995-ci ildə həbs olunan Ayaz Mütəllibovun daha bir tərəfdarı olan Tarix Quliyev də 1999-cü ildə türmədə öldü.

- 2000-ci ildə Şəki hadisələrində tutulan Cövdat Qazıyev 2002-də türmədə vəfat edib. O, siyasi məhbus hesab edilirdi.



## 2007-ci ildən sonra vəfat edən siyasi məhbuslar



### Faina Kunqurova

Faina Kunqurova 1974-cü ildə Bakı şəhərində anadan olub. O, Azərbaycan Demokratik Partiyasının fəal üzvü idi.

F.Kunqurova Azərbaycanda ilk qadın siyasi məhbus olub. Birinci dəfə o, 2002-ci ildə xuliqanlıq ittihamı ilə həbs edilərək 3 il müddətinə azadlıqdan məhrum edilib. 10 may 2004-cü ildə Prezidentin Əfv Fərmanına əsasən azadlığa buraxılıb. 5 oktyabr 2007-ci ildə Kunqurova Cinayət Məcəlləsinin 234.4.3-cü maddəsi ilə (narkotik maddələri əldə etmə, saxlama və satışı) təqsirli bilinərək həbs edilib.

2007-ci il oktyabrın 19-da o, "astenik vəziyyət" diaqnozu ilə müayinə və stasionar müalicə üçün Penitensiar Xidmətin müalicə müəssisəsinə göndərilir. Müalicə müəssisəsində xəstəyə "astenik vəziyyət, asteno-nevrotik, depressiv vəziyyət, anoreksiya, kaxeksiya 3-cü dərəcə" diaqnozu təyin olunub.

18 noyabr 2007-ci ildə F.Kunqurova 3 saylı Süvəlan İstintaq Təcridxanasında vəfat edib. Onun yeganə qızı digər ailə üzvləri ilə birlikdə hazırda Norveçdə yaşayır.



## Emin Məmmədov

2007-ci ildə Səid Dadaşbəyli və daha 14 nəfər (Mikayıl İdrisov, Cahangir Kərimov, Fərid Ağayev, Rasim Kərimov, Samir Qocayev, Beybala Quliyev, Rəşad Əliyev, Ceyhun Əliyev, Emil Mehbaliyev, Fətulla Bəbirov, Zaur Orucov, Rəşad İsmayılov, Faiq İsmayılov və Mübariz İsmayılov) Cinayət Məcəlləsinin 218-ci maddəsi (cinayətkar birlik yaratma), 274-ci maddəsi (dövlətə xəyanət), 28.2-ci maddəsi (yalnız ağır və xüsusilə ağır cinayətlərin törədilməsinə yönəlmiş hazırlıq), 180.3.1-ci maddəsi (soyğunçuluq, mütəşəkkil dəstə tərəfindən törədildikdə), 278-ci maddəsi (hakimiyyəti zorla ələ keçirmə və zorla saxlama), 228-ci maddəsi (qanunsuz odlu silah saxlama), 204-cü maddəsi (saxta pul və qiymətli kağızlar hazırlama və ya satma), 234-cü maddəsi (qanunsuz olaraq narkotik vasitələri saxlama və daşıma) və s. maddələrlə ittiham olunaraq, 12-14 il arası azadlıqdan məhrum edildilər.

2007-ci ilin mart ayında vəhşicəsinə edilən işgəncə zamanı Emin Məmmədov adlı məhbus dünyasını dəyişib. Emin Məmmədovun ölümünün səbəbləri barədə tibbi arayış var. Bir neçə ay ərzində Emin Məmmədovun ölümü valideynlərindən və ictimaiyyətdən gizlədilib. Onun ailəsi hüquq müdafiəçilərinə Emin Məmmədovun ölümü





ilə bağlı müraciət edəcəkləri, ictimaiyyət qarşısında öldürülmüş şəxsin taleyi ilə bağlı məsələ qaldıracaqları təqdirdə yeni repressiyalara məruz qalacaqları ilə hədələnib.

Vəkilin məhbus E.Məmmədovun saxlandığı yer barədə verdiyi sorğusuna cavab verən MTN-dən bildiriblər ki, bu adam haqqında heç bir məlumata malik deyillər və guya E.Məmmədov MTN-də heç bir zaman olmayıb. MTN təcridxanasında işgəncələrə məruz qalaraq həyatını itirən E.Məmmədov məhkəmə prosesləri zamanı xatırlanmayıb.

Səid Dadaşbəylinin sözlərinə görə, Emin Məmmədov dindirmə zamanı işgəncələrə dözməyərək ölüb. Emin Məmmədova verilən işgəncələri videoya çəkib digər dəstə üzvlərinə göstəriblər ki, əgər siz bizim yazdığımız iltizamlara qol çəkməsəniz, hamınızı beləcə işgəncə ilə öldürəcəyik.



## Novruzəli Məmmədov

Novruzəli Məmmədov 10 mart 1942-ci ildə Azərbaycanın Astara rayonu, Ərçivan kəndində anadan olub.

1989-1992-ci illərdə Respublika Talış Mədəniyyət Mərkəzinin sədri, 1992 ildən "Tolışi sədo" qəzetində baş redaktor müavini, 2001 ildən qəzetin baş redaktoru və eyni zamanda AMEA Nəsimi adına Dilçilik İnstitutun german-roman dilləri şöbəsinin rəhbəri kimi fəaliyyət göstərib.

Azərbaycan Respublikası Təhsil Nazirliyi milli azlıqların dillərinə üzrə tədris-metodik şurasının və Azərbaycan Respublikası Prezidenti Administrasiyasının yanında milli məsələlər üzrə ictimai şuranın üzvü seçilib.

Novruzəli Məmmədov Azərbaycanın yeganə talışşünas-dialektoloqu olub. Bir sıra kitab, elmi məqalə və dərsliklərin müəllifi idi. Azərbaycan və talış dillərinin münasibətinə həsr edilmiş bir neçə monoqrafiyaların müəllifi olub.



HƏBSXANADA ÖLƏN SİYASİ MƏHBUSLAR

24 iyun 2008-ci ildə Ağır Cinayətlərə Dair İşlər Üzrə Məhkəməsinin hökmü ilə Novruzəli Məmmədovu boş zalda Azərbaycan Respublikası CM-nin 274-cü maddəsilə (dövlətə xəyanət) təqsirli bilinib, əmlakı müsadirə olunmaqla 10 il müddətinə cəzasını ciddi rejimli cəza çəkmə müəssisəsində çəkməklə azadlıqdan məhrum etmə çəzasına məhkum etdi. N.Məmmədovun böyük oğlu Kamran Məmmədov 8 sentyabr 2007-ci ildə ürək tutmasından, balaca oğlu Emil Məmmədov isə 16 aprel 2011-ci ildə dünyasını dəyişib. Hər iki oğlu dəfələrlə oğurlanıb işgəncələrə məruz qalmışdılar. N.Məmmədov 17 avqust 2009-cu ildə Penitensiar Xidmətin Tibb Müəssisəsində müəmmalı şəkildə dünyasını dəyişib.



## Vaqif Abdullayev

İslam Partiyasının sədr müavini Vaqif Abdullayev 7 yanvar 2011-ci ildə həbs edilib. Ona qarşı Cinayət Məcəlləsinin 214.2.1 (qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik tərəfindən cinayətə hazırlıq), 214.2.3 (odlu silahdan və silah qismində istifadə olunan predmetlərdən istifadə etməklə cinayətə hazırlıq), 228.3 (qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı (yivsiz odlu ov silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla), partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmə), 278-ci (hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama) maddələri ilə ittiham irəli sürülüb.

7 oktyabr 2011-ci ildə V.Abdullayev Bakı Ağır Cinayətlər Məhkəməsi tərəfindən 11 il azadlıqdan məhrum edib.

Vaqif Abdullayev uzun müddət bronxial asma xəstəliyindən əziyyət çəkib. Həbsxanada isə xərçəng xəstəliyinə tutulub. Hüquq müdafiə təşkilatları dəfələrlə V.Abdullayevin ağır xəstə olduğunu, onun həbsdən azad edilmədiyi təqdirdə həbsxanada vəfat edəcəyi barədə hökuməti xəbərdar edib. Lakin onların çağırışlarına məhəl qoyulmayıb. 12 iyul 2012-ci ildə V.Abdullayev Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin müalicə müəssisəsində vəfat edib.







## Mehman Qələndərov

7 fevral 2017-ci ildə hakimiyyəti kəskin şəkildə tənqid edən bloger Mehman Qələndərov barəsində üç aylıq həbs-qətimkan tədbiri seçilib. O, Cinayət Məcəlləsinin 234.2-ci maddəsilə (satış məqsədi ilə qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri əldə etmə və ya saxlama, hazırlama, istehsal etmə, emal etmə, daşıma, göndərmə, yaxud qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri satma) ittiham olunub. Həbs günü M.Qələndərov "Facebook" səhifəsində yazmışdı: "Hamımız Qiyas (Heydər Əliyevin abidəsinə şüar yazan Qiyas İbrahimov nəzərdə tutulur. Bundan sonra 10 il azadlıqdan məhrum edilib) kimi olaq. Qul olma!"

Bir saatdan sonra polis əməkdaşları M.Qələndərovun kirayədə yaşadığı mənzilə gələrək onu tutublar. M.Qələndərov Bakı və Tbilisidə hökumət əleyhinə mitinqlərdə iştirak edib.

2016-cı il sentyabrın 26-da Tbilisidə Azərbaycan səfirliyinin qarşısında "Biz kral istəmirik!" şüarı ilə keçirilən aksiyanın təşkilatçılarından biri olub. O, ölkə rəhbərliyinin karikaturalarını çəkərək "Facebook"

səhifəsində dərc edib. 28 aprel 2017-ci ildə M.Qələndərov Bakı İstintaq Təcridxanasında saxlanılarkən müəmmalı şəkildə ölüb. 29 aprel 2017-ci ildə Penitensiar Xidmət bu məlumatın həqiqətə uyğun olmadığını bildirib. Lakin sonra məlumat təqsdiqlənib. 30 aprel 2017-ci ildə Sabunçu Rayon Prokurorluğu faktla bağlı Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlayıb və təcridxananın iki əməkdaşı işdən azad edilib. Hüquq müdafiəçilərinin qənaətinə görə, Qələndərovun ölümündə çoxlu qara məqamlar vardır və onun ölümünün səbəblərinin araşdırılması ilə bağlı hökumət tərəfindən həyata keçirilən tədbirlər yetərli deyildir.







## Elnur Fərəcov

Azərbaycan Xalq Cəbhəsi Partiyasının Neftçala rayon şöbəsinin fəalı Elnur Fərəcov 9 dekabr 2016-cı ildə həbs edilib. Ona qarşı Cinayət Məcəlləsinin 234.2-ci maddəsi (satış məqəsdi ilə qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri əldə etmə və ya saxlama, hazırlama, istehsal etmə, emal etmə, daşıma, göndərmə, yaxud qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri satma) ilə ittiham irəli sürülüb.

E.Fərəcov əvvəllər də dəfələrlə inzibati qaydada müxtəlif müddətə həbs olunub: 2016-cı ilin sentyabr aksiyasından sonra 5 sutka inzibati qaydada həbs edilib. Sosial şəbəkələrdə kifayət qədər fəal olub. Həbsdən sonra işdən azad edilib.

E.Fərəcovun atası Hüseyn Fərəcov Müsavat Partiyasının üzvüdür. Neftçala Rayon Məhkəməsi E. Fərəcovu 2017-ci ildə 3 il azadlıqdan məhrum edilməsi barədə hökm çıxarıb.

2018-ci ilin yanvar ayından E.Fərəcovun səhhətində ciddi problemlər yaranıb. Məhbusun səhhəti həbsxanada ötən il pisləşib. O, Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin Binə qəsəbəsində vərəm xəstələrindən ötrü yaradılan 3 saylı ixtisaslaşmış cəzaçəkmə müəssisəsinə köçürülüb.

Dörd ay orada saxlanılan E.Fərəcovun müalicəsi nəticə verməyib. O, Penitensiar Xidmətin müalicə mərkəzinə köçürülüb. E.Fərəcovun boğazında şiş olduğu müəyyən edilib.

24 may 2018-ci ildə o, Prezidentin Əfv Sərəncamına əsasən azadlığa buraxılıb.

9 avqust 2018-ci ildə E.Fərəcov xərçəng xəstəliyindən vəfat edib.



# Mündəricat

NİCAT ƏLİYEV..............................
ƏBDÜL ƏBİLOV..............................
ÖMƏR MƏMMƏDOV..............................
SEYMUR HƏZİ..............................
XƏDİCƏ İSMAYIL..............................
TOFİQ HƏSƏNLİ..............................
MEHMAN HÜSEYNOV..............................
ƏFQAN SADIQOV..............................
FİKRƏT FƏRƏMƏZOĞLU..............................
ƏFQAN MUXTARLI..............................

**Vətəndaş cəmiyyəti**

ANAR MƏMƏDLİ..............................
İNTİQAM ƏLİYEV..............................
RƏSUL CƏFƏROV..............................
LEYLA VƏ ARİF YUNUSOVLAR..............................

**Siyasilər**

BƏXTİYAR HACIYEV..............................
ARİF HACI..............................
TURAL ABBASLI..............................
YADİGAR SADIQOV..............................
TOFİQ YAQUBLU..............................
ƏDOV..............................

ELVİN ABDULLAYEV........162
ASİF YUSİFLİ........164
QİYAS İBRAHİMOV........167
MƏMMƏD İBRAHİM........176
BAYRAM MƏMMƏDOV........180
FUAD QƏHRƏMANLI........183
ƏLİ İNSANOV........190
FUAD ƏHMƏDLİ........194
GÖZƏL BAYRAMLI........196
ORXAN BAXIŞLI........204

**İnanclı məhbuslar**

TALEH BAĞIRZADƏ........209
ABGÜL SÜLEYMANOV........221

Həbsxanada ölən siyasi məhbuslar........226

**2007-ci ildən sonra vəfat edən siyasi məhbuslar**

Faina Kunqurova........229
Emin Məmmədov........230
Novruzəli Məmmədov........232
Vaqif Abdullayev........234
Mehman Qələndərov........235
Elnur Fərəcov........237

Format 60x90 1/16
Ofset çap üsulu. F.ç.v. 15
Sayı: 500 əd.
"OL" npkt-nin mətbəəsində çap olunub.
AZ 1009 Bakı, Mirzə İbrahimov 43.
Tel: (012) 497-36-23
E-mail: olnpkt@gmail.com